AZƏRBAYCAN RESPUBLİKASININ
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

www.diaspor.gov.az

twitter.com/DiasporaAz facebook.com/AzDiaspora instagram.com/diasporaaz www.diasporamap.com

# 2023-CÜ İL ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ

# DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN

# FƏALİYYƏTİNƏ DAİR

# H E S A B A T

# M Ü N D Ə R İ C A T

## 2023-cü ilin birinci yarımilinə dair hesabat


- Xülasə ....................................................................................................................... 3
- Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ............................................... 4
- Azərbaycan xalqının milli-mədəni irsinin təbliği .................................................................... 37
- Heydər Əliyev-100 ……………………………………………………………………………….. 44
- Milli mədəniyyətin qorunması və Azərbaycanın tarixi və mədəni abidələri, milli-mədəni dəyərlərinin (folklor nümunələri, musiqisi, ədəbiyyat və incəsənət) təbliği ............................ 60
- Lobbiçiliyin inkişafı istiqamətində atılan addımlar ................................................................ 63
- Xaricdə yaşayan azərbaycanlıların inteqrasiyası və ictimai-siyasi fəallığının artırılması ....... 66
- Xaricdəki soydaşlarımızın təşkilatlanması istiqamətində atılan addımlar .............................. 72
- Cari istiqamətlər ………………………………………………………………………………….. 73
- Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra Azərbaycan diasporunun fəaliyyəti ........... 77


## 2023-cü ilin ikinci yarımilinə dair hesabat


- Xülasə ....................................................................................................................... 81
- Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ............................................... 86
- Azərbaycan xalqının milli-mədəni irsinin təbliği .................................................................... 102
- Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi və vəfatının 20-ci ildönümünə həsr olunan tədbirlər ................................................................ 110
- Milli mədəniyyətin qorunması və Azərbaycanın tarixi və mədəni abidələri, milli-mədəni dəyərlərinin (folklor nümunələri, musiqisi, ədəbiyyat və incəsənət) təbliği ............................ 122
- Lobbiçiliyin inkişafı istiqamətində atılan addımlar ................................................................ 140
- Xaricdə yaşayan azərbaycanlıların inteqrasiyası və ictimai-siyasi fəallığının artırılması ....... 150
- Xaricdəki soydaşlarımızın təşkilatlanması istiqamətində atılan addımlar .............................. 167
- Cari istiqamətlər ………………………………………………………………………………….. 177
- Azərbaycan Diasporuna Dəstək Fondunun fəaliyyəti ............................................................ 181

## 2023-CÜ İLİN BİRİNCİ YARIMİLİNƏ DAİR HESABAT

## XÜLASƏ

2023-cü ilin I yarısında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılması, maddi-mənəvi irsin kütləvi təbliği, xaricdə yaşayan azərbaycanlıların yaşadıqları ölkələrdə sivil adaptasiyası və inteqrasiyası, lobbiçiliyin təkamülü və digər istiqamətlərdə müvafiq fəaliyyətini davam etdirib.

Hesabat dövründə Azərbaycan diasporu xüsusi aktiv olub, nümunəvi yekdillik və mütəşəkkillik göstərib.Komitə milli kimliyin qorunması, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyətini davam etdirib, soydaşlarımızın birliyi, azərbaycançılıq ideologiyası ətrafında daha sıx birləşməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirib.

2023-cü ilin I yarısında Komitə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda aktivliyinin təmin olunması, tarixi vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər təşkil edib. Diaspor təşkilatlarından Komitəyə daxil olan məktub və ərizələrə baxılıb və aidiyyəti üzrə cavablar verilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunması haqqında 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq Komitə və xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən 100-dən artıq tədbir, o cümlədən klassik musiqi gecələri və konsertlər təşkil olunub.

Eyni zamanda 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Novruz Bayramı, 28 May – Müstəqillik Günü, 15 İyun – Milli Qurtuluş Günü, 26 İyun – Silahlı Qüvvələr Günü kimi tarixlərdə müxtəlif formatlı tədbirlər həyata keçirilib.

Avstriyanın paytaxtı Vyana şəhərindəki məşhur Heldenplatz meydanında Xocalı soyqırımının 31-ci ildönümü ilə bağlı Ümumavropa Qarabağ Mitinqi keçirilib. Aksiyaya 31 ölkənin 74 şəhərindən gələn 1000 nəfərdən çox soydaşımız, icma üzvləri, diaspor təşkilatlarının təmsilçiləri və ölkəmizə dost münasibəti bəsləyən xalqların nümayəndələri qatılıblar.

Bu il "Heydər Əliyev İli" çərçivəsində Avstriyanın Vyana, Almaniyanın Berlin və Hamburq, İtaliyanın Venesiya, Polşanın Krakov, Estoniyanın Tallinn, Özbəkistanın Daşkənd və Səmərqənd, Koreya Respublikasının Seul, Kanadanın Ottava, Monreal, Kalqari və Edmonton şəhərlərində Azərbaycan icmasının üzvləri ilə görüşlər keçirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq diaspor fəaliyyətinin əlaqələndirilməsi istiqamətində fəaliyyət hesabat dövründə də davam etdirilib. Bu istiqamətdə 2018-ci ilin aprel ayından başlanan işlər əsasında artıq 36 ölkəni əhatə edən xaricdə yaşayan Azərbaycanlıların 15 Koordinasiya Şurası fəaliyyət göstərir.

Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin koordinasiyasında Azərbaycan evləri mühüm yer tutur. Bu il Kanadanın Ontario vilayətinin Toronto şəhərinin Nort York rayonunda Azərbaycan Evinin rəsmi açılış mərasimi keçirilib. Beləliklə, Azərbaycan evlərinin sayı 14 ölkə üzrə 20-yə çatıb.

Ötən dövrdə Ermənistanın Cənubi Qafqaz regionunda həyata keçirdiyi separatçılıq, ekstremizm, özününküləşdirmə siyasəti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizə qarşı erməni diasporu və lobbisi tərəfindən həyata keçirilən kampaniyaların qarşısının alınması, əsgərlərimizin əsir götürülməsi, Ermənistanın mina

terroru, Naxçıvan MR-lə sərhəddə iri metallurgiya zavodu tikməsi və Qarabağa qanunsuz "humanitar yardım" göndərmək cəhdləri ilə əlaqədar xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən bəyanat verilib, beynəlxalq təşkilatlara müraciətlər göndərilib və digər zəruri tədbirlər təşkil olunub.

Türkiyə Cümhuriyyətinin bir neçə vilayətində baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar dünyanın müxtəlif ölkələrindəki Azərbaycan diaspor təşkilatları səfərbər olaraq, zəlzələdən zərər çəkənlər üçün maddi və humanitar yardım toplayıb və qardaş ölkəyə göndərib. Eyni zamanda diaspor fəalları Türkiyənin yaşadıqları ölkələrdəki diplomatik nümayəndəliklərinə gedərək, faciədən kədərləndiklərini və türk xalqı ilə birlikdə olduqlarını bəyan ediblər.

Prezident İlham Əliyevin 22 iyun 2023-cü il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin üç əməkdaşı "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

## AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİN DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRILMASI

- BMT-nin Vyanadakı nümayəndəliyi önündə Azərbaycan ərazisində erməni ekoloji terroruna etiraz əlaməti olaraq dinc aksiya keçirilib. Azərbaycan Akademik Birliyinin və Avstriya-Azərbaycan İş Adamları və Mədəniyyət Dərnəyinin (AZER-DER) birgə təşkilatçılığı ilə baş tutan aksiyada diaspor fəalları Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazisində faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarına etirazlarını bildiriblər. (09.01.2023)
- İspaniyada yaşayan soydaşlarımız Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti dəfə qəbuledilməz addım atmasını hiddətlə pisləyib. "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti" və Barselona Azərbaycan Evi adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda bildirilib ki, söhbət Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhəddə – Yerasx (Arazdəyən) kəndində Ermənistanın iri metallurgiya zavodu inşa etməsindən gedir. (14.06.2023)
- Finlandiyada fəaliyyət göstərən Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti yolverilməz addım atmasını sərt şəkildə pisləyib. Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Finlandiyadakı nümayəndəliyi və "Azər-Türk" Gənclər Təşkilatı adından beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanatda bildirilib ki, soydaşlarımız Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhəddə – Yerasx (Arazdəyən) kəndində Ermənistanın iri metallurgiya zavodunun inşası aparmasına görə dərin narahatlıq keçirir.
- Avstriyada yaşayan icmamız Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti yolverilməz addıma kəskin etirazını bildirib. Avstriya Azərbaycanlıları Cəmiyyəti və "AZERİ-DER" Azərbaycan-Türk Kültür və İş Adamları Dərnəyi adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatlarda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhəddə – Yerasx (Arazdəyən) kəndində Ermənistanın 16 500 kvadratmetr sahədə illik istehsal gücü 180 min ton olan iri metallurgiya zavodu tikməsinə diqqət cəlb edilib.
- Stokholm şəhərində fəaliyyət göstərən İsveç-Azərbaycan Birliyi (SAF) ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti yolverilməz addım atmasını sərt şəkildə pisləyib. Birliyin adından ətraf mühitin mühafizəsi üzrə yerli və beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda bildirilib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhəddə – Yerasx (Arazdəyən) kəndində Ermənistanın iri metallurgiya zavodu tikməsinə görə Azərbaycan əsilli isveçlilər dərin narahatlıq keçirir.

- Benilüks Azərbaycanlıları Konqresi adından Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti ekoloji təxribata səbəb olmasına etiraz olaraq Avropa Parlamentinə, ətraf mühitin mühafizəsi üzrə yerli və beynəlxalq təşkilatlara bəyanat ünvanlanıb.
- "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyi adından Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti ekoloji təxribata səbəb olmasına etiraz olaraq Avropa Parlamentinə, ətraf mühitin mühafizəsi üzrə yerli və beynəlxalq təşkilatlara bəyanat ünvanlanıb.
- "Beynəlxalq Qadınlar Klubu" adından Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti ekoloji təxribata səbəb olmasına etiraz olaraq Avropa Parlamentinə, ətraf mühitin mühafizəsi üzrə yerli və beynəlxalq təşkilatlara bəyanat ünvanlanıb.
- Brüssel Azərbaycan Evi adından Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti ekoloji təxribata səbəb olmasına etiraz olaraq Avropa Parlamentinə, ətraf mühitin mühafizəsi üzrə yerli və beynəlxalq təşkilatlara bəyanat ünvanlanıb.
- Belçika-Niderland Azərbaycanlıları Koordinasiya Şurası adından Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində növbəti ekoloji təxribata səbəb olmasına etiraz olaraq Avropa Parlamentinə, ətraf mühitin mühafizəsi üzrə yerli və beynəlxalq təşkilatlara bəyanat ünvanlanıb.
- Avstriyada fəaliyyət göstən Azərbaycan icması ölkəmizin İran İslam Respublikasındakı Səfirliyinin təhlükəsizlik xidmətinin rəhbəri Orxan Əsgərovun qətli və diplomatik missiyamızın iki əməkdaşının yaralanması ilə nəticələnən xain silahlı hücumu hiddətlə pisləyib. Azərbaycan Akademik Birliyi, Avstriya Azərbaycanlıları Cəmiyyəti və Zalsburq Azərbaycan Evinin yaydıqları bəyanatlarda İranda heç bir diplomatik nümayəndəliyin, eləcə də heç bir insanın toxunulmazlığına zəmanətin olmamasından dərin narahatlıq ifadə edilib.
- İsveçdə yaşayan "Tribun" jurnalı və saytının baş redaktoru, əslən Cənubi Azərbaycandan olan siyasi icmalçı, yazıçı Əlirza Ərdəbili ölkəmizin İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilən və səfirliyin bir əməkdaşının ölümü, 2 nəfərin yaralanması ilə nəticələnən terror aktına münasibət bildirib.
- Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə edilmiş silahlı hücum Barselonadakı Azərbaycan icmasını hiddətləndirib. Barselona Azərbaycanlıları Cəmiyyətinin, Barselona Azərbaycan Evinin yaydığı bəyanatda ölkəmizin İran İslam Respublikasındakı Səfirliyinin təhlükəsizlik xidmətinin rəisi Orxan Əsgərovun qətli və diplomatik missiyamızın iki əməkdaşının yaralanması ilə nəticələnən terror aktı pislənilib.
- Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş silahlı hücum İsveç Krallığında yaşayan soydaşlarımızda hiddət doğurub. "Azərbaycan Naminə" Cəmiyyətinin, Stokholmdakı "Qarabağ" Azərbaycan Mədəniyyət Mərkəzinin, "Qobustan" İsveç Aydınlar Ocağının və "SAF" İsveç-Azərbaycan Mədəniyyət Mərkəzinin yaydıqları bəyanatlarda diplomatik missiyamızın təhlükəsizlik xidməti rəisinin qətli, iki əməkdaşının yaralanması ilə nəticələnən terror aktına görə dərin narahatlıq ifadə edilib.
- Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə edilmiş silahlı hücum Norveçdə yaşayan soydaşlarımızın hiddət və qəzəbinə səbəb olub. "Oslo Azərbaycan Evi"nin, Norveç Azərbaycanlıları Gənclər Birliyinin (NAYO) və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveçdəki koordinatorluğunun yaydığı bəyanatlarda Səfirliyimizin təhlükəsizlik xidmətinin rəisi Orxan Əsgərovun qətli, iki əməkdaşının isə yaralanması ilə nəticələnən terror aktı qətiyyətlə pislənib.

- Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə edilmiş silahlı hücum İslandiyada yaşayan soydaşlarımızı qəzəbləndirib. İslandiya-Azərbaycan Cəmiyyətinin yaydığı bəyanatda İranda diplomatik nümayəndəliklərin, eləcə də insanların toxunulmazlığına zəmanətin olmamasına diqqət cəlb edilib.
- Litvanın Klaypeda şəhərində fəaliyyət göstərən "Azəris" Azərbaycan Cəmiyyəti yaydığı bəyanatda Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyində törədilmiş terror aktının İranın xüsusi xidmət orqanları tərəfindən törədilməsinə şübhə etmədiyini bildirib.
- Rumıniyada Azərbaycanın Dostları Assosiasiyasının və Şərqi Avropa Azərbaycanlıları Koordinasiya Şurasının Rumıniya üzrə koordinatorluğunun yaydığı bəyanatda İran İslam Respublikasındakı Səfirliyimizin təhlükəsizlik xidmətinin rəisi Orxan Əsgərovun qətli, iki əməkdaşının yaralanması ilə nəticələnən terror aktına görə dərin narahatlıq ifadə edilib.
- Helsinki Azərbaycan Evinin, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Finlandiya üzrə nümayəndəliyinin və "Azər-Türk" Gənclər Təşkilatının yaydığı bəyanatda ölkəmizin İran İslam Respublikasındakı Səfirliyinin təhlükəsizlik xidmətinin rəisi Orxan Əsgərovun qətli və iki əməkdaşının yaralanması ilə nəticələnən terror aktı pislənilib.
- Fransada fəaliyyət göstərən Fransa-Azərbaycan Dialoqu Assosiasiyası və Azərbaycan Mədəniyyət Assosiasiyası ölkəmizin İran İslam Respublikasındakı Səfirliyinə edilmiş silahlı hücumu pisləyib.
- İsveçrə Azərbaycanlılarının Koordinasiya Şurasının və İsveçrə Azərbaycanlıları Dostluq, Mədəniyyət və Həmrəylik Assosiasiyasının yaydığı bəyanatlarda ölkəmizin İran İslam Respublikasındakı Səfirliyinin təhlükəsizlik xidmətinin rəisi Orxan Əsgərovun qətli və diplomatik missiyamızın iki əməkdaşının yaralanması ilə nəticələnən terror aktı pislənilib.
- Avstraliya İttifaqında fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyası, Avstraliya-Azərbaycan Mədəniyyət Assosiasiyası, Kvinslenddə Azərbaycanın Milli Assosiasiyası, Kvinslend Azərbaycanlıları Cəmiyyəti, Viktoriya Azərbaycanlılarının Mədəniyyət Assosiasiyası və Viktoriya-Azərbaycan "Varlıq" Qrupu Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə edilmiş silahlı hücumla bağlı Birləşmiş Millətlər Təşkilatına, Avstraliya İttifaqının Xarici İşlər Nazirliyinə, Avstraliyanın İmiqrasiya, Vətəndaşlıq və Multikulturalizm Nazirliyinə, Avstraliya Parlamentinə, Avstraliya Yəhudi Assosiasiyasına, eləcə də "Sky News", "ABC News" telekanallarına bəyanatlar göndərib.
- Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu və həmin Fondun nəzdindəki Azərbaycan Evi, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF), Manisa Azərbaycan Kültür və Həmrəylik Dərnəyi, İğdır-Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyi və İğdır Azərbaycan Evi, Əskişəhər Azərbaycanlılar Dərnəyi, Azərbaycan Təhsil və Kültür Dərnəyi, Antalya Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Təbriz Araşdırmalar İnstitutu və "Varlıq" Jurnalının redaksiyası, Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyi, Türkiyə Azərbaycan Dostluq Dərnəkləri Federasiyası (TADDEF), Girəsun Azərbaycanlılar Dərnəyi, Güney Azərbaycan Kültür Mərkəzi, Derince Azerbaycan Evi Dərnəyi, Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin yaydıqları bəyanatlarda İrandakı Səfirliyimizdə törədilən terror aktı şiddətlə pislənib.
- Güney Azərbaycan Kültür Mərkəzinin təşkilatçılığı ilə Türkiyənin İzmir şəhərinin Alsancak Kıbrıs Şəhidləri küçəsində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə edilmiş silahlı hücumla bağlı etiraz aksiyası keçirilib.
- Münhen Azərbaycanlıları Mədəniyyət Mərkəzi, Münhen Azərbaycan Evi, Alman-Azərbaycan Dostluq Mərkəzi və Alman-Azərbaycan Dostluq Körpüsünün yaydığı

bəyanatlarda İrandakı Səfirliyimizin təhlükəsizlik xidmətinin rəisi Orxan Əsgərovun qətli, iki əməkdaşının yaralanması ilə nəticələnən terror aktı sərt şəkildə pislənib.

- Yanvar ayı ərzində Misir, Əlcəzair, Səudiyyə Ərəbistanı, İordaniya, İraq, Sudan, Livan və digər ərəb ölkələrindən olmaqla 23 kütləvi informasiya vasitəsində ölkəmizin İrandakı Səfirliyinə silahlı hücumla bağlı Azərbaycan icmasının bəyanatı yayılıb.
- Stokholmda fəaliyyət göstərən “SAF” İsveç-Azərbaycan Birliyi Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsini qətiyyətlə pisləyib. Birliyin adından İsveç ictimaiyyətinə və beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda Azərbaycan Ordusunun əsgərləri – 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlunun və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğluna qarşı qeyri-insani rəftara diqqət cəlb edilib.
- İslandiyada fəaliyyət göstərən “Azəri” Azərbaycan-İslandiya Cəmiyyətinin İslandiya ictimaiyyətinə və beynəlxalq təşkilatlara ünvanlanan bəyanatında Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan Ordusunun əsgərləri – 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlunun və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun Ermənistana əsir düşməsi səbəblərinə aydınlıq gətirilib.
- Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının adından beynəlxalq təşkilatlara Ermənistan tərəfindən əsir götürülmüş azərbaycanlı hərbçilərə işgəncə verilməsinə etiraz bəyanatı ünvanlanıb.
- Fransada fəaliyyət göstərən Fransada Azərbaycan Mədəniyyəti Assosiasiyası adından beynəlxalq təşkilatlara Ermənistan tərəfindən əsir götürülmüş azərbaycanlı hərbçilərə işgəncə verilməsinə etiraz bəyanatı ünvanlanıb.
- Benilüks Azərbaycanlılar Konqresi, “Ana Vətən” Avropa Azərbaycanlı Qadınlar Birliyi, Niderland-Azərbaycan “Odlar Yurdu” Cəmiyyəti, “Azerbaijan Ladies Club” və Hollanda Azərbaycan-Türk Kültür Dərnəyi adından Niderland ictimaiyyətinə və beynəlxalq təşkilatlara Ermənistan tərəfindən əsir götürülmüş azərbaycanlı hərbçilərə işgəncə verilməsinə etiraz bəyanatı ünvanlanıb.
- Belçikada fəaliyyət göstərən Brüssel Azərbaycan Evi adından yerli ictimaiyyətə və beynəlxalq təşkilatlara Ermənistan tərəfindən əsir götürülmüş azərbaycanlı hərbçilərə işgəncə verilməsinə etiraz bəyanatı ünvanlanıb.
- 16 aprel tarixində Avstraliya Azərbaycanlıları Assosiasiyası, Avstraliya-Azərbaycan Türk Dostluq Birliyi, Kvinslenddə Azərbaycanın Milli Assosiasiyası, Viktoriya-Azərbaycan Mədəniyyət Mərkəzi adından Avstraliyanın xarici işlər naziri Penni Vonqa, İnsan haqları komissarı Lorreyn Finlaya, Viktoriya liberallarının lideri Con Pesuttoya və digər beynəlxalq təşkilatlara Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı ilə bağlı məktublar ünvanlanıb.
- Səudiyyə Ərəbistanı, Əlcəzair, Misir, İordaniya, Suriya, Mərakeş, İraq, Suriya və Sudan mətbuatında Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı geniş işıqlandırılıb.
- Yeni Zelandiyada fəaliyyət göstərən “Azəri” Yeni-Zelandiya-Azərbaycan Dostluq Cəmiyyəti Yeni Zelandiya parlamentinin üzvlərinə və media mənsublarına Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı ilə bağlı məktub göndərib.
- 17 aprel tarixində Yaponiyanın https://az.ajmedia.jp xəbər portalında Tokioda fəaliyyət göstərən Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin Ermənistan tərəfindən törədilmiş iki təxribatı qətiyyətlə pisləməsi barədə məlumat verilib.

**Azərbaycanın məruz qaldığı haqsızlıqlar, Ermənistanın işğalçılıq siyasətinin nəticələri, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş terror və soyqırımı aktları barədə məlumatın dünya ictimaiyyətinə çatdırılması, eyni zamanda qondarma" erməni soyqırımı" iddialarının ifşası**

- Niderlandın Azərbaycan icması Almelo şəhərindəki "Hof 88" teatrında ermənilərin "45 gün: millət uğrunda mübarizə" sənədli filminin nümayişinin qarşısını alıb. Bu məqsədlə soydaşlarımız tərəfindən etiraz kampaniyasına başlanılaraq bir həftə ərzində "Hof 88" teatrının elektron poçtuna məktublar göndərilib. Nəticə olaraq teatr rəhbərliyi sənədli filmin afişasını https://www.hof88.nl/ saytının elanlar hissəsindən çıxarıb və filmin məzmununun nəzərə alınmadan nümayiş planına salınmasına görə Azərbaycan icmasından üzr istəyib.
- Niderlandın Haaqa şəhərində Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimova həsr olunmuş "Əfsanəvi General" kitabının təqdimat mərasimi keçirilib. Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin və Azərbaycanın Niderlanddakı Səfirliyinin dəstəyi, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının və şuraya üzv olan "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin təşkilatçılığı ilə baş tutan mərasimdə Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və fəalları, türk icmasının nümayəndələri iştirak ediblər. Bədii proqramla davam edən tədbirdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Vüsalə Cabir, Cavid Səlimov (tar), Azərbaycanın əməkdar artisti Xəyyam Məmmədov (kamança), İlkin Əlizadə (piano) və Bəxtiyar Eybaliyev çıxış ediblər.
- Parisin "Les 7 Parnassisens" kinoteatrında "Heydər Əliyev İli" çərçivəsində Azərbaycanın "Sonsuz Dəhliz" sənədli filminin nümayişi və fransalı vəkil Jan Emmanuel Medinanın "Sivilizasiyaların toqquşmasından sonra panantropik yaxınlaşma" kitabının təqdimatı keçirilib.  Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Fransada Azərbaycanın Dostları Assosiasiyasının (ADA) təşkilatçılığı ilə baş tutan tədbirdə tanınmış fransalı fotojurnalist Reza Deqati, Azərbaycanın Fransadakı Səfirliyinin siyasi məsələlər üzrə müşaviri Nigar Hüseynova,Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin 2-ci ərazi  şöbəsi müdirinin müavini Orxan Kərimov, diplomatik korpusun, yerli ictimaiyyətin nümayəndələri, filmin prodüserləri, elm xadimləri, media mənsubları və soydaşlarımız iştirak ediblər.
- Benilüks Azərbaycanlılar Konqresi, "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyi, Niderland-Azərbaycan "Odlar Yurdu" Cəmiyyəti, "Azerbaijan Ladies Club" və Hollanda Azərbaycan-Türk Kültür Dərnəyi adından Niderland və Avropa parlamentlərinə, eləcə də Beynəlxalq Ağır Atletika Federasiyasına, Avropa Ağır Atletika Federasiyasına və Beynəlxalq Olimpiya Komitəsinə İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılmasına etiraz bəyanatı ünvanlanıb.
- Fransa Azərbaycanlıları Koordinasiya Şurasının və Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurası adından Avropa Parlamentinə, eləcə də Beynəlxalq Ağır Atletika Federasiyasına, Avropa Ağır Atletika Federasiyasına və Beynəlxalq Olimpiya Komitəsinə İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılmasına etiraz bəyanatı ünvanlanıb.
- Niderlandın Haaqa şəhərində yerləşən Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycanın Ermənistana qarşı hüquqi təqib təşəbbüsləri üzrə ictimai dinləmələr keçirilib. Coan Donoqyunun hakimliyi ilə iki gün davam edən dinləmələr zamanı Niderland Krallığındakı Azərbaycan  diaspor təşkilatlarının təmsilçiləri ölkəmizin haqlı mövqeyini dəstəkləmək

üçün Haaqa Ədalət Sarayının qarşısına toplaşıblar. Dinləmələrdən sonra məhkəmədə Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri diaspor fəallarımızla görüşüb və onlara təşəkkürünü bildirib.

- İsveçin paytaxtı Stokholmda yaşayan və fəaliyyət göstərən azərbaycanlı yazıçı, Azərbaycan diasporunun fəal üzvü Eluca Atalının yerli ictimaiyyətin nümayəndələri ilə görüşü keçirilib. Görüş İsveç-Azərbaycan Dərnəyinin (“SAF”) və Stokholm bələdiyyəsinin (Folk Huset) birgə əməkdaşlığı nəticəsində gerçəkləşdirilib.
- 29 yanvar tarixində “Australian Open-2023” tennis yarışı zamanı Karen Kaçanovun video kameranın ekranına erməni separatçılarını möhkəm olmağa səsləyən yazı yazması Avstraliya İttifaqında yaşayan soydaşlarımız tərəfindən hiddətlə qarşılanıb. Avstraliya Azərbaycanlıları Assosiasiyası, Azərbaycan-Avstraliya-Türkiyə Dostluq Assosiasiyası, Avstraliya-Azərbaycan Mədəniyyət Assosiasiyası və Kvinslend Azərbaycanlıları Cəmiyyəti “Australian Open–2023” tennis yarışının rəsmi internet səhifəsinə, Avstraliyanın Tennis Federasiyasına və nüfuzlu telekanallara çoxsaylı məktublar ünvanlayaraq, bu yolverilməz olaya öz etirazlarını bildiriblər.
- 5 fevral tarixində Yaponiyanın Hirosima şəhərində "Hijiyama" orta məktəbi rəhbərliyinin, tarix və coğrafiya müəlliminin xüsusi dəvəti ilə 8-9-cu siniflərin 70 şagirdi qarşısında diaspor fəalı Nemət Mirzənin Azərbaycan həqiqətlərinə dair təqdimatı keçirilib.
- Azərbaycan-Yaponiya Dostluq Mərkəzi Avropa Ağır Atletika Federasiyasını Ermənistana qarşı sanksiyalar tətbiq etməyə çağırıb.
- 18 aprel tarixində Avstraliyada fəaliyyət göstərən Kvinslenddə Azərbaycanın Milli Assosiasiyası və Viktoriya-Azərbaycan Mədəniyyət Mərkəzi Avstraliyanın idman naziri Anika Uells, Avstraliya Ağır Atletika Federasiyasının baş icraçı direktoru Yan Moyr və Viktoriya liberallarının lideri Con Pesuttoya Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması ilə bağlı məktub ünvanlayıb.
- Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) fəaliyyət göstərən Azərbaycan icması və Ərəb Ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının BƏƏ-dəki koordinatoru Nuranə Hüseynova Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) prezidenti Mohammed Caluda məktubla müraciət edib. Məktubda Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması faktına diqqət cəlb olunub və BƏƏ-də yaşayan soydaşlarımızın dərin narahatlığı ifadə edilib.
- 19 aprel tarixində Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) və üzv dərnəklər, Manisa Azərbaycan Evi Kültür Dərnəyi, Manisa Azərbaycan Kültür və Həmrəylik Dərnəyi, Bilecik Azərbaycan Qardaşlıq Dərnəyi, İğdır-Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyi, İğdır Azərbaycan Evi, Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası, İğdır Azərbaycav Evi Dərnəyi, Araz Təbiət İdmanları və Mədəniyyət Klubu Dərnəyi, Giresun Azərbaycanlılar Dərnəyi, İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyi, Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyi, Azərbaycan-Kipr Dostluq Cəmiyyəti Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı ilə bağlı beynəlxalq təşkilatlara müraciətlər ediblər.
- Aprel ayı ərzində Küveytin https://bobiannews.net xəbər saytında bu ölkədə fəaliyyət göstərən Azərbaycan diasporunun Ermənistanın son təxribatlarına kəskin etiraz etdiyi barədə məlumat verilib. “Vətənsevər” Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyəti adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatlarda Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi və İrəvanda

keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması kimi vandalizm aktları hiddətlə pislənilib.

- 4 may tarixində Livanın https://nn-lb.com/ xəbər saytında Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərində yaranmış mina problemindən bəhs edən məqalə yerləşdirilib.
- 14 iyun tarixində Avstraliya Azərbaycanlıları Assosiasiyası adından Avstraliyanın xarici işlər naziri Penni Vonqa ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti qəbuledilməz addımı barədə məktub ünvanlanıb.
- 19 iyun tarixində Azərbaycan-Yaponiya Dostluq Mərkəzi ölkəmizlə sərhəddə ekoloji durumun gərginləşdirilməsi istiqamətində Ermənistanın atdığı növbəti yolverilməz addımla bağlı Yaponiya ictimaiyyətinə və beynəlxalq təşkilatlara müraciət edib.
- İyun ayında Misir, Səudiyyə Ərəbistanı, Livan, İraq, İordaniya, Əlcəzair, Suriya mətbuatında ərəb ölkələrində yaşayan Azərbaycan icmasının Ermənistanın Azərbaycanla sərhəddə metallurgiya zavodu tikməsini kəskin şəkildə pislədiyinə dair bəyanatla çıxış etdiyi ilə bağlı məlumat yayımlanıb.
- Gürcüstanda yaşayan soydaşlarımız Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsini qətiyyətlə pisləyiblər. “Alyans” Gənclər Birliyi, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi, “Qanun” Hüquq Yardım Mərkəzi, “Qafqaz” Hüquq və İnteqrasiya Mərkəzi, “Borçalı İrəli” İctimai Birliyi və Dmanisi Gənclər Mərkəzi bununla əlaqədar Gürcüstan parlamentinə, bu ölkədə yerləşən beynəlxalq təşkilatların nümayəndəliklərinə və səfirliklərə bəyanat ünvanlayıb.
- Qazaxıstanın Aktau şəhərində “Aprel döyüşləri – xalqımızın qəhrəmanlıq salnaməsi” mövzusunda anım tədbiri keçirilib. Azərbaycanın Aktaudakı Baş konsulluğunda gerçəkləşdirilən tədbirdə Türkiyənin Baş Konsulluğunun əməkdaşları, Mangistau vilayətinin yerli qurumlarının, ictimaiyyətinin və KİV-lərinin nümayəndələri, diasporumuzun rəhbərləri, Azərbaycan və müxtəlif icmaların üzvlərindən ibarət 100-dən çox qonaq iştirak edib.
- Özbəkistanın nüfuzlu xəbər saytlarında Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi ekoloji terrordan və Xankəndi-Laçın yolunda azərbaycanlı ekofəalların keçirdiyi etiraz aksiyasından bəhs edən silsilə məqalələr yayımlanıb.
- Özbəkistanda yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti qəbuledilməz addımla bağlı beynəlxalq təşkilatlara müraciət edib. Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzi adından BMT-nin Baş katibi Antonio Qutereşə, Avropa Birliyinə, Avropa Parlamentinə, ATƏT, AŞPA və digər mötəbər təşkilatlara bəyanat ünvanlanıb.
- Qırğızıstanın paytaxtı Bişkekdə fəaliyyət göstərən “Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlılar Birliyi” ictimai təşkilatı Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti qəbuledilməz addımı hiddətlə pisləyib.
- Qırğızıstanın paytaxtı Bişkekdə fəaliyyyət göstərən “Azəri” İctimai Birliyi Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsini hiddətlə pisləyib.
- 2023-cü ilin mart ayında BMT-nin 52-ci İnsan Haqları Şurasının ümümi müzakirələr sessiyasına işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı; ekosistemin bərpası və suyun keyfiyyətinin yaxşılaşdırılması; işğaldan azad olunmuş ərazilərin Ermənistan silahlı qüvvələri tərəfindən minalanması prosesinin davam etdirilməsi məsələsinin Hüquq və İnkişaf üzrə Beynəlxalq İnstitut tərəfindən gündəmə gətirilməsi məsələləri üzrə yazılı və şifahi bəyanatlar qəbul olunmuşdur.

**20 Yanvar faciəsi, Xocalı soyqırımı və 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması istiqamətində Azərbaycan diaspor təşkilatları tərəfindən 2023-cü ilin ilk yarımili ərzində ümumilikdə dünyanın 44 ölkəsində 113 tədbir, aksiya, konfrans və dəyirmi masa təşkil olunub**

## 20 YANVAR FACİƏSİNİN 33-Cİ İLDÖNÜMÜ

- Rusiyanın Çelyabinsk şəhərində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. “Azərbaycan” sosial-hüquqi ictimai təşkilatı tərəfindən təşkil olunmuş tədbirdə 20 Yanvar hadisələrindən bəhs edən sənədli film nümayiş etdirilib.
- Rusiyada “Sankt-Peterburq və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti” şəhər ictimai təşkilatı tərəfindən təşkil edilən tədbir Lensovet adına Mədəniyyət Mərkəzində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbirdə Azərbaycan diasporunun, yerli ictimaiyyətin və 20-dən çox icmanın nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində 20 Yanvar hadisələrini əks etdirən sərgi təşkil edilib.
- Rusiyanın Orenburq, Kirov vilayətlərində və Perm diyarında 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar anım tədbirləri keçirilib. Tədbirlərdə “Orenburq Azərbaycan diasporu” regional ictimai təşkilatının sədri İlkin Paşayev, Kirov şəhərindəki “Birlik” Azərbaycan Mədəniyyət Mərkəzi regional ictimai təşkilatının sədri Osman Alıyev və Solikamsk şəhərindəki Azərbaycan diasporunun sədri Uğur Əfəndiyev çıxış ediblər.
- Rusiya Federasiyasının Perm, Stavropol vilayətlərində və Dağıstan Respublikasında 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib.
- Stavropol diyarının Pyatiqorsk və Kislovodsk şəhərlərində 20 Yanvar şəhidlərini anım tədbirləri keçirilib.
- Dağıstan Respublikasının paytaxtı Mahaçqalada Mahaçqala Azərbaycanlılrının Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə baş tutan anım tədbirində SSRİ hərbi-siyasi rəhbərliyinin yanlış siyasəti nəticəsində Bakıda törədilmiş qanlı qırğın pislənilib.
- Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən Azərbaycan Humanitar Əməkdaşlıq Mərkəzində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anımtədbiri keçirilib.
- Moldovanın paytaxtı Kişinyovda fəaliyyət göstərən Moldova Azərbaycanlıları Konqresinin nəzdindəki Azərbaycan həftəsonu məktəbinin növbəti dərsi 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr olunub.
- Finlandiyanın paytaxtı Helsinkidə fəaliyyət göstərən Azərbaycan Evində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbir çərçivəsində “20 Yanvar… Unutmadıq!” adlı anım guşəsi təşkil edilib.
- İsveçin Yöteborq şəhərində “Azərbaycan Evi” birliyinin və “Qarabağ Azadlıq Mərkəzi”nin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Sonra 20 Yanvar hadisələrindən bəhs edən qısametrajlı film nümayiş etdirilib.
- Macarıstanın paytaxtı Budapeştdə fəaliyyət göstərən Azərbaycan Evində 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbirin birinci hissəsində gənc soydaşımız Nazim Musabəylinin ssenari müəllifi və rejissoru olduğu “Partlayışa az

qalmış...” adlı kiçik həcmli tamaşa nümayiş etdirilib. Müəllifin Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadənin “Şəhidlər” poemasından ilhamlanaraq qələmə aldığı əsərdə sovet ordusunun Bakıya girməsinə az qalmış, 19 yanvar axşamı bir mənzildə yaşananlardan bəhs edilib. Tədbirin ikinci hissəsində Macarıstanda yaşayan soydaşımız Elnur Namazovun ifasında şəhidlərimizə həsr olunmuş mahnılar səsləndirilib və 20 Yanvar hadisələrindən bəhs edən “Mən qardaşımı axtarıram” adlı qısametrajlı film nümayiş olunub.

- Niderland Krallığının Haaqa şəhərində Hollanda Azərbaycan-Türk Kültür Dərnəyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib, 20 Yanvar faciəsinə həsr olunmuş sənədli film nümayiş etdirilib.
- Fransanın paytaxtı Parisdə 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar anım tədbiri keçirilib. Azərbaycanın Fransadakı Səfirliyinin və Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının (ADFA) birgə təşkilatçılığı ilə Parisdəki Mədəniyyət Mərkəzində baş tutan tədbir 20 Yanvar faciəsindən bəhs edən qısa sənədli filmin nümayişi və klassik musiqi proqramının təqdim olunması ilə davam edib. Tədbir çərçivəsində fotojurnalist Maya Bağırovanın 20 Yanvar şəhidlərinə həsr olunmuş fotosərgisi nümayiş etdirilib.
- Belçikanın paytaxtı Brüsseldə fəaliyyət göstərən Azərbaycan Evində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım guşəsi yaradılıb.
- Niderland Krallığının Rotterdam şəhərində Benilüks Azərbaycanlıları Konqresinin (BAK) təşkilatçılığı ilə “Qarabağ” idman klubunun ofisində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Fransanın Nant şəhərində fəaliyyət göstərən “Qarabağ” həftəsonu Azərbaycan məktəbindəki növbəti dərsin mövzusu 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr olunub.
- İsrailin Afula şəhərində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar israilli jurnalist David Konun “Qarabağ tələsi” adlı kitabının təqdimat mərasimi keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə dərc edilmiş və “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə baş tutan tədbirdə Afula şəhərinin vitse-meri Boris Yudis, şəhər şurasının üzvü Gennadi Kipnis, bələdiyyənin əməkdaşları və Azərbaycan diasporunun fəalları iştirak ediblər.
- Amerika-Azərbaycan İnteqrasiya Mərkəzi (USACI) ABŞ-ın https://texas.statenews.net xəbər saytında “20 Yanvar – Qorbaçovun qanlı layihəsi” sərlövhəli məqalə yayımlayıb.
- ABŞ-ın Minnesota ştatında fəaliyyət göstərən Minnesota Azərbaycan Assosiasiyası 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar “Qara Yanvarı xatırlayırıq” mövzusunda videoçarx hazırlayıb.
- Kanadanın Toronto şəhər təhsil mərkəzinin xarici dillər bölməsinin Azərbaycan dili sinfinin növbəti dərsi 20 Yanvar faciəsinə həsr olunub.
- Londonda 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar keçirilən anım mərasimində britaniyalı jurnalist Nil Vatson ilk dəfə qəhrəman Azərbaycan xalqı haqqında 1990-cı ilin yanvarında BBC-nin yayımladığı geniş reportaj vasitəsilə xəbər tutduğunu bildirib.
- London şəhərinin Parlament Meydanında Britaniya Azərbaycanlıları Koordinasiya Şurasının təşkilatçılığı ilə hazırda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazisində faydalı qazıntı yataqlarının Ermənistan tərəfindən qeyri-qanuni istismarına etiraz əlaməti olaraq dinc aksiya keçirilib.

- Yuta Azərbaycan Dostluq Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə şəhərin Dauntaun ərazisindəki “City Creek Center” ticarət mərkəzində, Məbəd meydanındakı Solt Leyk kilsəsində, Genealoji tədqiqat mərkəzində və “City Central” adlandırılan şəhər mərkəzində 20 Yanvar faciəsindən bəhs edən broşürlər paylanıb. Bundan başqa, dayanacaqlarda və elan sütunlarında 20 Yanvar barədə qısa məlumatları əks etdirən vərəqlər yapışdırılıb.
- Ottava şəhərində fəaliyyət göstərən “Qarabağ Azərbaycan dili” sinfində növbəti dərs 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr olunub.
- 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Türkiyənin müxtəlif şəhərlərində – 18 yanvar tarixində Əskişəhər Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə Əskişəhərdə, 19 yanvar tarixində Manisa-Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin təşkilatçılığı ilə Manisada və Konya Azərbaycanlı Tələbələr Birliyinin təşkilatçılığı ilə Konyada, Türkiyə Azərbaycan Dostluq Dərnəkləri Federasiyası, İğdır Azərbaycan Evi Dərnəyi və İğdır Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə İğdırda, 20 yanvar tarixində Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin təşkilatçılığı və Bornova Bələdiyyəsinin dəstəyi ilə İzmirdə, İğdır Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyi və İğdır Azərbaycan Evinin təşkilatçılığı ilə İğdırda, “Araz” Açıq Hava İdmanları və Mədəniyyət Dərnəyi (“Araz-Der”) ilə Ülkü Ocaqları İğdır şöbəsinin təşkilatçılığı ilə İğdırda, Giresun Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə Giresunda tədbirlər təşkil olunub.
- Türkiyənin https://www.gazetekars.com xəbər portalında “20 Yanvar “Qara” deyil, qızıl hərflərlə yazılan tariximizdir!” sərlövhəli məqalə yayımlanıb. Məqaləni Qars şəhərindəki Qafqaz Universitetinin Qafqaz və Mərkəzi Asiya Araşdırma Mərkəzinin müdiri, Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif olunmuş professor Hacalı Nəcəfoğlu qələmə alıb.
- Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Şimali Kipr Türk Respublikasında 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.
- Pakistanın “Daily Orient Express” xəbər portalında 20 Yanvar faciəsi ilə bağlı Pakistanda yaşayan Azərbaycan icmasının fəal üzvü Şəhla İsayeva “Qanlı Yanvar” sərlövhəli məqalə dərc etdirib.
- Yanvar ayı ərzində Misir, Əlcəzair, Səudiyyə Ərəbistanı, İordaniya, İraq, Sudan, Livan və digər ərəb ölkələrinin 27 kütləvi informasiya vasitəsində 20 Yanvar faciəsi ilə bağlı “20 Yanvar qurbanları indiyədək ədalət axtarır” sərlövhəli məqalə yayımlanıb. Məqaləni Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Ərəb ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Misirdəki əlaqələndiricisi, Dr. Seymur Nəsirov qələmə alıb.
- Gürcüstanın Marneuli və Dmanisi rayonlarında fəaliyyət göstərən Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində (GAİM) və Dmanisi Tədris Mərkəzində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım mərasimləri keçirilib.
- Gürcüstanda tədris prosesini həyata keçirən “Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi”, Gürcüstan Azərbaycanlıları İnteqrasiya Mərkəzi və “Alyans” Gənclər Mərkəzində növbəti dərslər 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr edilib. Dərslərdə 20 Yanvar hadisələrini əks etdirən sənədli filmlər və videosüjetlər göstərilib. “Alyans” Gənclər Mərkəzində 20 Yanvar hadisələrini əks etdirən fotosərgi nümayiş etdirilib.

- 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə bağlı olaraq Qazaxıstanın Ş.Yesenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universiteti nəzdindəki Azərbaycan Mərkəzində, Kostanay şəhərində, Türküstan şəhərində fəaliyyət göstərən Azərbaycan həftəsonu məktəbində və Türküstan vilayətinin Sayram rayonunda anım mərasimləri keçirilib. Türküstan vilayətinin Sayram rayonunda baş tutmuş anım tədbiri isə "Qarabağ" Azərbaycan Etnomədəni Birliyinin təşkilatçılığı ilə gerçəkləşib.
- Özbəkistanın paytaxtı Daşkənd şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr olunmuş anım mərasimləri keçirilib. Tədbirlərdə Azərbaycanın Özbəkistandakı Səfirliyinin, Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşları, Azərbaycan diasporunun, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin, "Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzinin İdarə Heyətinin üzvləri, yerli ictimaiyyətin nümayəndələri və media mənsubları iştirak ediblər.
- Qırğızıstanın paytaxtı Bişkekdə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət və Təhsil Mərkəzində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Beynəlxalq əlaqələr və gənclərlə iş şöbəsi tərəfindən 20 Yanvar faciəsinin 33-cü ildönümü münasibətilə Azərbaycan Diaspor Gəncləri (ADG) platformasının Azərbaycan tarixinin ən şərəfli və qanlı səhifələrindən olan 20 Yanvar – Ümumxalq Hüzn Gününə həsr olunmuş ZOOM platforması üzərindən videogörüş təşkil edilib. Tədbirdə 30-dan çox ölkədə yaşayan 60-dan çox diaspor gənci ilə yanaşı, Azərbaycan Macarıstan Məzunları Birliyinin üzvləri də iştirak ediblər.
- 20 Yanvar faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə gənclər tərəfindən ingilis və rus dillərində məlumatlandırıcı posterlər hazırlanıb, müvafiq olaraq ADG-nin Facebook, İnstagram səhifələrində, gənclərin bir qismi isə Tvitterdə paylaşımlar edib. Əlavə olaraq 10 fərqli ölkədə (Rusiya, Litva, Finlandiya, Gürcüstan, Macarıstan, İspaniya, Almaniya, Türkiyə, Polşa, İrlandiya) yaşayan diaspor gəncləri hazırlanmış posterləri A3 formatında çap edərək, yaşadıqları şəhərdən fotolar göndərib, müvafiq olaraq onların da müxtəlif sosial şəbəkə hesablarında **#BlackJanuary/ #20** Yanvar həştəqləri ilə paylaşılmasını təmin ediblər.
- Türkiyənin İstanbul şəhərində 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbir "Karabakh is Azerbaijan!" Milli Platformasının Türkiyə Koordinatorluğunun "Karabağ Azərbaycandır Koordine Etme Dərnəyi"nin, Türk Ocaqlarının və Anadolu Aydınlar Ocağının birgə təşkilatçılığı ilə baş tutub.
- Braziliya Diplomatik Jurnalistlər Assosiasiyasının əsasını qoyan və prezidenti olan, özündə iki www.omundodiplomatico.com və www.brasiliainfoco.com xəbər saytını birləşdirən "Brasilia in Foco" media şirkətinin rəhbəri, adıçəkilən saytların baş direktoru, köşə yazarı Fabiana Ceyhan öz təşəbbüsü ilə təmənnasız şəkildə 2023-cü il yanvar ayı ərzində Azərbaycanın Braziliyadakı Səfirliyi tərəfindən 20 Yanvar faciəsi ilə bağlı keçirilən tədbirlə əlaqədar məqaləni 4 xəbər saytında dərc etdirib.


WE DEMAND JUSTICE




Federation of Azerbaijanis in Belgium
20 YANVAR


20 26 31
День всенародной скорби


20 JANUARY
20 JANUARY
DAY OF MOURNING AND NATIONAL
147 UNARMED civilians were killed




QARA YANVAR






20
YANVAR 1990
20
YANVAR


























33 il
U N U T M U R U Q




Qara yanvar






Caucasus Law and Integration Center
















К.-Ж. Токаев выступил на инвестиционном круглом столе Казахстан - ОАЭ

Касым-Жомарт Токаев пригласил премьер-министра ОАЭ в Казахстан

Стр. 2

"2023, yeni vizyonumuz Türkiye Yüzyılı'nın başlangıcıdır"

3. Sayfa

# AHISKA

20 Ocak 2023 sayı: 3 (923)

6+

8-9. Sayfa

**Dünya Ahıskalı Türkler Birliği (DATÜB) Genel Başkanı Ziyatdin Kassanov: "Ahıskalılar, dedelerimi de tanıyorlar, kimliğimizi de bilirler, mertliğimize de dürüstlüğümüze de şahittirler"**

Kendisiyle her zaman omuz omuza olsak ta bir türlü söyleşiyi gerçekleştiremiyorduk. Her zaman iş, iş, iş...

Canlı yayındaki konuşmalarında da halkımızın sorunları ve işle ilgili konuşuyordu. Kendisini daha iyi tanıdığımız için onun insani ve manevi taraflarını sizlere tanıtmak istiyorduk...

Nihayet böyle bir fırsatı bulduk. 14 Aralık 2022 tarihinde İstanbul'daki Intercontinental Hotelde bu söyleşiyi gerçekleştirdik. İstediğimizde ne kadar başarılı olduk bilemiyoruz. Söyleşiyi okuduktan sonra buna siz karar verirsiniz.

Уважаемая Камила ханым Дургалова!

*Женсовет турецкого этнокультурного центра поздравляет Вас с днём рождения, желаем здоровья, удачи и благополучия! Пусть жизнь будет яркой и счастливой!*

Желаем достижения всех поставленных целей! ...

*Раиса АЛАЙБЕКОВА, председатель «Совета матерей» ТЭЦ «Ахыска» Туркестанской области*

# ДОСТОЙНАЯ ЖИЗНЬ ПОЧТЕННОГО ЧЕЛОВЕКА

**На прошлой неделе 85-летний юбилей отметил почетный гражданин Талгарского района, общественный деятель, председатель Совета старейшин, главный медиатор ТЭЦ «Ахыска», предприниматель Асан-паша Агададиев.**

Стр. 6-7

ОБЪЯВЛЕНИЕ

Адрес: г. Тараз, ул. Толе би, д. 62, большой зал.

*Администрация ЖОФ ОО ТЭЦ «Ахыска»*

20 Января - день торжества национального единства и достоинства

Стр. 11

Провинция Ахыска. Область Хертвиси. Налоговая книга населения. 1850 год

Стр. 12

www.ahiska-gazeta.com

Международная газета Турецкого этнокультурного центра РК

ahiska60@mail.ru

20 января 2023 №3 11

# 20 Января - день торжества национального единства и достоинства

**20 января 1990 года - одна из самых трагических, но вместе с тем и героических страниц в истории азербайджанского народа. Именно так характеризовал в свое время великий лидер Гейдар Алиев события 20 Января. С мудрой дальновидностью он говорил, что насколько мы будем отдаляться во временном отношении от тех событий, настолько будем осознавать их важность в истории азербайджанского народа, и может быть будущие поколения дадут им более верную оценку. Однако правда заключается в том, что 20 января 1990 года стал поворотной точкой в жизни азербайджанского народа.**

Минует 33-й год с тех трагических дней. Сегодня мы более отчётливо видим место 20 Января в нашей истории, о котором говорил великий лидер. 20 января 1990 года азербайджанский народ дал первых шехидов во имя свободы и независимости. Героические сыновья и дочери Родины, погибшие ...

Кровавая статистика 20 Января

Неоценимая поддержка

Солнце свободы, взошедшее зимней ночью

День, соединивший трагедию и героизм

Кровь шехидов - это кровь на нашем флаге

www.ahiska-gazeta.com

ahiska60@mail.ru






GAZETEKARS
Kars'ın Dünyadaki Güçlü Sesi

GÜNCEL / 14:43
VALİ ÖKSÜZ ÖĞRENCİLERİ UNUTMADI!

Kars -2 °C

HABERLER › GÜNCEL › 20 OCAK "KARA" DEĞİL, KIZIL HARFLERLE YAZILAN TARİHİMİZDİR!

21:23
18 Ocak 2023

**20 OCAK "KARA" DEĞİL, KIZIL HARFLERLE YAZILAN TARİHİMİZDİR!**

Prof. Dr. Hacali Necefoğlu / Kafkas Üniversitesi Kafkasya ve Orta Asya Araştırma Merkezi Müdürü

***Ay var bir güne değmez,***

***Gün var bin aya değer.***

33 yıl önce 20 Ocak 1990'da acımasız Sovyet rejimi Azerbaycan halkına karşı önceden düşünülmüş ve planlaştırılmış gaddarcasına kıyım gerçekleştirdi. Eli yalın insanlara karşı tarihte eşi görülmemiş cinayet türetildi. Devlet vatandaşlarına: çocuklara, kadınlara, ihtiyarlara silah kaldırdı. Kutsal vatanları Karabağ'ın zorla

SERKA, bilgilendirme toplantısı düzenledi

Vali Öksüz öğrencileri unutmadı!

Kars'ta turistleri ciritçiler atlarla karşılıyor

Üç aylar başladı

Karslı sporculardan bir şampiyonluk daha!

Kars'ta yağan kar kısa sürede eridi

Kars'ta, sağlık yatırımları değerlendirme toplantısı

Bu Kategorideki Diğer Haberler










Semanur Altınay
Fuad Rahimli (AHAU)
Ali Mammadov
iPhone
Askerov Farid
Gulistan Abdullayeva
HasanovH (AHAU)
Ramil Shukurov
Fidan.Mammadli AHAU
Leyla
Aygül Ibrahimova
Gunay Bayramova-AHAU
Ramil Mustafaev
sebnem mirzezade
Nuriya Mammadova
Abdulla Gasymov
Shamil Mehdijev
Najaf Akhundzada
Kamran Shahverdiyev

- Avstriyanın paytaxtı Vyana şəhərindəki məşhur Heldenplatz meydanında Xocalı soyqırımının 31-ci ildönümü ilə bağlı aksiya keçirilib. Aksiyaya 31 ölkənin 74 şəhərindən gələn 1000 nəfərdən çox soydaşımız, icma üzvləri, diaspor təşkilatlarının təmsilçiləri və ölkəmizə dost münasibəti bəsləyən xalqların nümayəndələri qatılıblar. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan aksiyada vətənin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Soydaşlarımız, eləcə də onlara dəstək verən əcnəbilər Azərbaycanın və yaşadıqları ölkələrin bayraqlarını dalğalandırıb, Xocalı soyqırımının tanıdılmasını, eləcə də dünyadan ədalət gözləntilərini əks etdirən şüarlar yazılmış plakatlar nümayiş etdiriblər. Diaspor nümayəndələrinin "Xocalı 613" yazısının ətrafına şamlar düzməsi soyqırım həqiqətlərinin inikasına çevrilib, ətrafdakılara xüsusi təsir bağışlayıb və yerli ictimaiyyətin böyük marağına səbəb olub. Aksiya çərçivəsində Heydər Əliyev Fondu tərəfindən hazırlanmış, Xocalı soyqırımı ilə bağlı məlumatları əks etdirən kitab, buklet, broşür və materiallar şəhər ictimaiyyətinə paylanılıb.
- Rusiyanın Primorsk vilayətində fəaliyyət göstərən Azərbaycan diasporunun "Dostluq" ictimai təşkilatı tərəfindən Vladivostok şəhərindəki Puşkin teatrında Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Rusiyanın Yekaterinburq şəhərində Xocalı soyqırmının 31-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbirdə "Azərbaycan-Ural" İctimai Milli-Mədəni Təşkilatının sədri Şahin Şıxlinski, Ural Federal Universitetinin professoru, azərbaycanşünaslıq kafedrasının müdiri Aleksandr Nesterev və diasporumuzun fəal nümayəndələri çıxış ediblər.
- Moskva vilayətinin İstra şəhərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Rusiyanın İjevsk, Kaluqa, Kirov, Mahaçqala, Murmansk, Nalçik, Perm, Solikamsk və Soçi şəhərlərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib.
- Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən Azərbaycan Humanitar Əməkdaşlıq Mərkəzinin ofisində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Ukraynanın Dnepr şəhərində Xocalı faciəsinin 31-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.
- Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar Haaqa şəhərindəki Xocalı abidəsi ziyarət edilib. Hollanda Azərbaycan-Türk Kültür Dərnəyinin təşkilatçılığı və Azərbaycanın Niderland Krallığındakı Səfirliyinin dəstəyi ilə baş tutan anım mərasimində Azərbaycan və Türkiyənin bu ölkədəki səfirləri, icma üzvləri və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər. Abidənin önündə şamlarla "Xocalıya ədalət!" tələbi həkk olunub.
- İspaniyanın Barselona şəhərində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Barselonadakı Azərbaycanlılar Cəmiyyətinin və Barselona Azərbaycan Evinin təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Stokholm şəhərində fəaliyyət göstərən "Qarabağ" həftəsonu Azərbaycan məktəbində 26 fevral tarixli dərsin mövzusu Xocalı soyqırımının 31-cü ildönümünə həsr olunub.

- Çexiyanın Praqa, Brno, Plzen, Çeşke Budeyoviçe, Libereç və digər şəhərlərində Xocalı soyqırımının 31-ci ildönümü ilə bağlı məlumatlandırma aksiyası təşkil edilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Çex-Azərbaycan Birliyinin sədri Eldar Vəliyevin təşəbbüsü və təşkilatçılığı ilə baş tutan aksiya zamanı elekton bilbordlarda Xocalı həqiqətlərini əks etdirən məlumatlar və "Sonsuz dəhliz" sənədli filmindən görüntülər əks olunub.
- İtaliya-Azərbaycan Birliyinin sədri Fərid Abbasovun təşəbbüsü ilə İtaliyanın Milan və Roma şəhərlərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib. Aksiya zamanı üzərində "Xocalı üçün dua et!" şüarının və Xocalı soyqırımı həqiqətlərinin əks olunduğu avtomobil Milanın mərkəzi küçələri ilə hərəkət edib. Aksiya yerli sakinlərin və turistlərin diqqətini Xocalı soyqırımına cəlb etmək məqsədilə təşkil edilib.
- Polşanın Krakov şəhərində "Xarı Bülbül" Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar "Soyqırım və insanlığa qarşı törədilmiş cinayətlər" mövzusunda elmi konfrans keçirilib. Konfransda məruzəçi qismində çıxış edən ADA Universitetinin professoru Ceyhun Rzayev, Varşava Dövlət Universitenin professoru Nərgiz Axundova, Adam Miskevic Universitetinin professoru Eva Domanska Holokost, Xocalı, Srebrennitsa və Katın kimi faciələrin tarixi, oxşar və fərqli cəhətlərindən danışıblar. Konfrans müzakirə formatında davam edib.
- Tallinn şəhərində keçirilən Estoniya Xalqları Forumunda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib. Ölkənin Müstəqillik Günü münasibətilə Estoniya Teatrında baş tutan tədbirdə şəhər merinin mədəniyyət üzrə müavini Vadim Belobrovtsev, Estoniya parlamentinin deputatı Raivo Tamm, Estoniya Mədəniyyət Nazirliyinin departament rəhbəri Anneli Reima iştirak ediblər. Tədbirdə çıxış edən Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Niyazi Hacıyev nəzərə çatdırıb ki, forumun baş tutduğu gündə Azərbaycan xalqı Xocalıda törədilmiş dəhşətli faciənin 31-ci ildönümünü qeyd edir. Mərkəz sədri forum iştirakçılarını ölkələrimizin müstəqilliyi uğrunda canlarından keçmiş bütün xalqların nümayəndələrinin, o cümlədən Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla anılmasına dəvət edib.
- Yunanıstanın Saloniki şəhərində "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti və Saloniki Azərbaycan Evinin təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar "Xocalı soyqırımını unutmayaq və unutdurmayaq!" adlı anım tədbiri keçirilib. Sonra Xocalı soyqırımının dəhşətlərini əks etdirən sənədli film nümayiş etdirilib. Tədbir iştirakçılarına Xocalı soyqırımına aid videomateriallar, broşürlər və flayerlər paylanıb.
- Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində İtaliyanın Milan şəhərində azərbaycanlı rəssam Elay Məmmədovun Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunan fərdi sərgisi açılıb. "Xocalının yaddaşı" adlı sərgi Heydər Əliyev Fondunun və Neapol-Bakı Assosiasiyasının təşkilatçılığı, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Milanın XVIII əsrə aid tarixi "Libreria Bocca" kitabxana-qalereyasında keçirilib.
- 19 fevral 2023-cü il tarixində ermənilərin çoxluq təşkil etdiyi bölgədə yerləşən ABŞ-ın nüfuzlu Stenford Universitetində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.

- 22 fevral 2023-cü il tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və ABŞ-ın Minnesota ştatında fəaliyyət göstərən Amerika-Azərbaycan Minnesota Assosiasiyasının rəhbəri Günel Krişnanın təşkilatçılığı ilə ABŞ-ın "Dakota County Tribune" və "Sun This Week" qəzetlərinin Minnesota ştatının Farminqton və Roseville, Börnsvil və Lakeville şəhərlərini əhatə edən nəşrlərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar məlumat dərc edilib.
- 24 fevral 2023-cü il tarixində Florida ştatında fəaliyyət göstərən Azərbaycan-Amerika Gənclər Assosiasiyasının rəhbəri Nabat Eminovanın təqdimatı ilə Florida ştatının Mayami-Deyd dairəsinin meri Daniella Levin Kava və Mayami-Deyd dairəsinin Komissarları Şurasının sədri III Oliver G. Gilbert ABŞ-ın Mayami-Deyd dairəsində 26 fevral 2023-cü il tarixini Xocalının Anım Günü elan edib.
- 24 fevral 2023-cü il tarixində Azərbaycan diasporunun təşkilatçılığı ilə ABŞ-ın Nyu-York şəhərində yerləşən məşhur Kolumbiya Universitetində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar konfrans keçirilib. Tədbirin sonunda iştirakçılara Heydər Əliyev Fondu tərəfindən hazırlanmış Xocalı soyqırımı haqqında broşürlər, döş nişanları və "Sonsuz dəhliz" filminin diskləri paylanılıb.
- 26 fevral 2023-cü il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton, Nyu-York, Mayami, Boston, Atlanta, Çikaqo, Los-Angeles, Hyuston, Şarlotte və Klifton şəhərlərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar geniş məlumatlandırma aksiyası keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komtəsinin dəstəyi və Yuta-Azərbaycan Dostluq Təşkilatının rəhbəri Əsmər Qarayevanın təşkilatçılığı ilə baş tutan aksiya "Xocalıya ədalət" beynəlxalq təbliğat və təşviqat kampaniyası çərçivəsində gerçəkləşdirilib.
- 26 fevral 2023-cü il tarixində Kanadanın paytaxtı Ottava şəhərində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan dili sinfinin növbəti onlayn və əyani dərsinin mövzusu Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunub.
- 26 fevral 2023-cü il tarixində Kanadanın Monreal şəhərində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Kvebek Azərbaycanlıları Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- 27 fevral 2023-cü il tarixində Kanadanın Toronto Universitetində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- 27 fevral 2023-cü il tarixində Kanadanın Toronto şəhər Təhsil Mərkəzinin xarici dillər bölməsinin Azərbaycan dili sinfinin növbəti dərsi Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunub.
- 27 fevral 2023-cü il tarixində Böyük Britaniya parlamentinin qarşısında Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar "Xocalıya ədalət!" beynəlxalq təbliğat və təşviqat kampaniyası çərçivəsində dinc aksiya keçirilib. Britaniya Azərbaycanlıları Koordinasiya Şurasının təşkilatçılığı ilə keçirilən aksiyaya Azərbaycan diasporunun üzvləri və azərbaycanlı tələbələr qatılıblar.
- 27 fevral 2023-cü il tarixində ABŞ-ın paytaxtı Vaşinqtonda yerləşən Corc Vaşinqton Universitetində bu ali məktəbin Azərbaycanlı Tələbələr Təşkilatının təşəbbüsü ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar konfrans keçirilib. Tədbir çərçivəsində Xocalı soyqırımını əks etdirən fotosərgi təşkil edilib. Sonda tədbir iştirakçılarına Heydər Əliyev Fondu tərəfindən hazırlanmış Xocalı soyqırımı haqqında kitablar, broşürlər, nişanlar və "Sonsuz dəhliz" filminin diskləri paylanıb.

- 27 fevral 2023-cü il tarixində London şəhərində yerləşən Kral Kollecində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar konfrans keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Britaniya Azərbaycanlıları Cəmiyyətinin və London universitetlərində təhsil alan azərbaycanlı tələbələrin təşkilatçılığı ilə baş tutan konfransda Azərbaycanın Birləşmiş Krallıqdakı səfirliyinin əməkdaşları, Qarabağ məktəbinin müəllim və şagirdləri, İngiltərə, Yunanıstan, Gürcüstan, Türkiyə və bir sıra digər ölkələrdən olan müəllim-tələbə heyəti iştirak edib.
- 27 fevral 2023-cü il tarixində Böyük Britaniya və Şimalı İrlandiya Birləşmiş Krallığının London, Belfast və Edinburq şəhərlərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar Heydər Əliyev Fondunun dəstəyi ilə məlumatlandırma aksiyası keçirilib. Aksiya zamanı Xocalı həqiqətlərini əks etdirən LED ekranlı avtomobillər şəhərlərin izdihamlı mərkəzi küçələrində hərəkət edərək, yerli sakinlərin diqqətini 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Xocalıda azərbaycanlılara qarşı törətdiyi dəhşətli soyqırımına yönəldib.
- 27 fevral 2023-cü il tarixində Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.
- 27 fevral 2023-cü il tarixində Böyük Britaniya və Şimalı İrlandiya Birləşmiş Krallığının 3 şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı faciəsinin 31-ci ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib.
- 28 fevral 2023-cü il tarixində ABŞ-ın Boston şəhərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. New England Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Roza Şəhzadə və Tünzalə Eynullanın təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan icmasının üzvləri iştirak ediblər.
- 28 fevral 2023-cü il tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə İsrailin şimalında yerləşən "İsrael" kibutsasında Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının idarə heyətinin üzvü Yeganə Salman 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri tərəfindən Xocalıda dinc və günahsız azərbaycanlılara qarşı xüsusi amansızlıqla törədilmiş kütləvi qırğın barədə ətraflı məlumat verib.
- 1 mart 2023-cü il tarixində ABŞ-ın Florida ştatında fəaliyyət göstərən Nova Cənub-Şərqi Universitetinin nəzdindəki Kreyq və Barbara Vayner Holokost Refleks və Resurs Mərkəzində Amerika-Azərbaycan Gənclər Assosiasiyasının (AAYA) təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- 1 mart 2023-cü il tarixində ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan "The Jewish Press"də "BMT-nin səriştəsizliyinə qarşı Vyanada azərbaycanlı etirazçılara qoşuldum" sərlövhəli məqalə dərc olunub. Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış israilli politoloq və jurnalist Reyçel Avraham qələmə aldığı məqalədə bir neçə gün əvvəl Azərbaycan diasporunun yüzlərlə üzvünün Avstriyanın paytaxtı Vyana şəhərində BMT-nin mənzil-qərargahı qarşısında toplaşaraq, Xocalı soyqırımına münasibətdə BMT-nin fəaliyyətsizliyinə etiraz etdiyinə diqqət çəkib.
- 3 mart 2023-cü il tarixində İsrailin tarixi və mədəni mərkəzlərindən biri olan Rişon LeZion şəhərində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbirı keçirilib. Tədbirdə Rişon LeZion şəhərinin vitse-meri Mixail Raif və Azərbaycanın İsraildəki

səfiri Muxtar Məmmədov çıxış ediblər. Azərbaycanın İsrailə yeni təyin olunmuş səfirinin ilk dəfə rəhbərlik etdiyi şəhərin tədbirində iştrakından məmnunluq duyduğunu vurğulayan Mixail Raif bildirib ki, Xocalı faciəsi kimi insanlıq əleyhinə olan cinayətlərin gələcəkdə təkrarlanmaması naminə qətliam qurbanlarının xatirəsi daim xatırlanmalıdır.

- 6 mart 2023-cü il tarixində ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan “The Jewish Press”də “Azərbaycanın yeni təyin olunmuş səfiri Rişon LeZionda Xocalının xatirəsinə həsr olunmuş tədbirdə iştirak edib” sərlövhəli məqalə dərc olunub.
- 17 aprel 2023-cü il tarixində Kanadada yaşayan Azərbaycan icması Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi və İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması kimi vandalizm aktlarını qətiyyətlə pisləyib.
- Fevralın 24-də Misirin https://rayetmisr.com və https://alharir.info xəbər saytlarında Azərbaycan üzrə ekspert Əsma Ahmedin “Ermənilərin əli ilə törədilmiş Xocalı soyqırımını unutmadıq və unutmayacağıq” sərlövhəli məqaləsi yayımlanıb.
- 26 fevralda İordaniyanın https://nayrouz.com xəbər saytında Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar Ərəb Ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının İordaniyadakı əlaqələndiricisi Zümrüd Dadaşovanın məqaləsi yerləşdirilib.
- 27 fevral tarixində Avstraliya İttifaqının Brisben şəhərində fəaliyyət göstərən “Kvinslenddə Azərbaycanın Milli Assosiasiyası”nın təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar broşürlər, üzərində “Xocalıya ədalət!” tələbi əks edilmiş köynəklər Brizbon şəhərinin mərkəzi küçələrində yerli sakinlərə paylanılıb. Avstraliya Azərbaycanlıları Assosiasiyasının aktiv üzvləri və diaspor fəalları isə Sidney şəhərinin işgüzar mərkəzi rayonunda (CBD) və tarixi bələdiyyə binasının (The Sydney Town Hall) önündə Xocalı soyqırımı həqiqətlərindən bəhs edən broşürləri yerli sakinlərə paylayıblar.
- Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar Türkiyənin müxtəlif şəhərlərində – 27 fevral tarixində Türkiyə-Azərbaycan Dərnəklər Federasiyası (TADEF) və Xarıbülbül Vizyon Teatr Dərnəyinin təşkilatçılığı ilə İstanbulda “Cəhənnəmə götürən koğuş” adlı sənədli film təqdim olunub, Qarabağlar Bələdiyyəsinin, Azərbaycan Türkləri və Dostluq Dərnəkləri Federasiyasının birgə təşkilatçılığı ilə İzmir vilayətinin Qarabağlar rayonunda Salih Omurtak məhəlləsindəki Xocalı abidəsi önündə, Manisa-Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin təşkilatçılığı Manisada Böyükşəhər Bələdiyyəsinin Palatalar və Dərnəklər binasında, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Giresun Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə Giresunda, 2 mart tarixində İğdır-Azərbaycan Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin təşkilatçılığı ilə İğdırda fəaliyyət göstərən İğdır Azərbaycan Evində, Türkiyə-Azərbaycam Dostluq Dərnəkləri Federasiyasının və İğdır Azərbaycan Evi Dərnəyinin təşkilatçılığı ilə İğdırın 125-ci il Anadolu liseyində, Əskişəhər Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə Əskişəhərdə, 5 mart tarixində İğdır-Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin (Iğdır Azərbaycan Evi) təşkilatçılığı ilə İğdırda Mehmet Murad adına Sosial Bölümlər Liseyində və Heydər Əliyev adına Fənn Liseyində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar müxtəlif anım tədbirləri keçirilib. Türkiyədə keçirilmiş bütün tədbirlər zamanı iştirakçılara Heydər Əliyev Fondu tərəfindən hazırlanmış Xocalı soyqırımı haqqında broşürlər, nişanlar və “Sonsuz dəhliz” filminin diskləri paylanıb.
- 27 fevral tarixində Yaponiyada yayımlanan “Cross Border Club 3.0” internet televiziyasında Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar xüsusi proqram

təqdim olunub. Verilişin aparıcısı, kanalın prodüseri Kazuyasu İşidanın qonağı olan "Ajmedia" portalının tərcüməçi-redaktoru Firuzə Abuzərova Ermənistanın və erməni separatçılarının Azərbaycanın Qarabağ regionunu işğal etmək məqsədilə törətdiyi vandalizm və hərbi cinayətlər barədə ətraflı məlumat verib.

- Fevral ayı ərzində Misirin xəbər portallarında Xocalı soyqırımının 31-ci ildönümü ilə bağlı silsilə məqalə yayımlanıb. Misirli jurnalist Muhamməd Saleminin qələmə aldığı məqalədə Xocalı soyqırımının tarixi barədə ətraflı məlumat verilib.
- Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar Koreya Parlamentinin saytında Cənubi Koreyanın Seul şəhərində fəaliyyət göstərən BUTA Azərbaycan Koreya Dostluq Assosiasiyası (AKDA) tərəfindən petisiya yerləşdirilib.
- Fevral ayında İordaniyada yaşayan Azərbaycan icmasının üzvləri Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar videoçarx hazırlayıblar. Videoçarxda azərbaycanlı ailələrin övladlarının ifasında "Ay bəlalı Xocalı" şeiri səsləndirilib. Uşaqlar "Biz Xocalını xatırlayırıq!" başlığı ilə nümayiş etdirdikləri məlumatlarda 1992-ci il fevralın 26-da azərbaycanlılara qarşı bir gecədə törədilmiş faciəyə diqqət cəlb ediblər.
- Gürcüstanın Marneuli və Bolnisi rayonlarında fəaliyyət göstərən Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində (GAİM) və Qafqaz Hüquq və İnteqrasiya Mərkəzində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım mərasimləri keçirilib. Tədbirlərdə müəllimlər, tələbələr və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- Qazaxıstanın Almatı, Aktau şəhərləri və Kostanay, Türküstan vilayətlərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar olaraq bu ölkədə yaşayan soydaşlarımız tərəfindən anım tədbirləri keçirilib. Almatı şəhərindəki tədbir "Ata Yurd Nomad" Respublika İctimai Birliyi, Aktau şəhərindəki tədbirlər "Azərbaycan Mərkəzi" İctimai Fondu və "Dostluq" Etnomədəni Birliyi, Türkistan vilayətindəki tədbir "Qarabağ" Azərbaycan Etnomədəni Birliyi və Kostanay vilayətindəki tədbir isə "Birlik" Kostanay vilayəti Azərbaycanlıları İctimai Birliyinin təşkilatçılığı ilə baş tutub. Habelə "Qarabağ" Azərbaycan Etnomədəni Birliyinin nəzdindəki "Qarabağ" həftəsonu Azərbaycan məktəbində 26 fevral dərsinin mövzusu Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunub.
- Qırğızıstanın paytaxtı Bişkekdə "Azəri" İctimai Birliyinin təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib. Azərbaycan Tədris-Mədəniyyət Mərkəzində keçirilən növbəti dərsin mövzusu Xocalı soyqırımının 31-ci ildönümünə həsr edilib. "Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlıların Birliyi"nin nəzdindəki Azərbaycan həftəsonu məktəbində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- 2023-cü ilin 27 yanvar tarixində Braziliya Diplomatik Jurnalistlər Assosiasiyasının əsasını qoyan və prezidenti olan, özündə iki [www.omundodiplomatico.com](http://www.omundodiplomatico.com) və [www.brasiliainfoco.com](http://www.brasiliainfoco.com) xəbər saytını birləşdirən "Brasilia in Foco" media şirkətinin rəhbəri, adıçəkilən saytların baş direktoru, köşə yazarı Fabiana Ceyhan öz təşəbbüsü ilə, təmənnasız şəkildə Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyində baş vermiş terrorla bağlı məqalələri 13 xəbər saytında işıqlandırıb, bu xüsusda 3 sosial şəbəkə paylaşımı edib.
- 2023-cü ilin 30 yanvar tarixində İsrailin Netanya şəhərində "Park Hotel№" mehmanxanasında "Ermənistanın Qarabağda ekoloji terroru" mövsusunda dəyirmi masa keçirilib.
- 2023-cü ilin 14 fevral tarixində İsraildə yerləşən "İsrael Academia Monitor" akademik qurumunun baş redaktoru Doktor Dana Barnett tərəfindən İsrailin Even Yehuda

şəhərində yerləşən Harişonim mədəniyyət mərkəzinin yeni konfrans zalında “Azərbaycan: geosiyasət, yəhudilər, multikulturalizm və Xocalı soyqırımı” mövzusunda tədbir keçirilib. İsrailin aparıcı qəzetlərində tədbiri işıqlandıran dörd məqalə yayımlanıb.



























#KhojalyGenocide1992
JUSTICE FOR KHOJALY
PEACE

JUSTICE FOR KHOJALY
KHOJALY GENOCIDE







Do not forget
Khojaly!


in captivity!


















AZERBAIJAN HOUSE
26






JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY














# L'eredità del Genocidio di Khojali: un capitolo oscuro della storia dell'Azerbaigian

In Azerbaigian · 24 Febbraio 2025 · Redazione_Ue · 0 comments



K metro 0 – Venezia – Il genocidio di Khojaly, avvenuto il 26 febbraio 1992, rimane uno degli eventi più tragici della storia dell'Azerbaigian. Durante il conflitto tra Armenia e Azerbaigian, le forze armene, con il supporto di reggimento 366 di fucilieri motorizzi dell'ex Unione Sovietica, attaccarono e occuparono la città di Khojaly, causando la morte di centinaia di civili azerbaigiani, tra cui donne, bambini e anziani. Nonostante il passare del tempo, il genocidio di Khojaly rimane una questione profondamente dolorosa per l'Azerbaigian e per la più ampia comunità internazionale.

Mentre l'Azerbaigian e molti altri Paesi riconoscono gli eventi del 26 febbraio 1992 come genocidio, l'Armenia nega questa definizione, cercando di giustificare il massacro. Tale dibattito in corso evidenzia l'importanza di continuare a discutere e ricordare il genocidio di Khojaly, nonché la necessità di cercare giustizia e responsabilità per le vittime e le loro famiglie.

Questo articolo si propone di fornire una panoramica del genocidio di Khojaly e di esaminarne il contesto storico. Utilizzando fonti scientifiche, presenta le testimonianze oculari e analizza i responsabili e i loro tentativi di insabbiare il genocidio. Inoltre, l'articolo esplora l'impatto di questa tragedia sull'Azerbaigian e sulla comunità internazionale. Vengono presi in considerazione anche gli sforzi per commemorare le vittime e garantire che la loro memoria continui a vivere. Infine, l'articolo si conclude con una riflessione sul posto occupato dal



Thursday, February 9, 2023

NewsBlaze

# The Khojaly Massacre Was Not The First Atrocity Against Azerbaijan

By Nurit Greenger – Tue February 7, 2023

In memory of humanity's inhumane deeds.

Yes, we should also talk about Malibayli, Garadaqli, Bashlibel, the other massacres committed by Armenians in Karabakh.

## The Khojaly Massacre

The 1st Nagorno-Karabakh War took place between Armenia and the Republic of Azerbaijan, from February 1988 to May 1994, in the Nagorno-Karabakh enclave in southwestern Azerbaijan.

On February 26, 1992, 31 years ago, the Khojaly Massacre took place. It was the mass killing of Azerbaijani civilians with the mercilessness and unthinkable barbarism of Armenian forces and the 1st, 2nd and 3rd battalions of the 366th CIS regiment. This happened in the town of Khojaly, de jure in the Khojaly District of Azerbaijan, in the Nagorno-Karabakh region.

One can address the Khojaly Massacre as one of the most terrible and tragic pages of Azerbaijan's history, an atrocious episode that became the single largest massacre throughout the entire Nagorno-Karabakh conflict between Armenia and Azerbaijan.

The Khojaly genocide – a bloody 20th century tragedy – was one of the most serious crimes, the worst massacre, against the people of Azerbaijan. It has been compared to Khatin, Hiroshima, Nagasaki and Songmi genocides.











شبكة طريق الحرير الصيني الإخبارية

Tuesday 28th February 2023

الصين تحت المجهر | الصين والعالم | تبادلات ودية | الجزائر والصين | الحزام والطريق | منوعات | مقالات | روابط | إتصل بنا

حساباتنا

الجزائر والصين.. علاقات وتميز

في مئوية تأسيس الحزب الشيوعي الصيني

أخبار أذربيجان

لم ننس ولن ننسى مذبحة خوجالي على يد الأرمن

منذ 3 أيام في 24/فبراير/2023

نحن نتذكر!
الإبادة الجماعية في خوجالي
٢٦ فبراير ١٩٩٢
عدد القتلى: ٦١٣
النساء: ١٠٦
الأطفال: ٦٣
كبار السن: ٧٠
الرهائن: ١٢٧٥

شبكة طريق الحرير الإخبارية/

## لم ننس ولن ننسى مذبحة خوجالي على يد الأرمن

بقلم: أسماء أحمد

الخبيرة في الشؤون الأذربيجانية

"إن الإبادة الجماعية في مدينة خوجالي موجهة لكل شعب أذربيجان وهي أسوء استبداد وعمل وحشي في تاريخ البشرية، وأساليب العقاب الإنساني-غير الإنساني، التي لا يمكن تصديقه. وهي في نفس الوقت جريمة قتل تاريخية ضد البشرية بأكملها ".

كانت مدينة خوجالي محط أنظار الجيش الأرمني بسبب موقعها الاستراتيجي في منطقة قره باغ الجبلية بأذربيجان، كما أن أذربيجان تملك مطارا






HISTORICAL TALKS 2023
AzDiaspora
AzDiaspora
DiasporaAz
AzerbaijaniDiaspora
DiasporaAz




XOCALI




GESOB
1966


МЕРОПРИЯТИЕ
ИРАЕМ МИРНОЕ НЕБО»
31-й годовщине ходжалинским
Азербайджанской Республике


QALA




Yasemen Hesenova
Suliddin Baghirov
Zamira Alieva
samirkashiyev
Jeyhun Mammadov
Naira Pashaeva
Eyyub Israfilov
Shafiga Gasimzade
Asimanov
Diasporla İş üzr...
Afaq Aslanova
Rashad Orujov
Hajar Karaman
Amiraslan Mura...
Amiraslan Muradov
Arzu Mammadbayova
Sevda Zaynali
nuriya mammad...
nuriya mammadova
Khadija Mammadova
Almaz Nadiroglu
nihat


RUSSIA
CASPIAN SEA
KHOJALY
AZERBAIJAN
ARMENIA
NAGORGO-
KARABAKH
虐殺の街
その後




## 31 MART  AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜNÜN İLDÖNÜMÜ

- 27 mart tarixində Azərbaycan universitetlərinin məzunları olan bir qrup Livan vətəndaşı sosial media şəbəkəsi izləyicilərinin diqqətini 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə cəlb edib. “Azərbaycanda təhsil almış tələbələr” adı altında yaradılmış “Facebook” səhifəsində 31 Mart soyqırımı haqqında məlumat ərəb dilində paylaşılıb. Qeyd edək ki, bu qrupun hazırda 2000-dən çox üzvü var.
- 30 mart tarixində Avstraliya Azərbaycanlıları Assosiasiyasının rəhbəri Mikayıl Oyta Avstraliyanın xarici işlər naziri Penni Vonqa 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar məktub ünvanlayıb.
- Türkiyədə fəaliyyət göstərən Əskişəhər Azərbaycanlılar Dərnəyi ənənəvi “Çərşənbə söhbətləri”ni azərbaycanlıların soyqırımına həsr edilib.
- 3 aprel tarixində Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) üzv-təşkilatı olan İzmir-Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin təşkilatçılığı ilə İzmir şəhərindəki Bornova Bələdiyyəsinin Atatürk Kültür Mərkəzində anım tədbiri keçirilib.
- 30 mart tarixində Tokioda fəaliyyət göstərən Azərbaycan icması 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Yaponiya ictimaiyyətinə müraciət edib.
- 31 mart tarixində Misir, Əlcəzair və İraq xəbər portallarında Misir-Azərbaycan Dostluq Cəmiyyətinin müdavimi, misirli tələbə Əsma Əhmədin 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar məqalələri yayımlanıb.
- İordaniyanın https://nayrouz.com xəbər saytında Ərəb Ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının İordaniyadakı koordinatoru Zümrüd Dadaşovanın “Azərbaycanlılara qarşı qətliamdan 105 il ötür” sərlövhəli məqaləsi yayımlanıb.
- Yaponiyanın https://ajmedia.jp xəbər portalında “31 Mart – Azərbaycanlıların Soyqırımı Günüdür” sərlövhəli məqalə yayımlanıb.
- 31 Mart soyqırımı ilə əlaqədar Səudiyyə Ərəbistanı, Livan və Sudan xəbər portallarında ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi tarixindən, xalqımıza qarşı törətdiyi soyqırımı, deportasiya, təcavüzkar və terrorçu siyasətindən bəhs edən məqalələr yayımlanıb.
- Norveçin paytaxtı Osloda fəaliyyət göstərən Nizami Gəncəvi adına Azərbaycan dili həftəsonu məktəbinin növbəti dərsi 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunub.

- İsveç Krallığında fəaliyyət göstərən “Qarabağ” Azərbaycan həftəsonu məktəbindəki Azərbaycan dili dərsinin mövzusu 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunub.
- Niderland Krallığının Haaqa şəhərində Hollanda Azərbaycan-Türk Kültür Dərnəyinin təşkilatçılığı ilə 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anım tədbiri keçirilib.
- Gürcüstanda fəaliyyət göstərən “Alyans” Gənclər Mərkəzi, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi, Dmanisi Tədris Mərkəzi və “Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi“ndə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı anım tədbirləri keçirilib. Dmanisi Tədris Mərkəzində tədris olunan Azərbaycan dili dərsinin mövzusu da 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr edilib.
- Qazaxıstanın Aktau şəhərində fəaliyyət göstərən Azərbaycan Mərkəzində 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbirdə Azərbaycanın Aktaudakı Baş Konsulluğunun rəhbəri, Şahmərdan Yesenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetinin müəllimləri, azərbaycanlı və qazax tələbələr iştirak ediblər.
- Qırğızıstanın paytaxtı Bişkekdə fəaliyyət göstərən Azərbaycan Təhsil-Mədəniyyət Mərkəzində tədris olunan Azərbaycan dili dərsinin mövzusu 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr edilib.

## AZƏRBAYCAN XALQININ MİLLİ-MƏDƏNİ İRSİNİN TƏBLİĞİ

Azərbaycanın dövlət və milli bayramlarına, eyni zamanda mədəniyyətimizin, milli adət-ənənələrimizin, musiqimizin təbliğinə həsr olunmuş tədbir – bayram şənliyi, konsert proqramı, sərgi, idman yarışı, müxtəlif müsabiqə və s. layihələr gerçəkləşdirilib.

### Novruz bayramı ilə bağlı keçirilən tədbirlər

- Rusiyanın Xabarovsk şəhərində yaşayan Azərbaycan icması Novruz Bayramı münasibətilə uşaqları sevindirib. “Azərbaycan Birliyi” Xabarovsk Diyarı İctimai Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə 1 saylı Uşaq Evində bayram şənliyi keçirilib. Milli rəqslərimizə və musiqi alətlərinə böyük maraq göstərən uşaqlara ustad dərsləri keçirilib. Novruz təamlarına qonaq edilən uşaqlar yumurta döyüşünə və viktorina oyununa qatılıblar. Qaliblərə müxtəlif mükafatlar, uşaq evinə isə “İçərişəhər” kitabı təqdim edilib.
- Rusiya Federasiyası Dağıstan Respublikasının Dərbənd şəhərində Novruz Bayramı təntənə ilə qeyd edilib.
- Rusiya Federasiyası Udmurtiya Respublikasının paytaxtı İjevsk şəhərindəki Kosmonavtlar Parkında “Dostluq” Azərbaycan İctimai Mərkəzinin təşkilatçılığı ilə Novruz bayramı münasibətilə təntənəli tədbir keçirilib.
- Rusiyanın Moskva vilayətinin Puşkin şəhər dairəsində ilk dəfə olaraq “Moskva vilayətində Novruz” mövzusunda millətlərarası bahar bayramı keçirilib. Bayram tədbiri Dostluq Evi Millətlər Şurasının həmsədri, “Moskva azərbaycanlılarının regional milli-mədəni muxtariyyəti” ictimai təşkilatının Puşkin bölməsinin sədri Mahir Miriyev, və b. birgə təşkilatçılığı ilə baş tutub.

- Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazanda Novruz bayramına həsr olunmuş təntənəli şənlik keçirilib. Kazan İppodromunun “Xan həyəti”ndə təşkil edilən bayramda “Tatarıstan Respublikası Azərbaycan Milli-Mədəni Muxtariyyəti” regional ictimai təşkilatının fəalları aktiv iştirak ediblər.
- Rusiyanın Stavropol diyarının Pyatiqorsk şəhərində Novruz Bayramına həsr olunmuş şənlik keçirilib. “Araz” Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə 100 nəfərə yaxın soydaşımız iştirak edib.
- Rusiyanın Vladivostok şəhərində yaşayan Azərbaycan icmasının “Dostluq" regional ictimai təşkilatı tərəfindən Novruz bayramına həsr olunmuş təmtəraqlı tədbiri keçirilib.
- Rusiya Federasiyası Komi Respublikasının paytaxtı Sıktıvkarda “Komi Respublikası Azərbaycanlılarının Birliyi” regional ictimai təşkilatı tərəfindən Novruz Bayramına həsr olunmuş şənlik keçirilib.
- Rusiyanın Yaroslavl şəhərində yaşayan “Yaroslavl Azərbaycan Qadınları” ictimai təşkilatı və “Xəzər” rəqs ansamblının birgə təşkilatçılığı ilə Azərbaycan icmasının Novruz Bayramına həsr olunmuş tədbiri keçirilib.
- Ukraynanın paytaxtı Kiyevdə yaşayan Azərbaycan icmasının Novruz Bayramına həsr olunmuş tədbiri keçirilib. Ukrayna Azərbaycanlıları Radasının və Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan bayram tədbiri Kiyev şəhər dövlət administrasiyası tərəfindən dəstəklənib.
- Norveç-Azərbaycan Mədəniyyəti Cəmiyyətinin təşkil etdiyi tədbirin bədii hissəsində cəmiyyətin nəzdində fəaliyyət göstərən “Dədə Qorqud” adına həftəsonu Azərbaycan dili məktəbinin milli geyimli şagirdlərinin ifasında milli rəqslərimiz təqdim olunub.
- Norveçin paytaxtı Osloda fəaliyyət göstərən Nizami Gəncəvi adına Azərbaycan həftəsonu məktəbində 12 mart tarixli dərsin mövzusu Novruz Bayramına həsr olunub. Ana dili dərsində uşaqlara xalqımızın qədim bayramı olan Novruz və onun mahiyyətindən doğan adət-ənənələr barədə ətraflı məlumat verilib.
- İsveçin Yöteborq şəhərində “Azərbaycan Evi” birliyinin və “İsveç-Azərbaycan Qarabağ Azadlıq Mərkəzi”nin təşkilatçılığı ilə xalqımızın qədim Novruz Bayramına həsr olunmuş bayram şənliyi keçirilib.
- Finlandiyanın paytaxtı Helsinkidə fəaliyyət göstərən Azərbaycan Evində Novruz Bayramına həsr olunmuş şənlik keçirilib.
- İspaniyanın Barselona şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin nəzdindəki Azərbaycan həftəsonu məktəbinin növbəti dərsi Novruz Bayramına həsr olunub. Barselonadakı Azərbaycan Cəmiyyətinin və Barselona Azərbaycan Evinin təşkilatçılığı ilə açıq havada baş tutan dərs zamanı şagirdlərə Novruz Bayramı və adət-ənənələri barədə məlumat verilib, bayrama xas şirniyyatların hazırlanması və yumurtaların boyanması qaydaları izah edilib.
- Finlandiyanın Turku şəhərində yaşayan Azərbaycan icmasının fəalları Novruz Bayramı münasibətilə bir araya gəliblər. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan bayram şənliyində Güney Azərbaycandan olan soydaşlarımız, yerli ictimaiyyətin nümayəndələri, Türkiyə və Şri-Lankadan qonaqlar iştirak ediblər.
- İsveç Krallığının paytaxtı Stokholmda “SAF” İsveç-Azərbaycan Dərnəyinin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş tədbir keçirilib.
- Niderland Krallığının Rotterdam şəhərində Benilüks Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Azərbaycan icmasının Novruz bayramı münasibətilə təntənəli tədbiri keçirilib.
- Novruz Bayramı münasibətilə İsveçrədə yaşayan Azərbaycan icmasının fəalları ilə görüş keçirilib. Azərbaycan icmasının üzvləri Dr.Tural Əliyev və İrana Novruzovanın təşəbbüsü

və təşkilatçılığı ilə Vintertur şəhərində baş tutan tədbirə Vintentur, Sürix, Soloturn, Bazel, Bern, Bel/Bienne, Sant Qallen, Aarau, Şafhauzen, Vil, Baden və digər şəhərlərdən yüzə yaxın soydaşımız və dost icmaları təmsil edən qonaqlar qatılıb.

- Fransanın paytaxtı Parisdə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Fransada Azərbaycanın Dostları Assosiasiyasının, ölkəmizin Fransadakı Səfirliyinin dəstəyi və "Paris Azərbaycan Evi"nin təşkilatçılığı ilə Novruz Bayramı münasibətilə şənlik keçirilib. Tədbirdə Azərbaycanın Fransadakı Səfirliyinin, UNESCO yanında daimi nümayəndəliyinin əməkdaşları, gənc həmvətənlərimiz, valideynlər və fransız ailələri iştirak ediblər.
- Paris şəhərində yerləşən Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Natəvan" Azərbaycan həftəsonu məktəbində Torpaq çərşənbəsi böyük sevinclə qeyd edilib.
- 20 mart 2023-cü il tarixində ABŞ-ın Minnesota ştatının Minneapolis şəhərində Minnesota-Azərbaycan Assosiasiyasının rəhbəri Günel Krişnanın təşkilatçılığı ilə Novruz Bayramı münasibətilə şənlik keçirilib.
- 21 mart 2023-cü il tarixində ABŞ-ın Florida ştatının Mayami şəhərində Azərbaycan icmasının Novruz Bayramına həsr olunmuş tədbiri keçirilib. Florida Azərbaycanlıları Cəmiyyətinin mədəniyyət məsələləri üzrə direktoru Təranə Neymətovanın təşkilatçılığı ilə baş tutan tədbirdə milli musiqimiz səsləndirilib, rəqslərimiz ifa edilib, Novruza xas əyləncəli oyunlar keçirilib.
- 21 mart 2023-cü il tarixində ABŞ-ın Kaliforniya ştatının San Xose şəhərində Novruz bayramına həsr olunmuş tədbir keçirilib. Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyətinin (ACSNC) təşkilatçılığı ilə baş tutan bayram şənliyində 300 nəfərə yaxın soydaşımız və qonaq, o cümlədən mer Allison Hiks də iştirak edib.
- 21 mart 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində fəaliyyət göstərən "My Way" Uşaq-Gənclər Yaradıcılıq İnkişaf Mərkəzində Novruz Bayramına həsr olunmuş tədbir keçirilib.Tədbir iştirakçılarını salamlayan mərkəz rəhbəri Alyona Bədəlova bayram münasibətilə soydaşlarımızı və qonaqları təbrik edib, Novruz Bayramının tarixindən, adət-ənənələrindən, Azərbaycanda dövlət səviyyəsində geniş şəkildə qeyd olunmasından danışıb.
- 21 mart 2023-cü il tarixində ABŞ-ın Texas ştatının Hyuston şəhərində Novruz bayramına həsr olunmuş təntənəli tədbir keçirilib. Hyustonda Azərbaycan Mərkəzinin və "Hyuston-Bakı" Qardaşlaşmış Şəhərlər Assosiasiyasının təşkilatçılığı ilə baş tutan tədbirdə Hyustonda yaşayan Azərbaycan icmasının fəalları, eləcə də ştatın Dallas, Ostin, San Antonio və digər şəhərlərindən, habelə paytaxt Vaşinqtondan qonaqlar iştirak ediblər.
- 22 mart 2023-cü il tarixində İsrailin Or-Akiva şəhərində fəaliyyət göstərən Azərbaycan diasporunun Novruz bayramına həsr olunmuş tədbiri keçirilib. Bayram tədbiri "Sevgi" Beynəlxalq Mərkəzinin, "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının, STMEGİ Fondunun və "Sevgi" instrumental ansamblının birgə təşəbbüsü ilə baş tutub. Tədbirdə "AzİZ" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının üzvləri, şəhər meriyasının və yerli ictimaiyyətin nümayəndələri iştirak edib.
- 23 mart 2023-cü il tarixində Şimali Karolinada fəaliyyət göstərən Azərbaycan Dostluq Təşkilatının rəhbəri Adika İqbal və diaspor fəalları Novruz bayramı münasibətilə Apeks şəhər meri Jak Gilberti ziyarət ediblər. Qeyd edək ki, mer Jak Gilbert 2021-ci ildə Azərbaycanın Müstəqillik Günü, 2022-ci ildə isə Zəfər Günü münasibətilə bəyannamələr imzalayıb. Merin 2022-ci ildə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar imzaladığı bəyannamə ilə 26 fevral Apeks şəhərində "Xocalıları Anım Günü" elan edilib. O, ermənilərin təzyiqlərinə baxmayaraq, bəyannamələri geri çəkməyib.

- 28 mart 2023-cü il tarixində İngiltərənin paytaxtı Londonda fəaliyyət göstərən Avropa Azərbaycan məktəbində Novruz şənliyi keçirilib. “Natəvan Group”un təşkilatçılığı ilə baş tutan bayram şənliyində Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin əməkdaşları, məktəb şagirdləri və tələbələr, Azərbaycan icmasının və medianın nümayəndələri iştirak ediblər.
- 20 mart tarixində Yeni Zelandiyanın Oklend şəhərində fəaliyyət göstərən “Azəri” Yeni Zelandiya-Azərbaycan Dostluq Mərkəzinin təşəbbüsü ilə Azərbaycan icması bir araya gələrək, Novruz Bayramına həsr olunmuş şənlik keçirib.
- 22 mart tarixində Novruz Bayramı münasibətilə Türkiyədə Manisa-Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin bir qrup üzvü Novruz Bayramı münasibətilə Manisa valiliyini və Böyükşəhər Bələdiyyəsini ziyarət edib. Orta Qara dəniz Azərbaycan Türkləri və Türksoylular Dərnəyinin təşkilatçılığı ilə Samsun vilayətinin Canik rayonunda, 23 mart tarixində İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin təşkilatçılığı ilə İğdır Azərbaycan Evində, İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyi ilə “Xarıbülbül” Azərbaycan Vizyon Teatrı Dərnəyinin birgə təşkilatçılığı ilə İstanbulda, Giresun Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə Giresun şəhərində müxtəlif tədbirlər keçirilib.
- 25 mart tarixində Avstraliya İttifaqının Melburn şəhərində Viktoriya-Azərbaycan Mədəniyyət Assosiasiyasının təşəbbüsü ilə Novruz bayramına həsr olunmuş tədbiri keçirilib. Tədbirdə Azərbaycanın Avstraliyadakı müvəqqəti işlər vəkili Ramil Qurbanov, Türkiyənin Melburndakı Baş konsulu Arif Eser Torun, Viktoriya parlamentinin millət vəkilləri Trung Luu və Devid Sautvik çıxış ediblər.
- Gürcüstanın paytaxtı Tbilisidə fəaliyyət göstərən “Alyans” Gənclər Mərkəzində xalqımızın qədim Novruz Bayramına həsr olunmuş tədbir keçirilib.
- Qazaxıstanın Türkistan vilayətində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan Etnomədəni Birliyinin nəzdindəki həftəsonu Azərbaycan məktəbinin növbəti dərsi Novruz Bayramına hazırlığa həsr olunub.
- Qazaxıstanın Cambul vilayətinin Şu şəhərində yaşayan Azərbaycan icması Novruz bayramına həsr olunmuş festivalda iştirak edib. “Azərbaycan” Etnomədəni Mərkəzinin təşkilatçılığı ilə yaradılmış Azərbaycan guşəsində ölkəmizin zəngin mədəniyyətini, milli mətbəxini və Novruz adət-ənənələrini əks etdirən suvenirlər, geyimlər və nümunələr nümayiş etdirilib.
- Qazaxıstanın Almatı, Aktau, Kostanay və Türküstan vilayətlərində keçirilən Novruz festivallarında Azərbaycan diasporu fəal iştirak edib. Aktau şəhərində baş tutan ənənəvi Novruz festivalında icmamızı “Dostluq” Azərbaycan Etnomədəni Birliyi təmsil edib.
- Qazaxıstanın Almatı şəhərində "Ata Yurd-Nomad" Azərbaycan Etnomədəni Respublika İctimai Birliyinin təşkilatçılığı ilə Novruz Bayramına həsr olunmuş güləş turniri keçirilib.
- Qazaxıstanın Kostanay vilayətində “Birlik” İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan icmasının Novruz Bayramına həsr olunmuş tədbiri keçirilib.
- Qazaxıstanın Aktau şəhərində yerləşən Şahmərdan Yesenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetində “Azərbaycan Mərkəzi” İctimai Fondunun və ölkəmizin Aktaudakı Baş Konsulluğunun birgə təşkilatçılığı və universitetin azərbaycanlı tələbələrinin iştirakı ilə Novruz Bayramı təntənəli şəkildə bayram edilib.
- Daşkənd vilayətinin Nurafşan şəhərində keçirilən təntənəli Novruz festivalında Azərbaycan Milli Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan diasporu təmsil olunub.
- Daşkənd şəhərindəki “Yeni Özbəkistan” parkında keçirilmiş təntənəli Novruz şənliyində Azərbaycan diasporu da iştirak edib. Tədbir çərçivəsində Respublika Azərbaycan Milli

Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə yaradılmış Azərbaycan sərgisini ziyarət edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev diasporumuzun üzvləri ilə görüşüb.

- Daşkənd şəhərinin Mirabad rayonunda "Heydər Əliyev İli" çərçivəsində Novruz Bayramı tədbiri keçirilib. Tədbir Komitənin dəstəyi, Azərbaycanın Özbəkistandakı Səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin, Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin və Daşkənd şəhər "Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə baş tutub.
- Qırğızıstanın Çuy vilayətinin Sokuluk rayonunun Pervomaysk kəndində Novruz bayramına həsr olunmuş tədbir keçirilib. "Azəri" İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan diasporunun üzvü Rəşid Səfərovun evində baş tutan tədbirdə ölkəmizin Qırğızıstandakı səfirliyin əməkdaşları, diasporumuzun qocaman üzvləri və fəalları, yerli hakimiyyət nümayəndələri və deputatlar iştirak ediblər.
- Bişkekdə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət və Təhsil Mərkəzində xalqımızın qədim Novruz Bayramına həsr olunmuş tədbir keçirilib.

## 28 May – Müstəqillik Günü ilə bağlı keçirilən tədbirlər

- Rusiya Federasiyası Dağıstan Respublikasının Mahacqala şəhərində 28 May – Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş tədbirlər keçirilib. Mahaçqala Azərbaycanlılarının Milli Mədəni Muxtariyyətinin təşkilatçılığı və Dağıstan Respublikası Milli Siyasət və Dini Məsələlər üzrə Nazirliyin dəstəyi ilə Dostluq Evinin qarşısında baş tutan bayram şənliyində yerli hökumətin, ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.
- Rusiyanın Solikamsk və Xabarovsk şəhərlərində 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə bayram şənlikləri keçirilib. Solikamsk şəhərinin "Solyanaya versta" adlı mənzərəli ərazisində baş tutan "Xalqlar Dostluğu Naminə" konsert proqramı Solikamskdakı Azərbaycan icmasının təşkilatçılığı və şəhər administrasiyasının dəstəyi ilə gerçəkləşdirilib.
- Rusiyanın Rostov-na-Donu şəhərində 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə "Qafqazdakı ilk Azərbaycan Demokratik Respublikasının 105 illiyi" mövzusunda konfrans keçirilib. Cənub Universitetinin (Biznes və Hüququn idarə edilməsi İnstitutu) və Rostov regional mədəni-maarifçilik ictimai təşkilatı "Birlik" Don Azərbaycanlılar İttifaqının birgə təşkilatçılığı ilə baş tutan tədbir "Qələbələrin rəmzləri" beynəlxalq forumu çərçivəsində gerçəkləşdirilib.
- Kiyev şəhərində Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun (UABD) təşəbbüsü və Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə təntənəli konsert keçirilib.
- Almaniyanın Köln şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi və 28 May – Müstəqillik Günü münasibətilə azərbaycanlı tələbələrlə görüş keçirilib.
- Almaniyanın Bavariya əyalətinin Erlangen şəhərində yerləşən "De Villa" Mədəniyyət Mərkəzində 28 May – Müstəqillik Günü münasibətilə "Son iclas" bədii-sənədli filminin təqdimat mərasimi keçirilib. Tədbirin təşkilinə şəhər meriyası və Azərbaycanın Almaniyadakı Səfirliyi dəstək göstərib. Qonaqlara 105 il öncə Azərbaycan taixində baş vermiş mühüm və qürurverici hadisə barədə məlumat verilib, ardınca Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevanın baş prodüseri olduğu "Son iclas" bədii-sənədli filmi nümayiş etdirilib.

- 17 may 2023-cü il tarixində ABŞ-ın Çikaqo şəhərində 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycanın Dövlət Bayrağı qaldırılıb. Şəhərin məşhur "The Daley Center" inzibati-ictimai mərkəzində baş tutan bayraqqaldırma mərasimi Amerikanın Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzinin (ACMA) təşkilatçılığı ilə həyata keçirilib.
- 17 may 2023-cü il tarixində ABŞ-ın İllinoys ştatının qubernatoru Cey Robert Pritsker Azərbaycanın Müstəqillik Günü münasibətilə bəyannamə imzalayıb. Bəyannamədə nəzərə çatdırılıb ki, ABŞ-da yaşayan bütün Azərbaycan əsilli amerikalılar kimi, Çikaqodakı Azərbaycan icması da regional müxtəlifliyə, mədəniyyətlərarası inkişafa, sülhə və çiçəklənməyə öz töhfələrini verirlər.
- 24 may 2023-cü il tarixində ABŞ-ın Çikaqo şəhərinin meri Brendon Conson 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə bəyannamə imzalayıb. Bəyannamədə Çikaqonun incəsənət və musiqi, biznes və maliyyə, hüquq və hökumət, təhsil və sosial xidmətlər, elm və tibb sahələrində şəhəri dəstəkləyən qürurlu və enerjili Azərbaycan-Amerika icmasının da evi olduğu vurğulanıb.
- 24 may 2023-cü il tarixində Kanadanın Toronto şəhərindəki Ontario əyalət parlamentinin binası qarşısında 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycanın Dövlət Bayrağının qaldırılması mərasimi keçirilib. "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə baş tutan mərasimdə Ontario parlamentinin üzvləri, Azərbaycan icmasının və ölkəmizə dost münasibəti bəsləyən digər xalqların nümayəndələri iştirak ediblər.
- 29 may 2023-cü il tarixində Kanadanın paytaxtı Ottavada ölkə parlamentinin binası önündə 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan bayrağının təntənəli şəkildə qaldırılması mərasimi keçirilib. Rəsmi hissənin sonunda Azərbaycanın Dövlət Himninin sədaları altında üçrəngli bayrağımız Lalin Həsənova tərəfindən Kanada parlamenti önündə səmaya ucaldılıb.
- 29 may 2023-cü il tarixində Kanadanın Ontario əyalətinin Hamilton şəhərində 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan Bayrağının qaldırılma mərasimi keçirilib. Hamilton Azərbaycan icmasının təşkilatçılığı ilə şəhərin "City Hall" mərkəzində baş tutan mərasimdə üçrəngli bayrağımız Azərbaycanın Dövlət Himninin sədaları altında səmaya ucaldılıb.
- 29 may 2023-cü il tarixində Kanadanın Saskaçevan (Saskatchewan) əyalətinin inzibati mərkəzi olan Regina şəhərində 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan Bayrağının qaldırılma mərasimi keçirilib. Saskaçevan Azərbaycan Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə "Regina City Hall" mərkəzinin önündə baş tutan mərasimdə şəhər meriyasının, Azərbaycan icmasının və ölkəmizə dost millətlərin nümayəndələri iştirak ediblər.
- 30 may 2023-cü il tarixində Kanadanın Kalqari şəhər meriyasının önündə 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə Azərbaycan Bayrağının təmtəraqlı qaldırılma mərasimi keçirilib. "Alberta Azərbaycan Mədəniyyət Cəmiyyəti"nin (ALACS) və "Azeri Calgary Stars"ın birgə təşkilatçılığı ilə baş tutan mərasimdə soydaşlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- 29 may 2023-cü il tarixində ABŞ-la Kanada arasında yerləşən dünyaca məşhur Niaqara şəlaləsi 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılıb. Azərbaycan Mərkəzinin üzvləri və Kanadada yaşayan soydaşlarımız Azərbaycan bayraqlarını dalğalandıraraq hadisəni izləyiblər.
- 29 may 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə tədbir keçirilib. Nyu-York Azərbaycan-Amerika Qadın

Cəmiyyəti və “My Way” Uşaq-Gənclər Yaradıcılığı İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin, Bruklin Ticarət Palatasının əməkdaşları, türk, yəhudi, özbək icmalarının təmsilçiləri və soydaşlarımız iştirak ediblər.

- 29 may 2023-cü il tarixində İllinoys ştatının Nayls regionunun meri Corc D Alpoqianis 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə bəyannamə imzalayıb. Bəyannamədə bildirilib ki, 28 may 1918-ci il tarixində Azərbaycan öz müstəqilliyini elan edərək, müsəlman aləmində ilk demokratik və dünyəvi dövlət olub. Azərbaycan tarixinin bu əlamətdar hadisəsinin demokratiyaya, müxtəlifliyə və insan hüquqlarına dəyər verən müasir və müstəqil dövlətin inkişafına yol açdığı, Azərbaycan xalqının bu illər ərzində firavan və sabit ölkə qurmaq yolunda böyük nailiyyətlər əldə etdiyi və bu uğurların qeyd edilməyə layiq olduğu vurğulanıb.
- 31 may 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində yaşayan Azərbaycan icmasının 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə tədbiri keçirilib. Azərbaycan-Nyu-York Assosiasiyasının təşkilatçılığı ilə açıq havada keçirilən tədbirdə Azərbaycan və türk icmasının fəalları, ziyalılar, yerli ictimayyətin nümayəndələri və ABŞ-da təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.
- 31 may 2023-cü il tarixində ABŞ-ın Kaliforniya ştatında yaşayan Azərbaycan icması 28 May – Müstəqillik Gününü qeyd etmək məqsədilə bir araya gəlib. Şimali Kaliforniya Azərbaycan Mədəniyyəti Cəmiyyətinin (ACSNC) təşkilatçılığı ilə tədbir açıq havada baş tutub.
- 28 may tarixində Avstraliya Azərbaycanlıları Assosiasiyası tərəfindən Avstraliya hökumətinin və parlamentinin bütün üzvlərinə, siyasi partiyaların liderlərinə 28 May – Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar  məktub göndərilib.
- Avstraliyanın Brizbon şəhərində Müstəqillik Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Kvinslenddə Azərbaycanın Milli Assosiasiyanın rəhbəri Fuad Aydınbəyzadə, Kvinslend parlamentinin millət vəkili Timoti Nikolls, uyğur icmasının təmsilçisi və digər icmaların fəalları çıxış ediblər. Müstəqillik Gününə və “Heydər Əliyev İli” çərçivəsində xalqımızın ümummilli liderinə həsr edilmiş video çarxlar, fotolar nümayiş olunub.
- 28 may tarixində Yaponiyanın https://ajmedia.jp xəbər portalında 28 May – Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar məlumat verilib.
- Daşkənd şəhərində fəaliyyət göstərən Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin (RAMMM) 28 May – Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Özbəkistan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Münasibətləri Komitəsinin binasında  baş tutan tədbir mərkəzin gənclər qanadının təşkilatçılığı ilə gerçəkləşdirilib.
- Azərbaycanın Özbəkistandakı Səfirliyi və onun nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə 28 May – Müstəqillik Günü münasibətilə “Wyndham Tashkent” hotelində rəsmi qəbul və bayram tədbiri  keçirilib. Tədbirdə Özbəkistan baş nazirinin müavini Cəmşid Xocayev, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, dövlət və hökumət nümayəndələri, çoxsaylı səfirlər, beynəlxalq təşkilatların nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, soydaşlarımız və jurnalistlər iştirak ediblər. Tədbirdə «Azad və çiçəklənən Azərbaycan» adlı foto sərgi təqdim olunub. Sərgidə müstəqil Azərbaycanın nailiyyətləri, ulu öndər Heydər Əliyev və ölkəmizin turizm imkanlarına dair fotoşəkillər yer alıb.

## HEYDƏR ƏLİYEV - 100

**Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan diaspor təşkilatları tərəfindən silsilə tədbirlər keçirilmişdir.**

- Rusiyanın Ulyanovsk şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər keçirilib. Komitənin dünyanın 70 ölkəsində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə əməkdaşlıq etdiyini vurğulayan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov qeyd edib ki, bu işlərin əsasında Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və Azərbaycançılıq ideologiyasını inkişaf etdirməsi dayanır.
- Rusiya Federasiyası Kabardin Balkar Respublikasının (KBR) Nalçik şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi və “Azəri” Azərbaycan Milli Mədəniyyət Mərkəzinin yaradılmasının 20 illiyi münasibətilə tədbir keçirilib.
- Rusiya Federasiyası Dağıstan Respublikasının Dərbənd şəhərində Dərbənd Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin Qadınlar Şurasının sədri Aygün Seyidovanın təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş dəyirmi masa keçirilib.
- Rusiyanın Pyatiqorsk şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.
- Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərində Komitənin dəstəyi və Şimali Osetiya-Alaniya Respublikası Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təntənəli tədbir keçirilib.
- Rusiyanın Soçi və Murmansk şəhərlərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlər keçirilib. “Azərbaycan Həmvətənlərə “Dostluq” Dəstək Mərkəzi” Soçi şəhər ictimai təşkilatı tərəfindən Gənclər Mərkəzində təşkil olunan tədbirdə diaspor fəalları iştirak ediblər.
- Moskva vilayətinin Dolqoprudnı şəhər dairəsində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş bayram tədbiri keçirilib. “Vperyod” Mədəniyyət Evində baş tutan tədbir Moskva vilayəti azərbaycanlılarının regional milli-mədəni muxtariyyət ictimai təşkilatı, Dolqoprudnı şəhər dairəsi azərbaycanlılarının yerli milli-mədəni muxtariyyəti və yerli administrasiya tərəfindən təşkil edilib.
- Krasnoyarsk şəhərindəki Diyar Filarmoniyasında müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Əsrlər boyu xalqların dostluğu” adlı konsert keçirilib.
- Moskva İslam İnstitutunda müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasətçi və dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Rusiya Federasiyası və Azərbaycan Respublikasının mədəni və elmi

əlaqələrinin inkişafında ilahiyyat və multikulturalizm praktikalarının rolu" mövzusunda dəyirmi masa keçirilib.

- Rusiya paytaxtındakı Moskva Dövlət Avtomobil Yolları Texniki Universitetində (MADİ) müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib. "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının və MADİ-nin birgə təşkilatçılığı ilə baş tutan tədbir "Heydər Əliyev İli" və Rusiyadakı "Müəllim, ustad İli" çərçivəsində gerçəkləşdirilib.
- Rusiyanın Ryazan şəhərindəki Maksim Qorki adına Universal Elmi Kitabxanada "Heydər Əliyevin Rusiya Federasiyası və Azərbaycan Respublikası əməkdaşlığının inkişafına töhfələri" mövzusunda dəyirmi masa keçirilib.
- Rusiyanın Sankt-Peterburq şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans keçirilib.
- Rusiya Federasiyası Başqırdıstan Respublikasının Ufa şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər keçirilib.
- Rusiyanın Sankt-Peterburq şəhərindəki "Ledovıy" sarayında müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Yüzilliklər boyu dostluq" adlı təmtəraqlı qala-konsert keçirilib. "Sankt-Peterburq və Leninqrad vilayətində Azərbaycan Milli-Mədəni Muxtariyyəti" şəhər ictimai təşkilatı tərəfindən təşkil edilən tədbirdə şəhərin qubernatoru Aleksandr Beqlov, Sankt-Peterburqun Qanunvericilik Məclisinin sədri Aleksandr Belski, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov, yerli ictimaiyyətin və milli birliklərin təmsilçilərindən ibarət 12 min tamaşaçı iştirak edib.
- Rusiyanın Xabarovsk şəhərində Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Xabarovsk diyarı "Azərbaycan Konqresi" ictimai təşkilatı tərəfindən müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə dəyirmi masa keçirilib.
- Ukraynanın Kiyev vilayətində yerləşən Taras Şevçenko adına parkda müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan ağacəkmə aksiyası keçirilib.
- Qroznı və Rostov-na-Donuda Heydər Əliyevin xatirəsi yad edilib.
- Ukraynanın Odessa şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.
- Kişinyovda ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi qeyd olunub. Moldova Azərbaycan İcmasının nümayəndələri sözügedən tədbirdə iştirak ediblər.
- 23 may 2023-cü il tarixində Almaniyanin Kotbus (Cottbus) şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə beynəlxalq boks turniri keçirilib. Komitənin dəstəyi ilə keçirilən yarış Diaspora Boks Liqası və Berlində fəaliyyət göstərən Azərbaycan Evinin təşkilatçılığı ilə baş tutub.
- 6 may 2023-cü il tarixində Almaniyanin Maqdeburq şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev: 100" adlı beynəlxalq boks turniri keçirilib.
- Avstriyada yaşayan tanınmış musiqiçi ailəsi Abuzər Manafzadə və Karen Danger-Manafzadənin müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi

Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr etdikləri "Azərbaycan, gözəlsən!" adlı videoklip hazırlanıb. Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə ərsəyə gələn videoklipin rejissoru AL SU-dur. "Azərbaycan, gözəlsən!" mahnısının sözləri və bəstəsi Karen Danger-Manafzadəyə, oranjemanı Abuzər Manafzadəyə məxsusdur.

- Helsinkidə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir keçirilib. Helsinki Azərbaycan Evi, "Azər-Türk" Gənclər Təşkilatı və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Finlandiya üzrə koordinatorluğu tərəfindən təşkil olunmuş tədbirdə diplomatik korpusun, yerli ictimaiyyətin, Azərbaycan diasporunun və ölkəmizə dost icmaların nümayəndələri iştirak ediblər.
- İspaniyanın Barselona şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli konsert keçirilib. "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti" və Barselona Azərbaycan Evinin təşkilatçılığı ilə baş tutan konsertdə "Kataloniya Cambra Orkestri", tanınmış azərbaycanlı opera ifaçısı, "Milano Music Master School" musiqi akademiyasının professoru Çinarə Şirin və müxtəlif rəqs qrupları çıxış ediblər.
- Norveçin paytaxtı Osloda 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü və xalqımızın ulu öndəri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təntənəli tədbir keçirilib. Komitənin dəstəyi, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveç üzrə koordinatorluğunun və Oslo Azərbaycan Evinin təşkilatçılığı ilə baş tutan tədbirdə dövlət və hökumət rəsmiləri, diplomatik korpusun, yerli ictimaiyyətin, Azərbaycan icmasının nümayəndələri və Azərbaycandan qonaqlar iştirak ediblər. Türkiyənin Norveçdəki səfiri Gülin Dinç xalqımızı Müstəqillik Günü və Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbrik edib.
- 25 aprel 2023-cü il tarixində Almaniyanın Horn Bad Maynberq şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "İn Memoriam" ("Xatirələrdə") adlı konsert keçirilib. Komitənin dəstəyi və Almaniyada fəaliyyət göstərən "Bridge of Sound" ansamblının və orkestrinin yaradıcısı və bədii rəhbəri, bəstəkar Xədicə Zeynalovanın təşkilatçılığı ilə baş tutan konsertdə yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- 19 aprel 2023-cü il tarixində Almaniyanın Köln şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konsert keçirilib.
- İsveçrənin Sürix şəhərində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyi münasibətilə "Xəzərdən Egeyə – unudulmayan əsərlər" adlı konsert proqramı təşkil olunub. Komitənin dəstəyi, İsveçrə Azərbaycanlıları Dostluq, Mədəniyyət və Həmrəylik Cəmiyyətinin təşkilatçılığı və Sürix Türk Musiqi Cəmiyyətinin iştirakı ilə baş tutan konsertdə diplomatik korpusun, Azərbaycan və türk icmalarının, yerli ictimaiyyətin və KİV-in nümayəndələri iştirak ediblər.
- Almaniyanın Drezden şəhərində "Heydər Əliyev İli" çərçivəsində fotosərgi açılıb. "İpək Yolu Azərbaycan" ("Seidenstrasse-Aserbaidschan") cəmiyyətinin təşkilatçılığı, Azərbaycanın Almaniyadakı Səfirliyinin, Drezdendəki "House of Resources" təşkilatının və "Ukrayna Evi"nin birgə dəstəyi ilə ərsəyə gələn sərgidə Azərbaycan rəssamlarının təsviri sənət əsərlərini, ölkəmizin əsrarəngiz təbiətini, tarixi, mədəni, dini irsini və adət-ənələrini əks etdirən fotoşəkillər nümayiş etdirilib.
- 9 may 2023-cü il tarixində Berlində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Almaniyadakı

Azərbaycan icmasının üzvləri ilə görüş keçirilib. Görüşdə Komitənin, Azərbaycanın Almaniyadakı səfirliyin əməkdaşları, icmamızın fəalları və Güney Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

- 4 may 2023-cü il tarixində Almaniyanın Hamburq şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Azərbaycan icması ilə görüş keçirilib. Görüşdə Hamburq əyalət parlamentinin millət vəkilləri Əli Rza Şimşək və Güngör Yılmaz, Azərbaycanın Almaniyadakı səfirliyinin əməkdaşı Ülvi Nağıyev, media mənsubları, Azərbaycan, Türk, Güney Azərbaycan və digər icmaların nümayəndələri iştirak ediblər.
- Belqrad şəhərində yaşayan soydaşlarımız müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə dahi şəxsiyyətin Taşmaydan parkındakı heykəlini ziyarət ediblər.
- Estoniyanın Tallinn şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Əbədilik” adlı təntənəli konsert keçirilib. Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi, Azərbaycanın Estoniyadakı Səfirliyinin və Tallinndəki Azərbaycan Evinin təşkilatçılığı ilə Estoniya Konsert Salonunda baş tutan tədbirdə Azərbaycanın Estoniyadakı fövqəladə və səlahiyyətli səfiri Anar Məhərrəmov, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Rina Solman, bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, yerli ictimaiyyətin, müxtəlif milli azlıqların və icmamızın nümayəndələri iştirak ediblər. Tədbirdə Narva şəhər Simfonik Orkestrinin iştirakı və Azərbaycanın xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə xalq artisti, xanəndə Nəzakət Teymurova, əməkdar artist, tarzən Əliağa Sadiyev, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Fatimə Cəfərzadənin ifasında azərbaycanlı bəstəkarların, eləcə də dünya klassiklərinin əsərləri səsləndirilib. Konsertdən sonra Komitə sədri Azərbaycan-Estoniya dostluq əlaqələrinin genişlənməsinə verdiyi töhfələrə görə layiq görüldüyü "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalını Estoniyanın keçmiş xarici işlər naziri Kristina Oylanda təqdim edib.
- Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə Estoniyanın Narva şəhərində də konsert proqramı təşkil olunub.
- Estoniyanın https://kuuuurija.postimees.ee xəbər portalında Tallinn şəhərində keçirilən və müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Əbədilik” adlı təntənəli konsertdən bəhs edilib.
- Norveçin paytaxtı Osloda fəaliyyət göstərən Nizami Gəncəvi adına həftəsonu Azərbaycan dili məktəbinin şagirdi Səlim Abbaszadənin yeni işıq üzü görən “Sən elə bir zirvəsən” adlı kitabının təqdimat mərasimi keçirilib. Komitənin dəstəyi və Nizami Gəncəvi adına həftəsonu Azərbaycan dili məktəbinin təşkilatçılığı ilə paytaxtın “Deichman Bjorvika” kitabxanasında baş tutan tədbirdə Azərbaycan icmasının və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- İtaliyanın Venesiya şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Azərbaycan icması ilə görüş keçirilib.
- Polşada “Heydər Əliyev İli” çərçivəsində Krakov şəhərində yaşayan Azərbaycan icması ilə görüş keçirilib. Görüşdə Azərbaycanın Polşadakı səfirliyinin əməkdaşları, “Xarı Bülbül”

Dünya Azərbaycanlıları Assosiasiyasının fəalları, bu şəhərdə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

- Heydər Əliyev Fondunun, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Budapeştdəki Azərbaycan Evinin təşkilatçılığı ilə Azərbaycanın Macarıstandakı Səfirliyi tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə klassik musiqi konserti və sərgi təşkil edilib. Ferens List Musiqi Akademiyasında keçirilən möhtəşəm tədbirdə Azərbaycanın xalq artisti Yalçın Adıgözəlovun müşayiəti ilə Macarıstanın məşhur Solnok Simfonik orkestri, istedadlı solist Selcan Nəsibli dahi Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Asəf Zeynallının, eləcə də macar bəstəkar Bela Bartok və Cakomo Puççininin əsərlərini ifa ediblər.
- Belqrad Universitetinin Filologiya fakültəsində fəaliyyət göstərən "Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi"ndə "Heydər Əliyev və dil siyasəti" mövzusunda konfrans, eləcə də "Azərbaycan və Serbiya arasında ədəbi-mədəni əlaqələr" mövzusunda müzakirələr və ədəbi-bədii tədbir keçirilib. "Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi" və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə diplomatik korpusun, yerli ictimaiyyətin, Azərbaycan diasporunun nümayəndələri, müəllim-tələbə heyəti və Azərbaycandan gələn qonaqlar iştirak ediblər.
- Tallinn şəhərindəki məşhur Kadriorq İncəsənət Muzeyinin konsert salonunda "Aydan" Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 28 May – Müstəqillik Gününə və müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konsert keçirilib.
- 9 may 2023-cü il tarixində İsrailin Afula şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Gözəl Azərbaycan diyarı" adlı incəsənət festivalının qala-konserti keçirilib.
- 15 may 2023-cü il tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fəaliyyət göstərən "Qarabağ" həftəsonu məktəbi müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Mən fəxr edirəm ki, mən Azərbaycanlıyam" adlı videoçarx hazırlayıb.
- 9 mart 2023-cü il tarixində Nyu-York şəhərindəki məşhur "Carnegie Hall" mədəniyyət mərkəzinin "Weill" konsert salonunda Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş VIII "Florida Keys" beynəlxalq musiqi müsabiqəsinin qala-konserti keçirilib.
- 9 may 2023-cü il tarixində ABŞ-ın "Viera select" jurnalında Nyu-York şəhərindəki "Carnegie Hall" mərkəzinin "Weill" konsert salonunda Heydər Əliyevə həsr olunmuş VIII "Florida Keys" beynəlxalq musiqi müsabiqəsinin qala-konserti barədə məlumat dərc olunub.
- 9 yanvar 2023-cü il tarixində Gürcüstana işgüzar səfər çərçivəsində "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin üzvləri və fəalları müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Tbilisi şəhərindəki büstünü ziyarət ediblər.
- 19 mart 2023-cü il tarixində ABŞ-ın "Musicalamerica" saytında "Heydər Əliyevin 100 illik yubileyinə musiqili ithaf" sərlövhəli məlumat yayımlanıb. Nyu-Yorkun məşhur "Carnegi Hall" mədəniyyət mərkəzində keçirilən "Florida Keys" Beynəlxalq Musiqi Müsabiqəsinin qaliblərinin qala-konsertinin Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunduğu nəzərə çatdırılıb.
- 9 may tarixində Bursa-Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyinin təşkilatçılığı, Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun, Azərbaycan Milli Elmlər Akademiyasının

və Bursa Uludağ Universiteti Ədəbiyyat fakültəsinin dəstəyi ilə Bursa Uludağ Universitetinin Mete Cengiz adına Mədəniyyət Mərkəzində Türkiyə Cümhuriyyətinin və müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illliyi münasibətilə “Bir millət, iki dövlət” adlı elmi konfrans keçirilib.

- 9 may tarixində Omanın nüfuzlu “Hibr əl-Vətən” jurnalında Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirovun müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş məqaləsi dərc olunub.
- 11 may tarixində Əskişəhər Azərbaycanlılar Dərnəyinin dəstəyi və Anadolu Universiteti nəzdindəki Heydər Əliyev adına Araşdırma və Tətbiq Mərkəzinin təşkilatçılığı ilə Türkiyənin Əskişəhər şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.
- 11 may tarixində Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası, İğdır Azərbaycan Evi Dərnəyi, Azərbaycanın Qarsdakı Baş Konsulluğu və Heydər Əliyev adına Fənn Liseyinin təşkilatçılığı ilə Türkiyənin İğdır şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Heydər Əliyev və türk dünyası” adlı tədbir keçirilib.
- 12 may tarixində Türkiyənin İğdır şəhərində fəaliyyət göstərən İğdır Azərbaycan Evində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.
- Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə 21 may tarixində İndoneziyada yaşayan diaspor fəalı Əli Hüseynlinin təşəbbüsü ilə onlayn görüş təşkil olunub.
- 30 may tarixində Seul şəhərində yerləşən “Four Seasons” mehmanxanasında ümummilli lider Heydər Əliyevin 100 illiyi və 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təntənəli tədbir keçirilib. Tədbirdə Koreyanın dövlət və hökumət rəsmiləri, müxtəlif qurum və təşkilatlarının rəhbər şəxsləri, o cümlədən Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin prezidenti Li Yun-Yonq, Koreya İdxalatçılar Assosiasiyasının prezidenti Kim Byonq-Kvan, Koreya Beynəlxalq Ticarət Assosiasiyasının vitse-prezidenti Kim Gi-Hyon, Koreyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Seulda akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri, KİV nümayəndələri, aparıcı Koreya şirkətlərinin, elmi-ictimai təşkilatların, ali təhsil ocaqları və beyin mərkəzlərinin təmsilçiləri, Koreyada təhsil alan Azərbaycanlı tələbələr və diaspor nümayəndələri iştirak edib. Tədbirin rəsmi hissəsinin yekununda Səfirliyin təşkilatçılığı və Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə Azərbaycanın xalq artisti Mircavad Cəfərovun rəhbərlik etdiyi “Cəngi” qrupunun ifasında Azərbaycanın etno-caz musiqi nümunələrindən ibarət konsert nümayiş olunub. Tədbirin keçirildiyi “Four Seasons” mehmanxanasının lobbisində ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhs edən kitab və materiallardan ibarət sərgi təşkil olunmuşdur.
- 2 iyun tarixində Yaponiyanın https://az.ajmedia.jp xəbər portalında “Akira Matsunaqa: Ulu öndər Heydər Əliyev Azərbaycanın siyasi tarixində əhəmiyyətli yer tutan böyük şəxsiyyət idi” sərlövhəli məqalə yerləşdirilib. Məqalədə Yaponiyanın Kaişi Universitetinin professoru, türkoloq və tarixçi alim Akira Matsunaqanın fikirlərinə geniş yer verilib.
- 3 iyun tarixində Türkiyənin İstanbul şəhərində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Türkiyə-Azərbaycan Dərnəklər Federasiyası və İnsan Haqları, Təhsil, Kültür və Həmrəylik Dərnəyinin birgə təşkilatçılığı ilə müasir Azərbaycan

dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Xalqın adamı" adlı tədbir keçirilib.

- 3 iyun tarixində Şimali Kipr Türk Respublikasının Girnə şəhərində Komitənin dəstəyi və Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi və 28 May – Müstəqillik Günü münasibətilə təntənəli tədbir keçirilib.
- 6 iyun tarixində Türkiyənin Giresun şəhərində Komitənin dəstəyi və Giresun Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, türk dünyasının görkəmli dövlət xadimlərindən biri olan Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər keçirilib. Tədbirlərdən öncə Giresun şəhərinin mərkəzində "Heydər Əliyev Uşaq Parkı"nın rəsmi açılış mərasimi keçirilib.
- İyunun 12-də Misirin paytaxtı Qahirə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə və 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir Ərəb mediasında geniş işıqlandırılıb.
- İyunun 18-də İordaniya Haşimilər Krallığının paytaxtı Əmmanda müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib. Ərəb Ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının İordaniyadakı koordinatoru Zümrüd Dadaşovanın və iordaniyalı tarixçi-yazıçı, Dr. Ömər Armutinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə ölkə parlamentinin üzvləri, yerli ictimaiyyətin tanınmış simaları iştirak ediblər.
- Cari ilin birinci yarımilində Səudiyyə Ərəbistanı, Misir, Əlcəzair və İordaniyanın xəbər portallarında Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Ərəb ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Misirdəki əlaqələndiricisi, tədqiqatçı-alim Seymur Nəsirovun müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş məqalələri yayımlanıb.
- Tbilisidə Komitənin dəstəyi ilə Azərbaycan və Gürcüstan Yazıçılar birliklərinin üzvü, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Gürcüstan üzrə nümayəndəliyinin rəhbəri, əməkdar jurnalist Şahismayıl Şəmmədoğlunun "Heydər Əliyev – Gürcüstan" kitabı Azərbaycan və gürcü dillərində nəşr olunub.
- Gürcüstanın Bolnisi rayonunda müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Həsən Əliyev adına Coğrafiya İnstitutunun əməkdaşı, "Soydaş" İctimai Birliyinin sədri Kamran Ramazanlının müəllifi olduğu "Heydər Əliyevin enerji strategiyası və Gürcüstan" kitabının təqdim olunub.
- "Heydər Əliyev İli" çərçivəsində "Alyans" Gənclər Mərkəzinin və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin kitabxanasını ziyarət ediblər. "Alyans" Gənclər Mərkəzinin adından kitabxanaya gürcü dilində işıq üzü görmüş "Heydər Əliyev – 100" kitabı hədiyyə olunub.
- Gürcüstanın Dmanisi şəhərində fəaliyyət göstərən Dmanisi Tədris Mərkəzində Heydər Əliyevə həsr olunmuş "Heydər Əliyev - 100" adlı kitabın təqdimatı keçirilib.
- Tbilisidə fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib.
- Tbilisi şəhərindəki Botanika bağında xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Heydər Əliyev adına xatirə bağı salınıb. Ağacəkmə

aksiyasında Azərbaycan, Türkiyə və Macarıstanın Gürcüstandakı səfirləri Faiq Quliyev, Ali Kaan Orbay, Ana Maria Şiko, Gürcüstan parlamentinin sədr müavini Arçil Talakvadze, deputat Zaur Darğallı, Gürcüstandakı Azərbaycanlı İş Adamları Birliyinin rəhbəri Nəriman Qurbanov, dövlət və hökumət üzvləri, “SOCAR Energy Georgia” şirkətinin, diplomatik korpusun, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, iş adamları, “Alyans” Gənclər Mərkəzinin, M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Mərkəzinin rəhbərliyi və soydaşlarımız iştirak ediblər.

- Gürcüstanın Marneuli şəhərində fəaliyyət göstərən Azərbaycan Evində Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyev – Gürcüstan azərbaycanlıları” mövzusunda tədbir keçirilib.
- Gürcüstanın Marneuli şəhərində fəaliyyət göstərən Azərbaycan Evində Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi və Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyevin 100 illiyi münasibətilə cüdo yarışı keçirilib.
- Gürcüstanın Bolnisi şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Dostluq” futbol turniri keçirilib.Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycanın Gürcüstandakı Səfirliyinin dəstəyi, “Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi”nin təşkilatçılığı ilə baş tutan turnirdə 8 komanda iştirak edib.
- Qazaxıstanın Türkistan vilayətində “Heydər Əliyev İli” çərçivəsində möhtəşəm tədbir keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Türküstan vilayəti "Qarabağ" Azərbaycan Etnomədəni Birliyinin təşkilatçılığı ilə Sayram rayonunun Karasu kəndində baş tutan tədbirdən öncə açıq havada milli folklorumuza və adət-ənənələrimizə aid maddi-mədəniyyət nümunələri sərgilənib.
- Qazaxıstanın Aktau şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli konsert keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Azərbaycanın Aktaudakı Baş Konsulluğunun, “Dostluq” Azərbaycan Etnomədəni Birliyinin və “Azərbaycan Mərkəzi” İctimai Fondunun birgə təşkilatçılığı ilə baş tutan tədbirdə yerli hakimiyyətin, ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.
- Qazaxıstanın Kostanay şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Azərbaycan Mədəniyyət Günlərinə həsr olunmuş silsilə tədbirlər keçirilib. “Birlik” Etnomədəni Birliyinin təşkilatçılığı ilə baş tutan tədbirlər silsiləsi A.Baytursınov adına Kostanay Regional Universitetində və Çelyabinsk Dövlət Universitetinin Kostanay şəhərindəki filialında elmi-praktik konfransın keçirilməsindən başlayıb.
- Qazaxıstanın paytaxtı Astanada müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.
- Qazaxıstanın paytaxtı Astanada müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. “Dünya Azərbaycanlıları Konqresi” İctimai Birliyinin təşkilatçılığı ilə Qumilyov adına Avrasiya Milli Universitetində baş tutan konfransda yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.
- Qazaxıstanın Atırau şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Xalel Dosmuhammedov adına Atırau Universitetində baş tutan tədbir

"Azərbaycan Mərkəzi" İctimai Fondunun, "Novruz" Azərbaycan Etnomədəni Birliyinin və Azərbaycanın Aktaudakı Baş Konsulluğunun birgə təşkilatçılığı ilə gerçəkləşdirilib.

- Qazaxıstanın Almatı şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş beynəlxalq forum keçirilib.
- Qazaxıstanın Türküstan vilayətinin Sayram rayonunun Ağsu kəndindəki Mədəniyyət Evində "Qarabağ" Azərbaycan Etnomədəni Birliyinin təşkilatçılığı ilə Azərbaycanın və türk dünyasının görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli tədbir keçirilib.
- Daşkənd şəhərindəki Əlişir Nəvai adına Dövlət Akademik Böyük Teatrında Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli konsert keçirilib.Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və Özbəkistan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi nəzdində Millətlərarası münasibətlər və xarici ölkələrlə dostluq əlaqələri Komitəsinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan və Özbəkistanın rəsmi şəxsləri, bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, yerli ictimaiyyətin, müxtəlif milli azlıqların və icmamızın nümayəndələri iştirak ediblər.
- Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi və Özbəkistanda Azərbaycan Milli Mədəniyyət Mərkəzinin 20 illiyi münasibətilə "Özbəkistan və Azərbaycan arasında inkişaf tarixi, yeni dövr və əməkdaşlıq perspektivləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans təşkil edilib.
- Daşkənd şəhərindəki "Kinematoqrafçılar Evi"ndə Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Əbədi dostluq və qardaşlıq" sənədli filmi təqdim olunub.
- Bişkek şəhərindəki Qırğızıstan-Azərbaycan Dostluğu Parkında Komitənin dəstəyi, "Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlılar Birliyi"nin təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş bayram şənliyi keçirilib.
- Qırğızıstanın paytaxtı Bişkek şəhərində Komitənin dəstəyi və "Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlılar Birliyi"nin təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans keçirilib.
- Qırğızıstanın Bişkek şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş mini-futbol turniri keçirilib. "Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlıların Birliyi" ictimai təşkilatı tərəfindən təşkil olunan turnirdə Qırğızıstan və Qazaxıstanda fəaliyyət göstərən Azərbaycan diasporunun komandaları iştirak ediblər.
- Qırğızıstanın paytaxtı Bişkekdə fəaliyyət göstərən "Azərbaycan Mədəniyyət-Təhsil Mərkəzi"ndə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş açıq dərs-fotosərgi keçirilib.
- 2023-cü ilin aprel ayında Bolqarıstanda "AKKORD" jurnalının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş buraxılışının təqdimatı keçirilib.
- 2023-cü ilin may ayında Braziliya Diplomatik Jurnalistlər Assosiasiyasının əsasını qoyan və prezidenti olan, özündə iki www.omundodiplomatico.com və www.brasiliainfoco.com xəbər saytını birləşdirən "Brasilia in Foco" media şirkətinin rəhbəri, adıçəkilən saytların baş direktoru, köşə yazarı Fabiana Ceyhan öz təşəbbüsü ilə, təmənnasız şəkildə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan veriliş hazırlayıb https://youtu.be/OlxIxZrgvWU




ГЕЙДАР ӘЛИЕВТІҢ
100





100º
ANIVERSÁRIO








100
28. MAI
105


Ümummilli lider
100
1923
2023
HEYDƏR ƏLİYEV






ДРУЖБА И БРАТСТВО НА ВЕКА
Азербайджан и Россию связывают давние и всесторонние дружеские связи
Гейдар Алиев








The Architect of Prosperity
Azerbaijan is my heart!
Azerbaijan is my breath!
Azerbaijan is my life!
The Leader of the Nation


Ambassador
of Azerbaijani Culture
Friend of the Youth










CONCERT
DÉDIÉ AU
100
ANNIVERSAIRE DE
HEYDAR
ALIYEV
ORCHESTRE DE
CHAMBRE DE BAKOU


UVÁDÍ
KONCERT
K 100. VÝROČÍ NAROZENÍ HEJDARA ALIJEVA
A K 30.VÝROČÍ ČESKO-ÁZERBÁJDŽÁNSKÉHO PŘÁTELSTVÍ
ČTVRTEK 11.KVĚTNA [20.00] | KINO LUCERNA PRAHA
CAS
100


HAYDAR ALIYEV TAVALLUDINING
100 YILLIGI




HEYDƏR ƏLİYEV
100





## MİLLİ MƏDƏNİYYƏTİN QORUNMASI VƏ AZƏRBAYCANIN TARİXİ VƏ MƏDƏNİ ABİDƏLƏRİ, MİLLİ-MƏDƏNİ DƏYƏRLƏRİNİN (FOLKLOR NÜMUNƏLƏRİ, MUSİQİSİ, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT) TƏBLİĞİ

- Rusiyanın paytaxtı Moskvada yerləşən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin “Azərbaycan” pavilyonunda “Moskva vilayəti azərbaycanlılarının milli-mədəni muxtariyyəti”nin təşkilatçılığı ilə görkəmli diplomat, ictimai xadim, tarix və mədəniyyət tədqiqatçısı Ramiz Abutalıbovun anım gecəsi keçirilib.
- Rusiya Xalqlar Dostluğu Universitetinin Filologiya fakültəsinin Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı auditoriyasında universitetin “Dostluq” Azərbaycan Tələbələri İcmasının təşkilatçılığı ilə müxtəlif xalqların böyük şairlərinin şeirlərinə həsr olunmuş “Şeirlər – dostluq körpüsü” adlı ədəbi-bədii gecə keçirilib.
- Rusiyanın Sankt-Peterburq şəhərində “Çinar” vokal-xoreoqrafik rəqs ansamblının 25 illik yubileyinə həsr olunmuş konsert keçirilib.
- Moldova Dövlət Universitetində keçirilən Milli Geyim Günündə Azərbaycan icması layiqincə təmsil olunub.
- Cenevrə Universitet Xəstəxanasında Azərbaycan icmasının fəalı Mariya Xan-Xoyskaya Martinyolinin təşəbbüsü ilə Azərbaycan və gürcü mədəniyyətini əks etdirən guşə nümayiş etdirilib.
- Stokholm şəhərində fəaliyyət göstərən İsveç-Azərbaycan Birliyinin (“SAF”) nəzdindəki “Qarabağ” rəqs qrupu iki festivalda iştirak edib. Türk Gənclər Federasiyanın və İsveç Tədqiqat Birliyinin (İBN RUSHD) təşkil etdikləri festivallar 23 aprel – Milli Suverenlik və Uşaq Bayramına və Ramazan Bayramına həsr olunub. “Şuşanın dağları” və “Naz eləmə” Azərbaycan rəqslərini təqdim edən “Qarabağ” rəqs qrupunun çıxışı alqışlarla qarşılanıb.
- Osloda yerləşən “Deichman Bjorvika" Mədəniyyət Mərkəzində azərbaycanlı modelyer-dizayner, Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri Gülnarə Xəlilovanın “Northern Stories by Cizgi” (“Cizgi”nin Şimal hekayələri) adlı ekspozisiyası nümayiş etdirilib. Oslo Azərbaycan Evinin və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveç üzrə koordinatorluğunun təşkil etdiyi sərgidə Qarabağ və Norveç ornamentləri ilə bəzənmiş əl işləri, ipək yaylıqlar və libaslar təqdim olunub.
- İsveçin Yöteborq şəhərində yerləşən “Dalheimers” evinin konfrans zalında “Qobustan” Azərbaycan Aydınlar Ocağının təşkilatçılığı ilə “Azərbaycan qadınlarının cəmiyyətdə unikal rolu” mövzusunda ədəbi-bədii gecə keçirilib.
- 5 yanvar tarixində Myanmar Milli Kitabxanasına (National Library of Myanmar) ilk dəfə Azərbaycan dilində kitab və jurnallar təqdim olunub. Bu məqsədlə Neypyido (Naypyitaw)

şəhərində yaşayan “NayPyiTaw Beynəlxalq Elmlər Akademiyası” beynəlxalq məktəbinin direktoru, diaspor fəalı Elşən Bənnayev kitabxananın müdiri Pyone Pyone Aye (Daw) ilə görüşüb, Azərbaycanın görkəmli yazıçısı Cəlil Məmmədquluzadənin “Saqqallı uşaq” hekayələr toplusunu və “Çapar” tarix dərgisini kitabxana müdirinə təqdim edib.

- 8 yanvar tarixində Türkiyənin Antalya vilayətinin 3 bələdiyyəsinin (Antalya Böyükşəhər Bələdiyyəsi, Kəpəz Bələdiyyəsi və Muratpaşa Bələdiyyəsi) kitabxanasında Antalya Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatı bölmələri yaradılıb.
- Fevralın 23-də Misir, İordanya, İraq, Əlcəzair və digər ərəb ölkələrinin kütləvi informasiya vasitələrində “Qahirə və Bakı arasında münasibətlərin möhkəmlənməsi: Qahirə Universitetində Azərbaycan dili tədrisinin davam etdirilməsi” sərlövhəli məlumat yayımlanıb.
- Fevral ayında Misirin paytaxtı Qahirədə yerləşən “Cairo Tower” teleqülləsində “Azərbaycanı kəşf et!” (“Discover Azerbaijan!”) layihəsinin təqdimat mərasimi keçirilib. Komitənin dəstəyi və Qahirə şəhərində yaşayan diaspor fəalı Dr. Sədaqət Əliəşrəfin təşəbbüsü ilə baş tutan tədbirdə Azərbaycanın Misirdəki səfirliyinin əməkdaşları, yerli ictimaiyyətin tanınmış şəxsləri, nüfuzlu şirkətlərin və media qurumlarının rəhbərləri iştirak ediblər.
- Fevral ayında Əlcəzairin “Jeel dz TV” telekanalında “Odlar diyarı və nadir gözəlliklər. Azərbaycan mədəniyyətinin adət və ənənələri ilə tanış olaq” adlı veriliş yayımlanıb.
- 26 aprel tarixində Yaponiyada yaşayan diaspor fəalı Nemət Mirzənin Azərbaycan təhsili barədə fikirlərinə “Qərbi Yapon” (西日本新聞) qəzetində dərc olunmuş “Təhsil və tərbiyəyə dünyadan baxış” sərlövhəli məqalədə yer verilib.
- 9 may tarixində Türkiyənin Antalya şəhərində fəaliyyət göstərən “Azərbaycan Xalqlar Dostluğu” diaspor təşkilatının nəzdində “Vətən” milli rəqs qrupu fəaliyyətə başlayıb. Rəqs qrupuna diaspor fəalı Anjela İbrahimova rəhbərlik edir.
- 22 iyun tarixində Türkiyənin Bilecik şəhərində azərbaycanlı rəssam Elçin Mustafayevin “Rənglərin səsi” adlı fərdi rəsm sərgisinin açılış mərasimi keçirilib.
- 28 fevral- 4 mart 2023-cü il tarixində Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyadda Şahzadə Mişaal bin Məhəmməd bin Səud bin Əbdüləzizin himayəsi ilə “Vision 2030” proqramı çərçivəsində keçirilən rəsm sərgisində ilk dəfə olaraq azərbaycanlı rəssam Aynur Paşayevanın əsərləri nümayiş etdirilib.
- Cari ilin mart ayında Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə “GEMS American Academy” məktəbinin düşərgəsində keçirilən beynəlxalq kulinariya festivalında Azərbaycan təmsil olunub.
- Mart ayında Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi və Dubay şəhərlərindəki müxtəlif məktəblərdə “İnternational Day” layihəsi çərçivəsində Azərbaycanın təqdimat mərasimləri keçirilib.
- Mart ayında Küveytdə “Vətənsevər” Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan icmasının Novruz bayramına həsr olunmuş tədbiri keçirilib.
- Mayın 13-də Oman Sultanlığının paytaxtı Maskatda fəaliyyət göstərən “PDO School” məktəbində keçirilən və 18 ölkənin nümayəndələrinin qatıldığı “İnternational Market Day” beynəlxalq tədbirində Azərbaycan da təmsil olunub. “PDO School” məktəbi Omanın “Petroleum Devolopment Oman” neft-qaz şirkəti tərəfindən maliyyələşdirilir. Bu məktəbdə

şirkətdə çalışan əcnəbilərin, o cümlədən azərbaycanlı mütəxəssislərin 3-11 yaşlarında olan övladları təhsil alır.

- 2023-cü ilin may ayında Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirovun müəllifi olduğu məqalədə müsəlman Şərqində ilk dünyəvi, demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixindən, həyata keçirdiyi islahatlardan ətraflı bəhs olunub.
- Mayın 28-də Küveytin https://bobiannews.net saytında Küveyt Dillər Universitetinin tələbəsi Varis Qaçayevin 28 May – Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş məqaləsi yayımlanıb.
- 29 iyun tarixində Əlcəzairin "Jeel dz TV" telekanalının səhər proqramında müsəlman ölkələrində, o cümlədən Misir, Livan, Pakistan və Azərbaycanda Qurban bayramının keçirilmə ənənələrindən bəhs edilib. Əlcəzairdə yaşayan Azərbaycan diasporunun fəal üzvü Xumar Nəbiyeva ölkəmizdə bu bayramın necə qeyd edilməsi barədə ətraflı məlumatla çıxış edib.
- İyun ayında Qahirədə fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində "Heydər Əliyev İli" çərçivəsində yeni layihəyə – muğam sənətinin tədrisinə başlanıb.
- Özbəkistan Dövlət Konservatoriyasının böyük zalında Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirova həsr olunmuş "Sevgimizin səması" adlı simfonik konsert keçirilib. Qardaş ölkədə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə baş tutan tədbirdə mədəniyyət və incəsənət xadimləri, yerli ictimaiyyətin tanınmış nümayəndələri, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin rəhbərliyi, Daşkənddəki ali məktəblərin müəllim-tələbə heyəti iştirak edib.
- Daşkənd şəhərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya həsr olunmuş tədbir keçirilib. Respublika Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Münasibətləri Komitəsinin binasında təşkil olunan bayram tədbiri Şuşadakı "Xarı bülbül" beynəlxalq festivalı çərçivəsində gerçəkləşdirilib.
- Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində "Şuşa Günləri" layihəsinin rəsmi açılış mərasimi keçirilib. Şuşa şəhərinin türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi çərçivəsində baş tutan tədbir Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin birgə layihəsi əsasında gerçəkləşdirilib. Tədbirin bədii hissəsində Özbəkistanın xalq artisti, "Yalla" Ansamblının bədii rəhbəri Fərrux Zakirov, azərbaycanlı musiqiçilər Nisbət Sərdayeva, Rüstəm Müslümov, Elnur Salahovdan ibarət muğam triosu, Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdindəki "Azərbaycan qızları" rəqs ansamblı və məşhur "Özbəgim yoshlari" musiqili rəqs qrupu çıxış ediblər. Konsert proqramında Azərbaycan və özbək mahnıları, muğamlar səsləndirilib, milli rəqslər nümayiş etdirilib.

## Həftəsonu məktəblərinin fəaliyyəti və ana dilinin qorunması

- Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən Azərbaycan Humanitar Əməkdaşlıq Mərkəzinin nəzdində həftəsonu Azərbaycan məktəbi açılıb.

- 11 may 2023-cü il tarixində İsveçrənin Bazel şəhərindəki JUKİBU kitabxanasında “Azərbaycanın Dostları" Birliyinin təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin “Yeddi gözəl” poemasındakı “Fitnə” hekayəsi əsasında hazırlanmış “Fitnə” kitabının təqdimatı keçirilib.
- 11 may 2023-cü il tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Berlinə səfəri çərçivəsində bu şəhərdə fəaliyyət göstərən “Xarı Bülbül“ Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdindəki Azərbaycan həftəsonu məktəbinin fəaliyyəti ilə tanış olub. “Xarı Bülbül” Azərbaycan Mədəniyyət Mərkəzinin sədri, Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin sədr müavini Sevda Badaliouri qonaqlara məktəbin fəaliyyəti və tədris planı barədə ətraflı məlumat verib.
- Rusiyanın Sankt-Peterburq şəhərində “Çinar” vokal-xoreoqrafik rəqs ansamblının 25 illik yubileyinə həsr olunmuş konsert kecirilib.
- Norveç-Azərbaycan Gənclər Təşkilatının (NAYO) nəzdində fəaliyyət göstərən Nizami Gəncəvi adına Azərbaycan dili və mədəniyyəti həftəsonu məktəbində yeni layihəyə start verilib. Komitənin dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində məktəbəqədər uşaqlar üçün təlim-tədris kursları təşkil olunub. Həvəslə kurslara gələn uşaqlar burada Azərbaycan dilini, milli adət-ənənələrimizi və tariximizi öyrənir, həm də müxtəlif üsullarla əylənirlər.
- Qazaxıstanın Türkistan televiziyasında “Turan Today” xəbərlər proqramının Azərbaycan dilində xidməti fəaliyyətə başlayıb. Proqramın aparıcısı Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax-Türk Universitetinin Tibb fakültəsində təhsil alan III kurs tələbəsi Elvin Həsənovdur. O, 2001-ci ildə Azərbaycanda doğulub. Soydaşımız Türkistan TV-də türk dilində də proqram aparır.
- Qazaxıstanın Şu şəhərində fəaliyyət göstərən “Azərbaycan” Etnomədəni Birliyinin təşkilatçılığı ilə Azərbaycan həftəsonu məktəbi açılıb.
- Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin prorektoru Firuza İkramxanova və universitetin professoru, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinovla görüş keçirilib. Mərkəzin dəstəyi ilə universitetin tədris proqramına Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatı mövzularının daxil edilməsi, bu ilin aprelində universitetdə azərbaycanlı mütəxəssislərin və alimlərin həmin mövzularda açıq mühazirələrinin təşkili məsələləri üzrə razılıq əldə olunub.
- Bişkek şəhərində Beynəlxalq Ana Dili Günü münasibətilə keçirilən “Dövlət dili dostluq və birlik dilidir” şəhər festivalında Azərbaycan icması da təmsil olunub. Toktobolot Abdumomunov adına Qırğız Dövlət Akademik Teatrında baş tutan festivalda paytaxtda yaşayan 9 etnosun nümayəndələri öz xalqları haqqında məlumatı doğma və qırğız dillərində təqdim ediblər.

## LOBBİÇİLİYİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLAR

- 6 mart 2023-cü il tarixində İsveçrəyə səfər çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Vaqif Seyidbəyovun Sürixdəki “Buta” rəqs dərnəyinin və Soloturndakı Azərbaycan-Türk Mədəniyyət Mərkəzinin üzvləri ilə görüşü keçirilib.
- Niderlandda fəaliyyət göstərən Azərbaycan icması ölkə parlamentinin Nümayəndələr (Aşağı) Palatasına müraciət edib. “Ana Vətən” Avropa Azərbaycanlı Qadınlar

Birliyinin adından Niderland parlamentinin Nümayəndələr Palatasının sədri Vera Berqkampa ünvanlanan məktubda bu ölkədə yaşayan 15 minlik azərbaycanlı icmasının Azərbaycan və Ermənistan arasında vəziyyətin gərginləşməsi və aşağı palatanın bu məsələdə nümayiş etdirdiyi birtərəfli, qərəzli mövqeyi ilə əlaqədar narahatlığı diqqətə çatdırılıb.

- Dünya şöhrətli azərbaycanlı alim, Münhendəki Helmholtz Mərkəzinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, Azərbaycanın əməkdar elm xadimi Məsud Əfəndiyev Kanadada fəaliyyət göstərən riyaziyyat elmləri sahəsində araşdırmalar üzrə Fields İnstitutunun ömürlük mükafatına layiq görülüb. Bu barədə Fields İnstitutunun direktoru Prof. Dr.Kumar Murti adından azərbaycanlı alimə ünvanlanan məktubda məlumat verilib.
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsində Niderlandın İsrail üzrə Məlumat və Sənədləşdirmə Mərkəzinin (CIDI) direktoru Hanna Ludenlə görüş keçirilib. Görüşdə Niderlandda yaşayan diaspor fəalı Səltənət Rəvanqızı da iştirak edib. İsraildə dünyaya gələn Hanna Luden 30 ildən artıqdır Niderlandda yaşayır, mərkəz direktoru olmaqla yanaşı, yerli və xarici mediada tez-tez məqalələrlə çıxış edir.
- Fransanın Qurji-lö-Şato kommunasının meri Lu Bomiye və “Danser” jurnalının baş redaktoru Mişel Oden Fransada Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər ediblər. Qonaqları Paris Azərbaycan Evinin rəhbəri, Fransada Azərbaycanın Dostları Assosiasiyasının baş katibi Mirvari Fətəliyeva müşayiət edib.
- 4 aprel 2023-cü il tarixində Kanadaya səfər çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Ontario parlamentinin deputatları Françesko Sorbara, Anna Roberts və Maykl Tibollo ilə görüşü olub.
- 5 aprel 2023-cü il tarixində Kanadaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Xarici İşlər Nazirliyinin parlament katibi Robert Olifantla görüşü keçirilib.
- 17 aprel tarixində Avstraliyada fəaliyyət göstərən Azərbaycan diasporunun fəalları yerli siyasi partiyaların və Yeni Cənubi Uels parlamentinin bir qrup üzvü ilə görüşüb.
- Aprel ayında Birləşmiş Ərəb Əmirliklərinin kral ailəsinin üzvü, Şarja əmirliyinin Şahzadəsi Hend bint Faisal əl-Qasimi bu ölkədə yaşayan Azərbaycan icmasının bir qrup xanım üzvünü öz iqamətgahında qəbul edib. Görüşdə Ərəb Ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Birləşmiş Ərəb Əmirliklərindəki koordinatoru Nuranə Hüseynova və Yaxın Şərqdə protokol məsələləri üzrə britaniyalı məsləhətçi, mədəniyyətlərarası əlaqələr üzrə ekspert Maria Hall da iştirak ediblər.
- Mayın 8-də Misirdə fəaliyyət göstərən “Eltalhy Fondu”nun təsisçisi, tanınmış ilahiyyatçı-alim Əhməd əl-Talhi “Facebook” səhifəsində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı status paylaşıb.
- Mayın 28-də Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin təsisçiləri və üzvləri 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.
- 29 may 2023-cü il tarixində Kanada parlamentinin üzvü Françesko Sorbara Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evini ziyarət edib.

- 30 may tarixində Koreya Respublikasına səfər çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Koreya Milli Assambleyasının Kitabxanasının direktoru Dr. Li Myunq Vu ilə görüşüb.
- Koreya Respublikasına səfər çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Koreya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri So Byonq Su ilə görüşü olub.
- Koreya Respublikasına səfər çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Koreya Respublikasının xarici işlər nazirinin xaricdə yaşayan koreyalılarla iş və konsulluq məsələləri üzrə müavini Çoi Yeonghan ilə görüşüb.
- Komitə sədrinin rəhbərliyi ilə nümayəndə heyətinin Koreya Respublikasına səfəri çərçivəsində 31 may tarixində Seul şəhərindəki Multikulturalizm Muzeyinin direktoru Kim Yun Tae ilə görüş keçirilib, əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.
- Daha bir görüş Koreyanın Hankuk Xarici Dillər Universitetinin beynəlxalq əlaqələr və maliyyə məsələləri üzrə vitse-prezidenti Tae Yeoub Yanqla olub. Görüşdə Hankuk Universitetinin Asiya dilləri fakültəsinin Türk-Azərbaycan bölməsinin rəhbəri və Beynəlxalq Əlaqələr Departamentinin direktoru, professor Çonq Jin Oh, Prof. Dr.Man-A Li və Hankuk Xarici Dillər Universitetinin professoru, azərbaycanlı alimlər şəbəkəsinin əlaqələndiricisi Rövşən İbrahimov da iştirak edib. Vitse-prezident Mərkəzi Asiyada ilk olaraq Hankuk Xarici Dillər Universitetində Azərbaycan-türk dillərinin tədrisi kafedrasının fəaliyyət göstərdiyi, kafedranın nəzdində Azərbaycan Mərkəzinin yaradıldığını bildirib, Azərbaycanda Bakı Dövlət Universiteti, ADA Universiteti və Azərbaycan Dillər Universiteti ilə əməkdaşlıq əlaqələrindən söz açaraq, 2018-ci ildən indiyədək ADA Universiteti vasitəsilə Azərbaycanla 22 tələbə mübadiləsinin aparıldığını diqqətə çatdırıb. Görüş zamanı əməkdaşlıq perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.
- Qazaxıstana səfəri çərçivəsində Astanadakı Dostluq Evini ziyarət edən Sinqapur Prezidenti Həlimə Yaqub buradakı Azərbaycan Mərkəzində nümayiş olunan milli-mədəni ekspozisiyalarla tanış olub. Möhtərəm qonağı Azərbaycanın milli geyimində qarşılayan “Xəzər” Azərbaycan Etnomədəni Birliyin sədri Mahir Rzayev xalqımızın zəngin mədəni irsi barədə Sinqapur dövlət başçısına məlumat verib. Birliyin sədr müavini Sadiq Namazovun tarda Sinqapurun Dövlət Himnini ifa etməsi qonağa xoş anlar yaşadıb. Görüşün sonunda Sinqapur Prezidentinə üzərində “Qarabağ Azərbaycandır!” yazılmış suvenir boşqab hədiyyə edilib.
- Astana şəhərində keçirilən Qazaxıstan Xalq Assambleyasının 32-ci sessiyasında Azərbaycan diasporunun nümayəndələri də iştirak ediblər. Sülh və Razılıq Sarayında “Ədalətli Qazaxıstan: birlik, sabitlik, inkişaf” mövzusunda baş tutan tədbirə icraedici, qanunverici, yaradıcı orqanların, Xalq Assambleyasının, etnik-mədəni birliklərin, vətəndaş cəmiyyətinin, dini konfessiyaların, diplomatik korpusun, yerli və xarici KİV-in təmsilçilərindən ibarət mindən artıq nümayəndə və qonaq qatılıb.

## XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN İNTEQRASİYASI VƏ İCTİMAİ-SİYASİ FƏALLIĞININ ARTIRILMASI

- Avstriyanın Anton Brukner adına Konservatoriyasında təhsil alan azərbaycanlı tələbə, respublika və beynəlxalq müsabiqələr laureatı, pianoçu Ayan Məmmədli dahi bəstəkar Amadey Vofqanq Motsartın doğum günü ilə əlaqədar bu ölkədəki tədbirlərə qatılıb, bəstəkarın Vyanadakı ev-muzeyində çıxış edib. Onun ifası rəğbətlə qarşılanıb. Qeyd edək ki, Ayan Məmmədli musiqi karyerasında ilk "Qran-Pri" mükafatına məhz Amadey Vofhanq Motsartın doğulduğu Zalsburq şəhərində 2015-ci ildə keçirilmiş müsabiqədə layiq görülüb.
- Azərbaycan əsilli İsveç siyasətçisi, diaspor fəalı Turan Əliyev 2023-2026-cı illər üçün Höteborqdakı Vaxtından Əvvəl – Şərti Azad Etmək üzrə Xidmətin Müşahidə Şurasının üzvü kimi vəzifəsinin icrasına başlayıb. Diaspor fəalının bu regional təyinatının müddəti əhatə edir.
- Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveç üzrə əlaqələndiricisi Ramil Əliyev ölkənin Sosialist Solçu partiyasının Östenşö şöbəsinin illik toplantısında yekdil səslə İdarə Heyətinin üzvü seçilib.
- 22 yanvar 2023-cü il tarixində Yuta Azərbaycan Dostluq Təşkilatının sədri Əsmər Qarayevanın təşkilatçılığı ilə Dünya Ticarət Mərkəzində ABŞ-ın Yuta ştatının Solt-Leyk-Siti şəhərində fəaliyyət göstərən Azərbaycan və türk icmalarının üzvləri ilə görüş keçirilib. Görüşdə Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Xəzər İbrahim iştirak edib.
- 1 mart 2023-cü il tarixində İsrail Prezidenti İsxaq Hersoq Yerusəlim şəhərindəki Prezident iqamətgahında Dağ Yəhudiləri icmasının üzvlərini qəbul edib.
- 6 mart 2023-cü il tarixində Kanadaya səfər çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin 3-cü ərazi şöbəsinin müdiri Səlhət Abbasovanın Ottava və Monreal şəhərlərində yaşayan Azərbaycan icmasının üzvləri ilə görüşü keçirilib.
- 9 mart 2023-cü il tarixində Komitə Kanadanın ən nüfuzlu universitetlərindən biri olan Toronto Universitetinin kitabxanasına Azərbaycan həqiqətlərini və mədəniyyətini əks etdirən 20 kitab hədiyyə edib.
- 12 mart 2023-cü il tarixində Kanadaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin 3-cü ərazi şöbəsinin müdiri Səlhət Abbasovanın Toronto şəhərində yaşayan türk xalqlarının, yəhudi icmasının nümayəndələri və Cənubi Azərbaycandan olan soydaşlarımız ilə görüşləri keçirilib.
- 25 aprel tarixində Türkiyənin Giresun şəhərində fəaliyyət göstərən Giresun Azərbaycanlılar Dərnəyində İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatının qalibi Cansu Bektaşla görüş keçirilib. Dərnək adından Cansu Bektaşa Azərbaycan bayrağı və təşəkkür plaketi təqdim olunub.
- 9 may 2023-cü il tarixində İsrailin Yerusəlim şəhərində yerləşən Ben Zvi Universitetində Komitənin dəstəyi, "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının və Ben Zvi Universitetinin birgə təşkilatçılığı ilə "II Dünya müharibəsi dövründə Holokost və müqavimət" mövzusunda beynəlxalq konfrans keçirilib.
- 9 may tarixində Türkiyə Sənətçilər Birliyinin Bursa təmsilçisi, jurnalist Günay Ardanın və "Enbursa" yerli media agentliyinin birgə təşkilatçılığı ilə Türkiyənin Bursa şəhərində "Azərbaycan-Türkiyə Qardaşlıq Buluşması" adlı tədbir keçirilib.

- 16 may tarixində Şimali Kipr Türk Respublikasının Girnə şəhərində Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Multikultural Beynəlxalq Uşaq Festivalı" tədbiri keçirilib.

## Soydaşlarımızın yaşadıqları ölkələrdə ictimai-siyasi proseslərdə iştirakı

- 19 aprel tarixində Türkiyədə fəaliyyət göstərən Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyinin iştirakı ilə Mumin Canbaz adına ibtidai məktəbinin müəllimi Aysun Kayanın təşkilatçılığı ilə "Dünya Uşaqlarının Qardaşlığı" layihəsi çərçivəsində Azərbaycanın təqdimatı keçirilib.
- Koreyanın Seul şəhərində yaşayan Azərbaycan icmasının fəal üzvü, "Gangnam Global" mərkəzinin direktoru Nihat Xəlilzadə 11 iyul 2023-cü il tarixində Qanqnam rayon hökuməti tərəfindən "ilin ən çalışqan dövlət işçisi" adına layiq görülüb.
- Mart ayında Səudiyyə Ərəbistanının paytaxtı ər-Riyadda "Analar Günü"nə həsr olunmuş tədbir keçirilib. Tədbirdə paytaxtda yaşayan müxtəlif xalqları, o cümlədən azərbaycanlıları da təmsil edən xanımlar iştirak ediblər.
- Mayın 31-də Əlcəzairin Bumerdes Universitetində keçirilən tədbirdə neft kimyası sahəsində tanınmış azərbaycanlı alim professor Mohammed Nəbiyevin xatirəsi yad edilib. Tədbirə dəvət olunan professorun oğlu Nəbi Nəbiyevə universitetin adından təşəkkürnamə və hədiyyə təqdim edilib.
- May ayında Səudiyyə Ərəbistanı Krallığında yaşayan azərbaycanlı alim-tədqiqatçı, Kral Abdullah Neft Araşdırmaları və Tədqiqat Mərkəzinin (KAPSARC) baş elmi işçisi Fəxri Həsənov 2022-ci il üzrə "Dünya alimlərinin TOP 2%-i" reytinqində yer alıb. Bu münasibətlə Kral Abdullah Neft Araşdırmaları və Tədqiqat Mərkəzinin toplantısında Fəxri Həsənova və digər nailiyyət qazanan ekspertlərə sertifikatlar təqdim edilib.
- İyunun 3-də Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyadda keçirilən rəsm sərgisində azərbaycanlı rəssam Aynur Paşayevanın əsərləri nümayiş etdirilib.
- Daşkənddə fəaliyyət göstərən Özbəkistanın Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzində (RAzMMM) "Konstitusiya bütün Özbəkistan vətəndaşlarının gələcəyinin təminatıdır!" mövzusunda toplantı keçirilib.

## DİASPOR FƏALİYYƏTİ XARİCİ KİV-DƏ

- Almaniyada ölkəmizin və Cənubi Qafqaz regionu həqiqətlərini alman dilində və dolğun şəkildə yerli ictimaiyyətə çatdıracaq https://kaukasusspiegel.de/de ("Qafqazın güzgüzü") müstəqil xəbər platforması fəaliyyətə başlayıb.
- Finlandiyanın Helsinki şəhərində yaşayan soydaşımız, "Azər-Türk" gənclər təşkilatının fəal üzvü Mona Savofiyar "Voice of Finland" ("Finlandiyanın Səsi") beynəlxalq televiziya müsabiqəsinə qatılıb.

- Yunanıstanın https://www.karfitsa.gr xəbər saytında "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun Azərbaycanın ənənəvi geyimlərindən bəhs edən məqaləsi yayımlanıb.
- Azərbaycan icması "Der Spiegel" jurnalından Qarabağla bağlı dezinformasiya yaymamağı tələb edib. Bremen Azərbaycan Mədəniyyət Evinin adından jurnalın redaksiyasına ünvanlanan məktubda bildirilib ki, Almaniyada yaşayan Azərbaycan icması nəşrin xəbər portalında Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağın yuxarı hissəsi ilə bağlı separatist yönümlü, birtərəfli, yalan reportajların yayılmasından narahatlıq keçirir.
- Son illər aparılmış məqsədyönlü fəaliyyət nəticəsində ölkəmizə dost münasibəti bəsləyən və Azərbaycanla bağlı mükəmməl tarixi biliklərə sahib əcnəbi alimlərdən biri olan almaniyalı tədqiqatçı Dr. Mixael Reynhard Hess "Der Spiegel" jurnalının ölkəmiz əleyhinə böhtanlarla dolu reportajını əsaslandırılmış faktlarla darmadağın edib.
- Fransanın "Radio Courtoisie" radiostansiyasında bu ölkədə yaşayan azərbaycanlı hüquqşünas, politoloq, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü Zaur Sadıqbəylinin erməni əsilli jurnalist Leo Nikolyanla debatı keçirilib. Mark Borovskinin aparıcısı olduğu "Azad mübahisələr" proqramında baş tutan debat zamanı Qarabağ münaqişəsinin tarixi, münaqişənin inkişafı, Fransanın rolu kimi mövzular müzakirə edilib və suallar cavablandırılıb.
- 26 yanvar 2023-cü il tarixində ABŞ-ın https://newsblaze.com xəbər portalında ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qringerin "Azərbaycanın görməli yerlərini gəzmək yeni bir yer kəşf etməyə bərabərdir" sərlövhəli məqaləsi yayımlanıb.
- ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan "The Jewish Press"də "Azərbaycan Prezidenti Türkiyəyə dəhliz açmaq üçün ərazi ədalətini tələb edir" sərlövhəli məqalə dərc olunub.
- "Good Shepherd" Meyn Ştatının Qida Bankının https://www.gsfb.org portalında Meyn Azərbaycan Cəmiyyətinin fəaliyyətindən bəhs edilib. Məqalədə Meyn Azərbaycan Cəmiyyətinin rəhbəri Tərlan Əhmədovun fikirlərinə yer verilib.
- Avropada ictimai rəyin formalaşmasında aparıcı mənbələrdən sayılan "Modern Diplomacy" media platformasında ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qringerin "Avropa İttifaqının Rusiya ilə mübarizə aparması üçün ən yaxşı yol hansıdır?" sərlövhəli məqaləsi dərc olunub.
- 1 fevral 2023-cü il tarixində ABŞ-ın CBS audio şəbəkəsində yayımlanan "The John Batchelor Show" proqramında İranın Cənubi Qafqaz bölgəsində iğtişaşlar törətməyə cəhd etməsindən bəhs edilib. ABŞ-ın Çikaqo şəhərində yaşayan cənubi azərbaycanlı, GunAz TV-nin rəhbəri Əhməd Obalı proqramın növbəti buraxılışının qonağı olub. Müsahibə zamanı "Dağlıq Qarabağ"ın Qafqaz regionunda ayrıca muxtariyyət kimi təqdim edilməsinə Əhməd Obalı dərhal düzəliş edib.
- 9 fevral 2023-cü il tarixində ABŞ-ın "Newsblaze.com" xəbər saytında ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qringerin "Xocalı soyqırımı Azərbaycana qarşı törədilən ilk faciə deyil" sərlövhəli məqaləsi yayımlanıb.
- 14 fevral 2023-cü il tarixində Avropada ictimai rəyin formalaşmasında aparıcı mənbələrdən sayılan "Modern Diplomacy" media platformasında "Avropa İttifaqının Rusiya ilə mübarizə aparması üçün ən yaxşı yol hansıdır?" sərlövhəli məqalə dərc olunub. İsraillin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti,

tanınmış siyasətçi və politoloq Ayub Kara Avropa İttifaqının Ermənistana missiya göndərməsini yanlış addım adlandırıb.

- 21 fevral 2023-cü il tarixində dünyanın məşhur “Palgrave Macmillan” nəşriyyatında “Ermənistan və Azərbaycan arasında Qarabağ münaqişəsi. Səbəblər və nəticələr” adlı kitab çap olunub. Kitabda “Dağlıq Qarabağ ətrafında davam edən münaqişənin tarixi fonu”,“İkinci Qarabağ müharibəsi: səbəblər və nəticələr” haqqında məlumat verilib.
- 22 fevral 2023-cü il tarixində Avropada ictimai rəyin formalaşmasında aparıcı mənbələrdən sayılan “Modern Diplomacy” media platformasında “Azərbaycan Avropanın enerji təhlükəsizliyinin açarıdır” sərlövhəli məqalə dərc olunub.
- 5 mart 2023-cü il tarixində ABŞ-ın geniş oxucu kütləsinə malik populyar nəşri “Jewish Press”də İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın “Azərbaycanın enerji hüquqları ilə həmrəy olaraq” sərlövhəli məqaləsi dərc olunub.
- 8 mart 2023-cü il tarixində Avropada ictimai rəyin formalaşmasında aparıcı mənbələrdən sayılan “Modern Diplomacy” media platformasında İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın “Niyə indi dünya Qafqazda sülhü təşviq etməlidir?” sərlövhəli məqalə dərc olunub.
- 12 mart 2023-cü il tarixində Baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın "Qərbi azərbaycanlı qaçqının taleyi" sərlövhəli məqalə dərc olunub.
- 13 mart 2023-cü il tarixində ABŞ-ın geniş oxucu kütləsinə malik populyar “Jewish News Syndicate” nəşrində İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın “İran-Azərbaycan münasibətləri pisləşməkdə davam edəcəkmi?” sərlövhəli məqaləsi dərc olunub.
- 15 mart 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında "Azərbaycan və Qoşulmama Hərəkatı" sərlövhəli məqalə dərc olunub.
- 21 mart 2023-cü il tarixində populyar “Israel Hayom” qəzetində Tanınmış israilli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham İslam Əməkdaşlıq Təşkilatının Səfirliyimizə hücumla bağlı İrana çağırışından yazıb.
- 30 mart 2023-cü il tarixində tanınmış israilli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham geniş oxucu kütləsinə malik “İsrael National News” qəzetində İranın bölgədə artan təcavüzündən yazıb.
- 2 aprel 2023-cü il tarixində ABŞ-ın geniş oxucu kütləsinə malik populyar nəşri “Jewish News Syndicate”də “Anti-semitizmin olmadığı bir yer” sərlövhəli məqalə dərc olunub. İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Kara Azərbaycanı anti-semitizmin olmadığı yeganə ölkə adlandırıb.
- 8 may 2023-cü il tarixində İsrailin https://www.jns.org/ xəbər portalında saytın baş icraçı direktoru Dov Yardenin jurnalist həmkarı Nurit Qringerlə birgə qələmə aldığı məqalədə “Azərbaycanla Qərbin bir-birinə ehtiyacı var” sərlövhəli məqalə yayımlanıb, ABŞ

hökumətinin Azərbaycana diplomatik dəstək göstərməsinin vacib olmasına diqqət cəlb edilib.

- 19 may 2023-cü il tarixində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik və İnkişaf Ofisi (FCDO) bu ölkədə fəaliyyət göstərən Azərbaycan icmasının Ermənistana əsir düşmüş azərbaycanlı əsgərlər Aqşin Bəbirov və Hüseyn Axundovla bağlı məktubunu cavablandırıb. Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahovaya ünvanlanan məktubda Ermənistan hakimiyyəti tərəfindən hər iki Azərbaycan əsgərinə qarşı qeyri-insani rəftara yol verilməsi ilə bağlı məlumat verildiyinə görə minnətdarlıq ifadə edilib.
- 1 iyun 2023-cü il tarixində tanınmış israilli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham populyar “İsrael Today” qəzetində dərc olunmuş məqaləsində Azərbaycanı ölkəsinin ən sadiq müttəfiqi adlandırıb.
- 25 iyun 2023-cü il tarixində İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Kara özünün ABŞ-ın geniş oxucu kütləsinə malik “Jewish News Syndicate” nəşrində dərc olunmuş məqaləsində Azərbaycanın İsrail kimi haqsız tənqidlərə məruz qalmasından yazıb.
- 29 iyun 2023-cü il tarixində Zəngəzur dəhlizinin geosiyasi əhəmiyyəti barədə İsrailin ərəb dünyası və İran üzrə ən tanınmış eksperti, bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı, Tel-Əviv Universitetinin mühazirəçisi doktor Mordexay Kedar ölkəsinin geniş oxucu kütləsinə malik “Israel National News” qəzetində dərc olunan məqaləsində yazıb.
- 4 aprel 2023-cü il tarixində ABŞ-nin geniş oxucu kütləsinə malik nüfuzlu “Frontpage Magazine” jurnalında “İranın etnik qruplarının iztirabları” sərlövhəli məqalə dərc olunub. Məqalədə 500-ə qədər Güney azərbaycanlı və onların tərəfdarlarının sözügedən məsələyə diqqəti cəlb etmək üçün Avropa Parlamenti qarşısında etiraz aksiyası keçirdiyi diqqətə çatdırılıb.
- 20 aprel 2023-cü il tarixində Kanadanın nüfuzlu “Thej.ca” yəhudi media platformasında “Dona Grasiya Diplomatiya Mərkəzi: İran əlaltısı Ermənistanı qınayır” sərlövhəli məqalə dərc olunub. Məqalədə bu yaxınlarda əlverişsiz hava şəraiti səbəbindən Ermənistanla sərhəddə itkin düşmüş iki Azərbaycan hərbçisi Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğlunun Ermənistan tərəfindən əsir götürülərək müxtəlif təhqir və işgəncələrə məruz qaldığı diqqətə çatdırılıb.
- 8 may 2023-cü ildə ABŞ-ın “Newsblaze” xəbər saytında “Azərbaycan Respublikası Araz çayının üzərində – hər iki sahildə?” sərlövhəli məqalə yerləşdirilib. Məqalədə Bakıdakı yəhudi icmasının Azərbaycanın müdafiəsi naminə səfərbər olduğuna, Azərbaycan və İsrailin, demək olar ki, eyni dərəcədə İran tərəfindən təhdid edildiyinə, İranın şimal hissəsində yəhudiləri hər zaman dəstəkləyən milyonlarla azərbaycanlının yaşadığına diqqət cəlb olunub.
- 8 may 2023-cü ildə ABŞ-ın “Statenews” xəbər portalında “2020-ci il 10 noyabr tarixli sülh müqaviləsinin imzalanmasından sonra Ermənistanın iki Azərbaycan əsgərinə qarşı növbəti cinayəti” sərlövhəli məlumat yayımlanıb.
- 9 may 2023-cü il tarixində Kanadanın nüfuzlu “Thej.ca” yəhudi media platformasında tanınmış israilli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi

və baş direktoru Reyçel Avrahamın “Niyə Azərbaycan Laçın dəhlizi boyunca nəzarət-buraxılış məntəqəsinə malik olmağa davam etməlidir?” sərlövhəli məqaləsi dərc olunub.

- 14 may 2023-cü il tarixində ABŞ-ın “Newsblaze” xəbər portalında “Azərbaycanla Qərbin bir-birinə niyə ehtiyacı var?” sərlövhəli məqalə yayımlanıb.
- 16 may 2023-cü il tarixində Tarixi hadisələri işıqlandıran “Obscure Histories” beynəlxalq onlayn platformasında “Qız qalası: Zərdüştliklə bağlı əfsanələr və memarlıq sirləri” sərlövhəli məqalə yayımlanıb.
- 17 may 2023-cü il tarixində Kanadanın “Thej” xəbər portalında Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanda yaranmış mina böhranına diqqət cəlb edilib.
- 4 iyun 2023-cü il tarixində ABŞ-ın “Sun This Week” qəzetində Leykvill (Lakeville) şəhərində keçirilmiş “Sülh içində Birgə Yaşamanın Beynəlxalq Günü” adlı tədbirdə Minnesota-Azərbaycan Assosiasiyasının ölkəmizi təmsil etməsindən bəhs edilib.
- 4 iyun 2023-cü il tarixində ABŞ-ın “Newsblaze” xəbər portalında ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin 28 May – Azərbaycan Respublikasının Müstəqillik Gününə həsr olunmuş məqaləsi yayımlanıb.
- 23 iyun 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın "Erməni ictimai rəyi sülhə maneədirmi?" sərlövhəli məqaləsi dərc olunub.
- Gürcüstanın “Sakartvelos Respublika” qəzeti müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə silsilə məqalələr dərc etməyə başlayıb. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və “Alyans“ Gənclər Mərkəzinin “Heydər Əliyev İli” çərçivəsində birgə layihəsi əsasında qəzet vaxtilə dahi şəxsiyyətlə görüşmüş gürcü ictimai-siyasi xadimlərinin, həmçinin Gürcüstan azərbaycanlılarının müsahibələrini məqalə şəklində təqdim edir.
- Gürcüstanın nüfuzlu mətbuat orqanlarından hesab edilən “Sakartvelos Respublika” qəzetində Azərbaycan diasporunun Xocalı soyqırımının 31-ci ildönümü ilə bağlı Avstriyanın paytaxtı Vyanada keçirdiyi aksiya barədə geniş məlumat dərc edilib.
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun “Heydər Əliyev İli” çərçivəsində Özbəkistana səfəri bu ölkənin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.
- Gürcüstanın nüfuzlu “Sakartvelos Respublika” qəzetində Azərbaycanın görkəmli oftalmoloqu, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı” sərlövhəli məqalə dərc olunub.
- Özbəkistan Dövlət Televiziyasının “Mənbələr sözləşəndə” verilişinin növbəti buraxılışı müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevə həsr olunub.
- Özbəkistanın məşhur “Ədəbiyyat qəzeti”nin xüsusi buraxılışı müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub.
- Özbəkistanın “Ədəbiyyat qəzeti”ndə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “İki qardaş ölkə – Azərbaycan və Özbəkistan” sərlövhəli məqalə dərc olunub.

## XARİCDƏKİ SOYDAŞLARIMIZIN TƏŞKİLATLANMASI İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLAR

- 4 aprel 2023-cü il tarixində Kanadanın Ontario vilayətinin Toronto şəhərinin Nort York rayonunda Azərbaycan Evinin rəsmi açılış mərasimi keçirilib. Güney azərbaycandan olan soydaşlarımızın da qatıldığı tədbirin iştirakçılarını salamlayan Komitə sədri Fuad Muradov 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin təbliği məqsədilə Ontario əyalətində geniş məlumatlandırma kampaniyası apardıqlarına və irimiqyaslı aksiyalar təşkil etdiklərinə görə icma üzvlərinə minnətdarlığını bildirib.
- 6 aprel 2023-cü il tarixində Kanadaya səfər çərçivəsində Komitə əməkdaşlarının Ottava və Monreal şəhərlərində yaşayan Azərbaycan icmasının üzvləri ilə görüşü keçirilib.
- 8 aprel 2023-cü il tarixində Komitə əməkdaşlarının ABŞ-a səfəri çərçivəsində Kaliforniya ştatının San-Xose və ətraf şəhərlərində yaşayan azərbaycanlılarla görüş keçirib.
- 9 aprel 2023-cü il tarixində Kanadaya səfər çərçivəsində Komitə əməkdaşlarının Kalqari Universitetində Alberta əyalətinin Kalqari və Edmonton şəhərlərində yaşayan Azərbaycan icmasının üzvləri ilə görüşü keçirilib.
- 9 aprel 2023-cü il tarixində Kanadaya səfər çərçivəsində Komitə əməkdaşları Alberta Azərbaycan Mədəniyyət Cəmiyyətinin nəzdindəki “Azəri Kalqari Ulduzları” (“Azeri Calgary Stars”) rəqs qrupunun fəaliyyəti ilə yaxından tanış olublar.
- 11 May 2023-cü il tarixində İsrailin Rişon le-Sion şəhərində “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının IV qurultayı keçirilib. “Beyt-a-Am” Mədəniyyət Mərkəzində baş tutan tədbirdə “Azİz”in İsrail üzrə nümayəndələri, Komitənin, ölkənin siyasi, mədəni elitasının təmsilçiləri və media mənsubları iştirak ediblər.
- 19 may 2023-cü il tarixində Bakı şəhərindəki 46 saylı yəhudi məktəbində yəhudi təqvimi üzrə 26 iyar – Xilas və Qurtuluş Gününə həsr olunmuş anım tədbiri keçirilib. “STMEGİ-Azərbaycan” Dağ Yəhudilərinə Dəstək Xeyriyyə Fondunun təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan Respublikasının Milli Məclisin, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin, İsrailin Azərbaycandakı səfirliyinin, Azərbaycandakı Dağ Yəhudiləri dini icmasının nümayəndələri, məktəbin müəllim və şagirdləri iştirak ediblər.
- 25 iyun 2023-cü il tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının vitse-prezidenti və “Azİz”-in nəzdindəki “Azərbaycan Mədəniyyət Mərkəzi”nin direktoru Yeganə Salmanla görüşü keçirilib. Yeganə xanımı 70 illik yubileyi münasibətilə təbrik edən Komitə sədri ona Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə təltif olunduğu “Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalını təqdim edib.
- Daşkənddə fəaliyyət göstərən Özbəkistanın Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzində (RAzMMM) "Konstitusiya bütün Özbəkistan vətəndaşlarının gələcəyinin təminatıdır!” mövzusunda toplantı keçirilib.

## GƏNCLƏRİN DİASPOR FƏALİYYƏTİNƏ CƏLB EDİLMƏSİ

- 31 yanvar 2023-cü il tarixində azərbaycanlı tələbələr Londonun Queen Mary Universitetinin (QMUL) İnsan Haqları Mərkəzində Ermənistanın Birləşmiş Krallıqdakı

səfirinin “Münaqişə zonalarında insan hüquqları: Dağlıq Qarabağ məsələsi” mövzusunda konfransda iştirakının qarşısını alıblar. Azərbaycanlı tələbələrin Queen Mary Universitetinin prezidenti və direktoru Kolin Qaret Beyliyə müraciəti erməni səfirinin 9 fevral 2023-cü il tarixli görüşünün ləğv edilməsi ilə nəticələnib.

- 12 mart 2023-cü il tarixində ABŞ-a səfər çərçivəsində Komitə əməkdaşlarının Nyu-Yorkda yaşayan Azərbaycan icmasının bir qrup gənc fəalı ilə görüşü keçirilib.
- 3 aprel 2023-cü ildə Ermənistan səfiri Londondakı gənclərimizin sərt etirazı ilə qarşılaşıb. Londonun Queen Mary Universitetində (QMUL) təhsil alan erməni tələbələrin “Dağlıq Qarabağ: 2020 müharibəsindən sonra vəziyyət” mövzusunda təşkil etdikləri tədbirdə azərbaycanlı tələbələr və gənclər Ermənistanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfiri Varujan Nersesyana sərt etiraz ediblər.
- Cənubi Koreyanın müxtəlif təhsil ocaqlarında təhsil alan azərbaycanlı fəal tələbələr Azərbaycan Respublikasının Koreyadakı Səfirliyi və BUTA Azərbaycan Koreya Dostluq Assosiasiyası tərəfindən həyata keçirilən müxtəlif səpgili tədbirlərin təşkili məsələlərinə mütəmadi olaraq cəlb olunurlar.

## CARİ İSTİQAMƏTLƏR

- Komitədə Almaniya və İtaliyada çalışan bir qrup azərbaycanlı həkimlə görüş keçirilib. Görüş iştirakçılarını salamlayan Komitə sədrinin müavini Elşad Əliyev ötən ilin mart ayında Köln şəhərində Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə keçirilən “Almaniyadakı Azərbaycanlı Həkimlərin Forumu”nun xaricdə yaşayan həkim soydaşlarımız tərəfindən razılıqla qarşılandığını, bu istiqamətdə fəaliyyətin daha güclü və geniş formatda davam etdiriləcəyini vurğulayıb.
- Komitədə Almaniyanın Koblents şəhərində yaşayan Azərbaycanın xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü, UNESCO Rəssamlar Federasiyasının üzvü, Avropada Azərbaycan Milli Xadimləri Assosiasiyasının sədri, Beynəlxalq “Sülh səfiri” Əşrəf Heybətovun “Bizim Şuşa” adlı albomunun təqdimat mərasimi keçirilib. “Bizim Şuşa” albomu Komitənin dəstəyi ilə nəşr olunub.
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Avstriyaya səfəri çərçivəsində paytaxt Vyanada bu ölkədə yaşayan azərbaycanlılarla görüş keçirilib. Sonra Avstriya Azərbaycanlılarının Koordinasiya Şurasına seçkilər keçirilib, Fərid Quluzadə Koordinasiya Şurasının əlaqələndiricisi seçilib.
- 29 yanvar 2023-cü il tarixində icmamız ABŞ-ın Hyuston şəhər meriyası önündə Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazisində faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarına və Ermənistanın ekoloji terror siyasətinə etiraz əlaməti olaraq dinc aksiya keçirib. Amerika-Azərbaycan İnteqrasiya Mərkəzinin təşkilatçılığı ilə baş tutan aksiyada Azərbaycan icmasının Texas ştatında yaşayan fəalları iştirak ediblər.
- 22 fevral 2023-cü il tarixində Holokost Memorial Muzeyinin rəsmi saytında Bernard Çerkasovun muzeyə yeni icraçı direktor təyin edilməsi ilə bağlı yerləşdirilən elanda Azərbaycana qarşı əsassız iddiaların yer alması ölkəmizə dost münasibəti bəsləyən yəhudilərin kəskin etirazına səbəb olub. İsraildəki Dağ Yəhudilərinin baş ravvini Şmuel Simantov bununla əlaqədar Holokost Memorial Muzeyinin rəhbərliyinə və dünya üzrə yəhudi icmalarına müraciət edib.

– 5 mart 2023-cü il tarixində ABŞ-ın İllinoys ştatının Çikaqo şəhərində yaşayan pauerliftinqçi Gündüz İsmayilov Ohayo ştatının Kolambus şəhərində keçirilən “Arnold Sports Festival” beynəlxalq yarışında “Powerlifting, bench press” üzrə birinci yeri tutaraq, qızıl medala layiq görülüb. Gündüz İsmayılov bu yarışa Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə qatılıb.
– 21 mart 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində Azərbaycanın “Neftçi” futbol klubunun əfsanəvi forvardı Anatoli Banişevskinin xatirəsinə həsr olunmuş IX turnirin finalı keçirilib.
– 27 mart 2023-cü il tarixində tanınmış azərbaycanlı vokalçı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, beynəlxalq müsabiqələr laureatı Urfan Cəfərov Nyu-York şəhərində keçirilmiş opera ifaçılarının “American International Vocal Competition of Opera Singers-2023” beynəlxalq müsabiqəsində 67 ölkənin ifaçıları arasında birinci yeri tutaraq, qızıl medala layiq görülüb.
– Aprel ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində futvoley üzrə beynəlxalq turnir keçirilib. Ölkəmiz turnirdə “Şuşa” komandası ilə təmsil olunub. Komandamız qrup oyunlarında Danimarka, Braziliya və BƏƏ komandalarına, yarımfinalda İsrail komandasına qalib gələrək finala yüksəlib. Finalda isə “Şuşa” çox güclü İtaliya komandasını 2:0 hesabı ilə məğlub edərək, turnirin qalibi adına sahib olub.
– Cari ilin aprel ayında Küveytin https://bobiannews.net xəbər portalında Küveytli jurnalist Adil Əl-Əzminin müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevə həsr olunmuş məqaləsi yayımlanıb.
– Aprelin 5-də Misir-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə paytaxt Qahirədə fəaliyyət göstərən Azərbaycan Evində görüş təşkil edilib.
– 6 aprel 2023-cü il tarixində Yuta-Azərbaycan Dostluq Təşkilatının sədri Əsmər Qarayeva Provo şəhərində yerləşən Briqam Yanq Universitetində (Brigham Young University) “Azərbaycan dili 101” kursunun dərsində iştirak edib.
– 14 aprel 2023-cü il tarixində “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası Ermənistan tərəfindən əsir götürülmüş hərbçilərimizin azad olunmasını tələb edib.
– 14 aprel 2023-cü il tarixində “İsraildə Azərbaycan Evi” beynəlxalq birliyi Ermənistanın zorakı aktlarına hüququ qiymət verməyə çağırıb.
– 16 aprel 2023-cü il tarixində Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən Amerika Azərbaycanlıları Koordinasiya Şurası Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktını qətiyyətlə pisləyib.
– 17 aprel 2023-cü il tarixində Londonda fəaliyyət göstərən Britaniya Azərbaycanlıları İcmasının rəhbəri Fəridə Pənahova əsir götürülmüş Azərbaycan əsgərləri ilə bağlı Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverliyə məktubla müraciət edib.
– 17 aprel 2023-cü il tarixində ABŞ-ın Meyn ştatının Portlend şəhərində yaşayan Azərbaycan icması müsəlman və yəhudi cəmiyyətlərinin Ramazan ayı və Şabbat günü münasibətilə təşkil etdikləri tədbirdə fəal iştirak edib. Meyn ştatının tarixində ilk dəfə baş tutan əlamətdar hadisə zamanı Ramazan və Şabbat barədə məlumat verilib. Qonaqlar birlikdə dualar edib, şamlar yandırıb, günəş batandan sonra iftar açıblar və ənənəvi musiqini dinləyiblər.
– 18 aprel 2023-cü il tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri,

jurnalist Nurit Qringer və “Yentas in the City” podkast şirkətinin rəhbəri Ester Eti El-Kiss Mizrahi ilə görüşü keçirilib.

- 21 aprel 2023-cü il tarixində Britaniya Azərbaycanlıları Koordinasiya Şurası Ermənistan tərəfindən əsir götürülmüş və qeyri-insani rəftara məruz qalmış Azərbaycan Ordusunun əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğlu ilə əlaqədar Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinə (BQXK) müraciət edib.
- Aprelin 21-də Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) yaşayan Azərbaycan icması Vətən Müharibəsi şəhidlərinin və qazilərinin ailələri ilə bağlı ölkəmizdə növbəti xeyriyyə aksiyası keçirib. Aksiya zamanı Ərəb Ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının BƏƏ-dəki koordinatoru Nuranə Hüseynova və Komitə əməkdaşı tərəfindən 11 şəhid və qazi ailəsi üçün nəzərdə tutulan bayram sovqatı ünvanlarına çatdırılıb.
- 28 aprel 2023-cü il tarixində Yuta-Azərbaycan Dostluq Təşkilatının sədri Əsmər Qarayeva Provo şəhərində yerləşən Briqam Yanq Universitetinin (Brigham Young University) “Azərbaycan dili 101” kursunun milli mətbəximizə həsr olunmuş dərsində iştirak edib. Dərs zamanı Əsmər Qarayeva və Azərbaycan icmasının üzvü Kamran Qarayev tələbələrə Azərbaycanın zəngin mətbəxi haqqında ətraflı məlumat veriblər.
- Aprelin 30-da Misir, Əlcəzair, İordaniya, Suriya, Mərakeş, İraq və Livan mətbuatında müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş məqalələr yayımlanıb.
- May ayında Qahirədə fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib.
- 9 may 2023-cü il tarixində ABŞ-ın Minnesota ştatının Börnsvill (Burnsville) şəhər mərkəzindəki Nikollet Kommons Parkında “Azərbaycan – Odlar Yurdu” lövhəsinin quraşdırıldığı skamya yerləşdirilib.
- 9 may 2023-cü il tarixində Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evində rəssam Nailə Haşımzadənin “Təbiətin Gözəlliyi” adlı fərdi sərgisinin açılış mərasimi keçirilib.
- 10 may 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Heydər Əliyev adına beynəlxalq şahmat turniri keçirilib. Komitənin dəstəyi və Birləşmiş Ştatlarda fəaliyyət göstərən beynəlxalq dərəcəli şahmat ustası Elvin Bağır-Pourun rəhbərlik etdiyi “Chess Father” şirkətinin təşkilatçılığı ilə baş tutan turnirdə ölkənin müxtəlif ştatlarını və şəhərlərini 50 şahmatçı (5-60 yaşarası) təmsil edib. Onların arasında ABŞ-da yaşayan azərbaycanlı şahmatçılar da olub.
- 12 may 2023-cü il tarixində Amerika Azərbaycan Cəmiyyəti (ASA) müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Xüsusi Təqaüdün qalibini elan edib.
- 16 may 2023-cü il tarixində Kanada parlamentinin üzvü, polyak əsilli siyasətçi Tom Kmiek Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evini ziyarət edib.
- 25 may 2023-cü il tarixində ABŞ-ın Minnesota ştatında fəaliyyət göstərən icmamız Leykvill (Lakeville) şəhərində keçirilən “Sülh içində Birgə Yaşamanın Beynəlxalq Günü” festivalında Azərbaycanı təmsil edib.

- 29 may 2023-cü il tarixində Kanadanın Hamilton şəhərində yaşayan fotoqraf İsmayıl Hüseynovun Toronto Azərbaycan Evində “Mən Azərbaycandanam” mövzusunda fərdi fotosərgisinin açılış mərasimi keçirilib.
- 31 may 2023-cü il tarixində İsraildə fəaliyyət göstərən Azərbaycan diasporu ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti yolverilməz addımla əlaqədar beynəlxalq ictimaiyyətə müraciət edib.
- 4 iyun 2023-cü il tarixində ABŞ-ın Şimali Karolina ştatının paytaxtı Roli (Raleigh) şəhərində keçirilmiş “Beynəlxalq Yemək Festival”ında ölkəmizi Azərbaycan Dostluq Təşkilatı təmsil edib.
- 6 iyun 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində yerləşən “Okeana” Teatrında “İpək Yolu–2023” beynəlxalq festivalı keçirilib. “My Way” (“Mənim Yolum”) Uşaq-Gənclər Yaradıcılığı İnkişaf Mərkəzinin təşkilatçılığı ilə baş tutan festival Nyu-York şəhər mədəniyyət departamenti, Nyu-York şəhər şurası qubernatorunun dəftərxanası və Nyu-York ştatı üzrə Qanunvericilik Məclisinin birgə tərəfdaşlığı ilə gerçəkləşdirilib.
- 9 iyun 2023-cü il tarixində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında yaşayan Azərbaycan icması qızışdırıcı islamofob fikirlərinə görə Lordlar Palatasının üzvü Karolina Ann Koksun (baronessa Koks) cəzalandırılmasını tələb edib. Britaniya Azərbaycan İcmasının sədri Fəridə Pənahovanın adından Britaniya Parlamentinin Standartlar üzrə Komitəsinin sədri Kristofer Con Brayanta ünvanlanmış müraciətdə baronessa Koksun tvitləri “Azərbaycanın Qarabağ regionunda nifrətin qəsdən alovlandırılması” kimi qiymətləndirilib və Azərbaycan icmasının sülh prosesinə mane olan bu tvitlərdən və xəbərlərdən dərin narahatlığı ifadə edilib.
- 16 iyun 2023-cü il tarixində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında yaşayan icmamız Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti yolverilməz addımı hiddətlə pisləyib.
- 19 iyun 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində fəaliyyət göstərən Azərbaycan-Amerika Qadınlar Assosiasiyası ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti ekoloji təxribatla bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.
- 19 iyun 2023-cü il tarixində Amerika Birləşmiş Ştatlarında (ABŞ) yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti qəbuledilməz addımı hiddətlə pisləyib.
- 19 iyun 2023-cü il tarixində ABŞ-ın Şimali Karolina ştatında yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti ekoloji təxribatla bağlı yerli və beynəlxalq ictimaiyyətə müraciət edib.
- 19 iyun 2023-cü il tarixində ABŞ-ın Minnesota ştatında yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti ekoloji təxribatla bağlı yerli və beynəlxalq ictimaiyyətə müraciət edib.
- 23 iyun 2023-cü il tarixində Kanadanın Monreal şəhərində yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti yolverilməz addımla bağlı yerli və beynəlxalq ictimaiyyətə müraciət edib.
- 23 iyun 2023-cü il tarixində Kanadanın Alberta vilayətində yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində törətdiyi növbəti ekoloji təxribatı hiddətlə pisləyib.

- 23 iyun 2023-cü il tarixində Kanadanın Kvebek vilayətində yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti yolverilməz addımı sərt şəkildə pisləyən bəyanatla çıxış edib.
- 23 iyun 2023-cü il tarixində Kanadanın Toronto şəhərində yaşayan Azərbaycan icması ölkəmizlə sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti yolverilməz addımla bağlı yerli və beynəlxalq ictimaiyyətə müraciət edib.
- 24 iyun 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərində yerləşən məşhur "Carnegie Hall"-un Zankel zalında Nyu-Yorkda fəaliyyət göstərən Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycanın dahi bəstəkarı Qara Qarayevin anadan olmasının 105 illiyinə həsr olunmuş təntənəli konsert keçirilib.
- 27 may tarixində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Seul şəhərində Komitə sədri Fuad Muradovun Koreya Respublikasındakı Azərbaycan icmasının üzvləri ilə görüşü keçirilib.
- Cari ilin may ayında Səudiyyə Ərəbistanı, Misir, Əlcəzair və İordaniyanın xəbər portallarında Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Ərəb ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Misirdəki əlaqələndiricisi, tədqiqatçı-alim Seymur Nəsirovun müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş məqalələri yayımlanıb.

## TÜRKİYƏDƏ BAŞ VERMİŞ DƏHŞƏTLİ ZƏLZƏLƏDƏN SONRA AZƏRBAYCAN DİASPORUNUN FƏALİYYƏTİ

- 6 fevral 2023-cü il tarixində Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə bağlı "Sankt-Peterburq və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" şəhər ictimai təşkilatının sədri Vaqif Məmişovun təşəbbüsü ilə bir qrup soydaşımız Türkiyənin Sankt-Peterburq şəhərindəki Baş Konsulluğunu ziyarət edib.
- Rusiya Federasiyası Tatarıstan Respublikasında yaşayan Azərbaycan icması Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələ ilə əlaqədar qardaş ölkənin Kazan şəhərindəki Baş Konsulluğunu ziyarət edib. "Tatarıstan Respublikası Azərbaycan Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının idarə heyətinin sədri Bəhram Mustafayev soydaşlarımız adından konsulluqda açılmış başsağlığı kitabına hüzn sözlərini yazıb.
- Rusiyada fəaliyyət göstərən "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının bir qrup üzvü Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar qardaş ölkənin Moskvadakı Səfirliyini ziyarət edib. "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının sədri Bəxtiyar Həsənov Türkiyənin Rusiyadakı səfiri Mehmet Samsara başsağlığı verib.
- Rusiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Türkiyəyə maddi və humanitar yardımlar göndərib. Sankt-Peterburq şəhərində azərbaycanlıların milli-mədəni muxtariyyəti 34 min manat maddi və 11 min manatlıq humanitar yardım, Pyatiqorsk şəhəri "Araz" Milli-Mədəni Muxtariyyatı 45 min manat maddi və 2200 manatlıq humanitar yardım, Başqırdıstan Azərbaycan Xalqının Dostluq Evi 29 min manatlıq humanitar yardım, Sankt-Peterbur şəhərindəki Sofiyski meyvə-tərəvəz bazarında çalışan azərbaycanlı iş adamları 34 min manatlıq humanitar yardım, Krasnoyarsk Azərbaycan Milli-Mədəni Muxtariyyatı

22 min manat maddi yardım, “Xakasiya Respublikası Azərbaycanlılarının Diasporu” Regional İctimai Təşkilatı 9400 manat maddi yardım, “Ural-Azərbaycan” Sverdlovsk Vilayəti Milli-Mədəni Regional Təşkilatı 81 min manatlıq humanitar yardım toplayaraq, Türkiyədə zəlzələdən zərərçəkənlərə göndəriblər.

- Yekaterinburqdakı icmamız Türkiyəyə humanitar yardım göndərib. “Ural-Azərbaycan” Sverdlovsk Vilayəti Milli-Mədəni Regional Təşkilatının sədri Şahin Şıxlinskinin rəhbərliyi ilə yaradılmış operativ qərargahda zəlzələdən zərərçəkmişlər üçün 81 min manat məbləğində humanitar yardım (1500 yorğan, 1020 döşək, 4 min corab, 4 min əlcək, 8200 uşaq bezi, 1000 isti alt paltarı) toplanıb.
- Sverdlovsk vilayətində yaşayan soydaşlarımızın köməyi ilə toplanan yardım Türkiyənin Kazanda şəhərindəki Baş Konsulluğuna təhvil verilib.
- Rusiya Federasiyası Tatarıstan Respublikasında yaşayan soydaşlarımız qardaş ölkədəki dağıdıcı zəlzələ ilə bağlı “Türkiyəyə yardım” Azərbaycan təşəbbüs qrupu yaradıb. Təşəbbüs qrupuna Kazandan, Tatarıstanın şəhər və bölgələrindən 600-ə yaxın iştirakçı qoşulub. Azərbaycan təşəbbüs qrupu 1 milyon 650 min rubl nağd vəsaiti müvafiq hesaba köçürüb və toplanan humanitar yardımı Türkiyənin Kazan şəhərindəki Baş Konsulluğuna təhvil verib.
- Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən “Azərbaycan Humanitar Əməkdaşlıq Mərkəzi” muxtar qeyri-kommersiya təşkilatı qardaş Türkiyədəki dağıdıcı təbii fəlakətlə əlaqədar xeyriyyə aksiyası keçirib. Xeyriyyə aksiyasında zəlzələdən zərərçəkmiş 250 nəfər üçün humanitar yardım və 140.000 min rubl vəsait toplanıb. Maddi və humanitar yardım Türkiyənin Sankt-Peterburqdakı Baş konsulluğu vasitəsilə qardaş ölkəyə göndərilib.
- Rusiyanın Stavropol vilayətinin Pyatiqorsk şəhərində fəaliyyət göstərən “Araz” Azərbaycan Milli-Mədəni Muxtariyyətinin rəhbərliyi Türkiyənin Novorossiysk şəhərindəki Baş konsulluğunu ziyarət edib. “Araz” Azərbaycan Milli-Mədəni Muxtariyyətinin operativ qərargahında 3,5 milyon rubl dəyərində toplanan humanitar yardım Baş konsulluğa təhvil verilib.
- Rusiyanın Sverdlovsk vilayətində və Yekaterinburq şəhərində fəaliyyət göstərən “Ural-Azərbaycan” Sverdlovsk vilayəti milli-mədəni regional təşkilatı 642 min manat (28 milyon rubl) dəyərində humanitar yardımı qardaş ölkənin zəlzələ bölgəsinə yola salıb. Bundan başqa, “Ural-Azərbaycan” Sverdlovsk vilayəti milli-mədəni regional təşkilatı Kurqan və Tümen vilayətlərindəki Azərbaycan icmaları ilə birlikdə 86 400 manat məbləğində humanitar yardımı Türkiyəyə göndərib.
- Rusiyanın Kaluqa şəhərində yaşayan Azərbaycan icması Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım göndərib. Kaluqa regional Azərbaycan milli-mədəni muxtariyyətinin təşkilatçılığı ilə humanitar yardım kampaniyasına qoşulan azərbaycanlıların köməyi ilə zəlzələdən zərərçəkmişlər üçün 600 min rubl (13 650 manat) dəyərində humanitar yardım toplanıb.
- Niderlandın Haaqa şəhərində Türkiyədəki dağıdıcı zəlzələnin qurbanlarının anım mərasimi keçirilib. Hollanda Azərbaycan-Türk Kültür Dərnəyinin ofisində təşkil edilən tədbirə Azərbaycanın Niderland Krallığındakı səfiri Rəhman Mustafayev, diaspor fəalları və bu ölkədəki məscidlərin imamları da qatılıb.
- Niderlandın Rotterdam şəhərində Türkiyə və Cənubi Azərbaycanda baş vermiş dağıdıcı zəlzələ nəticəsində həyatlarını itirmiş insanların anım mərasimi keçirilib. Mərasimdə “Ana

Vətən” Avropa Azərbaycanlı Qadınları Birliyinin, “Beynəlxalq Azərbaycanlı Xanımlar Klubu”nun üzvləri və Rotterdamda yaşayan soydaşlarımız iştirak ediblər.

- Niderlandda yaşayan Azərbaycan icmasının bir qrup fəalı Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar qardaş ölkənin Haaqadakı səfirliyini ziyarət edib. Türkiyənin Niderlanddakı səfiri Selçuk Ünala başsağlığı verən soydaşlarımız türk xalqının kədərli anlarını bölüşdüklərini, qardaş ölkənin yanında olduqlarını bildiriblər. “Ana Vətən” Avropa Azərbaycanlı Qadınlar Birliyinin rəhbəri Mayisə Ağamirzəyeva soydaşlarımız adından səfirlikdə açılmış başsağlığı kitabına hüzn sözlərini yazıb. Səfir Selçuk Ünal icma üzvlərinə minnətdarlığını bildirib və qardaş ölkə Azərbaycanın dəstəyini daim hiss etdiklərini vurğulayıb.
- Hollanda Azərbaycan-Türk Kültür Dərnəyinin sədri İlhan Aşkın bildirib ki, bu günlərdə təbii fəlakət zonasına 8 konteyner-ev göndərilib. Dərnəkdə toplanan ianələr hesabına əldə olunmuş konteyner-evlər Türkiyənin Antalya şəhərində yığılıb.
- İsveçin https://www.svt.se xəbər saytında Malmö şəhərində yaşayan Azərbaycan əsilli sosial fəal Siyavuş Dirəxtinin Türkiyə və Suriyanın zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi təşəbbüsü ilə kampaniyaya başlamasından bəhs edilib.
- 6 fevral 2023-cü il tarixində Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən Azərbaycan icması Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələ ilə bağlı qardaş ölkənin ABŞ-dakı diplomatik korpusuna başsağlığı verib. Amerika Azərbaycanlıları Koordinasiya Şurasına daxil olan üzv-təşkilatları Türkiyənin Çikaqo şəhərindəki Baş konsulu Engin Turesiyə və Hyuston şəhərindəki konsulu Serhad Varlıya ünvanladığı müraciətlərdə güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbərin Azərbaycan icmasını dərindən kədərləndirdiyi nəzərə çatdırılıb.
- 7 fevral 2023-cu il tarixində ABŞ-ın Virciniya ştatında yaşayan Azərbaycan icmasının fəalları Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələ ilə bağlı yardım kampaniyasına başlayıblar. “Baku Delicious” restoranının sahibi Sevda Tahirlinin rəhbərlik etdiyi kampaniya çərçivəsində ianə, isti geyim, yataq dəsti, tibbi ləvazimatlar və gigiyenik vasitələr toplanıb.
- 7 fevral tarixində Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələ ilə bağlı Avstraliya Azərbaycanlıları Assosiasiyası tərəfindən Türkiyə Respublikasının Kanberradakı Səfirliyinə başsağlığı məktubu ünvanlanıb. Həmçinin Sidney, Melburn, Balarat, Brisben, Pert şəhərlərində yaşayan soydaşlarımız tərəfindən yardım kampaniyasına start verilib və toplanılan maddi yardım Türkiyə Respublikasının Kanberradakı Səfirliyinə göndərilib. Avstraliyanın Brisben və Qold Kost şəhərlərində isə Türkiyədəki zəlzələ qurbanlarının anım mərasimləri keçirilib.
- 10 fevral 2023-cü il tarixində İsraildə fəaliyyət göstərən “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi kampaniyasında fəal iştirak edib. Assosiasiyanın üzvləri zəlzələdən zərərçəkənlərə ianələrin köçürülməsi ilə yanaşı, topladıqları humanitar yardım bağlamalarını İsraildəki Beynəlxalq Sionist Mərkəzi vasitəsilə Türkiyəyə yola salıblar.
- 12 fevral 2023-cü il tarixində ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan “The Jewish Press”də tanınmış israilli politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın “İnsanlığın sərhədləri yoxdur” sərlövhəli məqaləsi dərc olunub. Baş vermiş fəlakətli zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycan diasporunun qardaş Türkiyəyə yardımına həsr etdiyi məqalədə

qeyd olunub ki, güclü zəlzələdən sonra Azərbaycan diasporu zəlzələdən zərər çəkənlərə dəstək olmaq üçün əlindən gələni edir.

- 13 fevral 2023-cü il tarixində Kanadanın Toronto şəhərində fəaliyyət göstərən "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin fəalları Türkiyədəki dağıdıcı zəlzələ ilə əlaqədar qardaş ölkəyə humanitar yardım göndərib. Mərkəzdə yaradılmış operativ qərargahda zəlzələdən zərərçəkmişlər üçün humanitar yardım toplanıb.
- 20 fevral 2023-cü il tarixində ABŞ-ın "Newsblaze" xəbər saytında İsrailin müdafiə qüvvələrinin Türkiyədəki zəlzələ bölgəsinə göstərdiyi yardımdan bəhs edilib. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qrinqerin qələmə aldığı məqalədə bildirilib ki, Türkiyənin yardım çağırışına dərhal cavab verən İsrail Dövləti zəlzələ bölgəsinə Milli təxliyə və xilasetmə bölməsinin, xilasedicilər qrupunun və tibbi yardım personalının daxil olduğu "Zeytun budaqları" missiyasını göndərib.
- 5 aprel 2023-cü il tarixində ABŞ-ın Nyu-York şəhərindəki məşhur "Carnegie Hall" konsert mərkəzində Azərbaycanın əməkdar artisti, professor, tanınmış pianoçu Nərgiz Əliyarovanın solo konserti olub. Bilet satışından əldə olunan bütün gəlir 6 fevral 2023-cü il tarixində Türkiyədə baş vermiş dağıdıcı zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə müvafiq yardım fonduna köçürülüb.
- 25 aprel tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondu Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) ilə birlikdə Kahramanmaraş şəhərində zəlzələdən zərər çəkənlərə yardım kampaniyası təşkil edib. Yardım kampaniyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq 2600-dən çox ailəyə çatdırılan yardım bağlamalarında 30 çeşiddə gündəlik tələbat malları olub.
- 26 aprel tarixində Şimali Kipr Türk Respublikasının Girnə şəhərində 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı münasibətilə "Beynəlxalq Uşaq Şənliyi" adlı tədbir keçirilib. Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin və Lefkoşa Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə baş tutan tədbir Türkiyədəki dağıdıcı zəlzələdən sonra Şimali Kipr Türk Respublikasında yerləşmək məcburiyyətində qalan uşaqlara mənəvi dəstək göstərilməsi məqsədilə həyata keçirilib. Cəmiyyətin nəzdindəki Mədəniyyət Mərkəzində gerçəkləşdirilən tədbirdə Şimali Kiprdə yaşayan soydaşlarımızın övladları və türk dövlətlərini təmsil edən uşaqlar iştirak ediblər.

## 2023-CÜ İLİN İKİNCİ YARIMİLİNƏ DAİR HESABAT

### XÜLASƏ

Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 2023-cü ilin II yarısında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Diasporuna Dəstək Fondu və diaspor təşkilatları Azərbaycan haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılması, maddi-mənəvi irsin kütləvi təbliği, xaricdə yaşayan azərbaycanlıların yaşadıqları ölkələrdə sivil adaptasiyası və inteqrasiyası, lobbiçiliyin təkamülü və digər istiqamətlərdə müvafiq fəaliyyətini davam etdirib.

Hesabat dövründə Azərbaycan diasporu xüsusi aktiv olub, nümunəvi yekdillik və mütəşəkkillik göstərib. Komitə milli kimliyin qorunması, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyətini davam etdirib, soydaşlarımızın birliyi, azərbaycançılıq ideologiyası ətrafında daha sıx birləşməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirib. Hazırda 51 ölkədə 561 diaspor təşkilatı fəaliyyət göstərir. 36 ölkə üzrə diaspor təşkilatları 15 Azərbaycanlıların Koordinasiya Şurasında birləşib. Dünyanın 14 ölkəsində fəaliyyət göstərən Azərbaycan evlərinin sayı isə 27-yə çatıb.




Ötən dövrdə Ermənistanın Cənubi Qafqaz regionunda həyata keçirdiyi separatçılıq, ekstremizm, terrorçuluq, minalarla çirkləndirmə və özününküləşdirmə siyasəti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizə qarşı erməni diasporu və lobbisi tərəfindən həyata keçirilən kampaniyaların qarşısının alınması ilə əlaqədar bir çox ölkələrdə Azərbaycan diaspor təşkilatları tərəfindən toplantılar, sərgilər, nümayişlər, məlumatlandırıcı aksiyalar və digər zəruri tədbirlər təşkil olunub.

Eyni zamanda 15 İyun – Milli Qurtuluş Günü, 26 İyun – Silahlı Qüvvələr Günü, 27 Sentyabr – Anım Günü, Zəfər Günü, 9 Noyabr - Dövlət Bayrağı Günü, 12 Noyabr – Konstitusiya Günü, 17 Noyabr – Milli Dirçəliş Günü, 12 Dekabr – Heydər Əliyevin Anım Günü, 31 Dekabr –

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi günlərdə müxtəlif formatlı tədbirlər həyata keçirilib.



2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" və Şuşanın "Türk Dünyasının mədəniyyət paytaxtı" elan olunması ilə əlaqədar Komitənin və Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Azərbaycan diaspor təşkilatları tərəfindən Ümummilli Liderin əziz xatirəsinə həsr olunmuş müxtəlif tədbirlər – konsertlər, klassik musiqi gecələri, xeyriyyə aksiyaları, toplantılar, intellektual müsabiqələr, rəsm və foto sərgiləri təşkil olunub.



12-18 avqust tarixlərində Komitə tərəfindən “Heydər Əliyev İli” çərçivəsində Ümummilli Liderin doğulduğu Naxçıvan şəhərində “Heydər Əliyev – 100” Diaspor Gənclərinin IV Yay Düşərgəsi keçirilib. Düşərgədə 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edib. Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondu, təşkilati dəstək Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəliyinə məxsus olub.











19-20 noyabr 2023-cü il tarixində “Heydər Əliyev İli” çərçivəsində Berlin şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində Almaniyadakı Azərbaycanlı Həkimlərin II Forumu keçirilib.





Tədbirdə Komitənin, Azərbaycanın Almaniyadakı səfirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin əməkdaşları, Almaniyanın 70-ə yaxın şəhərindən gələn tibb mütəxəssisləri və qonaqlar iştirak ediblər.

Tədbirdə Azərbaycanın Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri Nəsimi Ağayev, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov, Alman-Azərbaycan Cəmiyyəti İdarə Heyətinin sədri, professor Çingiz Abdullayev çıxış ediblər.

Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin forum iştirakçılarına videomüraciəti təqdim edilib. İki gün davam edən tədbirin sonunda Almaniyadakı Azərbaycanlı Həkimlərin Təqaüd Proqramının ilk qaliblərinin adları açıqlanıb.





26-30 noyabr 2023-cü il tarixində Bakıda “Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Diasporuna Dəstək Fondunun və “Qızılbaş” Qlobal İrsi Təşkilatının birgə təşkilatçılığı ilə “Azərbaycanda Qızılbaş İrsi: tarixin izi ilə“ mövzusunda beynəlxalq konfrans baş tutub.

Konfransın açılış mərasimində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev,  Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərli, Qızılbaş Qlobal İrsi Şurası Təşkilatının sədri Babək Hüseynli, Qızılbaş Qlobal İrsi Təşkilatının sədr müavini Arşi Qızılbaş çıxış ediblər. Konfrans iştirakçıları Heydər Əliyev Mərkəzini ziyarət edib və Şuşaya səfər ediblər.











Komitədə “Heydər Əliyev İli” çərçivəsində “Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu: Heydər Əliyev və Türk Dünyası” adlı tədbir keçirilib. Tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla yanaşı, TDT-də müşahidəçi üzv statusuna malik Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstanın nümayəndə heyətləri də iştirak edib.





2023-cü ilin II yarısında Komitə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda aktivliyinin təmin olunması, tarixi vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra görüşlər, tədbirlər və onlayn konfranslar həyata keçirib. Diaspor təşkilatlarından Komitəyə daxil olan məktub və ərizələrə baxılıb və aidiyyəti üzrə cavablar verilib. Hesabat dövründə diaspor nümayəndələrinin Şuşaya üç səfəri təşkil olunub ki, bununla da Vətən müharibəsindəki tarixi qələbədən sonra müvafiq səfərlərin sayı 11-ə çatdırılıb.

Eyni zamanda Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq məqsədilə əcnəbi jurnalistlərin və ekspertlərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfərlərinin təşkili davam etdirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan həftəsonu məktəblərinin fəaliyyətinə, onların lazımi dərslik və avadanlıqlarla təchiz olunmasına dəstək göstərilib.

Komitənin İctimai TV ilə ortaq layihəsi olan "Vətən uzaqda deyil" verilişinin II yarımil ərzində 6, ümumilikdə il ərzində 16 buraxılışı hazırlanaraq yayımlanıb. Komitənin sosial şəbəkə hesabları üzrə aktivlik əmsalı aşağıdakı kimi olub:

- Facebook: 870 paylaşım, 61 785 izləyici, 86 798 bəyənmə, 1393 şərh, 18 521 repost.
- Instagram: 621 paylaşım, 13 600 izləyici.
- Youtube: 99 min baxış, 12 500 izləyici.
- Twitter (X) - 784 paylaşım, 21 600 izləyici.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fonduna ümumilikdə 136 məktub ünvanlanıb. Bunlardan 87-i təşkilat, 50-i vətəndaş tərəfindən göndərilib. Eyni zamanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 275 s nömrəli 14 mart 2023-cü il tarixli Sərəncamına əsasən (xaricdə yaşayan aztəminatlı azərbaycanlılara, o cümlədən Türkiyədə zəlzələdən əziyyət çəkmiş şəxslərə sosial yardım göstərilməsi) cənazənin gətirilməsi üçün 11 sərəncam imzalanıb. Müraciətlərdən 2 nəfərin Vətənə gəlməsinə, 1 nəfər aztəminatlı gəncin təhsil haqqının ödənilməsi üçün, həmçinin şəhid və qazi ailələrinə də Fond tərəfindən dəstək göstərilib. Xaricdə təhsil alan şəhid övladının təhsil haqqının 1 qisminin ödənilməsinə dəstək göstərilib, 2 nəfərin nəqliyyat və digər xərclərinin qarşılanması barədə sərəncam verilib. Həmçinin ali təhsil müəssisələrinə yüksək balla daxil olan şəhid övladlarına Fond tərəfindən maddi dəstək göstərilib. Türkiyənin Kahramanmaraş bölgəsində baş verən zəlzələ nəticəsində zərərçəkənlərə kömək məqsədilə Fond tərəfindən dəstək göstərilib. Eyni zamanda zəlzələ nəticəsində zərərçəkmiş 2 nəfər azərbaycanlı vətəndaşa müvafiq yardım edilib. Təhsil ilinin başlanması nəticəsində Azərbaycanda bu il 1-ci sinifə gedən yəhudi uşaqlara və şəhid övladlarına məktəbli dəsti hədiyyə edilib. Fondun elektron sistemində 158 təşkilat və 217 fiziki şəxs qeydiyyatdan keçib. İl ərzində Fondun layihələrin qeydiyyat sisteminə 35 müraciət - 9-u təşkilatlardan, 26-sı isə fərdi (xaricdə yaşayan azərbaycanlılardan) müraciətlər olub. Cari ildə Fondun Müşahidə Şurasının 4 iclası keçirilib. Müşahidə Şurasının iclaslarında 34 layihə təklifinə baxılıb, 13 layihənin Fond tərəfindən maliyyələşməsinə müsbət, 21-i layihənin isə maliyyələşməsindən imtina edilməsi barədə qərar verilib.

## AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİN DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRILMASI

### Azərbaycanın məruz qaldığı haqsızlıqlar, Ermənistanın işğalçılıq siyasətinin nəticələri, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş terror və soyqırımı aktları barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması, eyni zamanda qondarma "erməni soyqırımı" iddialarının ifşası

– 2 iyul tarixində ABŞ-ın geniş oxucu kütləsinə malik "Jewish News Syndicate" nəşrində İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın "Azərbaycan və İsraili yalnız yaxın

münasibətlər birləşdirmir, bu dünyəvi və demokratik müsəlman dövləti ən azından yəhudi dövlətinin mütəmadi olaraq tuş gəldiyi tənqid atəşinə məruz qalır" başlıqlı məqaləsi dərc olunubb. https://www.jns.org/jns/u-s-congress/23/6/25/297791/

- 4 iyul tarixində Almaniyada fəaliyyət göstərən güneyli milli fəal, yazar və naşir Şərifə Cəfərinin rəhbərlik etdiyi "İşıq Yolu" Cəmiyyəti Azərbaycanla sərhəddə Ermənistanın ekoloji durumun gərginləşdirilməsi istiqamətində atdığı növbəti yolverilməz addıma etiraz bəyanatı yayıb. Ətraf mühitin mühafizəsi üzrə beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda bildirilib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhəddə – Yerasx (Arazdəyən) kəndində Ermənistanın 16 500 kvadratmetr sahədə illik istehsal gücü 180 000 ton olan iri metallurgiya zavodu tikməsi güneyli soydaşlarımızda dərin narahatlıq hissi doğurur.
- 4 iyul tarixində məşhur fransız fotoqraf, yazıçı, rejissor Qreqori Herpe Fransada Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə baş tutan Azərbaycana səfəri çərçivəsində Laçın və Naxçıvan şəhərlərində olub.
- 17 iyul tarixindən başlayaraq Bişkek şəhərində fəaliyyət göstərən "Azəri" İctimai Birliyi, "Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlılar Birliyi", Brüssel şəhərində fəaliyyət göstərən Azərbaycan Evi, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurası, Hannoverdəki icmamız, Stokholmdakı "Qarabağ" təşkilatı, Vyanadakı Azərbaycan icması, İsveç-Azərbaycan Birliyi, Niderlandda fəaliyyət göstərən "Odlar Yurdu" Cəmiyyəti, "Niderlandda Azərbaycan Evi" , Klaypeda şəhərində yaşayan Azərbaycan icması, Fransa-Azərbaycan Dialoqu Assosiasiyası, Latın Amerikasındakı Azərbaycan icması, Hollanda-Azərbaycan Türk Kültür Dərnəyi, Fransa Azərbaycanlıları Koordinasiya Şurası, "Alberta Azərbaycan Mədəniyyət Cəmiyyəti" (ALACS), "Azərbaycanlı Xanımlar Klubu", Belçika Azərbaycanlıları Federasiyası, Belqrad Universitetində fəaliyyət göstərən Azərbaycan dili və Mədəniyyəti Mərkəz, İsveç-Azərbaycan Assosiasiyası, Kanadada fəaliyyət göstərən "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzi, Kvebek Azərbaycanlıları Assosiasiyası, Gürcüstan Azərbaycanlıları İnteqrasiya Mərkəzi, Şimali Karolina ştatında fəaliyyət göstərən Azərbaycan Dostluq Təşkilatı, Gürcüstanda fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzi, "Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi", Moskvada fəaliyyət göstərən "Azərbaycanlıların Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatı, "Moldovadakı Azərbaycanlılar Konqresi" (CAM), Minnesota-Azərbaycan Assosiasiyası, Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları, Astanada fəaliyyət göstərən "Xəzər" Azərbaycan Etnomədəni Birliyi, Almatıdakı "Ata-Yurd" (Nomad) İctimai Birliyi, Türküstandakı "Qarabağ" Etnomədəni Birliyi, Almaniyada fəaliyyət göstərən Heydər Əliyev adına Dünya Boks Komitəsi və Diaspor Boks Liqası, Praqa şəhərində fəaliyyət göstərən "Natəvan" Azərbaycan Mədəniyyət Cəmiyyəti , Ukrayna Azərbaycanlıları Radası, Monreal Kanada-Azərbaycan Cəmiyyəti, İslandiya Azərbaycan Cəmiyyəti, Aktauda fəaliyyət göstərən "Azərbaycan Mərkəzi" ölkəmizin ərazisində Ermənistan tərəfindən yaradılmış mina təhlükəsi ilə bağlı növbəti dəfə beynəlxalq ictimaiyyətə müraciət edib. Bəyanatlarda bildirilib ki, cari il iyulun 13-də Kəlbəcər rayonunun Seyidlər kəndi ərazisində arıçılıq fəaliyyəti ilə məşğul olan azərbaycanlı mülki şəxs mina partlayışı nəticəsində xəsarət alıb. Bu hadisə Ermənistan tərəfindən Azərbaycan ərazilərində basdırılmış minaların və partlamamış hərbi sursatların mülki şəxslərin həyatına ciddi təhlükə yaratmasının davam etməsi deməkdir.

- 19 iyul tarixində Türkiyədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistanın mina təhlükəsi yaratması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib. Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası və digər 22 təşkilatın adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda Ermənistanın mina terrorunun Azərbaycanın hərbi qulluqçularının və mülki şəxslərinin həyatını itirməsinə və ya yaralanmasına səbəb olaraq narahat qaldığı bir daha diqqətə çatdırılıb.
- 20 iyul tarixində həmyerlimiz, York Universitetinin professoru Ulduz Rəhimov Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması və erməni saxtakarlığının ifşa edilməsi məqsədilə Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evində yaradılmış kitabxanaya Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Dr. Kamran İmanovun müəllifi olduğu kitabları təqdim edib.
- 21 iyul tarixində İsveçdə və Fransanın əyalətlərində tanınmış fotoqraf Reza Deqatinin Azərbaycanı, eləcə də erməni işğalçılar tərəfindən yerlə yeksan edilmiş şəhər və kəndlərimizi əks etdirən "Dərin sükut" adlı fotosərgisi nümayiş etdirilib.
- Britaniya Azərbaycanlıları Koordinasiya Şurasının ölkəmizin sərhədində Ermənistanın ekoloji durumu gərginləşdirmək cəhdi ilə bağlı 15 iyun 2023-cü il tarixli məktubuna Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik və İnkişaf Nazirliyinin məktublar şöbəsi cavab verib.
- 26 iyul tarixində Britaniyanın "The HALO Trust" qeyri-kommersiya təşkilatı və Kanadanın "Mines Action Canada" (MAC) aparıcı şirkəti Britaniya Azərbaycanlıları Koordinasiyası Şurasının ölkəmizin azad olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış mina təhlükəsi barədə müraciətinə cavab verib.
- 31 iyul tarixində Azərbaycan diaspor təşkilatları Kəlbəcər rayonunun Seyidlər kəndi ərazisində arıçılıq fəaliyyəti ilə məşğul olan sahibkarın minaya düşməsi ilə bağlı bəyanat yayıb, beynəlxalq ictimaiyyəti mina sahələrinin dəqiq xəritələrini ölkəmizə təqdim etməsi, BMT-nin Minalardan Təmizləmə Xidməti (UNMAS) kimi minalarla mübarizə aparan beynəlxalq təşkilatlarla çalışması üçün Ermənistana güclü təzyiq göstərməyə, Azərbaycanı texniki yardımla və minatəmizləmə təcrübəsi ilə təmin etməyə çağırıb.
- 31 iyul tarixində İsveçrə Azərbaycanlılarının Dostluq, Mədəniyyət və Həmrəylik Assosiasiyası Laçın-Şuşa-Xankəndi yolu ətrafında yaranmış vəziyyətlə bağlı Avropa Şurasının Baş katibi Mariya Pejçinoviç-Buriçin mövqeyini sərt şəkildə pisləyib.
- 17 avqust tarixindən başlayaraq Budapeşt şəhərində fəaliyyət göstərən Macarıstan Azərbaycan Evi, Çexiyada fəaliyyət göstərən "Natəvan" Azərbaycan Mədəniyyət Evi Cəmiyyəti, ABŞ-da fəaliyyət göstərən Florida Azərbaycanlıları İcması, Nyu-York Azərbaycan-Amerika Qadın Cəmiyyəti, Bolnisi azərbaycanlıları, Gürcüstandakı "Vətəndaş Birliyi", Aktaudakı "Azərbaycan Mərkəzi", Gürcüstan Azərbaycanlıları İnteqrasiya Mərkəzi, Bişkekdəki soydaşlarımız, "Alyans" Gənclər Mərkəzi, Moldova Azərbaycanlıları Konqresi, Ukrayna Azərbaycanlıları Radası, Sidney şəhərində fəaliyyət göstərən Avstraliya-Azərbaycan Türk Dostluq Birliyi, Tokioda fəaliyyət göstərən Azərbaycan-Yaponiya Dostluq Mərkəzi, İsveçrə Azərbaycanlılarının Dostluq, Mədəniyyət və Həmrəylik Assosiasiyası, "Azərbaycanlı Xanımlar Klubu", Niderlandın Rotterdam şəhərində fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresi, Niderland-Azərbaycan "Odlar Yurdu" Cəmiyyəti, Latın Amerikasının Azərbaycan Cəmiyyəti, Torontodakı "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzi, Niderland-Belçika Azərbaycanlıları

Koordinasiya Şurası, Yuta-Azərbaycan Dostluq Təşkilatı, Minnesota Azərbaycan Assosiasiyası, Macarıstan Azərbaycan Evi, Hollanda-Azərbaycan Türk Kültür Dərnəyi, Fransa Azərbaycanlıları Koordinasiya Şurası, Brüssel Azərbacan Evi, Niderland Krallığında fəaliyyət göstərən "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyi, Avstraliya Azərbaycanlıları Assosiasiyası, Avstraliya-Azərbaycan Türk Dostluq Birliyi və Azərbaycan-Yaponiya Dostluq Mərkəzi ölkəmizin sülh səylərinin dəstəklənməsi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.

- 18 avqust tarixində London şəhərində yerləşən "Amnesty İnternational" beynəlxalq qeyri-hökumət təşkilatının ofisi qarşısında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında yaşayan Azərbaycan icması nümayəndələrinin dinc aksiyası keçirililib. Birləşmiş Krallıqda yaşayan Azərbaycanlıların Koordinasiya Şurasının təşkilatçılığı ilə baş tutan aksiya Ermənistanın yenidən BMT Təhlükəsizlik Şurasını siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək cəhdinə etiraz məqsədilə gerçəkləşdirilib.
- 21 avqust tarixində Avstriyada yaşayan Azərbaycan icması nümayəndələrinin məşhur Heldenplatz meydanında dinc aksiyası keçirilib. Avstriya-Azərbaycan Mədəniyyət və İş Adamları Dərnəyinin (AZER-DER) təşkilatçılığı ilə baş tutan aksiyada ölkəmizə qarşı 30 il ərzində işğalçı siyasət yürütmüş Ermənistanın yenidən BMT Təhlükəsizlik Şurasını siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək cəhdinə etiraz edilib. Aksiya zamanı Azərbaycan bayrağı dalğalandırılıb, "Ermənistan, bizim torpaqlarımızın minalandırılmasını dayandır!", "Ermənilərin minaları dinc sakinləri öldürür!", "Mina qurbanlarına görə ədalət tələb edirik!", "Ermənistanın ekoloji terroruna son qoyulsun!" "Qarabağın ekoloji mühitinin dağıdılmasına görə ədalət tələb edirik!" və sair şüarlar nümayiş etdirilib. Aksiya iştirakçıları BMT-nin Təhlükəsizlik Şurasından və beynəlxalq ictimaiyyətdən Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın hərbi və ekoloji terroruna son qoyulmasını, Azərbaycan vətəndaşlarının Qarabağda təhlükəsizliyinin və insan hüquqlarının təmin edilməsini, Azərbaycan dövlətinin sülh səylərinin dəstəklənməsini tələb ediblər.
- 21 avqust tarixində Kanadanın "Mines Action Canada" (MAC) aparıcı şirkətinin icraçı direktoru Erin Hant ölkəmizin işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış mina təhlükəsi barədə Fransa Azərbaycanlıları Koordinasiya Şurasının müraciətini cavablandırıb.
- 23 avqust tarixində Almaniyada fəaliyyət göstərən Azərbaycan icması fəallarının paytaxt Berlinin məşhur Paris meydanında ("Pariser Platz") dinc aksiyası keçirilib. "Almaniyada Azərbaycan Evi" İctimai Birliyinin təşkilatçılığı ilə Avropa Evinin önündə baş tutan aksiya ölkəmizə qarşı 30 il ərzində işğalçı siyasət yürütmüş Ermənistanın dünya ictimaiyyətini yenidən siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək və Azərbaycanın Qarabağ bölgəsində təxribatlar törətmək cəhdlərinə etiraz məqsədilə gerçəkləşdirilib.
- 23 avqust tarixində Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan icmasının ölkəmizin sülh səylərinin dəstəklənməsi ilə bağlı məlumatlandırma aksiyası keçirilib. Toronto şəhərinin mərkəzində yerləşən məşhur Yonq-Dandas Meydanında (Yonge and Dundas Square) və Yonq-Blur (Yonge and Bloor) yolayırıcında baş tutan aksiya zamanı "Qarabağ Azərbaycandır!" adlı guşə yaradılıb. Guşənin üzərində "Azərbaycan sülh istəyir, Ermənistan müharibə istəyir", "Ermənistan sülhü rədd edir,

müharibəni seçir", "Ermənistan, sülh sazişini imzala!", "Erməni separatçılarının qanunsuz fəaliyyətinə son qoyulsun!", "Ermənistan, bizim torpaqlarımızın minalandırılmasını dayandır!", "Ermənilərin minaları dinc sakinləri öldürür!", "Azərbaycan girovlarını azad et!", "Mina qurbanlarına görə ədalət tələb edirik!", "Ermənistanın ekoloji terroruna son qoyulsun!" "Qarabağın ekoloji mühitinin dağıdılmasına görə ədalət tələb edirik!" və s. şüarların əks olunduğu fotomateriallar yerləşdirilib.

- 24 avqust tarixində Çexiyada fəaliyyət göstərən Azərbaycan icması Praqa şəhərində ölkəmizin sülh səylərinin dəstəklənməsi ilə bağlı növbəti məlumatlandırma aksiyası keçirib. Aksiya ATƏT-in Boris Nemtsov meydanı 529/2 ünvanında yerləşən Praqadakı Sənədlər Mərkəzi önündə Azərbaycan icmasının fəalı Fərid Əmirəliyevin təşkilatçılığı ilə gerçəkləşdirilib.
- 25 avqust tarixində Birləşmiş Krallıqda fəaliyyət göstərən Azərbaycanlıların Koordinasiya Şurası (CCAUK) Azərbaycanın Qarabağ regionu ətrafındakı narrativlərin müstəqil araşdırılması və kritik narahatlıqların aradan qaldırılması məqsədilə "Amnesty International" beynəlxalq insan hüquqları təşkilatına müraciət edib. CCAUK adından "Amnesty International UK" təşkilatının daimi icraçı direktoru Saşa Deşmuka (Sacha Deshmukh) müraciət ünvanlayıb.
- 28 avqust tarixində Litvada fəaliyyət göstərən "Günəş" Azərbaycanlılar Assosiasiyası ölkəmizin sülh səylərinin dəstəklənməsi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib. Assosiasiya adından Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki mənzil-qərargahına ünvanlanan bəyanatda bildirilib ki, Azərbaycan əsilli litvalılar Ermənistanda mövcud olan revanşist əhval-ruhiyyəli qüvvələrin və erməni diasporunun yolverilməz əməlləri nəticəsində Cənubi Qafqaz regionunda yaranmış mövcud vəziyyətdən dərin narahatlıq hissi keçirirlər.
- 29 avqust tarixində alman alim, Qafqaz regionu üzrə tədqiqatçı, "Şuşanın irsi" kitabının, həmçinin Ermənistan-Azərbaycan münaqişəsinə dair çoxsaylı kitablar və məqalələrin müəllifi, Dr. Mixael Raynhard Hess Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş ittihamçısı Luis Moreno Ocamponun hazırladığı "2023-ci ildə ermənilərə qarşı genosid. Ekspert rəyi"ndəki tarixi tezis və "faktlarla" bağlı açıq məktub hazırlayıb, onu Facebook və Tvitter/X səhifələrində paylaşıb, eləcə də "Berlin Gulandot" nəşriyyatının internet səhifəsində yerləşdirib. Dr. Hess elmi-tarixi faktlar əsasında və erməni müəlliflərin yazdığı əsərlərdən istifadə etməklə, Moreno Ocamponun yazdıqlarını tarixi faktlar və hadisələrin "açıq-aşkar təhrif olunması və birtərəfli ermənipərəst şərh və propaqanda" kimi dəyərləndirərək, "Ermənistanın təbliğat maraqlarına xidmət edən spekulyasiya" adlandırıb.
- 31 avqust tarixində Haaqa Ədalət Sarayının önündə Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının dəstəyi və "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin təşkilatçılığı ilə aksiya keçirilib. Aksiya ölkəmizə qarşı 30 il ərzində qəsbkar və təcavüzkar siyasət yürütmüş Ermənistanın dünya ictimaiyyətini yenidən siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək və Azərbaycanın Qarabağ bölgəsində təxribatlar törətmək cəhdlərinə etiraz məqsədilə gerçəkləşdirilib.
- 31 avqust tarixində İsveç Azərbaycanlıları Koordinasiya Şurası adından Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki mənzil-qərargahına ünvanlanan bəyanatda bildirilib ki, Azərbaycan əsilli isveçlilər Ermənistanda mövcud olan revanşist əhval-ruhiyyəli

qüvvələrin və erməni diasporunun yolverilməz əməlləri nəticəsində Cənubi Qafqaz regionunda yaranmış mövcud vəziyyətdən dərin narahatlıq hissi keçirirlər.

- 1 sentyabr tarixində Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti, Fransa parlamentinin keçmiş deputatı Jerom Lamber fransız KİV-də Azərbaycana qarşı düşmən münasibətinin formalaşdırılması cəhdlərini tənqid edib.
- Macarıstanın paytaxtı Budapeştdə yerləşən Azərbaycan Evində “Sərsəng su anbarı: Humanitar fəlakətin bir addımlığında” mövzusunda tədbir və foto-sərgi keçirilib. Azərbaycan Diasporuna Dəstək Fondunun və Macarıstandakı Azərbaycan Evinin təşkilati dəstəyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə “İnsan Hüquqları XXI əsr – Azərbaycan” Fondu tərəfindən gerçəkləşdirilən tədbirdə yerli ictimaiyyətin, Azərbaycan, Türkiyə, Qazaxıstan və Tatarıstan diasporunun nümayəndələri iştirak ediblər.
- 11 sentyabr tarixində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında yaşayan Azərbaycan icması Londondakı İlinq şəhər Şurasının (Ealing City Council) “erməni soyqırımı”nın anılması haqqında qərarına sərt etiraz edib. Britaniya Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Fəridə Pənahovanın adından Böyük Britaniya Parlamentinin İcmalar Palatasının lideri xanım Penni Mordaunta və xarici işlər naziri Ceyms Kleverliyə ünvanlanan məktublarda icmamızın bu qəbuledilməz və yolverilməz vəziyyətlə bağlı dərin narahatlığı ifadə olunub.
- 11 sentyabr - 13 oktyabr 2023-cü il tarixləri çərçivəsində Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitut tərəfindən BMT-nin 54-cü İnsan Haqları Şurasının ümumi müzakirələr sessiyasına Azərbaycanın işğaldan azad olunmuş ərazilərində təbii sərvətlərin qanunsuz istismarı, Oxçuçayın Ermənistan tərəfindən çirkləndirilməsi, işğaldan azad olunmuş ərazilərin Ermənistan silahlı qüvvələri tərəfindən minalanması və Urmiya gölündə yaradılan ekoloji fəlakətlə bağlı yazılı və şifahi bəyanatlar hazırlanaraq təqdim edilib və məsələ gündəmə gətirilərək beynəlxalq qurum tərəfindən qəbul edilib.
- 13-14 sentyabr tarixlərində Kanada parlamentinin deputatı Çandra Arya (Chandra Arya), Kanadanın nüfuzlu “Thej.ca” yəhudi media platformasının nəşriyyat direktoru Ron İst (Ron East) və Kanadanın paytaxtı Ottava şəhərində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan həftəsonu məktəbinin həmtəsisçisi Nigar Əliyevadan ibarət nümayəndə heyəti Cəbrayıl, Zəngilan və Quba rayonlarında olub. Xudafərin körpüsünə çatanadək yol boyu müşahidə etdikləri dağıntılar kanadalı qonaqları çox təsirləndirib. Zəngilanın Ağalı kəndində olarkən isə qonaqlara “ağıllı kənd” konsepsiyası əsasında yenidən tikilən bu yaşayış məntəqəsinin infrastrukturu barədə ətraflı məlumat verilib. Qubaya səfər proqramı çərçivəsində qonaqlar “Soyqırımı Memorial Kompleksi”ni və Dağ yəhudilərinin kompakt şəkildə məskunlaşdığı Qırmızı Qəsəbəni ziyarət ediblər. Eyni zamanda Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Kanadada fəaliyyət göstərən "Vətən" İncəsənət və Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Azərbaycana səfər edən Kanada nümayəndə heyəti ilə görüşüb.
- 19 sentyabr tarixindən başlayaraq dünya azərbaycanlıları, diaspor təşkilatları o cümlədən Avstraliya İttifaqında fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyası, Kvinslenddə fəaliyyət göstərən Azərbaycanın Milli Assosiasiyası, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası (TADEF), Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası (TADDEF) və Ərəb ölkələrində (İordaniya, Əlcəzair, Misir, Səudiyyə Ərəbistanı, Küveyt və s.), “Qarabağ” Azərbaycan Kültür Cəmiyyəti, Alman-Azərbaycan Dostluq Körpüsü,

Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyası, Sloveniyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Assosiasiyası, Stokholm şəhərində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan Kültür Cəmiyyəti, Nyu-York şəhərində fəaliyyət göstərən Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti, Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyası, Nyu-York Azərbaycan-Amerika Qadın Cəmiyyəti, İsraildə fəaliyyət göstərən kanal24.az, Britaniya Azərbaycanlıları Cəmiyyəti, “Azərbaycan Mədəniyyət Mərkəzi” İctimai Birliyi, Neapol-Bakı Assosiasiyası, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurası, Danimarkadakı Vətən Cəmiyyəti, “Azərbaycan Mərkəzi” İctimai Fondu, “Xəzər” Azərbaycan Etnomədəni Birliyi və “Azərbaycanlıların Assosiasiyası” Respublika İctimai Birliyi (Qazaxıstan), “QALA” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti, Kişinyov şəhərində fəaliyyət göstərən “Moldova Azərbaycanlıları Konqresi” (CAM), “Vətəndaş-Cəmiyyətin Təhsili və İnkişafı üçün Vətəndaş Birliyi”, Alyans Gənclər Mərkəzi,Gürcüstan Azərbaycanlıları İnteqrasiya mərkəzi,(Grcüstan), Bişkekdə fəaliyyət göstərən “Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlılar Birliyi”, “Azəri”İctimai Birliyi, Kanadada fəaliyyət göstərən “Kvebek Azərbaycanlıların Assosiasiyası”, “Vətən” Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzi , “Turan Center”, Monreal Kanada-Azərbaycan Cəmiyyəti,Vankuver Azərbaycanlılar Cəmiyyəti, Alberta Azərbaycan Mədəniyyət Cəmiyyəti, “Az Media Group” təşkilatı ABŞ-nin Florida ştatında fəaliyyət göstərən Amerika Azərbaycanlıları Gənclər Təşkilatı, Florida Azərbaycanlı Amerika İcması, Amerika-Azərbaycanlıları Koordinasiya Şurası, Yuta-Azərbaycan Dostluq Təşkilatı, Minnesota-Azərbaycan Assosiasiyası,Birləşmiş Krallıqda yaşayan Azərbaycanlıların Koordinasiya Şurası, Latın Amerikası ölkələrində yaşayan soydaşlarımız, “Moskva Azərbaycanlılarının milli-mədəni muxtariyyəti” regional ictimai təşkilatı, Belqrad Universitetinin nəzdindəki “Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi”, Azərbaycan-Koreya Dostluq Assosiasiyası, Azərbaycan-Yaponiya Dostluq Mərkəzi, Macarıstandakı Azərbaycan Evi, Barselonadakı Azərbaycan Evi, “Ana Vətən” Avropa Azərbaycanlı Qadınlar Birliyi, Haaqadakı “Odlar Yurdu” Cəmiyyəti, “Azərbaycan Xanımlar Klubu” (Azerbaijan Ladies Club) Benilüks Azərbaycanlıları Konqresi, Hollanda-Azərbaycan Türk Kültür Dərnəyi, Belçika-Azərbaycanlıları Federasiyası, Fransa Azərbaycanlıları Koordinasiya Şurası, İsveç-Azərbaycan Assosiasiyası, Berlindəki Azərbaycan Mədəniyyət Evi, İtaliya-Azərbaycan Birliyi, “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası, Almaniya Azərbaycanlıları Alyansı, Çexiyadakı “Natəvan” Cəmiyyəti, Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyəti, Maqdebuqdakı Heydər Əliyev adına Dünya Boks Komitəsi, İsveç-Azərbaycan Birliyi, Slovakiya Azərbaycanlıları Cəmiyyəti, Çexiyadakı Azərbaycan icması, Azərbaycan Diaspor Gəncləri Şəbəkəsi, “Azər-Türk” Gənclər Təşkilatı və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Finlandiyadakı koordinatorluğu, Fransada fəaliyyət göstərən Paris Azərbaycan Evi, Polşa Azərbaycanlıları Şurası, Tel-Əvivdəki “Keren Şhel Techiya” Assosiasiyası fəaliyyət göstərdikləri ölkələrin dövlət qurumlarına, beynəlxalq təşkilatlara, BMT-yə, “Human Rights Watch” təşkilatına və yerli ictimaiyyətlərə müraciətlər ünvanlayaraq, KİV-də yazılar dərc etdirərək sentyabrın 19-da törədilmiş təxribat və terror nəticəsində Azərbaycanın 2 mülki vətəndaşının və 4 polis əməkdaşının Ermənistan istehsalı olan minalara düşərək həlak olmasını, 10 noyabr 2020-ci il tarixindən İkinci Qarabağ müharibəsi bitən gündən bu günədək 320 Azərbaycan vətəndaşının Ermənistanda istehsal olunmuş minalardan zərər çəkməsini, onlardan 67 nəfərinin həlak olmasını, 314 nəfərinin yaralanmasını, rəsmi İrəvanın mina xəritələrini Bakıya verməkdən

imtina etməsini və Azərbaycan ərazilərini yeni minalarla çirkləndirməsini pisləyib, Ermənistana güclü təzyiq göstərməyə və qətiyyətli addımlar atmağa çağırıblar.

- 19 sentyabr tarixində Almaniyada yaşayan Azərbaycan icmasının fəal üzvü Asəf Əsgər erməni separatizminin dəstəklənməsinin davam etdirilməsinin yolverilməzliyi ilə bağlı ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kimə məktubla müraciət edib. Məktubda Qarabağdakı vəziyyətlə bağlı ABŞ Senatının Xarici Əlaqələr Komitəsində keçirilən 14 sentyabr tarixli dinləmələrdə dövlət katibi köməkçisinin beynəlxalq hüquq normaları və fundamental hüquq azadlıqları ilə bir araya sığmayan fikirlərinə etiraz edilib.
- 20 sentyabr tarixində dünyanın aparıcı kütləvi informasiya vasitələrində Azərbaycan ərazilərində Ermənistanın mina terrorunun davam etməsi nəticəsində son günlər azərbaycanlı polislərin və mülki şəxslərin həlak olmasına diqqət cəlb edilib. İsrailin "Jewish Press", Fransanın "La Gazette", Türkiyənin "Didim Postası", İordaniyanın "Nayrouz.com", Yaponiyanın "ajmedia.jp", Gürcüstanın qəzet və portallarında azərbaycanlı polis əməkdaşlarının Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisindən keçən hissəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək həlak olması haqqında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı yayılıb.
- 21 sentyabr tarixində ölkəmizin Qarabağ iqtisadi rayonunda apardığı lokal antiterror tədbirlərini dəstək məqsədilə Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) İstanbul Türkiyə-Azərbaycan Həmrəylik və Kültür Dərnəyinin (İS-TAD) ofisində mətbuat konfransı keçirib.
- 21 sentyabr tarixində Niderlandın https://www.haber.nl xəbər portalında "Beynəlxalq Qadınlar Klubu"nun sədri Kəmalə Cəlilovanın qələmə aldığı "Azərbaycanın terror ünsürlərinə qarşı əməliyyatı ermənilərə geri addım atdırdı" sərlövhəli məqalə yayımlanıb.
- 22 sentyabr tarixində Böyük Britaniyanın London və Mançester şəhərlərində Ermənistan silahlı qüvvələri tərəfindən işğal illərində Azərbaycanın Qarabağ bölgəsində kütləvi şəkildə basdırılan minaların faciəvi nəticələrini əks etdirən məlumat xarakterli aksiya keçirilib. Britaniya Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan aksiya zamanı müxtəlif şüarları, həştəqləri və məlumatları əks etdirən LED ekranlı yük avtomobilləri London və Mançester şəhərlərinin izdihamlı mərkəzi küçələrində hərəkət edib.
- 22 sentyabr tarixində İordaniya, İraq, Əlcəzair, Livan, Misir, Mərakeş Səudiyyə Ərəbistanı və Suriyanın kütləvi informasiya vasitələrində ərəb ölkələrində yaşayan Azərbaycan icmasının ölkəmizin Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş hərbi təxribatları və terroru pisləyən bəyanatı yayımlanıb. https://elalmelarby.com/?p=43088
- 23 sentyabr tarixində Şotlandiyanın Edinburq şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən işğal illərində Azərbaycanın Qarabağ bölgəsində kütləvi şəkildə basdırılan minaların faciəvi nəticələrini əks etdirən məlumat xarakterli aksiya keçirilib. Britaniya Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan aksiya zamanı müxtəlif şüarları, həştəqləri və məlumatları əks etdirən LED ekranlı yük avtomobilləri Edinburq şəhərinin izdihamlı mərkəzi küçələrində hərəkət edib.
- 23 sentyabr tarixində Birləşmiş Millətlər Təşkiltının Kişinyov şəhərindəki nümayəndəliyi qarşısında Azərbaycan icmasının bir qrup üzvünün dinc aksiyası keçirilib. Moldova Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə baş tutan aksiyada Ermənistanın mina

terrorizminə etiraz edilib. Aksiyanın sonunda rəsmi İrəvandan dəqiq mina xəritələrini Azərbaycana verməsi, Cənubi Qafqaz bölgəsində davamlı sülhün və sabitliyin bərqərar olmasını istəyən Azərbaycanla sülh müqaviləsi imzalaması tələblərinin əks olunduğu bəyanat BMT-nin Moldovadakı nümayəndəliyinə təqdim edilib.

– 24 sentyabr tarixində Praqa şəhərinin məşhur Vatslav meydanında Ermənistanın ölkəmizə qarşı apardığı mina terrorizmi ilə əlaqədar sərgi-aksiya keçirilib. “Elson Grand” təşkilatının üzvü, Azərbaycan diasporunun fəalı Fərid Əmirəliyevin təşkilatçılığı ilə baş tutan aksiya zamanı “Qarabağ Azərbaycandır!”, “44 gün... Qəhrəmanlar Azərbaycan naminə canlarını fəda etdilər” yazılmış poster, “Ermənistan, torpaqlarımızı minalandırma!”, “Erməni minaları = müharibə cinayətləri”, “Erməni terrorizmi minalarla davam edir”, “Erməni terrorizminə son!”, “Mina basdırma, ağac ək!” şüarları əks olunmuş plakatlar nümayiş etdirilib.
– 25 sentyabr tarixində Moldova Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Kişinyovda Ermənistanın mina terrorizminə etiraz edilib. Aksiya iştirakçıları öz etirazlarını “Ermənistan, torpaqlarımızı minalandırma!”, “Erməni terrorizmi minalarla davam edir”, “Erməni terrorizminə son!”, “Mina basdırma, ağac ək!” şüarları nümayiş etdiriblər. Aksiyanın sonunda rəsmi İrəvandan dəqiq mina xəritələrini Azərbaycana verməsi, Cənubi Qafqaz bölgəsində davamlı sülhün və sabitliyin bərqərar olmasını istəyən Azərbaycanla sülh müqaviləsi imzalaması tələblərinin əks olunduğu bəyanat BMT-nin Moldovadakı nümayəndəliyinə təqdim edilib.
– 26 sentyabr tarixində Stokholm şəhərində keçirilən “Stokholmdakı təşkilatların mədəni mübadiləsi” adlı sərgidə ölkəmizi İsveç-Azərbaycan Mədəniyyət Dərnəyi (SAF) təmsil edib. Azərbaycan guşəsində ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini, adət-ənənələrini əks etdirən kitablar, jurnallar və suvenirlər nümayiş etdirilib. Ziyarətçilər Qarabağda müharibənin tamamilə bitməsi münasibətilə Azərbaycanı təbrik ediblər.
– 28 sentyabr tarixində Qazaxıstanın Aktau şəhərində fəaliyyət gösətərən “Azərbaycan Mərkəzi” İctimai Fondu Şahmərdan Yessenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetinin beynəlxalq münasibətlər fakültəsinin 4-cü kurs tələbələri ilə görüş keçirib. Qarabağ iqtisadi rayonunda həyata keçirilmiş antiterror tədbirləri barədə ətraflı məlumat verən “Azərbaycan Mərkəzi”nin rəhbəri İlkin Orucov Azərbaycanın suverenliyinin tam bərpa olunması münasibətilə ölkəmizi, xalqımızı və türk dünyasını təbrik edib.
– 29 sentyabr tarixində ABŞ-nin https://newsblaze.com xəbər portalında Azərbaycanın keçirdiyi bir günlük antiterror tədbirlərinin separatçıların təslim olması ilə nəticələnməsindən və Qarabağa sülh gətirməsindən bəhs olunub. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, tanınmış jurnalist Nurit Qringerin qələmə aldığı məqalədə müstəqil Azərbaycan dövlətinin Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan hissəsində antiterror tədbirləri keçirməyə məcbur olmasının səbəbləri barədə ətraflı məlumat verilib.
– 29 sentyabr tarixində Almaniyanın https://nex24.news xəbər portalında “Türkoloq Hess: “Qarabağda nə baş verir?” sərlövhəli məqalə yayımlanıb. Almaniyalı türkoloq alim Mixael Reynhard Hessin qələmə aldığı məqalədə Qarabağ münaqişəsinin tarixi, Ermənistan və Qarabağdakı erməni separatçıları tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsi barədə ətraflı məlumat verilib.

- 29 sentyabr 2023-cü il tarixində ABŞ-nin Vaşinqton, Nyu-York və Atlanta şəhərlərində Ermənistan silahlı qüvvələri tərəfindən işğal illərində Azərbaycanın Qarabağ bölgəsində kütləvi şəkildə basdırılan minaların faciəvi nəticələrini əks etdirən məlumat xarakterli aksiya keçirilib. Yuta-Azərbaycan Dostluq Təşkilatının sədri Əsmər Qarayevanın təşkilatçılığı ilə baş tutan aksiya zamanı müxtəlif şüarları, həştəqləri və məlumatları əks etdirən LED ekranlı yük avtomobilləri ABŞ-nin 3 şəhərinin izdihamlı mərkəzi küçələrində hərəkət edib. Bu şəhərlərin icazə verilən mərkəzi hissələrində avtomobillər dayandırılıb və Ermənistanın mina terroruna diqqət cəlb edilib.
- 29 sentyabr tarixində Azərbaycanın Qarabağda antiterror tədbirlərindən sonra Ayub Kara və Mordexay Kedar kimi tanınmış İsrail siyasətçiləri bölgədə sülhü dəstəkləmə səylərini gücləndiriblər. Tanınmış İsrailli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham bu barədə ölkəsinin populyar "Israel National News" qəzetində dərc olunmuş məqaləsində yazıb. https://www.israelnationalnews.com/news/377593
- 29 sentyabr tarixində Küveytin https://bobiannews.net xəbər portalında Azərbaycan icmasının ölkəmizin Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törədilməsini pislədikləri barədə məlumat verilib.
- 1 oktyabr tarixində Almaniyada yaşayan azərbaycanlılar Berlin şəhərinin Brandenburq qapıları önündə dinc aksiya keçiriblər. Aksiyanın məqsədi və tələbi Almaniya mediasında, həmçinin vətəndaş cəmiyyətinə yaxın dairələrdə sistemli şəkildə Azərbaycana qarşı yönəlmiş yalan məlumat və təhriflərlə dolu informasiya hücumlarına son qoyulması olub. Bununla yanaşı, aksiya iştirakçıları Azərbaycan torpaqlarının 30 ildən sonra işğaldan azad olunduğunu qeyd edərək, regionda sülhü dəstəkləməyə çağırışlar ediblər.
- 2 oktyabr tarixində Haaqa şəhərində yerləşən Beynəlxalq Ədalət Məhkəməsinin önündə Azərbaycan icmasının "Biz sülh istəyirik!" adlı dinc etiraz aksiyası keçirilib. Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının təşkilatçılığı ilə yerli vaxtla 15.00-dan 19.00-dək baş tutan aksiya Ermənistanın cəfəng iddialarına və anti-Azərbaycan kampaniyasına etiraz məqsədilə gerçəkləşdirilib.
- 2 oktyabr tarixində Almaniyada yaşayan diaspor fəalı Asəf Əsgər beynəlxalq platformalarda ölkəmizə qarşı ədalətsiz mövqe sərgiləyən və həqiqətdən kənar iddialar səsləndirən Almaniyanın xarici işlər naziri Annalena Berboka müraciət edib. Müraciətdə bildirilib ki, beynəlxalq hüquq normalarına və demokratik dəyərlərə əməl etmək öhdəliyi daşıyan Almaniya kimi bir ölkənin xarici siyasətinə rəhbərlik edən nazirin BMT Təhlükəsizlik Şurasının iclasında Azərbaycanın ünvanına saxta ittihamlar və yalanlar səsləndirməsi qəbuledilməzdir.
- 3 oktyabr tarixində İtaliya Azərbaycanlıları Koordinasiya Şurası erməni model Armine Arutunyanın ölkəmizə qarşı müharibə aparılmasını təbliğ etməsi ilə bağlı dünyaca məşhur "Gucci" şirkətinə müraciət edib.
- 5 oktyabr tarixində Almaniyada fəaliyyət göstərən "Bremen Azərbaycan Mədəniyyət Evi" alman ictimaiyyətinin diqqətini Azərbaycanın Qarabağ iqtisadi rayonunda apardığı birgünlük antiterror tədbirlərinin səbəbinə cəlb edib. "Bremen Azərbaycan Mədəniyyət Evi" adından Almaniya Federativ Respublikasının kansleri Olaf Şoltsa, Baden-Vyurtemberq və Reynland-Pfalts əyalətlərinin televiziya və radio qurumlarına, "Vezer Kuryer" Mətbuat Evinə ünvanlanan müraciətlərdə nəzərə çatdırılıb ki, Azərbaycan BMT

Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əsasən onun tərkib hissəsi kimi tanınan Qarabağın bütöv ərazisində öz suveren hakimiyyətini təmin etməsi səbəbindən bütün Qərb dünyasında hücuma məruz qalıb.

– 5 oktyabr tarixində tanınmış israilli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham ölkəsinin populyar "Israel HaYom" qəzetində dərc olunmuş "Niyə israillilər Azərbaycanın Qarabağdakı addımlarını dəstəkləməlidirlər?" sərlövhəli məqaləsində Azərbaycanın bugün bütün Qarabağı qaytarması ilə İsrailin 1967-ci ildə İudeya və Samariyanı qaytarması arasında çoxlu paralellər göstərərək diqqətə çatdırıb ki, hər iki halda rəqibləri onlara qarşı təcavüzə başladıqdan sonra Azərbaycan və İsrail beynəlxalq hüquqa uyğun olaraq onlara məxsus olan torpaqları geri alıb. https://www.israelhayom.com/opinions/why-israelis-should-support-azerbaijani-action-in-karabakh/

– 6 oktyabr tarixində Avstraliyanın Yeni Cənubi Uels (NSW) ştatının Multikulturalizm Məsələləri üzrə Nazirliyi erməni kinofestivalında nümayiş etdirilən filmlərin mövzusu ilə bağlı Azərbaycan icmasının məktubunu cavablandırıb. Nazirliyin baş icraçı direktoru Cozef La Postanın adından Avstraliya Azərbaycanlıları Assosiasiyasının rəhbəri, Avstraliya və Okeaniya ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Sidneydəki əlaqələndiricisi Mikayıl Oytaya ünvanlanan məktubda bildirilib ki, Azərbaycan icmasının ştatdakı mədəni müxtəlifliyə töhfələri yüksək qiymətləndirilir, Qarabağ münaqişəsinin narahatedici və mürəkkəb məsələ olduğunu anlayır və bu məqamın ştatdakı icmalararası münasibətlərə mənfi təsirinin qarşısını almağa çalışılır.

– 8 oktyabr tarixində Varşava şəhərində Azərbaycan icmasının məşhur "Plac Zamkowy" meydanından başlayan Sülh Yürüşü keçirilib. Polşa Azərbaycanlıları Şurası və Polşa Azərbaycanlıları Koordinasiya Şurasının birgə təşkilatçılığı baş tutan aksiya Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun şəkildə Qarabağda sülh naminə atdığı addımların, Qarabağ münaqişəsinin başlandığı gündən indiyədək nümayiş etdirdiyi sülhpərvər mövqeyinin Polşa və dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə gerçəkləşdirilib.

– 10 oktyabrdan başlayaraq "Barselonada Azərbaycanlılar Cəmiyyəti" və Barselona Azərbaycan Evi, Hollanda-Azərbaycan Türk Kültür Dərnəyi, Fransa Azərbaycanlıları Koordinasiya Şurası, Niderlandın Haaqa şəhərində fəaliyyət göstərən "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyi, Benilüks Azərbaycanlıları Konqresi, İsveç-Azərbaycan Assosiasiyası, İtaliya Azərbaycanlıları Koordinasiya Şurası və İtaliya-Azərbaycan Birliyi, İsveç-Azərbaycan Mədəniyyət Birliyi (SAF), Danimarka-Azərbaycan "Vətən" Cəmiyyəti, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Finlandiyadakı koordinatorluğu və "Azər-Türk" Gənclər Təşkilatı tərəfindən beynəlxalq təşkilatlara, Avropa Parlamentinə ünvanlanan bəyanatlarda bildirilib ki, soydaşlarımız erməni nümayəndələrinin beynəlxalq platformalarda ölkəmizin ünvanına səsləndirdikləri əsassız iddiaları qətiyyətlə rədd edir: "ATƏT-in digər üzv-dövlətinə qarşı təcavüz təşəbbüsü ilə çıxış edən, qonşusunun ərazisini otuz ilə yaxın qeyri-qanuni işğal altında saxlayan, beynəlxalq hüququ, o cümlədən BMT Nizamnaməsini açıq şəkildə pozan ölkə kimi Ermənistanın etnik təmizləmə və nifrət kimi anlayışlara istinad etməyə haqqı yoxdur".

– 11 oktyabr tarixində Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahova tanınmış "The Guardian" nəşrinə Qarabağ münaqişəsi ilə bağlı reportajında nümayiş etdirdiyi açıq qərəzli münasibətə kəskin etiraz bildirib. Birtərəfli jurnalistikanın təhrif və

qərəzliliyi faktlarını əks etdirən məktubda Böyük Britaniyada yaşayan Azərbaycan icmasının belə mövqedən ciddi narahat olduğu vurğulanıb.

- 12 oktyabr tarixində Almaniyada yaşayan diaspor fəalı Asəf Əsgər Avropa Parlamentinin (AP) 5 oktyabr 2023-cü il tarixli qətnaməsi ilə bağlı bu qanunvericilik orqanının sədri Roberta Metsolaya müraciət edib. Diaspor fəalı AP-ni məsuliyyətsiz qətnamə qəbul etməkdə ittiham edib, beynəlxalq hüquq çərçivəsində öz ərazisində həyata keçirdiyi antiterror tədbirlərinə görə Azərbaycana qarşı atılan addımın yolverilməz və qəbuledilməz olduğunu diqqətə çatdırıb.
- 12 oktyabr tarixində ABŞ-nin Texas ştatının Kerrollton şəhərində “Texaslılar minasız dünya üçün: Azərbaycan” layihəsi əsasında xeyriyyə tədbiri keçirilib. Başlıca məqsəd ABŞ rəsmiləri və ictimaiyyətinin diqqətini Azərbaycanın post-müharibə dövründə Qarabağda qarşılaşdığı mina probleminin insan həyatına və ətraf mühitə dağıdıcı təsirinə cəlb etmək, minaaxtaran itin (MDD) alınıb, Azərbaycana göndərilməsi üçün 25 min dollar ianə toplanmasına start vermək olub. Amerika-Azərbaycan Musiqi Fondu, Amerika Azərbaycanlıları Koordinasiya Şurası, Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyası və İcma Xidmətlərində Qabaqcıl Təcrübə Mərkəzinin təşkilatçılığı, “Marshal Legacy Institute” (MLI) və Azərbaycan Respublikası Ərazilərinin Minadan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) tərəfdaşlığı ilə baş tutan tədbirdə Amerika-Azərbaycan Musiqi Fondunun təsisçisi və icraçı direktoru Cəmilə Cavadova-Şpitsberq, Kerrollton şəhərinin meri Stiv Bebik, Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim, Türkiyənin Hyustondakı Baş konsulu Ahmet Akıntı, Pakistanın Hyustondakı Baş konsulu Muhammad Aftab Çaudri, ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov, MLİ-nin Virciniyadakı icraçı direktoru Elize Bekker, ANAMA-nın İdarə Heyəti sədrinin müavini Samir Poladov (videobağlantı vasitəsilə), Dallas Universitetinin müəllimi, tibb elmləri doktoru Dürdanə Balakişiyeva çıxış ediblər.
- 13 oktyabr tarixində Avstraliya Azərbaycanlıları Assosiasiyasının rəhbəri, Avstraliya və Okeaniya ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Sidneydəki koordinatoru Mikayıl Oyta Qarabağ məsələsinə qərəzsiz və balanslı yanaşma tələbi ilə Yeni Cənubi Uels (NSW) ştatının parlamentinin üzvləri Syuzan Karterə, Met Krosa və Hyu MakDerota müraciət edib. Məktublarda bildirilib ki, Azərbaycan icması parlamentarların bu yaxınlarda Ermənistana səfəri zamanı Qarabağ münaqişəsi ilə bağlı tərəfsizliyini pozmasından və birtərəfli açıqlamalarla çıxış etməsindən məyus olub.
- 18 oktyabr tarixində Türkiyənin İğdır şəhərində “Zəngəzurun dünəni və bu günü” mövzusunda konfrans keçirilib. İğdır-Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin, İğdır Azərbaycan Evinin və İğdır bələdiyyəsinin birgə təşkilatçılığı ilə İğdır Kültür Mərkəzində baş tutan tədbirdə yerli dövlət qurumlarının, ictimaiyyətin nümayəndələri və Azərbaycandan gələn qonaqlar iştirak ediblər.
- 18 oktyabr tarixində Niderlandın rəsmi poçt rabitəsinin PostNL milli operatoru tərəfindən Azərbaycanın Xankəndi şəhərində şanlı Azərbaycan Bayrağının dalğalandırıldığını əks etdirən poçt markaları çap edilib. Amsterdamda yaşayan diaspor fəalı Səltənət Rəvanqızının təşəbbüsü ilə “Azərbaycan inciləri” layihəsi çərçivəsində buraxılan markanın üzərində “Qarabağ Azərbaycandır!” və “Xankəndi” sözləri yazılıb.
- 24 oktyabr tarixində Türkiyənin paytaxtı Ankaranın küçələrindən birinə “Qarabağ Şəhidləri Bulvarı” adı verilib. Ankara Böyükşəhər Bələdiyyəsinin Məclisi bu qərarı Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının rəsmi müraciəti əsasında və Ankara valiliyinin

təsdiqi ilə verib. Qərara əsasən, paytaxtın Etimesgut rayonunun Şəkər məhəlləsinin və Şəhid Osman Avcı məhəlləsinin sərhədlərində yerləşən "1419-cu küçə"nin adı dəyişdirilərək, "Qarabağ Şəhidləri Bulvarı" adlandırılıb.

- 6 noyabr tarixində Almaniyada yaşayan diaspor fəalı, beynəlxalq hüquq üzrə ekspert Asəf Əsgər Türkiyə Cümhuriyyətinin Almaniyadakı səfiri Ahmet Başar Şenə məktubla müraciət edib. Məktubda bildirilib ki, Almaniya Bundestaqının üzvü, Xarici əlaqələr komitəsinin sədri Mixael Helmut Rott Ermənistana səfəri zamanı sosial şəbəkədə Türkiyə ərazisində yerləşən Ağrı dağı ilə bağlı qəbuledilməz video paylaşıb: "Əfsuslar olsun ki, Ağrı dağının adını təhrif edib və "müqəddəs Ararat dağı" adlandırıb. Bu, türk dövlətinə qarşı hörmətsizlikdir və ərazi tələbi olaraq qəbul edilir. Bu, beynəlxalq hüquqa və Almaniyanın Cinayət Məcəlləsinə ziddir".
- 8 noyabr 2023-cü il tarixində Nyu-Yorkun məşhur "Times Square" meydanında və digər ərazilərində Zəfər Gününə həsr olunmuş məlumatlandırma aksiyası keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-Amerika Gənclər Federasiyasının təşkilatçılığı ilə baş tutan aksiya zamanı "Qarabağ Azərbaycandır!", "Azərbaycan multikultural ölkədir!", "Azərbaycan bir sıra etnik və milli azlıqların vətənidir!" kimi şüarları və qısa məlumatları əks etdirən LED-ekranlı avtomobil Nyu-Yorkun mərkəzi küçələrində hərəkət edib.
- Fransada yaşayan soydaşlarımız erməni icmasının Nant şəhərində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan məktəbinin bağlanması tələbinə qarşı etiraz kampaniyasına başlayıblar. Bu məqsədlə soydaşlarımız ermənilərin "Nantda "Qarabağ" məktəbinin bağlanması üçün" başladığı petisiyadan şikayət ediblər.
- 29 noyabr tarixində Fransada yayımlanan "Géopolitique Profonde" ("Dərin geosiyasət") kanalında Azərbaycan həqiqətlərindən bəhs edilib. "Azərbaycan Ermənistana daxil olacaqmı?" mövzusuna həsr olunmuş proqramın aparıcısı Mayk Borovskinin qonağı Azərbaycan əsilli fransalı politoloq, hüquqşünas, Fransa Azərbaycanlıları Koordinasiya Şurasının üzvü, "Fransada Qərbi Azərbaycan irsinin qorunması" İctimai Birliyinin sədri Zaur Sadıqbəyli olub.
- 30 noyabr tarixində Niderlandın "For You" jurnalında Xocalı soyqırımından bəhs edən "Bunu heç vaxt unutmaq olmaz!" sərlövhəli məqalə yayımlanıb. Məqalədə erməni hərbi birləşmələrinin 1992-ci ilin soyuq fevral gecəsi Azərbaycanın Xocalı şəhərində törətdiyi dəhşətli hərbi cinayət barədə məlumat verilib.
- 6 dekabr tarixində Niderlandın Hilversum şəhərində yerləşən "Nederlandse Omroep Stichting" (NOS) teleradio korporasiyasının binası önündə Azərbaycan icmasının bir qrup fəalının etiraz aksiyası keçirilib. "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyevanın təşkilatçılığı ilə NOS-un binasının da yerləşdiyi "Media park" şəhərciyində bir araya gələn icma üzvləri Azərbaycana dair xəbərlərin ikili standartlar əsasında hazırlanmasını pisləyiblər. Aksiyanın sonunda Azərbaycan icmasının Niderlandın kütləvi informasiya vasitələrinə ünvanlanmış bəyanatı oxunub. Etiraz məktubu NOS-un poçt qutusuna atılıb.
- 13 dekabr tarixində Litvanın Azərbaycanlı Gənclər Təşkilatının (AYOL), Qırğızıstanda fəaliyyət göstərən "Birlik" Azərbaycanlıların İctimai Birliyi, Niderland-Azərbaycan "Odlar Yurdu" Cəmiyyəti, "Xarı Bülbül" Dünya Azərbaycanlılarının Mədəniyyət Assosiasiyası, Qazaxıstanda fəaliyyət göstərən "Xəzər" Etnomədəni Birliyi ölkəmizin ədalətli mövqeyinin və maraqlarının müdafiə olunması məqsədilə beynəlxalq ictimaiyyətə müraciət edib.

Avropa Parlamenti üzvlərinə, AŞPA-ya üzv dövlətlərin xarici işlər nazirlərinə və parlamentarlarına ünvanlanan müraciətdə ATƏT Nazirlər Şurasının son bəyanatı pislənilib. Aİ-nin ermənilərin Qarabağdan köçməsi prosesində Azərbaycanın iştirak etmədiyinə məhəl qoymaması, Ermənistan tərəfindən 30 il ərzində Azərbaycana qarşı törədilmiş qəsbkar, barbar siyasətə göz yumulması və sair faktlar ölkəmizə qarşı qərəz, seçmə yanaşma və ikili standartın aşkar təzahürü kimi qiymətləndirilib.

- 13 dekabr tarixində Gürcüstanda fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzinin ölkəmizin ədalətli mövqeyinin və maraqlarının müdafiə olunması tələbinin əks olunduğu bəyanatı Avropa İttifaqının Tbilisidəki Monitorinq Mərkəzinə təqdim edilib. Mərkəzin icraçı direktoru Rəna Hüseynovanın adından Avropa Parlamentinin üzvlərinə, AŞPA üzv dövlətlərinin xarici işlər nazirlərinə və parlamentarlarına ünvanlanan müraciətdə Ermənistandan zorla qovulmuş azərbaycanlı qaçqınların ATƏT-in Nazirlər Şurasının "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi, o cümlədən onların qayıtmaq hüququ"nun vurğulamasından və Avropa İttifaqının etnik və dini narrativlərə yönəlmiş yanaşmasından kənarda qalması sərt tənqid olunub.
- Paris şəhərində fəaliyyət göstərən Azərbaycan Evi ölkənin Evian-lö Bən şəhər bələdiyyə şurasının "Azərbaycan Parkı" ilə bağlı qərarı və parkda yerləşən görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsi ətrafında yaranmış təhlükə ilə bağlı müraciətlə çıxış edib. Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyevanın adından Evian-lö Bən şəhər meri Jozian Leyə ünvanlanan müraciətdə yaranmış mövcud durumdan dərin narahatlıq ifadə edilib.















Azerbajdzjanska Kulturföreningen
KARABAKH
Stockholm SWEDEN

**Statement by the Azerbaijani Diaspora Organizations on landmines planted by Armenia in the territories of Azerbaijan**



HOLLANDA AZERBAYCAN TÜRK KÜLTÜR DERNEĞİ
TURKSE AZERBEIDZJAN CULTURELE VERENIGING

**Statement from the Azerbaijani Diaspora**



Azerbaijani Community in the Czech Republic

**Statement of the world Azerbaijanis**



DAFB e.V.

**Statement by the Azerbaijani Diaspora Organisations on landmines planted by Armenia in the territories of Azerbaijan**



IL CONSIGLIO DI COORDINAMENTO DEGLI AZERBAIGIANI IN ITALIA





РЕГИОНАЛЬНАЯ ОБЩЕСТВЕННАЯ ОРГАНИЗАЦИЯ
«НАЦИОНАЛЬНО-КУЛЬТУРНАЯ АВТОНОМИЯ АЗЕРБАЙДЖАНЦЕВ В Г. МОСКВЕ»

**Заявление азербайджанской диаспоры Москвы**



HOLLANDA AZERBAYCAN TÜRK KÜLTÜR DERNEĞİ
TURKSE AZERBEIDZJAN CULTURELE VERENIGING

**Statement by the Azerbaijani Diaspora Organizations on landmines laid by Armenia on the territories of Azerbaijan**

Threats posed by Armenian landmine terror in Azerbaijan's liberated territories continues. The number of mine victims in Azerbaijan has increased to 303 since the end of the war in 2020.

Another tragic landmine incident in which Aliyev Sahib Isa, a beekeeper in the village of Chopurlu in Azerbaijan's Kalbajar region, had fallen into a landmine on July 13.

The mine terror committed by Armenia against our country leads to the death or injury of our military personnel and civilians and also slows down the process of returning former internally displaced persons to their native lands, creating obstacles for the activities of business entities, and restoration work carried out in the region.

The planting of mines in the liberated territories of Azerbaijan and the lack of accurate maps of the mined territories is an open demonstration of Armenia's disrespect for the norms and principles of international and humanitarian law.

As diaspora organizations, we call on the relevant international organizations to take decisive steps to curb mine terror by Armenia and transfer accurate mine maps to Azerbaijan.

Sincerely,
Ilhan Ashkin



Azerbaijan American Community of Florida (AACF)

**Urgent Plea for Action: Addressing Critical Concerns in Azerbaijan**

Sincerely,

**Esmira Bayramova**
**President of the Azerbaijani - American Community of Florida (AACF)**


44 DAYS...
HEROES SACRIFICED THEIR LIFE
TO KEEP THE AZERBAIJAN ALIVE
KARABAKH
AZERBAIJAN








44 DAYS...
HEROES SACRIFICED THEIR LIFE
TO KEEP THE AZERBAIJAN ALIVE
KARABAKH
AZERBAIJAN
27.09.2020


NO
ARMENIAN
SOLDIER
ON
AZERBAIJANI
LANDS!


We're open






## AZƏRBAYCAN XALQININ MİLLİ-MƏDƏNİ İRSİNİN TƏBLİĞİ

**Azərbaycan Respublikasının dövlət və milli bayramlarına, eyni zamanda mədəniyyətimizin, milli adət-ənənələrimizin, musiqimizin təbliğinə həsr olunmuş tədbir – bayram şənliyi, konsert proqramı, sərgi, idman yarışı, müxtəlif müsabiqə və s. layihələr gerçəkləşdirilib.**

Azərbaycan Respublikasının dövlət bayramlarının, tarixi günlərinin qeyd edilməsi:

### 27 Sentyabr - Anım Günü ilə əlaqədar keçirilən tədbirlər

- Komitə əməkdaşları 27 sentyabr – Anım Günü ilə əlaqədar Bakıda inşası davam etdirilən Zəfər Parkını ziyarət ediblər. Ziyarət zamanı ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib.
- Qazaxıstanın Aktau şəhərində fəaliyyət göstərən “Azərbaycan Mərkəzi” İctimai Fondunda 27 Sentyabr – Anım Günü ilə bağlı tədbir keçirilib. Yessenov Universiteti tələbələrinin və azərbaycanlı gənclərin qatıldıqları tədbirdə Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi ehtiramla yad edilib.
- Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi əsasında 27 sentyabr – Anım Günü haqqında “Xotira kuni (Ozarbayjon)” adlı bölmə istifadəyə verilib. Mərkəzin “Wikipedia” heyəti tərəfindən özbək dilində yaradılmış 6 bölməyə zəngin istinad siyahısı və keçidlər daxil edilib. Anım Günü haqqında ətraflı məlumat verilib, xalqımızı böyük Zəfərə aparan yolun ilk gününün mahiyyətinə və Azərbaycan dövlətinin tarixindəki əhəmiyyətinə diqqət cəlb edilib.
- Gürcüstanın Tbilisi şəhərində fəaliyyət göstərən “Alyans” Gənclər Mərkəzində 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib. “Alyans” Gənclər Mərkəzi və Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) Gürcüstandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə ölkəmizin Gürcüstandakı səfirliyinin əməkdaşları, şəhid ailələri və qazilər, eləcə də icma nümayəndələri iştirak ediblər.

- Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evində 27 Sentyabr – Anım Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə çıxış edən Azərbaycan Evinin rəhbəri Lalin Həsənova və başqaları Anım Gününün tarixi əhəmiyyətindən bəhs ediblər.
- Macarıstanda fəaliyyət göstərən Budapeşt Azərbaycan Evində 27 sentyabr – Anım Günü ilə əlaqədar mərasim keçirilib. Azərbaycan Evinin rəhbəri İbrahim Səfərli ölkəmizə parlaq qələbə qazandıran, Azərbaycanın üçrəngli bayrağının yenidən Qarabağda ucaldılmasına səbəb olan şəhidlərimizin və qazilərimizin qəhrəmanlığının heç bir zaman unudulmayacağını vurğulayıb. Sonra Macarıstanda yaşayan və təhsil alan soydaşlarımız Kamil Şükürov (piano), Ramil Şükürov, Kamal Aslan və Nazim Musabəylinin ifasında şəhidlərimizə həsr olunmuş şeir və mahnılar səsləndirilib.
- Çex Respublikasının paytaxtı Praqada 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib. Çexiyada yaşayan həmvətənlərimizin, azərbaycanlı tələbələrin və yerli ictimaiyyətin nümayəndələrinin iştirakı ilə ölkəmizin Çexiyadakı səfirliyində təşkil edilmiş tədbir çərçivəsində Vətən Müharibəsinin döyüş səhnələrini və Azərbaycan xalqının birliyini əks etdirən fotosərgi nümayiş etdirilib.
- Polşada fəaliyyət göstərən Varşava Azərbaycan Evində 27 Sentyabr – Anım Günü ilə əlaqədar mərasim keçirilib. Tədbirdə çıxış edən Polşa Azərbaycanlıları Şurasının (PAŞ) sədri, Varşava Azərbaycan Evinin rəhbəri Fərid Cəfərli Azərbaycan dövlətinin bölgədə uzunmüddətli və davamlı sülhün bərqərar olması istiqamətində ciddi səylər göstərdiyinə diqqəti cəlb edib. Tədbir çərçivəsində təşkil edilən anım guşəsində Azərbaycan bayraqları asılıb, Vətən müharibəsi şəhidlərinin fotoları nümayiş etdirilib, qərənfillər düzülüb.
- Qazaxıstanın Almatı şəhərində 27 Sentyabr – Anım Günü ilə əlaqədar mərasim keçirilib. “Ata Yurd-Nomad” ictimai birliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə Vətən müharibəsi qaziləri də iştirak ediblər. “Ahıska” qəzetinin və “Türk Birliyi” jurnalının baş redaktoru Rövşən Məmmədoğlu, “Ata Yurd-Nomad” ictimai birliyinin sədri Süleyman Əhmədov, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Vüsal Məmmədov 27 sentyabr tarixinin önəminə, siyasi və hüquqi aspektlərinə diqqəti cəlb edib, Vətən Müharibəsinin başlanma səbəblərindən danışıblar.



 

**18 Oktyabr – Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə keçirilmiş tədbirlər**

- ABŞ-nin Viskonsin ştatının Medison şəhərində 18 oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə tədbir keçirilib. Azərbaycan-Amerika Gənclər Federasiyasının Viskonsin ştatı üzrə nümayəndəliyinin təşkilatçılığı ilə Viskonsin-Medison Universitetində baş tutan tədbirdə zəngin mədəniyyətimizi və milli mətbəximizi əks etdirən nümunələr təqdim olunub.
- ABŞ-nın Çikaqo şəhər meriyası – məşhur Riçard C. Deyli Mərkəzinin önündə 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Amerika Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzinin (ACMA) təşəbbüsü və təşkilatçılığı ilə baş tutan mərasimdə Türkiyənin Çikaqodakı Baş Konsulluğunun əməkdaşları, bu şəhərdə yaşayan həmvətənlərimizin və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- ABŞ-nin Nyu-York şəhərinin maliyyə mərkəzi hesab olunan "Wall Street" küçəsində yerləşən məşhur "Bowling Green" parkında 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Bayrağı qaldırılıb. Azərbaycan–Nyu-York Assosiasiyası üzvlərinin təşkilatçılığı ilə baş tutan mərasimdə Nyu-York meriyasının təmsilçiləri, azərbaycanlı diplomatlar, soydaşlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- Qazaxıstanın Aktau şəhərində 18 Oktyabr – Müstəqilliyimizin Bərpası Günü münasibətilə seminar keçirilib. "Azərbaycan Mərkəzi" İctimai Fondunun təşkilatçılığı ilə baş tutan tədbirdə Yessenov Universitetinin tələbələri və azərbaycanlı gənclər iştirak ediblər.
- Tbilisi şəhərində 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş "Klassik Musiqi Gecəsi" keçirilib. Komitənin və Azərbaycanın Gürcüstandakı Səfirliyinin dəstəyi, Xan Şuşinski Fondu və "Alyans" Gənclər Mərkəzinin təşkilatçılığı ilə Tbilisi Dövlət Konservatoriyasında baş tutan konsertdə dost ölkədə yaşayan azərbaycanlılar və gürcü ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

**Zəfər Günü və 9 Noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə keçirilmiş tədbirlər**

- Türkiyənin İstanbul şəhərində Azərbaycanın Qarabağ Zəfərinin ikinci ildönümünə, "Şuşa – Türk Dünyasının mədəniyyət paytaxtı İli"nə və görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. "Xarı Bülbül" Vizyon Teatr Dərnəyi və İstanbulun Ümraniyə bələdiyyəsinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədr müavini Pərviz Məmmədzadə, Azərbaycanın əməkdar rəssamı, professor Teymur Rzayev, bələdiyyənin və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- Türkiyənin Bursa şəhərində Azərbaycanın Qarabağ Zəfərinin üçüncü ildönümünə həsr olunmuş tədbir keçirilib. Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyinin təşəbbüsü və Bursa Texniki Universitetinin azərbaycanlı tələbələrinin təşkilatçılığı ilə baş tutan tədbirdə Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyinin sədri Lətifə Nağdəliyeva xalqımızı və türk dünyasını Zəfər Günü münasibətilə təbrik edib.
- Türkiyənin Manisa şəhərində Azərbaycanın Zəfər Gününün üçüncü ildönümünə həsr olunmuş tədbir keçirilib. Türkiyə-Azərbaycan Dostluq Federasiyasının üzvü olan Manisa Azərbaycan Kültür Evinin təşkilatçılığı ilə Yunus Əmrə Bələdiyyəsi İrfan Məclisində baş tutan tədbirdə yerli dövlət qurumlarının, vətəndaş cəmiyyətinin və Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.
- Türkiyənin Əskişəhər şəhərində Azərbaycanın Zəfər Gününə həsr olunmuş "Qarabağ – İnancın Zəfəri" adlı təntənəli bayram tədbiri keçirilib. Əskişəhər Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə baş tutan tədbirdə Türkiyədə yaşayan azərbaycanlı bəstəkar, dirijor və pianoçu Turan Manafzadənin Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə yazdığı marşa çəkilmiş klip nümayiş etdirilib.
- Türkiyənin İğdır şəhərində fəaliyyət göstərən Azərbaycan Evində Zəfər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri, Azərbaycan Evinin rəhbəri Ziya Zakir Acar və Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının sədr müavini, "İğdır Azərbaycan Evi Dərnəyi"nin rəhbəri Sərdar Ünsal çıxış ediblər.
- Şimali Kipr Türk Respublikasının Girnə şəhərində Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Şimali Kipr Türk Respublikasında fəaliyyət göstərən Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə hökumətin, yerli ictimaiyyətin və Azərbaycan icmasının təmsilçiləri iştirak ediblər.
- Serbiyanın paytaxtı Belqradda ölkəmizin Zəfər Gününə həsr olunmuş şahmat turniri keçirilib. Turnir Serbiya-Azərbaycan Dostluq Cəmiyyətinin və Azərbaycanın Serbiyadakı Səfirliyinin təşəbbüsü ilə baş tutub.
- Braziliyanın paytaxtı Brazilia şəhərində Azərbaycanın Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Azərbaycanın Braziliya Federativ Respublikasındakı Səfirliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə Türkiyənin bu ölkədəki səfirliyinin, yerli ictimaiyyətin, Azərbaycan və türk icmasının nümayəndələri iştirak ediblər.
- Niderland Krallığının Rotterdam şəhərində Zəfər Günü münasibətilə tədbir keçirilib. Benilüks Azərbaycanlıları Konqresinin (BAK) və "Qarabağ" idman klubunun qərargahında baş tutan tədbirdə soydaşlarımız və qardaş türk icmasının üzvləri iştirak ediblər.

- Niderlandın Osterveyk şəhərində yaşayan Azərbaycan icması ölkəmizin Zəfər Günü münasibətilə Niderland Müqavimət Hərəkatının görkəmli nümayəndəsi Məmməd Məmmədovun (Medo) adını daşıyan Mamedovpad küçəsini və onun xatirəsinə ucaldılmış abidəni ziyarət edib.
- Finlandiyanın paytaxtı Helsinkidə Azərbaycanın Zəfər Günü və Bayraq Gününə həsr olunmuş təntənəli tədbir keçirilib. Helsinkidə fəaliyyət göstərən Azərbaycan Evinin təşkilatçılığı və Azərbaycanın İsveçdəki Səfirliyinin dəstəyi ilə “Musiikkitalo” müasir musiqi kompleksində baş tutan tədbirdə Azərbaycan, Türkiyə səfirliklərinin və Şimali Kipr Türk Respublikasının diplomatik nümayəndəliyinin müşavirləri, soydaşlarımız, yerli ictimaiyyətin və dost icmaların nümayəndələri iştirak ediblər.
- Finlandiyanın paytaxtı Helsinkidə fəaliyyət göstərən Azərbaycan Evində Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Tədbirdə Azərbaycan Evinin nəzdində fəaliyyət göstərən Azərbaycan həftəsonu məktəbinin müəllim-şagird heyəti, valideynlər və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- Fransanın paytaxtı Parisdə fəaliyyət göstərən “Natəvan” Azərbaycan həftəsonu məktəbinin növbəti dərsi Azərbaycanın Zəfər, Bayraq və Konstitusiya günlərinə həsr olunub. Məktəbin müəllimləri və dərsdə fəxri qonaq kimi iştirak edən Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva şagirdləri tarixi bayramlarımız münasibətilə təbrik ediblər.
- Çex Respublikasının paytaxtı Praqanın məşhur Staromest meydanında Azərbaycanın tarixi bayramlarına – Zəfər Günü, Bayraq Günü, “Konstitusiya Günü” və “Milli Dirçəliş Günü”nə həsr olunmuş aksiya keçirilib. Şərqi Avropa Azərbaycanlıları Koordinasya Şurasının Çexiyadakı koordinatoru Fərid Əmirəliyevin təşkilatçılığı ilə baş tutan aksiyada Azərbaycan icmasının bir qrup üzvü iştirak edib.
- Norveçin Stavanger şəhərində Azərbaycanın tarixi bayramları – Zəfər Günü”, Bayraq Günü, “Konstitusiya Günü” və “Milli Dirçəliş Günü”nə həsr olunmuş konsert keçirilib. Norveç-Azərbaycan Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə “Skur 2” konsert zalında baş tutan tədbirdə soydaşlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- Ukraynanın Çernovtsı və Jitomir şəhərlərində Azərbaycanın Zəfər Günü ilə bağlı məlumatlandırma aksiyası keçirilib. Ukrayna Azərbaycanlıları Konqresinin yerli təşkilatlarının təşəbbüsü ilə Çernovtsı və Jitomir şəhərlərinin mərkəzi küçələrində quraşdırılmış bilbordlarda “Qarabağ Azərbaycandır!” şüarı, Şuşanın azadlıq rəmzi olan “Xarı Bülbül”ün və Azərbaycanın Dövlət Bayrağının şəkilləri əks olunub.
- Qazaxıstanın Türküstan vilayətinin Sayram rayonunda Azərbaycanın Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. “Qarabağ” Azərbaycan Etnomədəni Birliyinin və “Ata Yurd – NOMAD” Respublika İctimai Birliyinin Şimkənd filialının birgə təşkilatçılığı ilə baş tutan tədbirdə yerli dövlət qurumlarının rəsmiləri, müxtəlif xalqların birliklərinin, yerli ictimaiyyətin və diasporumuzun təmsilçiləri iştirak ediblər.
- Qazaxıstanın Türkistan vilayətində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan həftəsonu məktəbinin növbəti dərsi Zəfər Günü mövzusuna həsr olunub. Dərs zamanı məktəblilərə Azərbaycanın müasir tarixinə qızıl hərflərlə həkk olunmuş Zəfər Günü barədə ətraflı məlumat verilib.
- “Azərbaycan Mərkəzi” İctimai Fondunun və Azərbaycanın Aktaudakı Baş Konsulluğunun birgə təşkilatçılığı ilə Aktau şəhərində keçirilən Zəfər Günü tədbirində Azərbaycanın və Türkiyənin diplomatları, soydaşlarımız və azərbaycanlı tələbələr iştirak ediblər.

- Qazaxıstanın paytaxtı Astanada yaşayan Azərbaycan icmasının Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. “Xəzər” Azərbaycan Etnomədəni Birliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycanın Qazaxıstandakı səfirliyinin əməkdaşları, yerli dövlət qurumlarının təmsilçiləri, müxtəlif icmaların rəhbərləri, Qarabağ müharibəsi qaziləri və soydaşlarımız iştirak ediblər.
- Estoniyanın paytaxtı Tallinndə fəaliyyət göstərən Azərbaycan Evində Zəfər Gününə həsr olunan tədbir keçirilib. Azərbaycanın Estoniyadakı Səfirliyinin və Tallinn Azərbaycan Evinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan icmasının nümayəndələri, Estoniya ictimaiyyətinin və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.
- Gürcüstanın paytaxtı Tbilisidə fəaliyyət göstərən “Alyans” Gənclər Mərkəzində Azərbaycanın Zəfər Gününə həsr olunmuş tədbirdə çıxış edən mərkəzin icraçı direktoru Rəna Hüseynova böyük tarixi gün münasibətilə soydaşlarımızı təbrik edib.
- Gürcüstanın Qardabani rayonunda fəaliyyət göstərən Təhsil və İnteqrasiya Mərkəzində ölkəmizin Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə çıxış edən mərkəzin təsisçisi Raul Əliyev, mərkəzin direktoru Çiçək Huseynova, Azərbaycan dili müəllimi Sevda Şahverdiyeva və fəxri qonaq Əvəzxan İsayev Zəfər Gününün və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndinin mərkəzi meydanında keçirilmiş hərbi paradı qəbul etməsinin Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə həkk olunduğunu diqqətə çatdırıblar.
- Gürcüstanın Bolnisi rayonunda fəaliyyət göstərən Qafqaz Hüquq və İnteqrasiya Mərkəzində Zəfər Gününə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbir iştirakçılarını salamlayan mərkəzin icraçı direktoru Rezo Həsənov misilsiz qələbəni xalqımıza bəxş edən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və rəşadətli Silahlı Qüvvələrimizə minnətdarlığını bildirib.
- İsraildəki diasporumuz Azərbaycanın Zəfər Gününü təbrik edib. “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində sülh və müharibə mövzusunda tədbir keçirilib.
- Kanadanın Ottava şəhərində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan dili məktəbində Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.
- Kanadanın Toronto şəhərində yerləşən “Markham Konqres Mərkəzi”ndə (“Markham Convention Centre”) Azərbaycanın Zəfər Günü və Bayraq Gününə həsr olunmuş təntənəli bayram tədbiri keçirilib. Komitənin dəstəyi və “Vətən” Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycanın Kanadadakı müvəqqəti işlər vəkili Vasif Abutalıbov, Türkiyə Cümhuriyyətinin Torontodakı Baş konsulu Can Yoldaş, Rumıniyanın Torontodakı Baş konsulu Oana Raluka Gerge, Ontario əyalət parlamentinin üzvü, Ontario əyaləti üzrə Mental sağlamlıq və asılılıqlar naziri Maykl Tibollo, 8-ci palata müşaviri İsa Li, 6-cı palata müşaviri Amanda Yunq Kolleççi iştirak ediblər.
- ABŞ-nin Florida ştatının Tampa şəhərində yerləşən Cənubi Florida Universitetində ölkəmizin Zəfər Günü və Bayraq Gününə həsr olunmuş tədbir keçirilib. Cənubi Florida Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycanlı Tələbələr Assosiasiyasının təşkilatçılığı ilə baş tutan tədbirdə müxtəlif xalqları təmsil edən tələbələr iştirak ediblər.
- ABŞ-nin Florida ştatının Mayami şəhərində Azərbaycanın Zəfər Günü və Bayraq Gününə həsr olunmuş avtomobil yürüşü keçirilib. Azərbaycan-Amerika Gənclər Təşkilatından bildirilib ki, vətənimizin tarixi bayramları münasibətilə bir araya gələn azərbaycanlı gənclər

xalqımızı Azərbaycanın Dövlət Bayrağının Qarabağın bütün şəhər və kəndlərində ucalması münasibətilə təbrik ediblər.

- Almaniyanın Hannover şəhərində yaşayan Azərbaycan icmasının Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. “Bakı” Alman-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə 70 nəfərədək soydaşımız və müxtəlif icmaları təmsil edən qonaqlar iştirak ediblər.
- Moldovanın Benderi şəhərində Moldova Azərbaycanlıları Konqersinin nəzdindəki Azərbaycan həftəsonu məktəbinin filialında növbəti dərsin mövzusu Azərbaycanın Zəfər Gününə həsr olunub.
- Şotlandiyanın Edinburq şəhərində Azərbaycanın Zəfər Gününə həsr olunmuş poeziya gecəsi keçirilib. Komitənin dəstəyi və “Buta” Azərbaycan-Şotlandiya Assosiasiyasının təşkilatçılığı ilə Edinburq Poeziya Kitabxanasında baş tutan tədbirdə Şotlandiyanın yerli ictimaiyyətinin, əcnəbi xalqların nümayəndələri, elm-mədəniyyət xadimləri, Azərbaycan diasporunun üzvləri və tələbələr iştirak ediblər.
- Şotlandiyanın Aberdin Universitetində Azərbaycanın Zəfər Günü və Bayraq Gününə həsr olunmuş Azərbaycan guşəsi yaradılıb. Universitetin nəzdində fəaliyyət göstərən Azərbaycanlı Tələbələr Cəmiyətinin sədri İbrahim Xasıyev bildirib ki, məqsəd Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazılmış parlaq qələbəmizə edinburqlu və əcnəbi tələbələrin diqqətini cəlb etmək olub.
- Qlazqo Universitetinin azərbaycanlı tələbələri Zəfər Günü münasibətilə videoçarx təqdim ediblər. Şotlandiyanın Qlazqo Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Cəmiyyəti Zəfər Günü ilə əlaqədar sevincini bayram videoçarxı hazırlamaqla nümayiş etdirib.
- Birləşmiş Krallığının paytaxtı Londonda Zəfər Günü münasibətilə bayram tədbiri keçirilib. Britaniya Azərbaycanlıları Assosiasiyasının təşkilatçılığı ilə baş tutan tədbirdə Birləşmiş Krallığın hər tərəfindən gələn icma üzvləri, o cümlədən güney azərbaycanlılar və xarici qonaqlar iştirak ediblər.
- Macarıstanın paytaxtı Budapeşt şəhərində ölkəmizin Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Azərbaycanın Macarıstandakı Səfirliyinin və Budapeşt Azərbaycan Evinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan diasporunun üzvləri, Macarıstanda təhsil alan azərbaycanlı tələbələr, yerli ictimaiyyətin və medianın təmsilçiləri iştirak ediblər.
- İsveç Krallığının Höteborq şəhərində “Azərbaycan Qarabağ Azadlıq Mərkəzi”nin və Azərbaycan Evi Birliyinin təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.
- İsveçin Yöteborq şəhərində Azərbaycanın Zəfər Günü və Bayraq Gününə həsr olunmuş məlumatlandırma aksiyası keçirilib. Bu məqsədlə “İsveç-Azərbaycan Qarabağ Mərkəzi”nin təşkilatçılığı ilə şəhərin mərkəzində yerləşən izdihamlı Nordstan ticarət mərkəzində Azərbaycan stendi qurulub. Aksiya zamanı ölkəmizin mədəni irsini əks etdirən nümunələr nümayiş etdirilib və şəhər sakinlərinə Azərbaycanın Dövlət Bayrağının tarixindən bəhs edən flayerlər paylanılıb.
- Azərbaycanın Latviyadakı Səfirliyinin və Azərbaycan diasporunun birgə təşkilatçılığı ilə Riqa şəhərində Azərbaycanın Zəfər Günü və Bayraq Gününə həsr olunmuş təntənəli tədbir keçirilib.
- Polşada fəaliyyət göstərən “Xarı Bülbül” Varşava Azərbaycanlılarının Mədəniyyət Assosiasiyası Zəfər Günü münasibətilə videoçarx hazırlayıb.

- Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycanın Zəfər Gününə həsr olunmuş “Zəfər” adlı konfrans keçirilib. “Sankt-Peterburq və Leninqrad vilayəti üzrə Azərbaycan Milli-Mədəniyyət Muxtariyyəti” şəhər ictimai təşkilatı tərəfindən təşkil edilən tədbirdə müxtəlif icmaların nümayəndələri və soydaşlarımız iştirak ediblər.
- Rusiya Federasiyasının Dağıstan Respublikasında fəaliyət göstərən “Mahaçqala Azərbaycanlıları Milli Mədəni Muxtariyyəti”nin təşkilatçılığı ilə Mahaçqala şəhərində yaşayan soydaşlarımız Zəfər Günü münasibətilə bir araya gəliblər.
- Rusiyanın Stavropol diyarının Pyatiqorsk şəhərində “Araz” Azərbaycan Milli-Mədəni Muxtariyyətin təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib.
- Kişinyov şəhərində Azərbaycanın Moldovadakı səfirliyinin “Qələbə” bağçasında Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Tədbirdə Azərbaycan diasporunun 100 nəfərə yaxın nümayəndəsi, diplomatik korpusun əməkdaşları, Moldovanın rəsmi şəxsləri və müxtəlif icmaların təmsilçiləri iştirak ediblər.
















## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 100 İLLİYİ VƏ VƏFATININ 20-Cİ İLDÖNÜMÜNƏ HSƏR OLUNAN TƏDBİRLƏR

- Komitədə "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Diasporuna Dəstək Fondunun və "Qızılbaş" Qlobal İrsi Təşkilatının birgə təşkilatçılığı ilə "Azərbaycanda Qızılbaş irsi: Tarixin izi ilə" adlı beynəlxalq konfrans keçirilib.
- ABŞ-nin Portland şəhərində yerləşən Cənubi Meyn Universitetində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Xəzər dəhlizi: Azərbaycanın Avropanın enerji şaxələndirilməsinə töhfəsi" mövzusunda konfrans keçirilib. Komitənin dəstəyi və Meyn Azərbaycan Cəmiyyətinin rəhbəri Tərlan Əhmədovun təşkilatçılığı ilə baş tutan konfransda Türkiyə, Ukrayna, Albaniya, Rusiya, Əfqanıstan, İran, İraq və digər ölkələrin icmalarını təmsil edən nümayəndələr, eləcə də yəhudi cəmiyyətinin üzvləri iştirak ediblər.

- “Heydər Əliyev İli” çərçivəsində Berlin şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində Almaniyadakı Azərbaycanlı Həkimlərin II Forumu keçirilib.
- Tədbirdə Komitənin, Azərbaycanın Almaniyadakı Səfirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin əməkdaşları, Almaniyanın 70-ə yaxın şəhərindən gələn tibb mütəxəssisləri və qonaqlar iştirak ediblər.
- Tədbirdə Azərbaycanın Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri Nəsimi Ağayev, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov, Alman-Azərbaycan Cəmiyyəti İdarə Heyətinin sədri, professor Çingiz Abdullayev çıxış ediblər.
- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin forum iştirakçılarına videomüraciəti təqdim edilib. İki gün davam edən tədbirin sonunda Almaniyadakı Azərbaycanlı Həkimlərin Təqaüd Proqramının ilk qaliblərinin adları açıqlanıb.
- İtaliyanın Neapol şəhərində Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Ulu öndər Heydər Əliyev regional enerji təhlükəsizliyi siyasətinin banisi kimi” mövzusunda beynəxalq elmi konfrans keçirilib. Komitənin dəstəyi və Neapol-Bakı Assosiyasiyasının təşkilatçılığı ilə baş tutan konfransda Cənub Qaz Dəhlizinin əhatə etdiyi ölkələri təmsil edən beyin mərkəzi rəhbərləri və nüfuzlu tədqiqatçılar iştirak edib.
- Türkiyənin Qars şəhərində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyev və Türkiyə” adlı multidisiplinar beynəlxalq elmi konfrans keçirilib. Komitə, Azərbaycanın Türkiyədəki Səfirliyi, Azərbaycanın Qarsdakı Baş Konsulluğu, Elm və Təhsil Nazirliyi, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası, Əskişəhər Azərbaycanlılar Dərnəyi, İğdır Azərbaycan Evi, Qars Qafqaz Universiteti, "Elger" Elm və Təhsil Mərkəzinin təşkilatçılığı ilə baş tutan konfransa 12 ölkədən 100-dən çox alim qatılıb.
- Qazaxıstanın Aktau şəhərində fəaliyyət göstərən Ş.Yessenov Universitetində “Azərbaycan Mərkəzi” İctimai Fondunun, “Beynəlxalq münasibətlər və turizm” kafedrasının birgə təşkilatçılığı və Azərbaycanın Aktau şəhərindəki Baş Konsulluğunun dəstəyi ilə “Ümummilli lider Heydər Əliyevin türk dünyasının möhkəmləndirilməsində rolu” mövzusunda elmi konfrans keçirilib.
- Rusiyanın Rostov-na-Donu şəhərində “Birlik” Don Azərbaycanlıları İttifaqı və Cənubi Rusiya Universitetinin (İdarəetmə, biznes və hüquq İnstitutu) birgə təşkilatçılığı ilə “Sambek yüksəklikləri” hərbi-tarixi muzey kompleksində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibətilə “Qələbənin rəmzləri” mövzusunda beynəlxalq forum keçirilib.
- Komitə tərəfindən “Heydər Əliyev İli” çərçivəsində Naxçıvanda “Heydər Əliyev – 100” Diaspor Gənclərinin IV Yay Düşərgəsi keçirilib.
- Düşərgədə 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edib.
- Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondu, təşkilati dəstək Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəliyinə məxsus olub.

- Özbəkistanın Çinarkənd rayonunda Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində gənclərin bir günlük Yay Düşərgəsi təşkil olunub.
- Gürcüstanın Barjomi rayonunda “Regional Gənclər Şəbəkəsi Borjomi – 2023” Yay Düşərgəsi keçirilib. Düşərgədə Marneuli, Dmanisi, Bolnisi, Qardabani, Saqareco bölgələrindən və Tbilisi şəhərindən 54 gənc iştirak edib.
- Azərbaycan Diasporuna Dəstək Fondu tərəfindən 7-13 avqust 2023-cü il tarixlərində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Qardaşlaşmış Qarabağ Məktəbləri” layihəsi həyata keçirilib. Layihə çərçivəsində Azərbaycanın işğaldan azad olunmuş bölgələrindən olan 17 məktəbli və 2 müəllim İsveçrəyə yollanıb. Layihə çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam, Şuşa, Laçın, Cəbrayıl, Füzuli, Zəngilan şəhər məktəblərinin şagirdləri İsveçrədə fəaliyyət göstərən “Qarabağ” həftəsonu məktəbinin şagirdləri ilə birlikdə “Juvenat” düşərgəsində yerləşiblər. Layihədə Azərbaycandan 17 şagird və 2 müəllim, İsveçrədən 11 şagird və 2 müəllim iştirak edib. Düşərgəyə “Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi”nin rəhbəri Qasım Nəsirov rəhbərlik edib.
- Azərbaycan Diasporuna Dəstək Fondunun və "ZƏFƏR" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı, Daxili İşlər Nazirliyinin “Xəzri” istirahət və sağlamlıq mərkəzinin tərəfdaşlığı ilə 21-27 dekabr 2023-cü ildə III “Qardaşlaşmış Qarabağ Məktəbləri” Qış Düşərgəsi keçirilib. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş düşərgədə Qazaxıstanda fəaliyyət göstərən həftəsonu “Qarabağ məktəbi”nin şagirdləri ilə Azərbaycanın ərazi bütövlüyünün bərpası zamanı müxtəlif vaxtlarda şəhid olmuş qəhrəmanlarımızın övladları iştirak edib. Layihəyə Qazaxıstandan və Azərbaycandan ümumilikdə 20 şagird, 3 təlimçi qatılıb.
- Qırğız Respublikasının Bişkek şəhərindəki A.Maldıbaev adına Qırğızıstan Dövlət Milli Akademik Opera və Balet Teatrında Komitənin dəstəyi və Qırğız Respublikasının Prezidenti yanında Dövlət Dili və Dil Siyasəti üzrə Milli Komissiyasının təşkilatçılığı ilə Azərbaycan dövlətinin qurucusu, türk dünyasının görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş təntənəli “Dostluq” konserti keçirilib.
- Rusiyanın Sankt-Peterburq şəhərində yerləşən Tavriya sarayının Günbəzli zalında Komitənin dəstəyi, Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluğunun və Tavriya sarayı administrasiyasının birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş qala-konsert keçirilib.
- Fransanın paytaxtı Paris şəhərində Azərbaycanın Fransadakı Dostları Assosiasiyasının (ADA) təşkilatçılığı, ölkəmizin Fransadakı Səfirliyinin və Beynəlxalq Muğam Mərkəzinin dəstəyi ilə müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş konsert keçirilib.
- Fransanın paytaxtı Paris şəhərində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan–Fransa Dialoqu Assosiasiyasının təşkilatçılığı ilə Paris Caz Klubunda müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş caz konserti keçirilib.
- Fransada fəaliyyət göstərən Fransa-Azərbaycan Dialoqu Assosiasiyası (ADFA) Parisin 15-ci rayonunun meriyasının qarşısında keçirilmiş ənənəvi “Assosiasiyalar Forumu”nda uğurla iştirak edib. Azərbaycan guşəsində ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini

əks etdirən kitablar, milli əşyalar, geyimlər, xalçalar və mətbəx nümunələri nümayiş etdirilib. Fransız dilində Azərbaycan həqiqətlərindən bəhs edən kitablar Heydər Əliyev Fondu tərəfindən nəşr olunub.

- Estoniyanın Tallinn şəhərinin "Mustpeade Maja" Filarmoniya Mərkəzində Estoniyada yaşayan azərbaycanlı rəssam, "Buta Art Studio" Azərbaycan Yaradıcılıq Mərkəzinin və Azərbaycanın Estoniyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 20-ci ildönümü çərçivəsində klassik musiqi gecəsi keçirilib.
- İsveçrənin Sürix şəhərində Komitənin dəstəyi, İsveçrə-Azərbaycan Dostluq, Mədəniyyət və Həmrəylik Dərnəyinin və Sürix Türk Musiqisi Dərnəyinin birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illik yubileyi, Azərbaycanın Zəfər Günü və Bayraq Günü çərçivəsində türk ənənələrinə həsr olunmuş "Yeddi brilyant" adlı klassik musiqi gecəsi keçirilib.
- İspaniyanın Barselona şəhərində Komitənin dəstəyi, "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti" və Barselona Azərbaycan Evinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə, Zəfər Günü və Bayraq Gününə həsr olunmuş "Zəfərin Qəhrəmanları" adlı opera konserti keçirilib.
- Cənubi Koreya Respublikasının İnçeon şəhərində "Heydər Əliyev İli" çərçivəsində Azərbaycanın Cənubi Koreya Respublikasındakı Səfirliyinin təşkilatçılığı ilə, Komitə və Koreya Respublikasında fəaliyyət göstərən "Buta" Azərbaycan-Koreya Dostluq Assosiasiyası ilə əməkdaşlıq çərçivəsində İnçeon şəhərində Zəfər Gününə həsr olunmuş muğam konserti keçirilib.
- Gürcüstanda fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzinin rəhbərliyi və bir qrup fəalı müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar Ulu Öndərin Tbilisi şəhərindəki abidəsini ziyarət edib.
- Rusiyanın Sankt-Peterburq şəhərinin Qanunvericilik Məclisində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qəlbimin bir parçası Rusiyadadır" adlı fotosərginin açılış mərasimi keçirilib.
- Ukraynanın Truskavets şəhərində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir təşkil edilib.
- Ukraynanın Jitomir vilayətində Ukrayna Azərbaycanlılarının Həmrəylik Konqresinin və Azərbaycan Dövlət İnformasiya Agentliyinin birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş foto-sərgi təşkil edilib.
- Yunanıstanın Saloniki şəhərində Komitənin dəstəyi, Azərbaycan Dövlət İnformasiya Agentliyinin və "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyətinin birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə fotosərgi keçirilib.
- ABŞ-nin Börnsvill (Burnsville) şəhərində Komitənin dəstəyi və Minnesota-Azərbaycan Assosiasiyasının təşkilatçılığı ilə "Ames Center Gallery" mərkəzində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərgi keçirilib.
- ABŞ-nin Şimali Karolina ştatının Çapel-Hill şəhərində yerləşən Sancar Türk Mədəniyyət Mərkəzində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının

100 illiyinə həsr olunmuş tədbir çərçivəsində Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən nəfis kitablar və fotosərgi nümayiş etdirilib.

- İsraildə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar “Heydər Əliyev və Azərbaycan yəhudiləri” mövzusunda fotosərgi keçirilib.
- Kanadanın Toronto şəhərində Nort York Mərkəzi Kitabxanasında “Ulu öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri” beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində nəşr olunmuş “Heydər Əliyevin həyatının 100 anı” kitabının təqdimat mərasimi keçirilib.
- “Azİz” Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası tərəfindən Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “İrəli Gedən” kitabı ivrit dilində təqdim olunub.
- Almaniyanın Drezden şəhərində “Seidenstrasse-Aserbaidschan” cəmiyyətinin təşkilatçılığı, Azərbaycanın Almaniyadakı Səfirliyinin, Drezdendəki “House of Resources” təşkilatının və “Ukrayna Evi”nin birgə dəstəyi ilə “Heydər Əliyev İli” çərçivəsində fotosərgi keçirilib.
- İtaliyanın Milan şəhərində Komitənin dəstəyi və Neapol-Bakı Assosiasiyasının təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Sənətin hamisi” adlı sərgi nümayiş etdirilib.
- Azərbaycan Milli Konservatoriyasında Komitənin nəzdində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə və təşkilati dəstəyi ilə hazırlanmış “Danışan Əllər” sərgisinin açılışı keçirilib.
- Misirin paytaxtı Qahirə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyəti tərəfindən “Heydər Əliyev İli” çərçivəsində hafizlər müsabiqəsi keçirilib.
- Misirin paytaxtı Qahirə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyəti tərəfindən “Heydər Əliyev İli” çərçivəsində xəttatlar arasında müsabiqə keçirilib.
- Misirin paytaxtı Qahirə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində “Heydər Əliyev İli” çərçivəsində muğam sənətinin tədrisinə başlanıb.
- Almaniyada keçirilən Azərbaycanlı Həkimlərin II Forumunun Təşkilat Komitəsi müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyev – 100” təqaüd proqramı təsis edib.
- Misirin paytaxtı Qahirə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində “Heydər Əliyev İli” çərçivəsində muğam sənətinin tədrisinə başlanıb.
- Rusiyanın Arxangelsk vilayətində “Arxangelsk vilayətinin sponsorluğu ilə “Azərbaycan diasporu” regional ictimai təşkilatı Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mini-futbol turniri keçirilib.
- Latviyanın paytaxtı Riqa şəhərində yerləşən RiMi Olimpiya Mərkəzində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Aşıhara karatesi üzrə beynəlxalq turnir keçirilib. Komitənin dəstəyi və “Azəri” Gənclər Mərkəzinin təşkilatçılığı ilə 7-10 dekabr tarixində baş tutan yarışda 9 ölkədən (Almaniya, İsveçrə, Estoniya, Latviya, Litva, Kamerun, Niderland, Qazaxıstan, Yunanıstan) 110 idmançı iştirak edib.
- Almaniyanın paytaxtı Berlində “Heydər Əliyev İli” çərçivəsində kikboksinq üzrə “Heydər Əliyev Kuboku” adlı turnir keçirilib. Turnir Azərbaycan Respublikasının Diasporla İş üzrə

Dövlət Komitəsi, Milli Məclisin Gənclər və İdman Komitəsi, Gənclər və İdman Nazirliyi, Dünya Kikboksinq Təşkilatları Assosiasiyası (WAKO), Heydər Əliyev adına Dünya Boks Komitəsi (WBCA) və Azərbaycan Kikboksinq Federasiyasının (AKF) birgə təşkilatçılığı ilə baş tutub.

- Böyük Britaniyanın paytaxtı Londonda Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi, Britaniya Azərbaycanlıları Assosiasiyası və "Immortal Champions" təşkilatının birgə təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyi münasibətilə beynəlxalq turnir keçirilib.
- Türkiyənin Qars Qafqaz Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Təhsil Mərkəzinə Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə 100 kitab hədiyyə edilib.
- Qırğız Respublikasında fəaliyyət göstərən "Azəri" İctimai Birliyinin fəxri prezidenti Akif Alaferdov Bişkekdəki Heydər Əliyev adına 20 saylı orta məktəbi ziyarət edib və məktəbə kitablar hədiyyə edib.
- Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində görkəmli dövlət xadimi Heydər Əliyevin adını daşıyan məktəbə Azərbaycandan və Qırğızıstandan bəhs edən kitablar hədiyyə edilib. Kitabların arasında xalqımızın ümummilli lideri Heydər Əliyevə həsr olunmuş nəşrlər və dünya ədəbiyyatının inciləri hesab olunan bədii əsərlər də olub.
- Gürcüstanın Marneuli şəhərində Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində məktəblilər arasında "Heydər Əliyev – 100" adlı intellektual yarış keçirilib.
- Niderland Krallığının Rotterdam şəhərində Komitənin dəstəyi, Beniluks Azərbaycanlıları Konqresi və Azərbaycanın Niderland Krallığındakı Səfirliyinin birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib.
- Niderland Krallığının Haaqa şəhərində Azərbaycan Diasporuna Dəstək Fondu və Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş təntənəli tədbir keçirilib.
- Sloveniyanın paytaxtı Lyublyana şəhərində Komitənin dəstəyi və Azərbaycan Türk Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.
- Böyük Britaniyanın paytaxtı London şəhərində məşhur "Chelsea Old Town Hall" bələdiyyə binasında Britaniya Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.
- ABŞ-nin Nyu-York şəhərində Komitənin dəstəyi və Azərbaycan-Amerika Gənclər Federasiyasının təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Zəfər Gününə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev: Zəfərə doğru Yol" mövzusunda tədbir keçirilib.
- ABŞ-nin Texas ştatının Hyuston şəhərində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Komitənin dəstəyi və ABŞ-Azərbaycan İnteqrasiya Mərkəzinin (USACI) təşkilatçılığı ilə baş tutan tədbirdə yerli ictimaiyyətin, ölkəmizə dost icmaların nümayəndələri və soydaşlarımız iştirak ediblər.

- ABŞ-nin Nyu-York şəhərində yerləşən Türk Evində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təşkil edilən tədbirlər çərçivəsində Amerika Azərbaycanlıları Koordinasiya Şurasının toplantısı keçirilib. Toplantıda ABŞ-nin 9 ştatından 15 təşkilatın 22 nümayəndəsi, Komitənin, Azərbaycanın ABŞ-dakı səfirliyinin və BMT yanındakı daimi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.
- ABŞ-nin Nyu-York şəhərində fəaliyyət göstərən "Yale Club"da müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.
- Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində ABŞ-nin Nyu-York şəhərində Azərbaycan-Amerika Qadın Cəmiyyəti və Amerika Dağ yəhudiləri icmasının təşəbbüsü ilə tədbir keçirilib.
- Rusiya Federasiyasının Samara şəhərində "Samara vilayəti Azərbaycanlıları Liqası"nın təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə və "Samara vilayəti Azərbaycanlıları Liqası" ictimai təşkilatının yaranmasının 20 illiyinə həsr olunmuş "Azərbaycan Mədəniyyəti Günləri" keçirilib.
- Rusiyanın Vladivostok şəhərindəki Primorsk Akademik Dram Teatrında Primorsk diyarının "Dostluq" təşkilatının və Azərbaycan Respublikasının Yekaterinburqdakı Baş Konsulluğunun birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli tədbir keçirilib.
- Rusiya Federasiyası Udmurtiya Respublikasının İjevsk şəhərində "Dostluq" Azərbaycan İctimai Mərkəzinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.
- Rusiyanın Koqolım şəhərində "Dostluq" Milli-Mədəni Cəmiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Gül bayramı keçirilib.
- Rusiyanın Vladivostok şəhərində Primorsk Filarmoniyasında Primorsk diyarı üzrə "Azərbaycan Konqresi" Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli tədbir keçirilib.
- Gürcüstanın Marneuli şəhərində Komitənin dəstəyi və Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mədəni tədbir keçirilib.
- Gürcüstanın Marneuli şəhərində Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə mədəni tədbir keçirilib.
- Gürcüstanda fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzinin rəhbərliyi və bir qrup fəalı isə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar ulu öndərin Tbilisi şəhərindəki abidəsini ziyarət edib.
- Türkiyənin Kütahya şəhərində Kütahya Azərbaycanlıları Kültür və Həmrəylik Dərnəyinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Türkiyənin Əskişəhər şəhərində Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası və Əskişəhər Azərbaycanlılar Dərnəyinin birgə əməkdaşlığı, Əskişəhər Anadolu Universiteti və Heydər Əliyev adına Tərbiq və Araşdırma Mərkəzinin ev sahibliyi ilə müasir

Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

- Misirin Qalubiyyə vilayətinin Qanatır əl-Xeyriyyə şəhərində Misir-Azərbaycan Dostluq Cəmiyyətinin və Azərbaycanın Misirdəki Səfirliyinin birgə təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
- Niderland Krallığının Haaqa şəhərində Azərbaycan Diasporuna Dəstək Fondu və Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş tədbir keçirilib.
- Azərbaycanın Özbəkistandakı Səfirliyi və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü münasibətilə mərasim keçirilib.
- Komitənin İctimai TV ilə ortaq layihəsi olan “Vətən uzaqda deyil” verilişinin növbəti buraxılışı “Heydər Əliyev və Azərbaycan diasporu” mövzusuna həsr olunub.
- Azərbaycan Milli Konservatoriyasında “Böyük sənət hamisi” sənədli filminin, “Heydər Əliyevin sevimli musiqi inciləri” kitabının təqdimatı və “Danışan Əllər” sərgisinin açılışı keçirilib. Komitənin nəzdində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə və təşkilati dəstəyi ilə baş tutan tədbirdə Milli Məclisin deputatları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.
- Heydər Əliyev irsinin Kanada ictimaiyyətinə çatdırılması məqsədilə qrafik dizayn olunmuş, sosial şəbəkələrdə paylaşmaq üçün nəzərdə tutulmuş qısa videoçarx həm Komitənin, həm də Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin rəsmi “Facebook” səhifəsindən paylaşılıb.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin mərkəzində yerləşən “Jurnalistlər Evi”ndə tanınmış jurnalist, Rusiya Xalqlar Dostluğu Universitetinin dosenti Anar Həsənovun müəllifi olduğu “Heydər Əliyev: Qəlbimin bir hissəsi Rusiyadadır” sənədli filminin təqdimat mərasimi keçirilib.
- Gürcüstan Azərbaycanlı Ağsaqqallar Şurasının sədri İsak Novruzovun görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı Diaspor TV-yə müsahibə verib.
- Gürcüstanın Kvemo-Kartli regionunun sabiq qubernatorunun görkəmli dövlət xadimi Heydər Əliyev haqqında Diaspor TV-yə müsahibə verib.
- Kanadanın nüfuzlu “Thej.ca” yəhudi media platformasında “Heydər Əliyev: uzaqgörən lider və Azərbaycanın inkişafının memarı” sərlövhəli məqalə dərc olunub.
- Küveytin https://bobiannews.net xəbər portalında “Görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyev” sərlövhəli məqalə yayımlanıb.
- Bolqarıstan https://www.bta.bg xəbər portalında Heydər Əliyevin 100 illiyi ilə əlaqədar yayılmış məqalədə görkəmli dövlət xadiminin multikultural siyasətindən və bolqar icmasına yaradılmış şəraitdən bəhs edilib.
- Misirin “Rayet-mısr”, “Alqrar-al-araby”, “Elalm-el-araby”, “Axbar-el-naselyoum”, “Al-rayes” və digər xəbər portallarında Heydər Əliyevə həsr olunmuş məqalələr yayımlanıb.
- Fransanın https://luxury-place.fr xəbər portalında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Parisdə keçirilmiş konsertdən bəhs edən məqalə yayımlanıb.
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Bişkek şəhərinə səfəri çərçivəsində Qırğızıstan-Azərbaycan Dostluq Parkı ziyarət edilib və “Heydər Əliyev-100” xatirə bağında ağaclar əkilib. Azərbaycan Respublikasının

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan icmasının təşkilatçılığı ilə parkda yaradılmış “Heydər Əliyev-100” xatirə bağının girişindəki lövhədə “Heydər Əliyev-100” xatirə bağı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunub. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. 23.11.2023” məlumatı əks olunub.

- Gürcüstanın Dmanisi şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Dmanisi Tədris Mərkəzinin layihəsi əsasında baş tutan aksiyada 100 ağac əkilib.
- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi şəhərində “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyev-100” ağacəkmə aksiyası keçirilib. Ərəb ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının BƏƏ-dəki koordinatoru Nuranə Hüseynovanın təşkilatçılığı ilə “Old Airport Park” ərasizində baş tutan aksiyada Əbu-Dabi şəhər bələdiyyəsinin rəsmi şəxsləri, yerli ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

## 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar keçirilmiş tədbirlər

- Komitə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə “Bir olaq, həmrəy olaq!” adlı videokonfrans keçirib. Virtual konfransda 77 ölkədən 700 nəfərə yaxın soydaşımız, türk diasporunun və Azərbaycana dost ölkələrin nümayəndələri iştirak ediblər. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov soydaşlarımızı böyük tarixi hadisə – Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib. Bu tarixi proses zamanı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində nümayiş etdirdikləri birlik və həmrəyliyə görə soydaşlarımıza və ölkəmizin dostlarına təşəkkürünü bildirib. Diaspor fəalları çıxışlarında Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunmasına görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, xalqımızı bayramlar münasibətilə təbrik ediblər. Azərbaycan Bayrağının ölkəmizin bütün şəhər və kəndlərində ucaldılmasına nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın şərəfini və qürurunu özünə qaytardığı xüsusilə vurğulanıb. Tədbirdə 24 ölkədən 42 nəfər soydaşımız “Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalı ilə təltif edilib.
- Rusiyanın Stavropol diyarının Pyatiqorsk şəhərində “Araz” Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə Azərbaycan icmasının Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni ilə həsr olunmuş bayram şənliyi keçirilib.
- Anqolanın Luanda şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramlarına həsr olunmuş xeyriyyə tədbiri keçirilib. Nigeriyada təsis edilmiş Azərbaycanın Dostları Təşkilatının və Almaniyanın Hannover şəhərində fəaliyyət göstərən Alman-Azərbaycan Dostluq Cəmiyyətinin maliyyə dəstəyi və təşkilatçılığı ilə baş tutan xeyriyyə layihəsində Anqolanın Camunga Simfonik Orkestri məktəbinin ifaçıları, şagirdləri və müəllim heyəti iştirak ediblər.

- Qazaxıstanın Almatı şəhərində yaşayan Azərbaycan icması Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Qazaxıstanın Müstəqillik Gününə həsr olunmuş tədbir keçirib. Qazaxıstan Azərbaycanlıları Assosiasiyasının Almatı filialının təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycanın Qazaxıstandakı Səfirliyinin, yerli ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.
- Rusiyanın Sankt-Peterburq şəhərində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə bayram konserti keçirilib. "Sankt-Peterburqda Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyəti" və "Leninqrad vilayəti üzrə Azərbaycan Milli-Mədəni Muxtariyyəti regional ictimai təşkilatları tərəfindən təşkil edilən tədbirdə Azərbaycanın bu şəhərdəki Baş Konsulluğunun, Leninqrad administrasiyasının, şəhər bələdiyyəsinin, müxtəlif icmaların nümayəndələri və soydaşlarımız iştirak ediblər.
- Rusiya Federasiyası Dağıstan Respublikasının Mahaçqala şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş bayram tədbiri keçirilib.Mahaçqala Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə yerli hökumət rəsmiləri, parlament üzvləri, ictimai təşkilatların, təhsil müəssisələrinin nümayəndələri, Mahaçqalada və Dərbənddə yaşayan icma üzvlərimiz iştirak ediblər.
- Rusiyanın Stavropol diyarının Nevinnamsk şəhərində "Odlar Yurdu" Azərbaycan Milli Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbiri keçirilib.
- Rusiyanın Soçi şəhərində yerləşən Gənclər Evində "Dostluq" Azərbaycan Həmvətənlərə Dəstək Mərkəzinin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş bayram şənliyi keçirilib.
- Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan həftəsonu məktəblərinin şagirdləri Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xalqımıza və soydaşlarımıza videotəbriklər ünvanlayırlar. Bu təşəbbüsə Litvanın Klaypeda şəhərində fəaliyyət göstərən "Azəris" Azərbaycan Cəmiyyətinin nəzdindəki Azərbaycan həftəsonu məktəbinin şagirdləri də qoşulub.
- Niderlandın Rotterdam şəhərində Komitənin dəstəyi və "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə "Biz Qalib Xalqıq!" adlı bayram tədbiri keçirilib.
- Norveçin paytaxtı Oslo şəhərində "Oslo Azərbaycan Evi"nin və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveç üzrə koordinatorluğunun təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram tədbiri keçirilib.
- İsveçin Stokholm şəhərində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə "Qalib çıxan Azərbaycan" adlı bayram tədbiri keçirib.
- Berlində fəaliyyət göstərən "Xarı Bülbül Azərbaycan Mədəniyyət Evində" 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə tədbir təşkil edilib.
- Birləşmiş Krallığın Kembric şəhərində "Azərbaycan Rəqsləri – Kembric BK" ("Azerbaijani Dance – Cambridge UK") dərnəyi Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbiri keçirib. Tədbirdə Kembric, London, Bristol və digər şəhərlərdə yaşayan soydaşlarımız, müxtəlif icmaların üzvləri iştirak ediblər.

- Avstraliya İttifaqının Melburn şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram tədbiri keçirilib. Viktoriya-Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən təşkil olunmuş tədbirdə Melburnda fəaliyyət göstərən Avstraliyanın Azərbaycan Cəmiyyəti, Viktoriya-Azərbaycan Mədəniyyət Assosiasiyası və Viktoriya Varlıq Qrupunun üzvləri, Türkiyənin Melburndakı Baş konsulu Doğan F. İşık və Azərbaycan icmasının fəalları iştirak ediblər.
- Kanadanın Ottava şəhərində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan dili məktəbində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram tədbiri keçirilib. "Qarabağ" Azərbaycan dili məktəbi və Kanada Azərbaycanlı Tələbələr Assosiasiyasının birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan icmasının nümayəndələri, "Qarabağ" Azərbaycan dili məktəbinin şagirdləri və məzunları iştirak ediblər.
- Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin nəzdindəki həftəsonu məktəbinin və "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram şənliyi keçirilib.
- Kanadanın Saskaçevan əyalətinin Recayna (Regina) şəhərində Recayna Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram şənliyi keçirilib.
- Qahirədə fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilib. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən ölkəmizin Misirdəki səfiri Elxan Poluxov iştirakçıları Həmrəylik Günü münasibətilə təbrik edib.
- Qırğızıstanın Bişkek şəhərində Komitənin dəstəyi və "Birlik" Azərbaycanlıların İctimai Birliyinin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram şənliyi keçirilib. Tədbirdə Qırğızıstanda yaşayan Azərbaycan diasporunun övladları və "Ukkum-kelet" İctimai Fondundan xüsusi dəvət olunmuş eşitmə qüsurlu uşaqlar iştirak ediblər
- Almaniyanın Şvelm (Schwelm) şəhərində Kiyev Azərbaycanlıları Konqresinin sədri Oleq Krapivinin dəstəyi, "Qələbə" Gənclər Təşkilatı və "Fight Club Stolz" idman klubunun birgə təşkilatçılığı ilə Azərbaycan icmasının Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə həsr olunmuş nərd turniri keçirilib.
- Həmrəylik Günü və Yeni ilə həsr olunmuş nərd turniri keçirilib.










100
ЮБИЛЕЙНЫЙ
КОНЦЕРТ

























## MİLLİ MƏDƏNİYYƏTİN QORUNMASI VƏ AZƏRBAYCANIN TARİXİ VƏ MƏDƏNİ ABİDƏLƏRİ, MİLLİ-MƏDƏNİ DƏYƏRLƏRİNİN (FOLKLOR NÜMUNƏLƏRİ, MUSİQİSİ, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT) TƏBLİĞİ

- ABŞ-nin Portland şəhərində keçirilmiş XXI Millətlər Festivalında ölkəmizi Meyn Azərbaycanlıları Cəmiyyəti təmsil edib. “Deering Oaks” parkında gerçəkləşdirilmiş festivalda Meyn Azərbaycanlıları Cəmiyyətin sədri Tərlan Əhmədovun rəhbərliyi ilə Azərbaycan pavilyonu təşkil edilib.
- ABŞ-nin Texas ştatının Plano şəhərində keçirilən XX Beynəlxalq multikultural festivlda Azərbaycan ikinci dəfə təmsil olunub. Müxtəlif xalqların mədəniyyətlərinin, adət-ənənələrinin və milli mətbəxlərinin təbliği məqsədilə təşkil edilən beynəlxalq festivalda

Avropa, Asiya və Latın Amerikası ölkələrinin nümayəndələri iştiak ediblər. Texas ştatının Dallas şəhərində yaşayan Azərbaycan icmasının fəalları Dürdanə Balakişiyeva, Züleyxa Əsədova, Ləman Hendriks və digər həmyerliləimizin təşkil etdiyi Azərbaycan guşəsində ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini, turizm potensialını və adət-ənənələrini əks etdirən kitablar, suvenirlər milli geyimlər, mətbəx nümunələri nümayiş etdirilib. Kitabların arasında dahi Azərbacan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ingilis dilində nəşr olunmuş "Sirlər xəzinəsi" poeması da olub.

- ABŞ-nin Meyn ştatında Azərbaycan və Türkiyə diasporunun dostluq münasibətlərinə həsr olunmuş icma toplantısı keçirilib. Meyn Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Tərlan Əhmədov bildirib ki, açıq havada təşkil olunmuş toplantıda bu ştatdakı Azərbaycan və türk icmalarının birgə fəaliyyəti nəticəsində əldə olunan uğurlardan danışılıb, "bir millət, iki dövlət, vahid diaspor" prinsipi əsasında həyata keçirilməsi nəzərdə tutulan gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. Tədbir mədəniyyət irsimizi əks etdirən musiqilərin səsləndirilməsi və milli mətbəx nümunələrimizin təqdim olunması ilə yekunlaşıb.
- ABŞ-nin Minnesota ştatının Burnsville şəhərində keçirilmiş ənənəvi Mədəniyyət Festivalında Azərbaycan təmsil olunub. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Minnesota-Azərbaycan Assosiasiyasının təşkilatçılığı ilə ənənəvi festivalda yaradılmış Azərbaycan guşəsində xalqımızın qədim və zəngin mədəni irsini, milli mətbəxini əks etdirən nümunələr, "Azerbaijani socks" brendinə məxsus əl işləri nümayiş etdirilib.
- ABŞ-nin Meyn ştatının Lyuston şəhərində "Dünyanın hər yerindən orqan musiqisi: Dr. Cəmilə Cavadova-Şpitsberqin performansı" adı solo konsert keçirilib. Meyn Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə müqəddəs Pyotr və Pavel məbədində baş tutan konsertdə Avropa və Azərbaycan bəstəkarlarının, o cümlədən Qara Qarayev, Vasif Adıgözəlov və Aqşin Əlizadənin əsərləri ifa olunub.
- ABŞ-da yaşayan azərbaycanlı rejissor Elmar Bayramov müəllifi olduğu "Nəfəs" ("Breath") qısametrajlı filminə görə 14-cü Bakı Beynəlxalq Qısa Film Festivalının (yerli müsabiqə) ən yaxşı rejissoru nominasiyasının qalibi olub. 2023-cü ilin əvvəlində isə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun dəstəyi ilə "Nəfəs" filminin ABŞ-nin Nyu-York və Boston şəhərlərində təqdimatı keçirilib.
- Kanadanın Kvebek əyalətində fəaliyyət göstərən Monreal Kanada-Azərbaycan Cəmiyyəti liman şəhəri olan Monrealda keçirilən məşhur "Orientalys – 2023" festivalında ölkəmizi təmsil edib. Şəhərin "Vieux Port" (Old Port) ərazisində baş tutan 4 günlük ənənəvi festivalda Monreal Kanada-Azərbaycan Cəmiyyətinin sədri Rəna Müslümovanın rəhbərliyi ilə yaradılmış Azərbaycan pavilyonunda ölkəmizin tarixini, mədəniyyətini, adət-ənənələrini əks etdirən xəritələr, fotomateriallar, xalçalar, milli geyimlər və digər nümunələr təqdim edilib.
- Kanadada keçirilmiş Kalqari Avropa Film Festivalının açılış mərasimində Alberta-Azərbaycan Mədəniyyət Cəmiyyətinin (ALACS) nəzdində fəaliyyət göstərən "Azəri Kalqari Ulduzları" (Azeri Calgary Stars) rəqs qrupu çıxış edib.
- Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fəailyyət göstərən "Karabakh School UK" onlayn məktəbinin musiqi müəllimi Səadət Fərziyevanın bəstələdiyi "Rəngarəng dünya" və Əlifba" mahnıları bu il Britaniyada keçirilən "Golden Time Talent" beynəlxalq festivalında II yerə layiq görülüb.

- Azərbaycan İlahiyyat İnstitutu tədqiqatçı-alim, Qahirədə fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Ərəb ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Misirdəki koordinatoru Seymur Nəsirovun "Ərəb mənbələrində azərbaycanlı alim və ədiblər (VII-XVII əsrlər)" adlı kitabını nəşr etdirib. "İlahiyyat nəşrləri" layihəsi çərçivəsində dərc olunan kitabda Azərbaycan tarixi və coğrafiyası, "Azərbaycan" sözünün ərəb dilində oxunma şəkilləri, mənası, nisbəsi və yüz alimin həyat və yaradıcılığı barədə məlumat verilib.
- Almaniyanın paytaxtı Berlində yerləşən "Gallery Berlin" rəsm qalereyasında "Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı foto-sərgi təşkil edilib. Komitənin, Azərbaycanın Almaniyadakı Səfirliyinin dəstəyi və "Azərxalça" ASC-nin təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan icmasının üzvləri, alman ictimaiyyətin nümayəndələri və sənətsevərlər iştirak ediblər.
- Almaniyanın Drezden şəhərində fəaliyyət göstərən Yohannştadt Mədəniyyət Assosiasiyasında ənənəvi Yay Festivalı ("Sommerfest") keçirilib. Almaniya, Gürcüstan, Ukrayna, Hindistan və ərəb ölkələri icmalarının qatıldığı festivalda ölkəmizi "İpək Yolu Azərbaycan" (Seidenstrasse-Aserbaidschan) cəmiyyəti təmsil edib.
- Komitənin dəstəyi ilə Almaniyanın Detmold şəhərində yaşayan Azərbaycan əsilli bəstəkar, "Bridge of Sound" ansamblının və orkestrinin yaradıcısı və bədii rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xədicə Zeynalovanın "Solo fortepiano üçün uşaq pyesləri" adlı dərsliyi Frankfurtdakı "Lavrentius" musiqi nəşriyyatı tərəfindən alman dilində nəşr olunub.
- Almaniyanın Bielefeld, Detmold və Paderborn şəhərlərində "Harmony of Sound" III Beynəlxalq Musiqi Festivalı keçirilib. Bu mədəniyyət hadisəsi Almaniyada fəaliyyət göstərən "Bridge of Sound" kamera ansamblının, eləcə də "Harmony of Sound"un yaradıcısı və bədii rəhbəri, azərbaycanlı bəstəkar, musiqişünas Xədicə Zeynalovanın təşkilatçılığı ilə gerçəkləşdirilib.
- Polşanın paytaxtı Varşavada fəaliyyət göstərən Azərbaycan Evində Polşada yaşayan soydaşlarımızın övladları üçün rəqs layihəsinə start verilib. Dərsləri "Laila Dance Course"un rəhbəri Leyla Əsgərova tədris edir.
- Polşanın Krakov şəhərində yerləşən nüfuzlu Yagellon Universitetinin (Uniwersytet Jagielloński) kitabxanasında "Qarabağ xanlığı" mövzusunda fotosərgi açılıb. "Xarı Bülbül" Dünya Azərbaycanlıları Mədəniyyət Assossiyasiyasının təşkilatçılığı və Azərbaycanın Polşadakı Səfirliyinin dəstəyi ilə ilə baş tutan sərgidə Qarabağ xanlığı tarixinin və mədəniyyətinin seçilmiş muzey eksponatlarının fotomaterialları təqdim olunub.
- Polşanın Krakov şəhərində təşkil edilmiş "Azərbaycan Gecəsi" layihəsi gənc soydaşlarımızı bir araya gətirib. Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı ilə baş tutan tədbirdə Varşava Azərbaycan Evinin nümayəndələri, Polşa Azərbaycanlıları Koordinasiya Şurasının koordinatorları və Krakovda yaşayan gənclərimiz iştirak ediblər.
- Polşanın paytaxtı Varşava şəhərində fəaliyyət göstərən Azərbaycan Evində xalqımızın qədim bayramı olan Cillə gecəsinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Varşavada yaşayan Azərbaycan diasporunun fəalları və güney azərbaycanlılar bir araya gəliblər.
- İsveçin Höteborq şəhərində keçirilmiş "Biskopsgardens matfestival – 2023" beynəlxalq festivalında Azərbaycan mətbəxi uğurla nümayiş etdirilib. "Azərbaycan Qarabağ Azadlıq Mərkəzi"nin təşkilatçılığı ilə qurulmuş Azərbaycan pavilyonunda milli mətbəximizin ləziz təamları, müxtəlif çeşidli şirniyyatlar və Azərbaycan çayı təqdim olunub.

- İsveçrə Konfederasiyasının Lozanna şəhərində keçirilmiş ənənəvi “Lauz'One” multikultural festivalında Azərbaycan təmsil olunub. Festivaldakı Azərbaycan stendi Cenevrədə fəaliyyət göstərən, Azərbaycanın zəngin mədəni irsinin təbliği ilə məşğul olan “L’Heritage” Azərbaycan Mədəniyyət Assosiasiyasının təşəbbüsü ilə yaradılıb.
- İsveçrənin Cenevrə şəhərində keçirilən ənənəvi “Les Automnales” payız yarmarkasında Azərbaycan təmsil olunub. “Palexpo” sərgi mərkəzində 12-19 noyabr 2023-cü il tarixlərini əhatə edən və yüz minlərlə insanı birləşdirən bu yarmarkada “Salon de l'Art du Mouvement” konsert salonunda Azərbaycanı təmsil edən xoreoqraf, diaspor fəalı Mariya Xan-Xoyskaya Martiqnoli və rəhbərlik etdiyi “İrs” rəqs ansamblının yetirmələri “Lalələr” və “Ağ çiçəyim” rəqslərini təqdim ediblər. Soydaşlarımızın çıxışı alqışlarla qarşılanıb.
- İsveçrənin Bazel şəhərində “Azərbaycanın nağıllar dünyasına kiçik səyahət” mövzusunda uşaq tədbiri keçirilib. “Azərbaycanın Dostları” Birliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə uşaqlara Azərbaycanda çox sevilən “Məlikməmmədin nağılı” əsasında çəkilmiş cizgi filmi nümayiş etdirilib. İsveçrə məktəbinin müəllimi, diaspor fəalı Fatma Kandaz nağılı uşaqlara alman dilində oxuyub. Mertjan Kandaz isə saz alətində Azərbaycan musiqisindən parçalar ifa edib. Uşaqlar nağıldakı obrazlara aid sorğu-sualda və əyləncəli oyunlarda fəal iştirak ediblər. Tədbirin sonunda uşaqlara hədiyyələr təqdim olunub.
- Estoniyanın “Karyera” Təhsil Akademiyası nəzdində Tallinndə fəaliyyət göstərən Azərbaycan həftəsonu məktəbində Milli Musiqi Gününə həsr olunmuş musiqi müsabiqəsi təşkil edilib. Müsabiqədə Tallinndə yaşayan yeniyetmələr və gənclər, habelə Estoniyada təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.
- Estoniyanın paytaxtı Tallinn şəhərindəki Dizayn və Memarlıq Qalereyasında tanınmış azərbaycanlı rəssam Rövşən Nurun əsərlərindən ibarət sərgi açılıb. Komitənin dəstəyi ilə “Heydər Əliyev İli” çərçivəsində baş tutan sərginin açılış mərasimində rəsmi şəxslər, mədəniyyət və incəsənət xadimləri, Estoniyada yaşayan etnik azlıqların nümayəndələri iştirak ediblər. Sərgidə rəssamın “Tarix” mövzusunda Estoniya və Azərbaycanda yaratdığı 100-ə yaxın əsər nümayiş etdirilib.
- Litvanın Kaunas və Vilnüs şəhərlərində keçirilmiş “Mədəniyyət Bağı – 2023” və “Vilnüs mənim şəhərimdir – Beynəlxalq İcma Festivalı” millətlərarası mədəniyyət festivallarında Azərbaycan diasporu uğurla iştirak edib. Litvadakı Azərbaycanlı Gənclər Təşkilatının təmsilçisi və Baltikyanı ölkələrdə yaşayan Azərbaycanlılarının Koordinasiya Şurasının Litvadakı koordinatoru Nərmin Əliyevanın təşkilatçılığı ilə yaradılmış Azərbaycan guşəsində ölkəmizin tarixini, mədəni irsini, turizmini, milli mətbəxini əks etdirən nümunələr nümayiş etdirilib.
- Fransadakı Azərbaycan icmasının fəal üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının dosenti, əməkdar rəssam Əsmər Nərimanbəyova Qazaxıstanda keçirilmiş “Botay – Böyük çölün mədəniyyəti” adlı rəssamların II Beynəlxalq simpoziumda iştirak edib.
- Fransanın Selestat şəhərində azərbaycanlı bəstəkar, vokalist və xor dirijoru İlahə Ahuinin rəhbərliyi ilə “Yamaha Musique School” musiqi məktəbinin açılış mərasimi keçirilib.
- Avstriyanın Zalsburq şəhərində Azərbaycan əsilli rəssam Ayna Hüseynovanın “Hisslərin rəngləri” adlı fərdi rəsm sərgisi açılıb. “Motsartplats” şəhər qalereyasında baş tutan sərgidə rəssamın yağlı boya ilə çəkilmiş 40-a yaxın əsəri nümayiş etdirilib.
- İtaliyanın Korbetta şəhər meri Marko Ballarini “Heydər Əliyev İli” çərçivəsində San-Remoda təşkil edilmiş “O Patro Mia” adlı konsertə görə Komitəyə və Azərbaycan diasporuna təşəkkürünü bildirib.

- Estoniyanın paytaxtı Tallinndə yerləşən məşhur Kadriorq Sarayında Komitənin dəstəyi və "İrs" Estoniya-Azərbaycan Gənclər Mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə Milli Musiqi və Milli Azlıqlar Gününə həsr olunmuş klassik musiqi gecəsi keçirilib.
- Litvanın Klaypeda şəhərindəki konsert salonunda Azərbaycan Mədəniyyət Günü çərçivəsində "Azeris" Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə Estoniyada yaşayan azərbaycanlı rəssam Rövşən Nurun fərdi rəsm sərgisi keçirilib.
- Çexiyanın Praqa şəhərində yerləşən Luserna Sarayının (Palace Lucerna) tarixi binasında keçirilən "Doll Prague" ("Praqa Kuklası) beynəlxalq kuklaçılar sərgisində bu ölkədə yaşayan azərbaycanlı rəssam Vəfa Aşumova uğurla iştirak edib.
- Norveçin paytaxtı Osloda fəaliyyət göstərən Nizami Gəncəvi adına Azərbaycan dili həftəsonu məktəbinin 14 yaşlı şagirdi Səlim Abbaszadənin "Qarabağı gözəl gördüm" adlı ilk fərdi sərgisi Oslo Beynəlxalq Uşaq İncəsənət Muzeyində (The International Museum Of Children's Art's) nümayiş etdirilib. Norveç Azərbaycanlıları Gənclər Təşkilatının (NAYO) və Nizami Gəncəvi adına Azərbaycan dili həftəsonu məktəbin təşkilatçılığı ilə baş tutan sərgidə əsasən Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə həsr olunmuş əsərlər nümayiş olunub.
- Çexiyanın Praqa şəhərindəki "Park Sacre Ceour" parkında "Heydər Əliyev İli" çərçivəsində beynəlxalq uşaq festivalı keçirilib.
- Çexiyanın Praqa şəhərində Bakıdan bəhs edən "Beyond the Wall" ("Divarın arxasında") qısametrajlı filminin təqdimat mərasimi keçirilib. Filmin həmmüəllifi, Çexiyada yaşayan şairə Leyla Begim Cəfərova digər həmmüəllif – İspaniyada yaşayan soydaşımız Azər Ağalarovla birlikdə ərsəyə gətirdikləri ekran əsərinin yaranma ideyası barədə ətraflı məlumat verib.
- Praqa şəhərinin mərkəzində yerləşən Slavyan Evinin "Cinema City" kinoteatrında Birinci Qarabağ müharibəsi dövründə Ağdamın Xramort kəndindəki kilsədə ermənilərə qarşı təkbaşına vuruşan Natiq Qasımovun döyüş yolundan bəhs edən "Oğul" sənədli filmi nümayiş etdirilib. Film Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi, "LİBRAFF" Kitab Mağazalar Şəbəkəsinin və TEAS Press Nəşriyyat Evinin təşkilati dəstəyi ilə ərsəyə gəlib.
- Budapeşt şəhərində fəaliyyət göstərən Azərbaycan Evində Türk Dövlətləri Təşkilatının (TDT) üzv ölkələrinin nümayəndələrindən ibarət olan "Türkic Youth Ensemble" qrupunun konserti keçirilib.
- Komitənin dəstəyi ilə Yaponiyada Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin əsərlərindən ibarət not kitabı çapdan çıxıb.
- Yaponiyanın paytaxtı Tokionun mərkəzində yerləşən məşhur Ueno parkında ilk dəfə "Azərbaycan festivalı" keçirilib. Komitənin dəstəyi ilə keçirilən tədbir Azərbaycan-Yaponiya Dostluq Mərkəzi və Yaponiyanın "BMI Company Limited" qeyri-hökumət təşkilatı tərəfindən təşkil edilib. İki gün davam edən festival zamanı Tokio sakinlərinə ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti və milli mətbəxini əks etdirən nəşrlər, nümunələr, rəqslər nümayiş etdirilib və "Lotos Kələbək" rəqs qrupunun, həmçinin saz, ud və tarda ifası ilə artıq Yaponiyada yaxşı tanınmış Kiyoşi Ohiranın qrupunun çıxışı təqdim olunub.
- Çin Xalq Respublikasının Hefey şəhərində yerləşən Anhui Universitetində III Beynəlxalq mədəniyyət festivalı keçirilib. Festivalda universitetdə təhsil alan və müxtəlif ölkələri, o cümlədən Azərbaycanı təmsil edən tələbələr iştirak ediblər. Festivalın 4 aparıcısından biri

soydaşımız Sərxan Novruzlu olub. Azərbaycan guşəsində ölkəmizin rəmzlərini, qədim tarixini, zəngin mədəni irsini əks etdirən nümunələr nümayiş etdirilib. Azərbaycanı təmsil edən Ülkər Qurbanova təkcə xalqımızın milli mətbəxinin bir sıra təamlarının deyil, həm də 3 yaşlı qızı Aliyə Qasımlı ilə səhnədə "Uzundərə" milli rəqsimizin təqdimatı ilə festival iştirakçılarını və qonaqları heyran edib.

- Koreya Respublikasının "Unification Media Group" (UMG) media şirkətinin "Dünya insanları" adlı radio proqramında Azərbaycan icmasının fəal üzvü Rahil Əhmədov izləyiciləri Azərbaycan dilində salamlayıb. Soydaşımız 40 dəqiqə ərzində Azərbaycanın qədim tarixi, coğrafiyası, zəngin mədəni irsi və Qarabağ müharibəsi barədə məlumat verib.
- Laosun paytaxtı Vyetyanda (Vientiane) yerləşən Laos Beynəlxalq Məktəbində (İSL) Azərbaycan rəqsləri nümayiş olunub. Milad bayramına həsr olunmuş şənlikdə məktəbdə təhsil alan azərbaycanlı şagirdlər də iştirak ediblər.
- Rusiyanın Yekaterinburq şəhərində Orta Ural Xalqları Günü münasibətilə keçirilmiş bayram şənliyində Azərbaycan diasporunu ənənəvi olaraq Sverdlovsk vilayətindəki "Azərbaycan-Ural" İctimai Milli-Mədəni Təşkilatı təmsil edib. "Taqanskaya sloboda" parkında təşkil olunmuş Azərbaycan pavilyonunda xalqımızın qədim tarixini, zəngin mədəniyyətini, adət-ənənələrini və milli mətbəxini əks etdirən nümunələr nümayiş etdirilib.
- Rusiyanın Samara şəhərində keçirilən tatar icmasının "Sabantuy-2023" milli bayram şənliyində Azərbaycan diasporunun nümayəndələri fəal iştirak ediblər. Samara vilayəti Azərbaycanlıları Liqasının təşkilatçılığı ilə tədbirdə Mirməhəmməd Seyidlinin rəhbərlik etdiri "Alpan" xoreoqrafiya kollektivinin ifasında milli rəqslərimiz nümayiş etdirilib. Bundan başqa, Azərbaycanın əməkdar artisti, skripka ifaçısı Ceyhun İsmayılov bayram şənliyinə xüsusi olaraq dəvət edilib. Azərbaycanlı sənətçinin və "Alpan" yaradıcı kollektivinin çıxışları alqışlarla qarşılanıb.
- Rusiyanın Soçi şəhərində fəaliyyət göstərən "Dostluq" Azərbaycan Həmvətənlərə Dəstək Mərkəzi ictimai təşkilatının ofisində "XVI-XIX əsr Azərbaycan şairlərinin əsərlərində uşaq mövzusu" adlı tədbir keçirilib.
- Rusiyanın Moskva vilayətinin Mıtişi şəhərində keçirilmiş 8-ci Moskva Regional Milli Mədəniyyətlər Festivalında Azərbaycan diasporu uğurla iştirak edib. Moskva vilayəti Azərbaycanlılarının Regional Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə "Yauza" Mədəniyyət Evi qarşısında qurulmuş Azərbaycan stendində xalqımızın zəngin mədəni irsini, adət-ənənələrini, milli mətbəxini, milli dekorativ-tətbiqi sənətini əks etdirən nümunələr nümayiş etdirilib. Azərbaycan bayraqlarının əhatəsində milli rəqslərimiz təqdim olunub.
- Rusiyanın Moskva şəhərinin Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yerləşən "Azərbaycan" pavilyonunda "Moskva vilayəti Azərbaycanlılarının Regional Milli-Mədəni Muxtariyyəti"nin təşkilatçılığı ilə azərbaycanlı şairə Səidə Rəhimlinin "Həsrətdən vüsala" və Rübabə Əsgərovanın "Şüuraltının sirri" adlı kitablarının təqdimat mərasimi keçirilib.
- Rusiyanın Pyatiqorsk şəhərinin 243 illiyi münasibətilə keçirilən Şəhər Günündə Azərbaycan diasporu fəal iştirak edib. "Araz" Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə şəhər administrasiyasının qarşısındakı meydanda qurulmuş Azərbaycan pavilyonunda ölkəmizin tarixini, mədəniyyətini, milli adət-ənənələrini və mətbəxini əks etdirən nümunələr nümayiş etdirilib.

- Özbəkistanın Urgənc Dövlət Universitetində görkəmli Azərbaycan yazıçısı və dövlət-ictimai xadimi Yusif Vəzir Çəmənzəminlinin adını daşıyan Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı Mərkəzinin açılış mərasimi keçirilib. Tədbir Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə 23-26 oktyabr 2023-cü il tarixlərində Daşkənd və Xarəzm vilayətində keçirilən "Azərbaycan mədəniyyəti və poeziyası həftəliyi" çərçivəsində baş tutub.
- Qazaxıstanın Türküstan vilayətinin Sayram rayonunun Aksukent kəndində "Azərbaycan Dili, Mədəniyyəti və Adət-ənənələri Günü" qeyd olunub. "Qarabağ" Azərbaycan Regional Etnomədəni Birliyinin təşkilatçılığı ilə baş tutan tədbir Qazaxıstan Xalqları Assambleyasında (QXA) etnomədəni birliklərin dilinə, mədəniyyətinə və adət-ənənələrinə həsr olunmuş bayram tədbirləri çərçivəsində təşkil olunub.
- Qazaxıstanın Almatı şəhərində keçirilmiş türk xalqlarının beynəlxalq etnofestivalında Azərbaycan diasporu fəal iştirak edib. "Boralday Saki Kurqanları" arxeoloji parkında baş tutan festivalda dünyanın 12 ölkəsi, o cümlədən Azərbaycan təmsil olunub. Azərbaycan pavilyonunda (yurta) xalqımızın qədim tarixini, zəngin mədəniyyətini, milli adət-ənənələrini və mətbəxini əks etdirən nümunələr təqdim edilib.
- Türkiyənin İzmir şəhərində ilk dəfə "Güney Azərbaycan Kültür və Sənət Festivalı" keçirilib. Güney Azərbaycan Kültür Mərkəzinin təşkilatçılığı ilə baş tutan festivalda unudulmaz ədəbiyyat və mədəniyyət xadimləri - Bulud Qaraçorlu, Məhəmməd Tağı Zehtabi, Əli Təbrizli, Həbib Sahirin və Həsən Dəmirçinin həyat və yaradıcılıqlarına, apardıqları milli mücadiləyə diqqət cəlb edilib. Eyni zamanda Urmiya şəhərinin Güney azərbaycanlılar üçün önəmi və Urmiya gölünün qurudulması barədə ətraflı məlumat verilib.
- İsrailin Or-Akiva şəhərində fəaliyyət göstərən və Azərbaycan musiqisini dost ölkədə təbliğ edən "Sevgi" instrumental ansamblı "Həyatinizdə canlı musiqi" layihəsinə start verib. Layihə üçün 11 iyul və 16 iyul tarixlərində şəhərin Şizar və Orot rayonlarının parkları musiqi meydanı kimi seçilib. Layihənin başlıca məqsədi dağ yəhudilərinin və Azərbaycanın musiqi irsini İsraildə və onun hüdudlarından kənarda qoruyub saxlamaq və təbliğ etmək olub.
- Şimali Kipr Türk Respublikasının Girnə şəhərində yerləşən Doktor Fazil Küçük adına ibtidai məktəbdə Azərbaycan Günü keçirilib. Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin və Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə baş tutan izdihamlı və coşğulu tədbirdə üç qardaş ölkə olan Azərbaycan, Türkiyə və Şimali Kiprin ortaq mədəniyyətindən, Türkiyə-Azərbaycan birliyinin bütün dünyaya nümunə olmasından söz açılıb. Tədbir çərçivəsində müxtəlif əyləncələr, ölkəmizdən və türk xalqlarından bəhs edən kitabların, suvenirlərin nümayiş etdirildiyi Azərbaycan guşəsi təqdim olunub.
- Azərbaycan Şimali Kipr Türk Respublikasının Doğu Akdeniz Universitetində (DAÜ) keçirilən beynəlxalq tədbirdə təmsil olunub. DAÜ-da fəaliyyət göstərən Azərbaycanlı Tələbələr Cəmiyyətinin təşkilatçılığı ilə yaradılan Azərbaycan guşəsində milli-mənəvi dəyərlərimizi əks etdirən kitablar və suvenirlər, müxtəlif nümunələr nümayiş etdirilib.
- Bakıdakı Cövdət Hacıyev adına 3 nömrəli onbirillik musiqi məktəbində ABŞ-da yaşayan musiqiçi Tatyana Yudeniçin ustad dərsi keçirilib. Florida ştatında fəaliyyət göstərən Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyasının mədəniyyət məsələləri üzrə direktoru, "Florida Keys" layihəsinin rəhbəri Pərvin Muradovun təşəbbüsü və məktəbin direktoru Məhin Orucovanın təşkilatçılığı ilə baş tutan ustad dərsi tanınmış ABŞ musiqiçişi

Stanislav Yudeniçin bədii rəhbəri olduğu “Dünya Konsertləri Turnesi” beynəlxalq layihəsi çərçivəsində gerçəkləşdirilib. Komitə bu beynəlxalq layihənin dəstəkçilərindən biridir.

– Misir Ərəb Respublikasında Azərbaycanın milli irsinin qorunması məqsədilə xalçaçılıq kursu açılıb. Xalçaçılıq kursunun iştirakçıları ilə görüş zamanı Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Ərəb ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Misirdəki koordinatoru, tədqiqatçı-alim Seymur Nəsirov bildirib ki, “Heydər Əliyev İli” çərçivəsində Azərbaycan xalçaçılıq sənətinin təbliğ olunması məqsədilə yaradılan kursda müxtəlif ölkələrdən 52 tələbə bu qədim sənətin sirlərinə yiyələnəcək, 120-dən çox tələbə isə gələcək kurslarda iştirak etmək üçün öz növbəsini gözləyir. Kurs xalça ustası 57 yaşlı Camal Məhəmmədin rəhbərliyi ilə aparılacaq. Misirdə xalçaçılıq sənətinə böyük marağı nəzərə alaraq, gələcəkdə kursun fəaliyyətinin daha da genişləndirilməsi planlaşdırılır.








Děti jsou naše budoucnost
Heydar Aliyev
MEZINÁRODNÍ
DĚTSKÝ FESTIVAL
STATE COMMITTEE ON WORK WITH
DIASPORA OF THE REPUBLIC OF AZERBAIJAN
www.diaspora.gov.az
24. 09. 2023, 12:00 – 21:00, PARK SACRÉ COEUR
VSTUP ZDARMA, VSTUP OMEZENÝ, KARTOUZSKÁ 10, PRAHA 5 TEL.: 777 43 11 44
The children are our future
Heydar Aliyev
INTERNATIONAL
CHILDREN FESTIVAL
STATE COMMITTEE ON WORK WITH
DIASPORA OF THE REPUBLIC OF AZERBAIJAN
www.diaspora.gov.az
24. 09. 2023, 12:00 – 21:00, PARK SACRÉ COEUR
ENTRANCE FREE, KARTOUZSKÁ 10, PRAHA 5 TEL.: 777 43 11 44




アゼルバイジャン フェスティバル


AZƏRBAYCAN EVİ
DOM AZERBEJDŻAŃSKI











- Almaniyanın Maqdeburq şəhərində Komitənin dəstəyi, Heydər Əliyev adına Dünya Boks Komitəsinin və Diaspor Boks Liqasının təşkilatçılığı ilə “Ana dili” məktəbinin açılışı baş tutub.
- Rusiyanın Murmank, Finlandiyanın Helsinki, Estoniyanın Tallinn, Moldovanın Kişinyov, Litvanın Klaypeda şəhərində, Qazaxıstanın Türkistan vilayətində fəaliyyət göstərən həftəsonu məktəblərinin, Parisdə fəaliyyət göstərən “Natəvan” həftəsonu məktəbinin, Kanadanın Ottava şəhərində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan dili məktəbinin, Osloda fəaliyyət göstərən Nizami Gəncəvi adına həftəsonu Azərbaycan dili və mədəniyyəti məktəbinin, Türkistan vilayətində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan həftəsonu məktəbinin şagirdləri Azərbaycan Respublikasının dövlət bayramlarında ana dilində təşkil olunan tədbirlərdə şeirlər səsləndiriblər.
- Helsinki şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin nəzdindəki həftəsonu Azərbaycan dili məktəbinin birinci tədris ilinin uğurla başa çatması ilə bağlı tədbir keçirilib. Son dərs günü Azərbaycan dili müəllimi Sura Ağaverdiyeva öz şagirdlərinə dərs ilini müvəffəqiyyətlə tamamladıqları üçün diplomlar təqdim edib.
- Kişinyov şəhərində fəaliyyət göstərən Moldova Azərbaycanlıları Konqresinin nəzdindəki Azərbaycan dili həftəsonu məktəbi yeni tədris ilinə başlayıb.
- Finlandiyanın paytaxtı Helsinkidə yerləşən Azərbaycan Evinin nəzdindəki Azərbaycan həftəsonu məktəbində yeni tədris ili başlayıb. İlk dərs günündə uşaqlara I-IX siniflər üçün hazırlanmış və 2023–2024-cü tədris ilini əhatə edən məktəbli kitabçası təqdim edilib. Bununla yanaşı, uşaqlara rəsm dərsi keçirilib. Məktəbdə Azərbaycan dili, musiqi və rəsm fənləri tədris olunur.
- Almaniyaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Berlin şəhərində fəaliyyət göstərən “Xarı Bülbül” Azərbaycan Mədəniyyət Evinin nəzdindəki Azərbaycan həftəsonu məktəbinin yeni ofisini ziyarət edib. Komitə sədrini salamlayan “Xarı Bülbül” Azərbaycan Mədəniyyət Evinin rəhbəri, Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyəti sədrinin müavini Sevda Badaliouri məktəbin fəaliyyəti və yaradılmış şərait barədə ətraflı məlumat verib. Bildirib ki, ana dili kurslarında kiçik və böyük yaş kateqoriyaları üzrə iki qrup mövcuddur. Bundan başqa, Azərbaycan dilini heç bilməyən gənc soydaşlarımızdan ibarət yeni qrup yaradılıb.
- Torontodakı Azərbaycan Evində “Mənim Azərbaycanım” həftəsonu məktəbi layihəsinin təqdimat marasimi keçirilib. Mərasim həftəsonu məktəbdə təhsil alacaq uşaqların ifasında Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. 2023-2024-cü tədris ilini əhatə edəcək “Mənim Azərbaycanım” tədris proqramına Azərbaycan dili, ədəbiyyatı, tarixi, coğrafiyası, mədəniyyəti və digər fənnlər daxildir.
- İsveçin paytaxtı Stokholm şəhərində fəaliyyət göstərən Azərbaycan-İsveç Mədəniyyət Birliyinin (SAF) nəzdindəki “Qarabağ” Azərbaycan həftəsonu məktəbində İsveçdə səfərdə olan Əlil Qadınlar Cəmiyyətinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Beynəlxalq Media Qurupunun, SAF-ın fəalları, “Qarabağ” məktəbinin şagirdləri və “Qarabağ” uşaq rəqs ansamblının üzvləri iştirak ediblər. Qonaqlara yazıçı Eluca Atalının kitabları hədiyyə edilib.
- Paris şəhərində yerləşən Azərbaycanın Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən “Natəvan” Azərbaycan həftəsonu məktəbi yeni tədris ilinə başlayıb.

Azərbaycanın görkəmli şairəsi, sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın adını daşıyan məktəbdə 2023–2024-cü illər üzrə tədris ilində 20-yə yaxın şagird təhsil alacaq. Onların arasında soydaşlarımızla yanaşı, türk, fransız, qazax və digər millətlərdən olan ailələrin övladları var. Məktəbdə Azərbaycan dili, musiqi, rəsm və rəqs dərsləri tədris olunur. Yeni tədris ilində uşaqlara ilk dəfə olaraq Azərbaycan rəqsləri öyrədiləcək. Komitənin dəstəyi ilə fəaliyyət göstərən "Natəvan" Azərbaycan həftəsonu məktəbinin məqsədi doğma dilimizi Fransada yaşayan uşaqlara öyrətmək, zəngin mədəniyyətimizi, adət-ənənələrimizi təbliğ etməkdir.

- 22 sentyabr 2023-cü il tarixində Qırğızıstanın paytaxtı Bişkek şəhərində Türkdilli Xalqların Beynəlxalq Dil Forumu keçirilib. Komitənin dəstəyi ilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, filologiya elmləri doktoru, professor Sevinc Əliyeva forumda iştirak edib.
- Bişkekdə Komitənin dəstəyi, "İrs" İctimai Birliyinin və Qırğız Respublikasının Prezidenti yanında Dövlət Dili və Dil Siyasəti üzrə Milli Komissiyasının birgə təşkilatçılığı ilə Qırğız Respublikası Prezident Administrasiyasının, ölkə parlamentinin (Joqorku Keneş), Elm və Təhsil Nazirliyinin, Mədəniyyət, İnformasiya, İdman və Gənclər Siyasəti Nazirliyinin, Qırğızıstan Xalq Assambleyasının, Çingiz Aytmatov Fondunun nümayəndələri, hər iki ölkənin elm xadimləri və Azərbaycan diasporunun fəallarının iştirakı ilə "Dilimiz milli sərvətimizdir"adlı elmi-praktik konfrans keçirilib.
- Fransanın Tur şəhərində 50 ölkənin qatıldığı Dil Festivalında Azərbaycan da təmsil olunub. Fransanın Poitiers Universitetinin İKT üzrə müəllimi, Azərbaycan icmasının fəalı Eşqi Camalovun təşkilatçılığı ilə yaradılmış Azərbaycan guşəsində doğma dilimizi, xalqımızın zəngin mədəni irsini, milli mətbəxini əks etdirən kitablar və nümunələr nümayiş etdirilib. Ziyarətçilərə Azərbaycan dili və mədəniyyəti barədə məlumatlar verilib, milli mətbəxin dadlı təamlarının resepti, milli bəzək nümunələri hədiyyə edilib.
- İsrailin Kiryat-Yam şəhərində "Ana dili – Azərbaycan məktəbi" layihəsi çərçivəsində tədbir keçirilib. "Dünya gözəldir" Qafqaz Mədəniyyət Mərkəzinin rəhbəri Ben Sion Şmailovun təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan əlifbası barədə məlumat verilib. Sonra Komitənin nəşr etdirdiyi "Azərbaycan dili" dərsliyi tədbir iştirakçılarına təqdim edilib.
- Bakıdakı Uşaq-Gənclər İnkişaf Mərkəzində Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşəbbüsü ilə reallaşan "Ana dili – Azərbaycan məktəbi" layihəsinin təqdimat tədbiri keçirilib. Dünyanın 20-dən çox ölkəsini təmsil edən diaspor təşkilatları nümayəndələrinin də iştirak etdiyi tədbir ana dilimizin xaricdə yaşayan həmvətənlərimiz arasında təbliğinə həsr olunub. "Ana dili – Azərbaycan məktəbi" ölkəmizdən kənarda yaşayan, müxtəlif yaş qruplarından olan soydaşlarımız üçün Azərbaycan dilində məsafədən öyrənmə imkanını təmin edən layihədir.
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov ABŞ-da fəaliyyət göstərən "A-Level Education Group"un rəhbəri Ayan Əliyevanı qəbul edib. Görüşdə Azərbaycan diasporunun ABŞ-da fəaliyyəti, təhsil sahəsinin ABŞ-da yaşayan soydaşlarımızın həyatında rolu, gənclərimizin təhsil almasına "A-Level Education Group"un dəstəyi, doğma dilimizin və milli kimliyimizin unudulmaması məqsədilə həyata keçirilən tədbirlər müzakirə edilib.
- Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Ərəb ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Misirdəki koordinatoru, tədqiqatçı-alim Seymur Nəsirov bildirib ki,

cəmiyyətin nəzdində fəaliyyət göstərən Azərbaycan dili kursuna daha 92 nəfər müraciət edib .

- ABŞ-nin Silikon vadisində ilk dəfə Azərbaycan dilində “Brain ring” formatında intellektual oyun keçirilib. Şimali Kaliforniyanın Azərbaycan Mədəniyyət Cəmiyyətinin (ACSNC) təşkilatçılığı ilə baş tutan tədbirin ideya müəllifi və tərtibçiləri icma üzvlərimiz Nurlan Şükürlü və Ülvi Verdiyev olub. İntellektual oyunda Kaliforniya və başqa ştatlarda yaşayan Azərbaycan əsilli amerikalılardan ibarət 8 komanda iştirak edib. Qaliblər medallar və sertifikatlarla təltif olunub. İcma üzvlərinin yarışa böyük marağını və komandaların çoxluğunu nəzərə alan ACSNC bu cür intellektual oyunların ilboyu keçirilməsini nəzərdə tutub.

















**Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı keçirilmiş tədbirlər**

- Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi tərəfindən  Bakıda "Heydər Əliyev İli" çərçivəsində "Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu: Heydər Əliyev və Türk Dünyası" adlı tədbir keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının (TDT) tərəfdaşlığı ilə baş tutan tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla yanaşı, TDT-də müşahidəçi üzv statusuna malik Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstanın nümayəndə heyətləri iştirak ediblər. Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Adil Əliyev, Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, mədəniyyət nazirinin müavini Səadət Yusifova, TDT Baş katibinin müavini Yerzhan Mukaş tədbirdə çıxış ediblər. Forumun panelləri "Heydər Əliyev və Türk Dünyası" və "Türk dövlətlərinin diaspor gənclərinin birgə fəaliyyət perspektivləri" mövzularına həsr edilib. Tədbirin sonunda Türk Dövlətləri Diaspor Gənclərinin I Forumunun bəyanatı qəbul olunub. Forumun keçirildiyi vaxt ölkə ərazisində antiterror əməliyyatları aparıldığından, Forum iştirakçılarının Şuşaya səfəri baş tutmayıb.
- Daşkənd şəhərinin "Niso Poligraf" nəşriyyatında "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" adlı ensiklopedik nəşr çapdan çıxıb. Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü və layihəsi əsasında hazırlanan nəşr 5 dildə – azərbaycan, özbək, türk, ingilis və rus dillərində işıq üzü görüb. Bu addım Şuşa haqqında məlumatları müfəssəl şəkildə bir mənbədə toplamaq məqsədilə atılıb. Nəşrdə Şuşanın tarixinə, zəngin mədəni irsinə,  işğaldan əvvəlki və sonrakı dövrünə aid məlumatlar, azad Şuşada keçirilən beynəlxalq tədbirlər, "Şuşa İli" və "Türk dünyasının mədəniyyət paytaxtı-2023" çərçivəsində Özbəkistanda və Türkiyədə reallaşdırılan layihələr öz əksini tapıb.
- Özbəkistanın paytaxtı Daşkənddə 2023-cü ildə Şuşa şəhərinin türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi münasibətilə "Ozarbayjonning qadimiy Shusha shahri Turkiy dunyoning madaniy poytaxti" adlı xüsusi poçt markası buraxılıb. Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və Özbəkistanın müvafiq dövlət qurumlarının dəstəyi nəticəsində ərsəyə gəlmiş "Azərbaycanın qədim Şuşa şəhəri – Türk dünyasının mədəniyyət paytaxtı" adlı poçt markasının Özbəkistan Mərkəzi Poçtu

tərəfindən daxili və beynəlxalq dövriyyəyə buraxılması nəzərdə tutulub. Xüsusi dizaynla hazırlanmış poçt markasının üzərində Şuşa qalası, Azərbaycan bayrağı, Qarabağın tacı olan Şuşanın füsunkar təbiəti, başını duman almış əzəmətli dağları, əslən şuşalı olan Azərbaycan mədəniyyət, ədəbiyyat və incəsənət xadimləri, milli musiqi alətlərimiz (qaval, tar, kaman), Qarabağın, Şuşanın və qazanılan Zəfərin rəmzi olan "Xarı Bülbül" çiçəyi təsvir olunub.

- Özbəkistanın Daşkənd şəhərində yerləşən Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunda "Azərbaycan mədəniyyəti və poeziyası həftəsi" çərçivəsində təntənəli konsert və "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" adlı beş dilli ensiklopedik nəşrin təqdimat mərasimi keçirilib. Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə baş tutan tədbirdə iki ölkənin elm, ədəbiyyat, mədəniyyət, incəsənət və ictimai xadimləri iştirak ediblər.
- Türkiyənin İğdır şəhərindəki Topçular məhəlləsində tikintisi başa çatmış yeni məktəbəqədər təhsil müəssisəsinə (anaokul) Şuşa adı verilib. İğdırdakı Heydər Əliyev adına Fənn Liseyinin qarşısında yerləşən bu uşaq bağçasına Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərinin adının verilməsi təklifini diaspor fəalı, "Yeşil İğdır" qəzetinin baş redaktoru Cabbar Şıktaş irəli sürüb.
- Cari ildə Şuşaya istər diaspor nümayəndələrinin, istərsə də xarici jurnalist və siyasətçilərin səfərləri təşkil olunub. Diaspor nümayəndələrinin Şuşaya 8-ci səfərində 6 ölkədən 20-yə yaxın, 9-cu səfərində 24 ölkədən gələn 100-dən çox, 10-cu səfərində 20 ölkədən gələn 70-dən çox, 11-ci səfərində 10 ölkədən gələn 22 diaspor nümayəndəsi iştirak edib.
- Berlin şəhərində yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində türkoloq alim, nəsimişünas, Qafqaz regionunun tədqiqatçısı, Almaniyanın Giesen Universitetinin dosenti Dr. Mixael Reynhard Hessin müəllifi olduğu "Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu" adlı kitabın təqdimat mərasimi keçirilib. Siyasi elmlər doktoru Qurban Ələkbərovun moderatorluğu ilə keçirilən tədbirdə Berlin, Ştutqart, Köln şəhərlərində yaşayan Azərbaycan və türk icmasının təmsilçiləri, yerli ictimaiyyətin nümayəndələri və alman alimləri iştirak ediblər.
- İtaliyada yaşayan azərbaycanlı bəstəkar Kəmalə Əlizadənin mədəniyyət paytaxtımız Şuşaya həsr olunmuş "Üzeyir Hacıbəyli Şuşaya qayıdır" əsəri Bakıda təqdim edilib. Bəstəkar bildirib ki, kompozisiyanı Şuşa azad ediləndən dərhal sonra simli kvartet və fortepiano üçün yazıb. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin doğma yurda qayıdışını rəmzləşdirən əsər dahi bəstəkarın "Arşın mal alan" operettası və "Sənsiz" romansı mövzularına əsaslanıb.











Şuşa


OZARBAYJONNING
QADIMIY SHUSHA SHAHRI –
TURKIY DUNYONING
MADANIY POYTAXTI
O'ZBEKISTON
Pochta
2023
Şuşa
38000

## “Azərbaycanda Qızılbaş İrsi: tarixin izi ilə” mövzusunda keçirilmiş beynəlxalq konfrans

- 27-28 noyabr 2023-cü il tarixində Bakıda “Azərbaycanda Qızılbaş İrsi: tarixin izi ilə“ mövzusunda beynəlxalq konfrans baş tutub. Azərbaycan Diasporuna Dəstək Fondunun və “Qızılbaş” Qlobal İrsi Şurası Təşkilatının birgə dəstəyi ilə baş tutan tədbir “Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Respublikasında keçirilməsi planlaşdırılan tədbirlər planına uyğun həyata keçirilib.
- Konfrans öncəsi iştirakçılar Fəxri Xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını, ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini yad ediblər. Konfransın açılış mərasimində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərli, Qızılbaş Qlobal İrsi Şurası Təşkilatının sədri Babək Hüseynli, Qızılbaş Qlobal İrsi Təşkilatının sədr müavini Arşi Qızılbaş çıxış ediblər.
- “Delta Health Group” holdinqinin icraçı direktoru Arşi Kızılbaşın (Kanada) moderatorluğu ilə baş tutan “Azərbaycan qızılbaşların tarixi vətəni kimi” adlı I paneldə tarixçi professor Ahmet Taşğın (Türkiyə), siyasi və dövlət xadimi Ağa Sarvar Raza Qazilbaş (Pakistan), AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Tofiq Nəcəfli və “Google” şirkətinin qlobal rəhbəri vəzifəsini icra edən Sami Kızılbaş çıxış ediblər.
- “Dünya Qızılbaş icması birliyə doğru” mövzusuna həsr olunmuş II panel iclası isə “Qızılbaş” Qlobal İrsi Şurasının həmsədri Babək Hüseynlinin moderatorluğu ilə baş tutub. İclasda AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Əhməd Quliyev, Pakistanın Pəncab əyalət parlamentinin deputatı Ağa Ali Hayder, “İslamabad Consulting” şirkətinin baş strategiya, məhsul və kommersiya məsələləri üzrə direktoru Zülfiqar Ali Qazilbaş (ABŞ), Qlobal Qızılbaş İrsi Təşkilatının Əfqanıstan və Çin üzrə koordinatoru Ali Mansur Afşar (Əfqanıstan) çıxış ediblər.
- Daha sonra qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edib və Şuşaya səfər ediblər. Şuşa şəhər Dövlət Qoruğu İdarəsinin əməkdaşı qonaqlara Azərbaycanın ən mühüm şəhərlərindən biri olan, Qafqazın musiqi mərkəzi hesab edilən Şuşanın yaranma tarixi, inkişafı, işğal illərində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə erməni vandallarının şəhərdəki tarixi memarlıq, mədəni və dini abidələrini dağıtması barədə ətraflı məlumat verib. Qonaqlar “Güllələnmiş heykəllər” meydanını, Xurşidbanu Natəvanın evini, “Xan qızı bulağı”nı, Yuxarı Gövhərağa məscidini, Molla Pənah Vaqifin məqbərəsini, Gəncə Qapısını, Şuşa qalasını və Cıdır düzünü ziyarət ediblər. Qonaqlara Şuşada aparılan bərpa-quruculuq işləri, mədəniyyət paytaxtımızın irimiqyaslı tədbirlərə ev sahibliyi etdiyi barədə məlumat verilib.
- Bakıya qayıtdıqdan sonra “Azərbaycanda Qızılbaş İrsi: tarixin izi ilə“ beynəlxalq konfransının iştirakçıları Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində mətbuat konfransı keçiriblər.


"AZƏRBAYCANDA QIZILBAŞ İRSİ: TARİXİN İZİ İLƏ"


THE GLOBAL COMMUNITY OF QIZILBASH ON THE PATH TO UNITY
International Conference


ŞƏHİDLƏR XİYABANI



## LOBBİÇİLİYİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLAR

- 15 iyul tarixində Kanadanın Ontario Qanunvericilik Assambleyasının deputatı Şərəf Sabavi Toronto şəhərindəki Azərbaycan Evinin fəaliyyəti ilə tanış olub. Görüş zamanı Azərbaycan Evinin rəhbəri Lalin Həsənova icmamızın dostu və dəstəkçisi olan qonağa Azərbaycan tarixini, mədəniyyətini və adət-ənənələrini əks etdirən guşələr və burada keçirilən tədbirlərlə bağlı ətraflı məlumat verib. Qonağı maraqlandıran sualları məmnunluqla cavablandıran soydaşlarımız onu yenidən Azərbaycan Evində görmək istədiklərini bildiriblər.
- 1-7 avqust tarixlərində Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq məqsədilə Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən bir qrup jurnalistdən və media ekspertindən ibarət nümayəndə heyəti Azərbaycana səfər çərçivəsində Qarabağın işğaldan azad edilmiş ərazilərində - Ağdamda, Füzulidə və Şuşada olub. Qarabağa səfərin proqramı "Qafqazın Xirosiması" adlandırılan Ağdam şəhərindən başlayıb. Öncə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı amerikalı qonaqlara işğal illərində Ermənistan silahlı qüvvələri tərəfindən kütləvi şəkildə Azərbaycan torpaqlarında, o cümlədən Ağdam rayonunda basdırılmış minalar barədə məlumat verib və jurnalistlərin suallarını cavablandırıb, iki yerüstü minanın təmizlənməsi əməliyyatı nümayiş etdirilib. Füzuliyə gedərkən qonaqlar yolboyu erməni barbarlığının təcəssümü olan dağıdılmış, viran qoyulmuş kəndləri, qəsəbələri seyr edib və Merdinli kəndindəki məscidə baxış keçiriblər. İşğal illərində Qarabağ ərazisində yerləşən bir çox məscidlərin erməni vandalları tərəfindən dağıdıldığı, onların bir qismindən başqa məqsədlər üçün istifadə olunduğu, bəzi məscidlərdə, o cümlədən Merdinli kənd məscidində də mal-qara və donuz saxlanıldığı diqqətə çatdırılıb.
- Səfər proqramına uyğun olaraq Quba rayonuna yollanan qonaqlar öncə dağ yəhudilərinin kompakt şəkildə yaşadığı Qırmızı Qəsəbədəki Altı Günbəz Sinaqoqu və Ümumdünya Dağ Yəhudilərinin Tarix-Etnoqrafiya Muzeyi ilə tanış olublar. Daha sonra amerikalı jurnalistlər Gəncə şəhərini ziyarət ediblər. Amerikalı qonaqlara Azərbaycanın ikinci şəhəri olan Gəncənin tarixi barədə ətraflı məlumat verilib. İkinci Qarabağ Müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən bəşəri dəyərlərə və beynəlxalq hüquq normalarına zidd olaraq cəbhə xəttindən uzaq olan Gəncənin mərkəzindəki yaşayış məntəqəsinin raketlərlə bombardman edildiyi nəzərə çatdırılıb. Sonra nümayəndə heyəti "Xan bağı", Şah Abbas Cümə məscidi, Gəncə Dövlət Filarmoniyası ilə tanış olublar, Qafqaz İslam Ordusunun Gəncədəki ilk şəhidlərinin xatirəsinə ucaldılan abidəni və Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər.
- Nümayəndə heyətində ABŞ-nin Yel Univeristetində təhsilini davam etdirən, "Report" İnformasiya Agentliyinin ABŞ bürosunda çalışan azərbaycanlı jurnalist Vüsalə Abbasova, "Arab News"un BMT bürosunun rəhbəri, Əfqanıstan, İraq və Cənubi Livandakı münaqişə bölgələrində dünyanın qabaqcıl media qurumlarının (Fox TV, CNN, Al Jazeera) müharibə müxbiri kimi uzun illər çalışmış Əfram Kosafi, Kolumbiya Respublikasının tanınmış televiziya şəbəkəsinin (Caracol TV and Canal 1) Nyu-York və paytaxt Vaşinqtondakı müxbiri, tanınmış blogger Paola Varqas, "Schirach Report"un təsisçisi və baş redaktoru Paolo von Şiraç, "Anadolu" Agentliyinin ABŞ bürosunun fotojurnalisti, "Turkish Journal"ın təsisçisi Selcuk Acar və "RC Communications"nın prezidenti, tanınmış jurnalist və siyasi şərhçi Kelvin Dark təmsil olunub.

- 26 iyul  tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev  "STMEGİ" Dağ Yəhudilərinin Beynəlxalq Xeyriyyə Fondunun vitse-prezidenti İsay Zaxaryayevlə görüşüb. Komitə sədrinin birinci müavini "STMEGİ"nin soydaşlarımızın bir araya gəlməsi, dostluq əlaqələrinin möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin və mədəniyyətinin təbliğ olunması istiqamətində həyata keçirdiyi işləri yüksək qiymətləndirib, həmyerlimizə Azərbaycan diasporunun inkişafına verdiyi töhfələrinə görə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalını ona təqdim edib.
- 27 iyul tarixində Niderland Krallığının Haaqa şəhərində fəaliyyət göstərən Hollanda Azərbaycan-Türk Kültür Dərnəyi qardaş ölkənin zəlzələ bölgəsinə göstərdiyi dəstəyə görə Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsindən təşəkkür məktubu alıb.
- 11 avqust 2023-cü il tarixində Kanadanın Recayna (Regina) şəhərində yaşayan Azərbaycan icmasının fəalları Saskaçevan əyalətinin vitse-qubernatoru Rass Mirasti, şəhər meri Sandra Masters və müşavir Con Findura ilə görüşüblər. Görüş zamanı vitse-qubernatora və şəhər merinə Recayna şəhərində yaşayan Azərbaycan icmasının fəaliyyəti, ölkəmizin qədim tarixi, zəngin mədəni irsi və müasir dünyada malik olduğu mövqeyi barədə ətraflı məlumat verilib. Soydaşlarımız Saskaçevan əyaləti ilə bağlı təəssüratları,  burada qazandıqları təcrübələr, eləcə də icmamızın həyata keçirməyə hazırlaşdığı layihələr barədə rəsmi şəxslərlə fikir mübadiləsi aparıblar. Görüşün sonunda Azərbaycan icmasının adından vitse-qubernatora və şəhər merinə ölkəmizə aid xatirə hədiyyəsi təqdim edilib.
- 14 avqust tarixində Kanadanın Ontario Qanunvericilik Assambleyasının deputatı Sten Ço Toronto şəhərindəki Azərbaycan Evinin fəaliyyəti ilə tanış olub. Görüş zamanı icmamızın dostu və dəstəkçisi olan qonağa Azərbaycan tarixini, mədəniyyətini və adət-ənənələrini əks etdirən guşələr və burada keçirilən tədbirlərlə bağlı ətraflı məlumat verib.
- 14 avqust tarixində Komitənin dəvəti ilə alman alimi, tanınmış nəsimişünas Mixael Reynhard Hess qədim Naxçıvan şəhərinə gəlib. O, Naxçıvanda keçirilən "Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsi çərçivəsində "Azərbaycanın müstəqillik tarixi" mövzusuna həsr olunmuş paneldə məruzəçi kimi çıxış edib
- 23 avqust tarixində Azərbaycan Respublikasının Diasporla İş Üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mariya Viktoriya Romero ilə görüşüb. Qonağı salamlayan Komitə sədri ölkəmizin diaspor siyasəti, eləcə də dünya azərbaycanlılarının təşkilatlanması və Latın Amerikası ölkələrində, o cümlədən Meksikada yaşayan azərbaycanlıların yaşadıqları cəmiyyətə inteqrasiyası barədə məlumat verib.
- Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin sədri Nuran Abdullayev Köln şəhər bələdiyyəsində Xristian-Demokrat İttifaqı (CDU) fraksiyasının sədri və Xristian-Demokrat İttifaqının İqtisadi Şurasının üzvü Bernd Petelkau ilə görüşüb. Görüş zamanı Almaniya Azərbaycanlıları Alyansının fəaliyyəti, gələcək əməkdaşlıq və birgə fəaliyyət planları barədə müzakirələr aparılıb. Almaniya-Azərbaycan münasibətləri, diplomatik nümayəndəliklərin və vətəndaş cəmiyyətlərinin bu əlaqələrin möhkəmləndirilməsində və inkişafında rolundan danışılıb.
- 11 sentyabr tarixində Oslo şəhər meri Marianna Borqen yeni dərs ilinin başlanması münasibətilə Nizami Gəncəvi adına Azərbaycan dili həftəsonu məktəbini ziyarət edib.

Görüşdə məktəbin müəllim-şagird heyəti, valideynlər və Norveçdəki Azərbaycan icmasının üzvləri iştirak ediblər. Məktəbin müəllimləri şəhər merinin diqqətini məktəbin Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıdığına cəlb ediblər. Qüdrətli söz ustadının "Azərbaycan poeziyasının günəşi" adlandırıldığı, Azərbaycanın və dünyanın bir çox şair və yazıçılarının Nizaminin yaradıcılığından bəhrələndiyi bildirilib. Sonra məktəb şagirdlərinin ifasında Azərbaycan və Norveç dillərində şeirlər, mahnılar səsləndirilib. Uşaqlar skripka və violonçel musiqi alətlərində də ifa məharətlərini göstəriblər. Sonra mer şagirdlərin valideynləri, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveç üzrə koordinatorluğunun və Oslodakı Azərbaycan icmasının üzvləri ilə toplantı keçirib. İcmanı maraqlandıran məsələlər və mövzular ətrafında səmimi müzakirələr aparılıb. Dəvətə görə partiyadaşı, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveçdəki koordinatoru Ramil Əliyevə təşəkkür edən mer bu görüşdən məmnun qaldığını bildirib və müzakirə olunan məsələlər haqqında araşdırma aparacağına söz verib.

– 13 sentyabr tarixində Komitədə ölkəmizdə səfərdə olan bir qrup türkiyəli jurnalist və ictimai xadimlə görüş keçirilib. Görüşdə Türkiyə Qəzetçilər Federasiyasının, Manisa Qəzetçilər və Yayınçılar Dərnəyinin, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının və Azərbaycan Kültür Evinin təmsilçiləri iştirak ediblər. Komitə sədri Fuad Muradov qonaqları Türkiyə Cümhuriyyətinin yaradılmasının və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd olunduğu bir ildə Bakıda salamlamaqdan məmnun olduğunu bildirib, erməni lobbisinin və anti-Azərbaycan qüvvələrinin ictimai rəyi çaşdırmasının qarşısının alınması istiqamətində Azərbaycan və Türkiyə diasporlarının birgə hərəkət etməsinin önəmindən, bu istiqamətdə görülən işlərdən bəhs edib.

– 14 sentyabr tarixində Türkiyəyə səfər çərçivəsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev İstanbul valisi Davut Gül ilə görüşüb. Görüş zamanı 1990-cı illərdən etibarən İstanbul şəhərində qeyri-rəsmi məskunlaşmış azərbaycanlı miqrantların və onların Türkiyə ərazisində anadan olmuş ailə üzvlərinin problemlərinə diqqət çəkilib, bu istiqamətdə indiyədək görülmüş işlərlə bağlı məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi tədbirlər planının icrası ilə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin də təmsil olunduğu İşçi Qrupun 2022–2023-cü illər ərzində Türkiyəyə beş səfəri həyata keçirilib. Səfərlər çərçivəsində ümumilikdə 5000-ə yaxın müraciətə baxılıb və müraciətlərin müvafiq qaydada təmin olunması üçün addımlar atılıb. 22 sentyabr – 4 oktyabr 2023-cü il tarixində İşçi Qrupun İstanbula altıncı səfərinin baş tutacağı, yeni hazır sənədlərin paylanması və müraciətlər üzrə müsahibələrin həyata keçiriləcəyi vurğulanıb. İstanbul valisi ilə keçirilmiş görüşün nəticələrinə uyğun olaraq sentyabrın 15-də Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası İdarə Heyətinin sədrinin müşaviri Pərviz Məmmədzadə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyinin Miqrasiya Baş İdarəsinin İstanbul şəhər Miqrasiya idarəsinin müdiri Fatih Ayna ilə görüşüb. Görüşdə qeyri-rəsmi məskunlaşmış azərbaycanlı miqrantların problemləri və onların həlli istiqamətində birgə səylərin artırılması və konkret birgə koordinasiyanın həyata keçirilməsi müzakirə olunub.

– 15 sentyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Azərbaycanda səfərdə olan Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etməsi, Şuşa Bəyannaməsinin bu münasibətlərin təməlini möhkəmləndirməsi barədə danışılıb. Fuad Muradov Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyələrinə uyğun olaraq türk dövlətləri ilə, o cümlədən qardaş ölkə ilə birlikdə müxtəlif layihələrin ardıcıl və sistemli şəkildə həyata keçirildiyini diqqətə çatdırıb.

- 19 sentyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Livanın Əkkar bölgəsinin Kavaşra kənd liseyinin bir qrup müəllim-tələbə heyəti ilə görüşüb. Qonaqları məmnunluqla salamlayan Komitə sədri Livanda türkmənlərin ən sıx yaşadığı Kavaşra kəndində Azərbaycana həsr olunmuş müsabiqənin keçirilməsini mühüm hadisə adlandırıb və qalibləri təbrik edib.
- 25 sentyabr tarixində Nyu-York şəhərində ABŞ-da fəaliyyət göstərən iş qadınlarının Türkiyənin birinci xanımı Əminə Ərdoğanla görüşündə Azərbaycan diasporunun nümayəndəsi də iştirak edib. Rokfeller Mərkəzində gerçəkləşdirilmiş “Dünyanı Yönləndirən Qadınlar” tədbiri Türkiyə İş Qadınları Dərnəyinin (TİKAD) təşkilatçılığı ilə baş tutub. Tədbir çərçivəsində Əminə Ərdoğan bütün iştirakçı qadınlarla, o cümlədən Amerika Azərbaycanlıları Koordinasiya Şurası İdarə Heyətinin üzvü, Nyu-York Azərbaycan-Amerika Qadın Cəmiyyətinin rəhbəri Münəvvər Vahabova ilə də söhbət edib. Münəvvər Vahabova Türkiyənin birinci xanımına ABŞ-dakı Azərbaycan icmasının salamını çatdırıb.
- 26 sentyabr tarixində Almaniyanın Hamburq şəhərində fəaliyyət göstərən Alman-Azərbaycan Dostluq Körpüsünün fəalları Hamburq əyalət parlamentinin deputatı Əli Şimşəyi və Almaniya Bundestaqının üzvü Aydan Özoğuzu Ermənistan tərəfindən Azərbaycan ərazisində törədilmiş hərbi təxribatlar və mina terroru ilə bağlı məlumatlandırıblar. Millət vəkilləri ilə görüş zamanı Alman-Azərbaycan Dostluq Körpüsünün təsisçisi və sədri Xəlil Xəlilov, nəzarət-təftiş komissiyasının sədri Rasim Tağıyev və digər üzvləri 30 ilə yaxın işğal illərində Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində törədilmiş hərbi, ekoloji cinayətlər, mina terroru, vandalizm aktları və Azərbaycanın 19-20 sentyabr tarixində Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan hissəsində apardığı antiterror tədbirləri barədə ətraflı danışıblar. İcma üzvlərimizin Almaniya mətbuatında Azərbaycan haqqında birtərəfli, qərəzli, həqiqətə uyğun olmayan reportajlar yayımlamasından narahat olduğu və bu münasibəti pislədikləri diqqətə çatdırılıb.
- Qafqaz məsələləri üzrə ekspert, Stokholmda yayılan “Tribun” jurnalının baş redaktoru Əlirza Ərdəbili BBC-nin fars xidmətinə Azərbaycan-Ermənistan münasibətləri barədə müsahibə verib. Cəmaləddin Musəvinin aparıcısı olduğu verilişdə Əlirza Ərdəbili ermənilərin indiki Ermənistanın ərazisində məskunlaşması, azərbaycanlılara qarşı aparılan mərhələli etnik təmizləmə tarixi, Zəngəzur dəhlizi, Qarabağdakı separatçı rejimin rəhbərlərinin taleyi, erməni əhalisinin Ermənistana köçməsi və digər məsələlərə münasibətini bildirib.
- 6 oktyabr tarixində Hamburq şəhərində yaşayan Azərbaycan icmasının Almaniya Bundestaqının millət vəkili Mətin Haqverdi və Hamburq əyaləti üzrə millət vəkili Əli Şimşək ilə görüşü keçirilib. Alman-Azərbaycan Dostluq Körpüsünün təşkilatçılığı ilə baş tutan görüşdə müstəqil Azərbaycan dövlətinin Ermənistanın hərbi təxribatlarına və mina terroruna cavab olaraq Qarabağ bölgəsində beynəlxalq hüquqa söykənən antiterror tədbirlərini keçirməsi və öz suverenliyini Qarabağ üzərində tam bərpa etməsi ilə əlaqədar olaraq Almaniya mətbuat orqanlarının birtərəfli, qərəzli mövqe nümayiş etdirdiklərinə

xüsusi diqqət cəlb edilib. Almaniya mətbuatında fikir plüralizminə zidd halın aradan qaldırılması yolları müzakirə edilib.

- 12 oktyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Bakıda səfərdə olan Dağıstan Respublikasının Azərbaycan icmasının nümayəndə heyətini qəbul edib. Qonaqları səmimi salamlayan Komitə sədri bu səfərin əlamətdar bir vaxta – həm Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, həm də Dağıstan xalqının böyük oğlu Rəsul Həmzətovun 100 illik yubileyləri ilinə təsadüf etdiyini bildirib. Görkəmli dövlət xadimi, Azərbaycanın böyük oğlu Əziz Əliyevin Dağıstana rəhbərlik edərkən yerli xalqları sürgün olunmaqdan xilas etdiyi, pandemiya başlayarkən Rusiya-Azərbaycan sərhədində qalmış azərbaycanlılara yerli hakimiyyət orqanları ilə yanaşı, Dağıstan xalqının da yardım əlini uzatdığı məmnunluqla xatırlanıb.
- 13 oktyabr tarixində  Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov ölkəmizdə səfərdə olan Amerika Yəhudi Komitəsinin (AYK) Avrasiya üzrə direktoru Samuel Kligeri və AYK üzvü, “Qafqaz Yəhudiləri Mədəniyyət Mərkəzi”nin rəhbəri Yakov Abramovu qəbul edib.
- 18 oktyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov daxili təhlükəsizlik və inzibati hüquq üzrə tanınmış fransalı hüquqşünas-araşdırmaçı Kristian Valları qəbul edib.
- ABŞ-da fəaliyyət göstərən “A Level Education Group”un rəhbəri Ayan Əliyeva Merilend ştatının məktəbəqədər təhsil üzrə Hibrid Liderlik Assosiasiyasının simpoziumunda (Maryland State Child Care Association Hybrid Leadership Symposium) çıxış edib. Merilend ştatının Təhsil Nazirliyinin təşkilatçılığı ilə Kolumbiya şəhərində baş tutan simpoziumda rəsmi şəxslər, pedaqoqlar və mütəxəssislər iştirak ediblər. Ayan Əliyeva məktəbəqədər təhsildə olan problemlər və bu istiqamətdə görüləcək işlərə dair düşüncələrini bölüşüb, eləcə də təkliflərini səsləndirib. Simpozium çərçivəsində Ayan Əliyeva senator Meri L. Vaşinqtonla (Mary Washington) görüşüb. Görüş zamanı təhsillə əlaqədar çatışmazlıqlar və yeniliklər barədə fikir mübadiləsi aparılıb.
- 16 noyabr tarixində İtaliyanın məşhur “Limes” Geosiyasət Məktəbinin “Məzunlar Klubu”nun üzvləri Azərbaycana səfərləri çərçivəsində Komitədə olublar. Komitə sədri Fuad Muradov qonaqları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən diaspor siyasəti, uğurlu nəticələr verən çoxistiqamətli layihələr, xüsusilə xaricdəki Azərbaycan Evləri, mədəniyyət mərkəzləri və həftəsonu məktəbləri barədə məlumatlandırıb.
- 22 noyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Qırğız Respublikasına səfəri çərçivəsində Kant şəhər meri Ulan Bekbolotoviç Maylibaşevlə görüşü keçirilib. Qonağı səmimiyyətlə salamlayan mer bildirib ki, Kant ölkə üzrə azərbaycanlıların ən çox yaşadığı şəhərdir. Şəhərdə türk dünyasının görkəmli dövlət xadimi Heydər Əliyevin adını daşıyan küçənin olduğunu vurğulayan mer Azərbaycanın Ağdam və Şuşa şəhərlərinə səfərinin təəssüratlarını da bölüşüb.
- 22 noyabr tarixində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin 5-ci iclasında iştirak etmək məqsədilə Bişkekdə səfərdə olan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov tədbir çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirib. Komitə sədrinin Qazaxıstanın NAO Otandastar Fondunun prezidenti Abzal Saparbekuli ilə görüşü zamanı dövlətlərimiz arasında strateji əməkdaşlıq səviyyəsinin yüksək olduğu, beynəlxalq platformalarda bir-birinə qarşılıqlı dəstək göstərdiyi, xalqlarımız arasında dostluq

münasibətlərinin möhkəmləndiyi vurğulanıb. Qazaxıstan Prezidentinin Azərbaycanı parlaq Zəfəri münasibətilə ilk təbrik edən dövlət başçılarından biri olduğu, Azərbaycan Prezidentinin Qazaxıstana rəsmi səfəri xatırlanıb. Komitə ilə Fond arasında imzalanmış qarşılıqlı Anlaşma Memorandumu çərçivəsində birgə fəaliyyətin həyata keçirilməsi, Azərbaycan tərəfinin təşəbbüsü ilə keçirilmiş Bakı-Şuşa, "Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu: Heydər Əliyev və Türk dünyası" adlı beynəlxalq forumlar yüksək qiymətləndirilib. Komitə sədri qazax həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib.

- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Bişkekdə Macarıstanın Xaricdə yaşayan Macar İcmaları məsələləri üzrə dövlət katibi Arpad Yanoş Potapi ilə görüşüb. Ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı tərəfdaşlıq və dostluq əlaqələri, ölkələrimizin beynəlxalq platformalarda bir-birini qarşılıqlı dəstəkləməsi məmnunluqla vurğulanıb. Azərbaycan icmasının macar ictimaiyyətinə sıx inteqrasiyasına, Budapeştdə Azərbaycan Evinin uğurla fəaliyyət göstərdiyinə diqqət cəlb edilib.
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Bişkekdə Qırğız Respublikasının əmək, sosial təminat və miqrasiya naziri Gülnarə Batırova ilə baş tutub. Ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələri, Azərbaycanda hər zaman Qırğızıstan dövləti və qırğız xalqının maraqlarının yüksək tutulduğu, münasibətlərimizin yüksələn xətlə daha da inkişaf etdiyi, dövlət başçılarımızın qarşılıqlı səfərlərinin bu münasibətlərin daha da möhkəmləndirilməsinə təkan verdiyi diqqətə çatdırılıb. Azərbaycan icmasının qırğız ictimaiyyətinə sıx inteqrasiya etməsi və soydaşlarımıza yaradılmış şərait yüksək qiymətləndirilib.
- 28 noyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Azərbaycanda Qızılbaş irsi: tarixin izi ilə" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları ilə görüşüb. Görüşdə Azərbaycan tarixinə mədəni, fəlsəfi baxımdan yeni baxış bucağının ortaya qoyulmasının, türk xalqları tarixinin daha dərindən araşdırılması üçün müxtəlif ölkələrin alimlərinin və qlobal şirkətlərdə çalışan mütəxəssislərin bir araya gətirilməsinin tarixi bir addım olduğu qeyd edilib.
- 14 dekabr tarixində Paris şəhərində Azərbaycanın Fransadakı Dostları Assosiasiyasının (AFDA) illik toplantısı keçirilib. Assosiasiyanın baş katibi Mirvari Fətəliyeva başa çatmaqda olan 2023-cü il ərzində təşkil edilən tədbirlər üzrə yekun hesabatı toplantı iştirakçılarına təqdim edib. 2023-cü ildə keçirilən bir sıra tədbirlərlə yanaşı, Fransa mətbuatında Azərbaycan əleyhinə səsləndirilən böhtanlar, erməni lobbisinin fəaliyyətinin mənfi təsirləri də müzakirə mövzusu olub. Assosiasiya üzvləri belə halların ölkələrində baş verməsindən təəssüfləndiklərini bildirib, bu cür halların gələcəkdə təkrarlanmaması üçün tədbirlərin görülməsi ətrafında fikir mübadiləsi aparıblar. AFDA-nın prezidenti Jerom Lamber bildirib ki, Azərbaycanın ünvanına səsləndirilən böhtanlar fransalıların fikirləri deyil, bəzi lobbiçilərin mənfur əməllərinin nəticədir.
- "Heydər Əliyev İli" çərcivəsində Rusiyanın İvanovo vilayətinə 4-7 dekabr tarixində səfər edən Azərbaycan nümayəndə heyətinin yerli dövlət qurumlarının rəsmiləri ilə görüşləri keçirilib. İvanovo şəhər Dumasının sədri Aleksandr Kuzmuçov, İvanovo vilayəti hökumətinin sədr müavini Yevgeni Nesterov və İvanovo Millətlər Evinin direktoru Nikolay Karika ilə görüşlərdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Emin Hacıyev, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Tural

Səfərov və "İvanovo Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının sədri Asif Məmmədov iştirak ediblər.

- Polşa Seyminin rəhbərliyi və üzvləri Varşavada fəaliyyət göstərən Azərbaycan Evini Yeni il münasibətilə təbrik edib. Polşa Seyminin sədr müavini Vlodzimej Çajastı, üzvləri Katajina Osos və Kşiştof Bosakın adından Varşava Azərbaycan Evinə ünvanlanmış təbrik açıqcalarında soydaşlarımıza xoş diləklər arzulanıb. Varşava Azərbaycan Evinin rəhbəri, Polşa Azərbaycanlıları Koordinasiya Şurasının sabiq koordinatoru Fərid Cəfərli ölkə parlamentarlarına minnətdarlığını bildirib.
- Kanadanın Saskaçevan əyalətinin Recayna (Regina) şəhərinin meri Sandra Masters Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə bu şəhərdə yaşayan soydaşlarımızı təbrik edib. Recayna Azərbaycanlıları Mədəniyyət Assosiasiyasına ünvanlanan təbrik məktubunda Sandra Masters bildirib ki, Şəhər Şurasındakı həmkarları və Recayna şəhəri adından soydaşlarımıza səmimi-qəlbdən təbriklərini çatdırır. Mer nəzərə çatdırıb ki, Azərbaycan icması böyüdükcə Recayna ilə bir çox oxşar dəyərləri paylaşan təşkilatın inkişafını görməkdən məmnundur: "Ümid edirəm ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edərkən hamınız xoş vaxt keçirəcəksiniz".

















Shusha's Legacy













– 6 iyul tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Amerika Muğam Cəmiyyətinin prezidenti Cefri Verbok və Azərbaycanın xalq artisti, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzovla görüşüb. Qonaqları səmimiyyətlə salamlayan Komitə sədri zəngin mədəni irsimizi ABŞ və Türkiyədə məharətlə təbliğ edən, Azərbaycana böyük sevgi ilə yanaşdıqları üçün diasporumuzun fəaliyyətində yaxından iştirak edən sənətkarların gördükləri işləri yüksək qiymətləndirib. Azərbaycana sevgisinin hekayəsindən danışan Cefri Verbok ölkəmizə heyranlığının səbəblərindən və gələcək planlarından, Cahangir Novruzov isə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçiriləcək layihələrdən

danışıblar. Görüş diasporumuzun fəaliyyətinin və mədəni irsimizin təbliğinin genişləndirilməsinə dair fikir mübadiləsinin aparılması ilə yekunlaşıb.

- 15 avqust tarixində İrəvan xanının varisi Əmir Əli Sərdari İrəvani Naxçıvanda keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsində məruzəçi kimi iştirak edib.
- 3 oktyabr tarixində Komitə sədri “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının Mixail Eliovici qəbul edib. Komitə sədrindən “Diaspor fəaliyyətində xidmətinə görə” Azərbaycan Respublikasının medalını qəbul edən həmvətənimiz bu mükafata layiq görüldüyünə görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib, bunu həyatında mühüm hadisə kimi dəyərləndirib.
- 24 oktyabr tarixində Bakıda keçirilən populyar TEDx Bakı tədbirində Azərbaycan diasporunun 3 rəhbəri qonaq qismində iştirak edib. Azərbaycan Diasporuna Dəstək Fondunun da dəstəkçisi olduğu TEDx platformasında Amerika Azərbaycan Cəmiyyətinin (ASA) prezidenti Tomris Azəri, Azərbaycanın Dostları Təşkilatının prezidenti, Anqolada yaşayan iş xanımı Billurə Bayramova-Bernard və Belarus Azərbaycan İcmaları Konqresinin rəhbəri, sambo və cüdo üzrə 7 dəfə dünya, 8 dəfə Avropa çempionu, Belarusun əməkdar idman ustası Natiq Bağırov çıxış edərək, öz fikirlərini bölüşüblər.
- 5 oktyabr tarixində Komitə sədri Fuad Muradov Bakı şəhərində keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresində Azərbaycan diasporunu təmsil edən tanınmış alim və mütəxəssislərlə görüşüb. Qonaqlar Beynəlxalq Astronavtika Konqresinin təşkilinə və bu mötəbər tədbirdə iştiraklarının təmin olunmasına görə minnətdarlıq edib, elmin inkişafı naminə əllərindən gələni əsirgəməyəcəklərini ifadə ediblər. Görüşdə iştirak edən diaspor nümayəndələri öz sahələrində böyük uğur qazanmış şəxslərdir. Belə ki, Beynəlxalq Astronavtika Konqresində xaricdəki alimlərimizi təmsil edən Prof. Dr. Nazim Muradov ABŞ-nin Mərkəzi Florida Universitetinin Günəş Enerjisi Mərkəzində Hidrogen Energetikası üzrə qrup rəhbəridir. O, NASA-nın tədqiqat qrupunun üzvü kimi Kosmos İdarəsinin “Space Shuttle Endeavour” missiyası zamanı uğurla sınaqdan keçirilən unikal hidrogen sensorunun hazırlanmasında iştirak edib, görkəmli alimin təmsil olunduğu komanda R&D100 mükafatına layiq görülüb. İstanbul Ticarət Universitetinin professoru, mexanika və aerokosmik mühəndislik sahəsində tanınmış alim Abdulla Sofiyev 2019-2020-ci illərdə öz sahəsi üzrə dünyanın ən nüfuzlu 100 alimi siyahasında yer alan və SCOPUS-da H indeksi 42 olan ilk azərbaycanlı alimlərdəndir. İstanbul Texniki Universitetinin Aeronavtika və kosmonavtika fakültəsinin professoru Çingiz Hacıyev Beynəlxalq Naviqasiya və Hərəkətin İdarə Edilməsi Akademiyasının həqiqi üzvü seçilib, Stanford Universitetinin tərtib etdiyi “Dünyanın ən nüfuzlu elm adamları”nın sirasında yer alıb. Florida Azərbaycan icmasının rəhbəri Esmira Bayramova məşhur “Capella Space” şirkətinin meneceridir. Bakıda keçirilmiş 74-cü Beynəlxalq Astronavtika Konqresində Türkiyə Respublikası və Amerika Birləşmiş Ştatlarında yaşayan Azərbaycan diasporunu təmsil edən 4 alimin iştirakının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən maliyyə dəstəyi göstərilib.
- Komitə sədri Fuad Muradov Türkiyənin ilk kosmonavtlarından biri, Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin iştirakçısı Cahangir Atasevərlə görüşüb. Türkiyənin 36 min namizədin içindən seçilən ilk iki kosmonavtından biri olan Cahangir Atasevərin anası Məlahət Atasevər Azərbaycan diasporunun Türkiyədə tanınmış nümayəndələrindəndir. “Roketsan”da sistem mühəndisi işləyən Atasevər Bilkent Universitetinin Elektrik və Elektronika Mühəndisliyi bölümündən məzun olub, İrvayn

şəhərindəki Kaliforniya Universitetində elektrik-elektronika mühəndisliyi sahəsində magistr təhsili alıb. Görüşdə Cahangir Atasevərin nailiyyətlərindən, eləcə də onun yaxın aylarda gerçəkləşdiriləcək uçuşa hazırlığı barədə danışılıb, uğurlarının Türkiyə ilə bərabər Azərbaycana da başucalığı gətirdiyi qeyd olunub. Cahangir Atasevər tarixdə ilk dəfə kosmosdan türk dilinin eşidiləcəyi günü səbirsizliklə gözlədiyini deyib. Komitə sədri hazırda ABŞ-da uçuş təlimləri keçən kosmonavta daha böyük uğurlar arzulayıb, onun iki qardaş ölkənin adını daim yüksəklərə qaldıracağına əminliyini ifadə edib.

- 21 iyul tarixində Komitə sədri Fuad Muradovun Kanadanın Kalqari şəhərində fəaliyyət göstərən "Alberta Azərbaycan Mədəniyyəti Cəmiyyəti"nin (ALACS) vitse-prezidenti İradə Şamilova və həyat yoldaşı Aleksandr Qubski ilə görüşü olub. "Biz Dəmir yumruğun gücü ilə Şuşadayıq" layihəsi çərçivəsində mədəniyyət paytaxtımızda olduqlarını vurğulayan qonaqlar bu səfərin təşkilinə görə Komitəyə təşəkkür edib, Şuşaya və Azərbaycanın digər bölgələrinə səfərlər zamanı ölkəmizin füsünkar təbiətinə və xalqımızın qonaqpərvərliyinə heyran olduqlarını bildiriblər.
- 26 oktyabr tarixində Komitə sədri Fuad Muradov ABŞ-da fəaliyyət göstərən "A-Level Education Group"un rəhbəri Ayan Əliyevanı qəbul edib. Görüşdə gələcək fəaliyyət istiqamətləri və əməkdaşlıq perspektivləri, təşkilatın ABŞ-da həmvətənlərimizin inteqrasiyası, eləcə də gənc nəslin milli-mədəni irsimizlə əhatə edilmiş mühitdə inkişafı üçün nəzərdə tutduğu layihələr ətrafında fikir mübadiləsi aparılıb.
- 6 dekabr tarixində Komitə sədri Fuad Muradov Britaniya Azərbaycanlıları Assosiasiyasının rəhbəri, Britaniya Azərbaycanlıları Koordinasiya Şurasının üzvü Hafiz Baxşəliyevlə görüşüb. Görüşdə assosiasiyanın fəaliyyəti yüksək qiymətləndirilib, Azərbaycan diasporunun, o cümlədən Britaniyadakı Azərbaycan icmasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyələri əsasında uğurla fəaliyyət göstərməsi diqqətə çatdırılıb.
- 8 dekabr tarixində Komitə sədri Fuad Muradov Avstraliya İttifaqının Melburn şəhərində fəaliyyət göstərən, Azərbaycanda doğulub böyümüş yəhudi əsilli pianoçu Boris Quslister ilə görüşüb. Qonağı səmimi salamlayan Komitə sədri B.Quslisterin gələcəkdə Avstraliyada yaşayan Azərbaycan diasporunun fəaliyyətinə töhfələr verəcəyini, oradakı Azərbaycan və yəhudi icmaları arasındakı münasibətlərin gücləndirilməsində öz səylərini əsirgəməyəcəyinə ümid etdiyini diqqətə çatdırıb.

## XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN İNTEQRASİYASI VƏ İCTİMAİ-SİYASİ FƏALLIĞININ ARTIRILMASI

- 10 sentyabr tarixində Qırğızıstan Prezidenti Sadır Japarov dövlət mükafatlarının təqdim olunma mərasimində Azərbaycan diasporunun tanınmış nümayəndəsi, Qırğızıstanın əməkdar həkimi Akif Alaferdovun ünvanına xoş sözlər söyləyib. Mükafatçıları ölkənin inkişafına əhəmiyyətli töhfə bəxş edən əsl qəhrəman, vətənpərvər və zəhmətkeş şəxsiyyətlər adlandıran dövlət başçısı soydaşımız barədə belə deyib: "Qardaşımız Akif Alaferdov təkcə tibb sahəsində fəaliyyət göstərmir, həm də "Qırğızıstan-Azərbaycan" Dostluq və Əməkdaşlıq Cəmiyyətinin sədri kimi iki ölkə arasında mədəni, iqtisadi, sosial və digər sahələrdə əməkdaşlığın dərinləşməsinə böyük töhfə verir. O, beynəlmiləlçi kimi Qırğızıstanın etnik qruplarının mədəni ənənələrinə, dilinə və mənəvi dəyərlərinə tolerantlıq, hörmət nümunəsi göstərib və bu gün "Dostluq" ordeninə layiqdir".

- Pekin şəhərində keçirilmiş Dünya Çinşünaslar Şurasının Qurultayında və 3-cü Sivilizasiyalararası Dialoq Konfransında diaspor fəalı, Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev də iştirak edib. Çin Beynəlxalq Mübadilə Assosiasiyası və Dünya Çinşünaslıq Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan tədbirin əsas məqsədi qarşılıqlı anlaşma və əməkdaşlığı dərinləşdirmək, müxtəlif mədəniyyətləri təmsil edən insan və cəmiyyətlər arasında dialoq yaratmaq, çinşünaslıq (sinologiya) elmi çərçivəsində elmi əlaqələri inkişaf etdirmək olub.
- Baltikyanı ölkələrdə yaşayan Azərbaycanlıların Koordinasiya Şurasının Litva üzrə koordinatoru, Litvanın Azərbaycanlı Gənclər Təşkilatının (AYOL) sədri Nərmin Əliyevanın “Litva deyin!” (“Speak Lithuania”) layihəsi “Litvanın Gücü” mükafatına layiq görülüb. “Litvanın gücü” (“Lietuvos Galia”) vətəndaş təşəbbüsünün təşkilatçılığı ilə baş tutan mükafatın təqdimolunma mərasimində Litva prezidenti Gitanas Nauseda və birinci xanım Diana Nausedene iştirak ediblər. Bu layihə Litva, ABŞ, Böyük Britaniya, İrlandiya, Yeni Zelandiya, İspaniya, Almaniya və Norveçdə fəaliyyət göstərən 400-ə yaxın təşkilatı və cəmiyyəti öz sıralarında birləşdirir.
- Azərbaycanlı həkim, tibb elmləri doktoru Rauf Şahbazov ABŞ-nin Nyu-York ştatında yerləşən Albany Tibb Mərkəzinin yeni yaradılan transplantalogiya cərrahiyyəsi şöbəsinin rəhbəri təyin olunub. Həmyerlimiz eyni zamanda cərrahiyyə şöbəsindəki Nil Lempert kafedrasına da rəhbərlik edəcək. Bu vəzifələrə təyin olunana qədər Rauf Şahbazov Nyu-York ştatının Sirakyus şəhərindəki UPSTATE Tibb Universitetində canlı donordan böyrək nəqli proqramının direktoru, mədəaltı vəzi nəqli proqramının cərrahi direktoru və robotik cərrahiyyə proqramının direktoru vəzifələrində çalışıb.
- İsveçdə yaşayan Azərbaycan icmasının fəal üzvü Turan Əliyev Partille şəhər Bələdiyyə Şurasının mandatını qazanıb. Bu münasibətlə üzvü olduğu və seçkilərdə təmsil etdiyi “Mərkəz” (Centerpartiet) Partiyası soydaşımızı təbrik edib.
- Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərində Respublika Günü ərəfəsində dövlət mükafatlarının təqdim olunma mərasimi keçirilib. Kazan Kremlində baş tutan mərasimdə təltif olunanlar sırasında “Tatarıstan Respublikasının Azərbaycan Milli-Mədəni Muxtariyyəti” regional ictimai təşkilatının sədri Bəhram Mustafayev də olub. Soydaşımız uzun illər səmərəli fəaliyyətinə və yol tikintisinin inkişafında böyük xidmətlərinə görə Tatarıstan Respublikasının “Rəşadətli əməyə görə” medalına layiq görülüb.
- Sankt-Peterburq şəhərində Leninqradın blokadasının yarılmasının 80 illiyi çərçivəsində azərbaycanlıların Rusiyanın şimal paytaxtının müdafiəsində nümayiş etdirdiyi qəhrəmanlıqlara həsr olunmuş mədəni-maarifçilik tədbiri keçirilib. Rusiyanın Xabarovsk vilayətində fəaliyyət göstərən “Azərbaycan Birliyi” ictimai təşkilatı Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə valideyn himayəsindən məhrum olan uşaqlar üçün bayram şənlikləri təşkil edib. Bu məqsədlə “Azərbaycan Birliyi”nin nümayəndələri 1 nömrəli uşaq evi və 3 nömrəli internat məktəbini ziyarət ediblər. Sonra uşaqlar üçün əyləncəli oyunlar təşkil edilib, mahnılar səsləndirilib və rəqslər nümayiş etdirilib. “Sankt-Peterburq və Leninqrad vilayəti üzrə Azərbaycan Milli-Mədəniyyət Muxtariyyəti”nin təşkilatçılığı və müvafiq dövlət qurumlarının dəstəyi ilə Sankt-Peterburq Dövlət Tarix Muzeyində baş tutan tədbirdə yerli hökumətin, ictimaiyyətin, Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluğunun, Azərbaycan diasporunun nümayəndələri və Bakıdan gələn qonaqlar iştirak ediblər.

- Rusiyanın Arxangelsk vilayətində fəaliyyət göstərən Azərbaycan diasporu bu bölgədə keçirilən XV Şimal Millətlərarası Forumunun hazırlanmasında və keçirilməsində fəal iştirak edib. “Arxangelsk vilayətinin Azərbaycan diasporu” regional ictimai təşkilatının idarə heyətinin sədri Tərlan Qasımov bildirib ki, hər il Arxangelsk vilayəti hökumətinin dəstəyi ilə gerçəkləşdirilən forumun ilk günündə təşkilatın fəalı Səbinə Abdullayeva maraqlı təqdimatla çıxış edib. “Arxangelsk vilayətində yaşayan əcnəbi vətəndaşların sosiallaşmasının və mədəni adaptasiyasının təşviqi” mövzusu çərçivəsində baş tutan təqdimat zamanı soydaşımız “Əmək miqrantlarının uyğunlaşmasının praktiki üsulları”ndan danışıb.
- Moldovada fəaliyyət göstərən Azərbaycan icmasının Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə “Hədiyyələr Marafonu” adlı sosial xeyriyyə layihəsi keçirilib. Moldova Azərbaycanlıları Konqresi tərəfindən artıq bir neçə ildir Həmrəylik Günü ərəfəsində həyata keçirdiyi irimiqyaslı layihəyə uyğun olaraq, ölkənin müxtəlif bölgələrində yaşayan azərbaycanlı ailələrin və digər millətlərin azyaşlı övladlarına hədiyyələr çatdırılıb. Bundan başqa, təşkilatın gənclər qanadının fəalları – cüdo üzrə çoxsaylı çempionatların mükafatçısı Adil Osmanov və Nikolay Testemitsanu adına Tibb və Farmakologiya Universitetinin məzunu Aynur Əbdülrəhimova paytaxtın Onkologiya İnstitutunun uşaq şöbəsini ziyarət ediblər. Gənclərimiz balaca pasiyentlərə hədiyyələr təqdim edib.
- Kanadanın Alberta əyalətində yaşayan 13 yaşlı soydaşımız Emiliya Əliyeva ABŞ-nin Florida ştatının Fort Loderdeyl (Fort Lauderdale) şəhərində keçirilən gənclər arasında cüdo üzrə ABŞ Açıq Çempionatında (U. S. Open Judo Championships) bürünc medal qazanıb. 15 ölkənin idmançılarının 27-30 iyul tarixlərində qatıldığı yarışda Emiliya Əliyeva Kanadanın yığma komandası tərkibində uğurla çıxış edib. Gənc soydaşımız iki gün ərzində 70 kq çəki kateqoriyasında gərgin mübarizə şəraitində keçirdiyi 10 oyundan 8-də qalib gəlib. Yarışın birinci günü U18 yaş qrupunda, ikinci gün isə U15 yaş qrupunda cüdoçular arasında üçüncü yerə çıxıb və 2 bürünc medala layiq görülüb.
- ABŞ-nin Nyu-York şəhərində yaşayan azərbaycanlı peşəkar cüdoçu Zaur Cəlil Dallas şəhərində keçirilən cüdo üzrə Açıq Çempionatda birinci yeri tutub. İrvinq konfrans mərkəzində baş tutan çempionat zamanı öz çəki dərəcəsində tatami üzərinə çıxan soydaşımız rəqibləri üzərində üstünlük əldə edib. Bundan başqa, Prezident Kuboku yarışmasında M-2 81 çəki dərəcəsində bütün rəqiblərinə qalib gəlib. Beləliklə, öz çəkisində ən yüksək pilləyə qalxan idmançı 2 qızıl medala yiyələnib. Çempion iki gün (18-19 noyabr 2023-cü il) ərzində ardıcıl olaraq qazandığı qələbələrini dogma vətənimizə həsr edib.
- Kanadanın Alberta əyalətində yaşayan gənc soydaşımız Emiliya Əliyeva Monreal şəhərində keçirilən cüdo üzrə 46-cı Kvebek Beynəlxalq Açıq Çempionatında uğurlu nəticə göstərib.“Hiro's Judo Club”un təmsilçisi olan 70 kq çəki dərəcəsində mübarizə aparan soydaşımız çempionatın ilk günü U-18 yaş divizionunda tatami üzərinə çıxıb. 3 rəqibi üzərində üstünlük əldə edən cüdoçu yalnız finalda məğlub olaraq ikinci yeri tutub. Ertəsi günü öz yaşına uyğun olaraq U-16 yaş divizionunda tatami üzərinə çıxan Emiliya Əliyeva bütün rəqibləri üzərində qələbə çalaraq çempion titulunu qazanıb. Bundan başqa, Ontario yığma komandasını U-16 yaş divizionunda 66 kq çəki dərəcəsində təmsil edən gənc soydaşımız Yasur Əlizadə yarışda 3-cü yeri tutub. Beləliklə, iki soydaşımız öz komandalarına qızıl, gümüş və bürünc medallar qazandırıb.

- Qazaxıstanın Mangistau vilayətində yaşayan 13 yaşlı azərbaycanlı şahmatçı Edqar Məmmədov şahmat üzrə yeniyetmələr arasında Asiya çempionatının qızıl və gümüş medallarını qazanıb. Birləşmiş Ərəb Əmirliklərində 12-22 dekabr tarixində baş tutan "Asian Youth Rapid Chess Championships – 2023" yarışında 14 yaş kateqoriyasında 40 ölkəni 630 idmançı təmsil edib. Rapid (sürətli şahmat) üzrə qələbəyə 59 şahmatçı iddia edib. 7 turun yekununda Edqar Məmmədov əminliklə rəqibləri üzərində üstünlük əldə edib və qızıl medala sahiblənib. Sonra o, klassik şahmat üzrə 14 yaşadək (U14) kateqoriyasında mübarizə aparıb. Bu yarışda 54 şahmatçı iştirak edib. Birincilik uğrunda mübarizədə rusiyalı rəqibi daha şanslı olduğundan, soydaşımız gümüş medalla kifayətlənib.
- İsveçin Höteborq şəhərində keçirilən yeniyetmə qızlar arasında futbol üzrə "World Gothia Cup Youth 2023" dünya çempionatında İslandiyadakı Azərbaycan icmasının fəalı Aysu Mey uğurla çıxış edib. O, İslandiyanın "KA 1" futbol klubunun tərkibində kubok uğrunda mübarizə aparıb. 79 ölkə arasında 82 futbol klubunun qatıldığı çempionatda İslandiyanın yeniyetmə futbolçuları G14 kateqoriyası üzrə finala yüksəliblər. SKF idman arenasında baş tutan final oyununda "KA 1" klubu İsveçin "Hammarby IF FF" futbol klubu ilə qarşılaşıb. Yeniyetmə qızların gərgin mübarizə şəraitində keçən oyunun taleyini son anda islandiyalıların qapısına təyin olunan penalti həll edib. Nəticədə islandiyalılar, o cümlədən Aysu Mey çempionatın gümüş medalını qazanıblar.
- İspaniyanın Barselona şəhərində yaşayan Orxan İbadov universitetlər şəhəri olan Lilldə keçirilmiş yaddaş üzrə Fransa açıq çempionatının qalibi olub. 15 ölkədən 50-dən çox iddiaçının iştirak etdiyi çempionat Azərbaycan təmsilçisinə qarşı qərəzli münasibətin açıq-aşkar nümayişi və ağır psixoloji durumun yaradılması ilə müşayiət olunub. Lakin soydaşımız soyuqqanlılığını qorumağı və rəqiblərinə üstün gəlməyi bacarıb. Orxan İbadov indiyədək Almaniya, Türkiyə, Misir, Filippində keçirilən yaddaş üzrə açıq çempionatlarda və turnirlərdə uğurlu nəticələr göstərib. O, yaddaş və təhsil sahəsində dünyanın aparıcı ekspertlərindən və dünyada ən fenomenal yaddaşa malik olan ilk on insandan biri hesab olunur. Bakı Dövlət Universitetinin hüquq fakültəsinin məzunu olan Orxan İbadov hazırda Avropa və Cənub-Şərqi Asiyanın bir sıra təhsil müəssisələrində təhsilin inkişafı üzrə məsləhətçi vəzifəsində çalışır. Yaddaşı, beyni və təfəkkürün məhsuldarlığını gücləndirmək üçün mütəmadi olaraq İspaniya və digər Avropa ölkələrində korporativ və fərdi təlimlər keçir. Orxan İbadov həm də Barselona Azərbaycanlıları Cəmiyyətinin fəal üzvü olaraq icmamızın fəaliyyətində yaxından iştirak edir.
- Əlcəzairin "Jeel dz TV" telekanalının səhər proqramında müsəlman ölkələrində, o cümlədən Misir, Livan, Pakistan və Azərbaycanda Qurban bayramının keçirilmə ənənələrindən bəhs edilib. Əlcəzairdə yaşayan Azərbaycan diasporunun fəal üzvü Xumar Nəbiyeva ölkəmizdə bu bayramın necə qeyd edilməsi barədə ətraflı məlumatla çıxış edib. Proqramın aparıcılarını və tamaşaçılarını doğma dilimizdə "Sabahınız xeyir! Qurban bayramınız mübarək!" sözləri ilə salamlayan milli geyimli soydaşımız çıxışını fransız dilində davam etdirib. O, bayramqabağı həyata keçirilən hazırlıq işlərindən, milli adət-ənənələrdən, süfrəyə düzülən milli mətbəx nümunələrindən danışıb.
- Minnesota Dövlət Universitetində təhsil alan Şəmsi Tağıyev "Minnesota State University, Mankato" Marş Orkestrinin rəsmi marşı müsabiqəsinin qalibi olub. Bu marş payız

mövsümündən etibarən Minnesota Dövlət Universitetinin kampusunda və Mankato şəhərində keçiriləcək hər bir idman oyunundan öncə səsləndiriləcək.

- Yaponiyanın Hiroşima prefekturasının Şobara (Shobara) şəhərində keçirilən ənənəvi yapon bayramı olan "Tanabata" festivalında Azərbaycan təmsil olunub. Bu şəhərdə yaşayan diaspor fəalı Nemət Mirzənin təşkilatçılığı ilə yaradılan Azərbaycan guşəsində milli mətbəximizin nümunələrinin hazırlanma və bişirilmə qaydaları nümayiş etdirilib. Nemət Mirzə Azərbaycan guşəsini ziyarət edən yerli sakinlərə ölkəmiz barədə ətraflı məlumat verib və sualları cavablandırıb.
- Rusiyanın Soçi şəhərində "Dostluq" Azərbaycan Həmvətənlərə Dəstək Mərkəzi Soçi şəhər ictimai təşkilatının yaradılması çərçivəsində "Rusiya-Azərbaycan: çoxəsrlik dostluq əlaqələri" mövzusunda tədbir keçirilib. Tədbirdə Azərbaycan və rus icmalarının üzvləri iştirak ediblər.
- Milan əyalətinin Busto-Qarolfo şəhərində yerləşən "Orizondansa" məktəbində İtaliyada yaşayan tanınmış xoreoqraf, Milan Konservatoriyasının professoru, Azərbaycanın əməkdar artisti Mais Nuriyevlə görüş keçirilib. Görüşdə məktəbin müəllimləri və soydaşımızın keçmiş tələbələri iştirak ediblər. Mais Nuriyev ölkəmizin tarixi qələbəsi barədə sevincini yetirmələri ilə bölüşüb, Azərbaycan həqiqətlərini dolğun şəkildə tələbələrə və müəllimlərə çatdırıb. Qeyd edək ki, İtaliyanın müxtəlif rəqs akademiyalarında və tədris müəssisələrində dərs deyən soydaşımız tələbələrinin sevimli müəlliminə çevrilib. Yetirmələri soydaşımızdan təkcə xoreoqrafiyanın sirlərini öyrənmir, həm də qısa müddət ərzində Azərbaycanın dostlarına çevrilirlər.
- İspaniya Krallığında yaşayan Azərbaycan icması Respublika Günü münasibətilə yerli ictimaiyyəti təbrik edib. "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti" və Barselona Azərbaycan Evi adından  ispan xalqının milli bayramı münasibətilə yayılan təbrik məktubunda bildirilib ki, İspaniya Krallığında yaşayan azərbaycanlılar bu tarixi günlə əlaqədar ispan xalqına və ispan dostlarına ən səmimi təbriklərini və ən xoş arzularını çatdırmaqdan böyük şərəf duyur.
- Avstraliyada fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyası Sidney şəhərində aborigenlərin hüquqlarının müdafiə olunması ilə bağlı Konstitusiyaya dəyişiklik edilməsi kampaniyasına qoşulub. Sidneydə gerçəkləşdirilmiş "Yes to First Nation" ("İlk Millətə "Hə" Deyək!") kampaniyasında iqlim dəyişikliyi və enerji üzrə nazir Kristofer Bouen, federal hökumətin üzvləri, eləcə də Yeni Cənub Uels (NSW) ştatının parlamentarları da iştirak ediblər.
- Ukraynanın Poltava vilayətində fəaliyyət göstərən Ukraynanın Azərbaycan Şurası yerli elmi cəmiyyətə inteqrasiya istiqamətində mühüm addım atıb. Ümumdünya Sülh və İnkişaf Naminə Elm Günü münasibətilə Yuri Kondratyuk adına Poltava Politexniki Milli Universitetində Azərbaycan diasporunun nümayəndələri ilə keçirilən tədbirdə universitetin elmi-pedaqoji iş və infrastrukturun inkişafı üzrə prorektor, texnika elmləri doktoru, professor Boqdan Korobko, Ukraynanın Azərbaycan Şurasının rəhbəri Füzuli Qənbərov və başqaları çıxış ediblər. Onlar universitetin Azərbaycan alimləri ilə elm və təhsil sahəsində uzunmüddətli əməkdaşlığından, ölkəmizin aparıcı ali təhsil müəssisələri ilə tərəfdaşlıq əlaqələrindən, Poltava vilayətindəki Ukrayna Azərbaycanlıları Şurası ilə əməkdaşlıq perspektivlərindən danışıblar. Sonra Füzuli Qənbərov və Boqdan Korobko universitetlə Ukrayna Azərbaycanlıları Şurası arasında əməkdaşlıq memorandumunu imzalayıblar.

- Estoniyanın “Karyera” Təhsil Akademiyası nəzdində Tallinndə fəaliyyət göstərən Azərbaycan həftəsonu məktəbində Milli Musiqi Gününə həsr olunmuş musiqi müsabiqəsi təşkil edilib. Müsabiqədə Tallinndə yaşayan yeniyetmələr və gənclər, habelə Estoniyada təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər. “Karyera” Təhsil Akademiyasının təsisçisi Sənəm Əliyeva zəngin mədəniyyətimizin bir qolu olan Azərbaycan musiqisinin tarixi, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı barədə məlumat verib. Sonra müsabiqə iştirakçıları komandalara bölünüblər. Tallinndə yaşayan gənc fəal Gülağa Gözəlovun rəhbərlik etdiyi müsabiqə zamanı komandalar Azərbaycan və dünya bəstəkarlarının əsərlərinin adlarını tapmağa çalışıblar. Tədbirin sonunda qaliblərə Azərbaycan və Estoniyanın rəmzləri olan hədiyyələr təqdim edilib. Qeyd edək ki, Estoniyada yaşayan diaspor fəalı Sənəm Əliyeva həm də “Ocaq” radio verilişinin aparıcısı və tərcüməçidir. Dünya Azərbaycanlılarının Şuşada keçirilmiş V (Zəfər) Qurultayının iştirakçısı olan Sənəm Əliyeva “Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalı ilə təltif olunub.
- Azərbaycan diasporunun fəal üzvlərindən biri, Almaniyanın Ruhr Universitetinin dosenti Dr. Elxan Riçard Sadıq-Zadənin adı dünyanın ən yaxşı alimlərinin 2 faizini təşkil edən reytinq cədvəlinə daxil edilib. ABŞ-nin Stenford Universiteti və “Elsevier” jurnalının versiyası üzrə azərbaycanlı alim iqtisadiyyat sahəsində bu mərtəbəyə yüksəlib. Ekspertlər ciddi məlumat bazasına əsaslanan bu mükafata azərbaycanlı alimin layiq olduğunu bildiriblər.
- Almaniyanın Ratingen şəhərində Azərbaycan əsilli soydaşımız, Dünya Sudo Federasiyasının prezidenti Dr. Sabir Süleymanın rəhbərliyi ilə növbəti beynəlxalq sudo hakimlik seminarı keçirilib. Federasiyanın təşkilatçılığı ilə baş tutan seminarda Almaniya, Bolqarıstan, Şimali Makedoniya, Niderland və Ukrayna hakimləri iştirak ediblər. Seminarda müxtəlif ölkələri təmsil edən onlarla iştirakçı bu ilin noyabr ayında keçiriləcək XII Sudo Dünya Çempionatına hazırlıq ərəfəsində nəzəri və praktiki bilik və dərəcələrini artırıblar. Seminar çərçivəsində Dr. Sabir Süleymanın 6 dildə nəşr olunan “Sudo Dahisi” kitabının təqdimatı olub.
- Almaniyanın Şkopau şəhərində keçirilmiş boks üzrə beynəlxalq turnirdə azərbaycanlı idmançılar uğurla çıxış ediblər. Maqdeburq şəhərində fəaliyyət göstərən “Odlar Yurdu” boks klubunun da təşkilatçılarından biri olduğu yarışda müxtəlif ölkələri təmsil edən 100-dən çox idmançı iştirak edib. Yarış zamanı “Odlar Yurdu” boks klubunun idmançıları 4 çəki dərəcəsində birinci yerə çıxıblar. “Odlar Yurdu” klubunun prezidenti, boks üzrə dünya çempionu Azad Əzizov bildirib ki, boksçu soydaşlarımız öz qələbələrini xalqımıza böyük qürur və məgrurluq hissi aşılayan Zəfər Gününə həsr ediblər. O, idmançılarımızın bu mötəbər yarışda iştirak etməsi üçün göstərdikləri dəstəyə görə Komitəyə və Azərbaycanın Almaniyadakı Səfirliyinə minnətdarlığını bildirib.
- Qazaxıstanın Mangistau vilayətinin Aktau şəhərində “Bakı Yay Enerji Məktəbi – 2023” proqramı çərçivəsində beynəlxalq forum keçirilib. Forum 9-12 iyul tarixində “Azərbaycan Mərkəzi” İctimai Fondunun, “Dostluq” Etnomədəni Birliyinin, Azərbaycanın Aktaudakı Baş Konsulluğunun, ADA Universitetinin və Mangistau vilayətinin akimliyinin təşkilatçılığı ilə gerçəkləşdirilib. İlk dəfə Aktau şəhərində təşkil olunmuş tədbirdə Azərbaycan, Türkiyə, ABŞ, İspaniya, İtaliya, Nigeriya, Səudiyyə Ərəbistanı, Qazaxıstan, Yaponiya, Çin, Macarıstan, Bolqarıstan və Çexiyanı 67 iştirakçı təmsil edib. Onların arasında enerji şirkətlərinin mütəxəssisləri, müxtəlif dövlət qurumlarının, səfirliklərin və beynəlxalq

təşkilatların nümayəndələri, dövlət qulluqçuları, o cümlədən enerji və ekoloji problemləri öyrənən alimlər, jurnalistlər və aspirantlar olub.

- Özbəkistanın Kağan şəhərində fəaliyyət göstərən Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin Buxara vilayəti üzrə filialının ofisində bu ölkənin Xalqlar Dostluğu Gününə həsr olunmuş tədbir keçirilib.
- Polşanın həvəskarlar liqasında Katovitse şəhərini təmsil edən “Land of Fire” (“Odlar Yurdu”) Azərbaycan futbol klubu uğurla çıxış edir. “Land of Fire” klubu 2022-ci ilin avqustunda Polşada yaşayan soydaşlarımız Əli Nəcəfov və Heydər Qurbanovun birgə təşəbbüsü ilə qurulub. Soydaşlarımız öncə bu addımı asudə vaxtın səmərəli keçirilməsi məqsədilə atıblar. Sonradan klub Polşadakı həvəskar liqaya qoşulub və uğurlar qazandığından ölkə kuboku uğrunda yarışa dəvət olunub.
- Özbəkistanın Nurafşan şəhərində fəaliyyət göstərən Dostluq Evində qardaş ölkədə geniş qeyd edilən Xalqlar Dostluğu Günü münasibətilə bayram tədbiri keçirilib. Bayram tədbirində Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin rəhbərliyi və fəalları, eləcə də müxtəlif icmaların və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
- Qırğızıstanda fəaliyyət göstərən “Azəri” İctimai Birliyinin üzvləri Adilə Sultanova və Asif Abasov Çolpon-Ata şəhərində keçirilmiş Azərbaycan-Qırğızıstan biznes forumunda fəal iştirak ediblər. Forum zamanı Adilə Sultanova Azərbaycan audit təşkilatı ilə qarşılıqlı əməkdaşlıq məsələləri üzrə danışıqlar aparıb, Asif Abasov isə Azərbaycan şirkətlərindən biri ilə logistika sahəsində müqavilə imzalayıb.
- Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) təşəbbüsü ilə bir qrup soydaşımız Türkiyə Dövlət Teatrlarının baş direktoru, Azərbaycan əsilli məşhur türkiyəli sənətçi Tamer Karadağlı ilə görüşüb. Görüşdə TADEF-in İdarə Heyətinin üzvləri ilə yanaşı, Azərbaycanın xalq artisti Azərin, İstanbul bələdiyyəsinə bağlı Şəhər Teatrları bədii rəhbərinin müavini, Azərbaycanın əməkdar incəsənət xadimi Məlahət Abbasova, iş adamı Hidayət Qulam da iştirak ediblər.
- Özbəkistana səfəri çərçivəsində Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Tarixi və Mədəniyyəti Fondunun rəhbəri Nizamettin Aykurt Daşkənd şəhərindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzini ziyarət edib. Görüş zamanı “Nizami İli” çərçivəsində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin çoxsaylı layihələr həyata keçirməsi yüksək qiymətləndirilib.
- Daşkənddə fəaliyyət göstərən Özbəkistanın Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzində (RAzMMM) “Konstitusiya bütün Özbəkistan vətəndaşlarının gələcəyinin təminatıdır!” mövzusunda toplantı keçirilib. Özbəkistanın yeni konstitusiyasına uyğun olaraq 30 aprel 2023-cü il tarixli referendum ərəfəsində keçirilən toplantıda RAzMMM İdarə Heyətinin üzvləri və Gənclər Mərkəzinin fəalları iştirak ediblər.
- Qazaxıstanın Aktau şəhərində yaşayan azərbaycanlı iş adamı Tağı Zirəddin oğlu Tağıyev Qazaxıstan Xalqları Assambleyasının “Səxavətli Ruh” (“Jomart Jan”) döş nişanı ilə təltif edilib. Astana şəhərində Qazaxıstanın Respublika Günü ərəfəsində təşkil edilən “Mərhəmət karvanı” respublika forumunda azərbaycanlı iş adamına bu mükafatı Qazaxıstan Xalqları Assambleyasının sədrinin müavini Marat Azilxanov təqdim edib. “Jomart Jan” mükafatı xeyriyyəçilərə xüsusi qayğıya ehtiyacı olan uşaqlara və Abay rayonunda yanğın qurbanlarına dəstək göstərdiklərinə görə təqdim olunub.
- Qazaxıstanın Türkistan vilayətində fəaliyyət göstərən “Qarabağ” Azərbaycan Etnomədəni Birliyinin sədri Ramilə Mustafayeva hakim “Amanat” partiyasının təşəkkürnaməsinə layiq

görülüb. Sayram rayonu akimi tərəfindən təşkil edilmiş tədbirdə mədəniyyət nümayəndələri və ictimai fəallar iştirak ediblər. Qazaxıstanın Respublika Günü ərəfəsində qardaş ölkənin mədəni müxtəlifliyinə töhfələrinə görə təltif olunduğu təşəkkürnamə birlik sədrinə təqdim edilib.

- Daşkənd şəhərində Xalqlar Dostluğu Günü münasibətilə keçirilən təntənəli mükafatlandırma mərasimində Azərbaycan icmasının fəalları da iştirak ediblər. Mükafatlara layiq görülənlər arasında Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin Navai vilayətindəki filialının sədri Sevil Balayeva, Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin idarə heyətinin sədri Mobil Məmmədov, icraçı direktor Gülnar Mehrəliyeva və idarə heyətinin üzvü Yusif Əliyev də olub. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təbrik müraciətinin oxunduğu təntənəli mərasimdə S.Balayevaya “Dostluq” ordeni, M.Məmmədova, G.Mehraliyevaya və Y.Əliyevə “Xalqlar Dostluğu” döş nişanları təqdim edilib.
- ABŞ-nin Texas ştatının Hyuston şəhərində Azərbaycanlı dirijor Təranə Teylorun rəhbərlik etdiyi yeni Hyuston Repertuar Balet Orkestrinin (HRB) müşayiəti ilə məşhur rus bəstəkarı Pyotr Çaykovskinin “The Nutcracker” (Fındıqqıran) baletinin premyerası baş tutub. Premyerada əsas rolları San-Fransiskodan dəvət olunmuş beynəlxalq balet dünyasının super ulduzları Aaron Robinson və Nikişa Foqo ifa ediblər. Texas ictimaiyyəti bu mühüm mədəniyyət hadisəsini və orkestrin dirijoru, musiqi direktoru Təranə Teylorun fədakar əməyini yüksək qiymətləndirib.
- 19-22 sentyabr tarixində Melburn şəhərində keçirilmiş Qlobal Sahibkarlıq Konqresində (GEC-2023) Avstraliyada və Yeni Zelandiyada yaşayan Azərbaycan icmasının nümayəndələri də iştirak ediblər. Yeni Zelandiyada və Melburnda sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamları Qalib Mahmudov və Kənan Həsənov konqres çərçivəsində yeni innovativ bizneslərə, ekosistemlərə və startaplara dair müxtəlif ölkələrin rəsmi şəxslərinin və mütəxəssislərinin bir sıra maraqlı təqdimatlarına qatılıblar. Bundan başqa, soydaşlarımızın Yeni Zelandiyada yerləşən İsrail İnnovasiya Mərkəzinin təmsilçisi Coş Braun, “Rebel Education” Mərkəzinin təmsilçisi Toni Henderson, Honkonqdakı “Aerosim” təmsilçisi Mettis Çanqla görüşləri keçirilib. Qeyd edək ki, bu konqresdə ABŞ, Azərbaycan, Avstraliya, İsrail, Hindistan, Çin, Kamboca, Portuqaliya, Cənubi Afrika və digər ölkələr təmsil olunub.
- 29 oktyabr tarixində Avstraliyanın Sidney şəhərində Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü münasibətilə keçirilən təntənəli bayram tədbirində Azərbaycan icması fəal iştirak edib. Yeni Cənubi Uels (NSW) ştatının Multikulturalizm Nazirliyinin dəstəyi, bir sıra türk təşkilatlarının və Avstraliya Azərbaycanlıları Assosiasiyasının birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Avstraliya-Azərbaycan Türk Dostluq Birliyi, Avstraliya Azərbaycanlılarının Mədəniyyət Assosiasiyası və diaspor fəalları iştirak ediblər. Xalqımızın zəngin mədəni irsinin və milli mətbəx nümunələrinin nümayiş etdirildiyi Azərbaycan guşəsini ölkəmizin Avstraliyadakı, eyni zamanda Yeni Zelandiya və Fici Respublikasında akkreditə olunmuş səfirliyinin müvəqqəti işlər vəkili Vaqif Cəfərov, Türkiyənin Avstraliyadakı səfiri Ufuk Gezer, Türkiyənin Sidneydəki Baş konsulu Ali Sevim, Yeni Cənub Uels ştatının Mədəniyyət Nazirliyinin, parlamentinin və şəhər bələdiyyəsinin təmsilçiləri ziyarət ediblər. Sidney şəhərindəki Türk Evindən başlayan və Wyatt Park Lidcombe ünvanınadək davam edən təntənəli yürüş zamanı Türkiyə və Azərbaycan bayraqları dalğalandırılıb.








Tiyatro
Bir Memleketin




Россия - Азербайджан:
Вековые узы дружбы.




НАЦІОНАЛЬНИЙ УНІВЕРСИТЕТ
«ПОЛТАВСЬКА ПОЛІТЕХНІКА


2023 서울시 명예시민
축하합니다
Congratulations!


CIRCUIT
MATSURU







## Diaspor fəaliyyəti xarici kiv-də

- 2023-cü ilin iyul-dekabr ayları ərzində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə İsraildə fəaliyyət göstərən Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, siyasi şərhçi Reyçel Avraham tərəfindən hazırlanmış 69 məqalənin İsrail və digər xarici KİV-lərdə dərc olunması təmin edilib.
- 2023-cü ilin iyul-dekabr ayları ərzində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə İsraildə fəaliyyət göstərən Dona Qrasiya Diplomatiya Mərkəzinin idarə heyətinin üzvü Mordexay Kedar tərəfindən Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və səmərəliliyinin artırılması məqsədilə İsrail və digər xarici KİV-lərdə məqalələr dərc edilib.
- Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham ABŞ-nin geniş oxucu kütləsinə malik nüfuzlu "Frontpage Magazine" qəzetində dərc olunmuş "Mollaların edamları" sərlövhəli məqaləsində yazıb: "İranın rəsmi dövlət mediası azərbaycanlıları "həşərat" kimi təqdim edir ki, bu da Holokost zamanı nasistlərin yəhudiləri təsvir tərzinə çox bənzəyir". Məqalədə qeyd olunub ki, Avropa Parlamentinin beynəlxalq məsələlər üzrə müşaviri Manel Msalmi bu yaxınlarda Avropa Parlamentində "İranda azlıqlara edilən zülm: Azərbaycan icması nümunə kimi" mövzusunda panel müzakirəsinə moderatorluq edib. Avropa Parlamentinin üzvləri, İsrail, Fransa və Belçikadan insan haqları təşkilatlarının nümayəndələri, analitiklər və İran üzrə ekspertlərin iştirak etdiyi tədbirdə Güney Azərbaycanda soydaşlarımıza milli zəmində edilən zülmdən bəhs edən qısametrajlı sənədli film nümayiş etdirilib.
  https://www.frontpagemag.com/mullahs-executions/

- 14 iyul tarixində tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş "Azərbaycan: Qarabağda xristianlar üçün potensial qala" sərlövhəli məqaləsində yazıb ki, ABŞ-nin İrəvandakı səfiri Kristina Kuin Ermənistanın İctimai Televiziyasına müsahibəsində Qarabağdakı ermənilərin Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya biləcəklərini deyib. Müəllifin fikrincə, ABŞ-nin Ermənistandakı səfiri həqiqəti söylədiyinə görə qınanmamalıdır.
  https://foreignpolicyblogs.com/2023/07/12/azerbaijan-a-potential-bastion-for-christians-in-karabakh/

- 16 iyul tarixində ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin https://newsblaze.com xəbər portalında "Azərbaycan haqqında təbliğatı yox, həqiqəti tapın" sərlövhəli məqaləsi dərc olunub. Müəllif Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 30 ilə yaxın müddət ərzində işğalda saxlandığı, Azərbaycanın 2020-ci ilin payızında Qarabağın işğaldan azad edilməsinə nail olduğu, etibarlı və misilsiz tərəfdaş olan dövlətimizin NATO ilə əməkdaşlıq əlaqələri, Türkiyə, ABŞ və İsraillə strateji əməkdaşlıq münasibətləri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vatikan, İtaliya, Fransa və Almaniyadakı dini, tarixi və mədəni abidələrin bərpa işlərini həyata keçirməsi, Azərbaycan diasporunun fəaliyyəti və sair faktlara diqqəti cəlb edib.

https://newsblaze.com/world/eurasia/truth-not-propaganda-about-azerbaijan_191984/

– 20 iyul 2023-cü il tarixində ABŞ-nin https://newsblaze.com xəbər portalında “Azərbaycan haqqında təbliğatı yox, həqiqəti tapın” sərlövhəli məqalə yayımlanıb. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin qələmə aldığı məqalədə Azərbaycanın müstəqil dövlət kimi keçdiyi son 30 ilə nəzər salınıb. https://newsblaze.com/world/eurasia/truth-not-propaganda-about-azerbaijan_191984/

– 27 iyul – 4 avqust 2023-cü il tarixlərində ABŞ-da Birləşmiş Millətlər Təşkilatının Baş Qərargahında akkreditə edimiş jurnalistlərdən ibarət nümayəndə heyətinin Azərbaycana səfərindən sonra xarici KİV-lərdə məqalələri dərc edilib:

https://www.arabnews.com/node/2367981/world

http://zonacero.com/mundo/una-periodista-barranquillera-en-el-corazon-de-los-estragos-que-dejo-la-guerra-en-karabah

https://emisoraatlantico.com.co/internacionales/periodista-barranquillera-recorrio-las-ruinas-tras-la-guerra-en-azerbaijan/

https://headtopics.com/co/una-periodista-barranquillera-en-el-coraz-n-de-los-estragos-que-dej-la-guerra-en-karabah-43068688

https://news.eseuro.com/internacional/2159318.html

https://medium.com/@pvargasosa/azerbaiy%C3%A1n-la-otra-cara-de-la-guerra-con-armenia-por-karabaj-16afcba7ee97

https://emisoraatlantico.com.co/internacionales/azerbaiyan-la-otra-cara-de-la-guerra-con-armenia-por-karabaj/

https://canal1.com.co/programas/lo-se-todo-colombia/azerbaiyan-la-otra-cara-de-la-guerra-con-armenia-por-karabaj/

https://stmegi.com/posts/109830/amerikanskiy-zhurnalist-krasnaya-sloboda-luchshiy-primer-otnosheniy-musulman-i-evreev/

https://youtu.be/eqRjsgJA2Bo

https://youtu.be/PQ2QZobHtAo

https://www.youtube.com/watch?v=5tl5Vl1Ow7Y

– 25 iyul tarixində Küveytin https://q8-press.com/ xəbərlər saytında “Qərbi Azərbaycana qayıdış” sərlövhəli məqalə dərc olunub. Məqalədə çar Rusiyası tərəfindən Azərbaycanın

əzəli torpaqlarında məskunlaşdırılan ermənilərin ölkəmizə qarşı düşmənliyinin 200 illik tarixindən və Ermənistanın XX əsrdə azərbaycanlılara qarşı etnik təmizləmə və deportasiya siyasəti yürütməsindən bəhs edilib. Məqalədə soydaşlarımızın Qərbi Azərbaycandan zorla çıxarılmasının tarixi təsvir edilib, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən ilin 24 dekabr tarixində Qərbi Azərbaycan icmasının ziyalıları ilə görüşü yada salınıb.
https://q8-press.com/%d8%a7%d9%84%d8%b9%d9%88%d8%af%d8%a9

- 1 avqust ABŞ mediasında Nyu-York şəhərində yeni yaradılmış Azərbaycan-Amerika Gənclər Federasiyasından (AAYF) bəhs edən məlumatlar yerləşdirilib. Məlumatda təşkilatın hədəfləri, ilk tədbiri və rəhbərliyə daxil olan komanda üzvləri barədə məlumat verilib, Günay Məmmədovanın fikirləri, eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş Qarabağ bölgəsinin tacı olan mədəniyyət paytaxtı Şuşanın da fotosu əksini tapıb:

  https://newyorkinsider.net/world/2023/07/31/empowering-azerbaijani-youth-in-nyc-the-birth-of-aayf-azerbaijani-american-youth-federation/

  https://www.mondaynewspaper.com/2023/07/31/empowering-azerbaijani-youth-in-nyc-the-birth-of-aayf-azerbaijani-american-youth-federation/

  https://houstondaily.co/world/2023/08/01/empowering-azerbaijani-youth-in-nyc-the-birth-of-aayf-azerbaijani-american-youth-federation/

  https://www.newshive.org/2023/08/01/empowering-azerbaijani-youth-in-nyc-the-birth-of-aayf-azerbaijani-american-youth-federation/

- 20 avqust tarixində ABŞ-nin https://newsblaze.com xəbər saytında Ermənistan tərəfinin Azərbaycanın Laçındakı sərhəd-keçid məntəqəsi ilə bağlı narazılığının Birləşmiş Millətlər Təşkilatı (BMT) Təhlükəsizlik Şurasına (TŞ) təsir göstərə bilməməsindən bəhs edən məqalə yerləşdirilib. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin müəllifi olduğu məqalədə bildirilib ki, Ermənistanın Laçında yaradılmış sərhəd-keçid məntəqəsinə etirazının əsasında İkinci Qarabağ Müharibəsində uduzması, Azərbaycanın sahibi olduğu torpaqlara birdəfəlik qayıtması ilə bağlı yaranmış yeni reallıqla barışmaq istəməməsi, Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsi kimi faktlar dayanır.

- 23 avqust tarixində ABŞ-nin https://newsblaze.com xəbər portalında Kaliforniya ştatının Qlendeyl şəhərinin separatçı erməni təbliğatının mərkəzinə çevrilməsindən və Azərbaycan həqiqətlərindən bəhs edilib. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin qələmə aldığı məqalədə bildirilir ki, erməni mühacirlərinin çox olduğu Qlendeyl şəhərinin mərkəzində tarixə qovuşmuş münaqişənin əks-sədası hələ də səslənməkdədir. Çünki ermənilər Azərbaycanın Qarabağ bölgəsini “Artsax” adlandırmaqla qonşunu qonşuya, xristianları müsəlmanlara qarşı qoyub. Onun fikrincə, Qlendeyl şəhərində ermənilərin avtomagistralı bağlamaqla aksiya keçirməsi sonsuz nifrət və inamsızlığı özündə ehtiva edən, gərgin, qütbləşən mübarizənin bariz əlamətidir.

https://newsblaze.com/usnews/national/glendale-artsakh-propaganda_192551/

– 6 sentyabr tarixində Özbəkistanın "O'zbekiston" və "Dunyo Bo'ylab" dövlət telekanallarında Azərbaycana həsr olunmuş televiziya proqramları yayımlanıb. Qardaş ölkədə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi əsasında 2023-cü ilin "Heydər Əliyev İli" və Şuşa şəhərinin türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə əlaqədar Özbəkistanın aparıcı kütləvi informasiya vasitələri nümayəndələrinin Azərbaycana mediaturu təşkil olunub. Mediatur zamanı özbək jurnalistlər Bakı, Şuşa və Füzuli şəhərlərində çəkilişlər aparıblar.
– 15-16 sentyabr tarixlərində 'Alman-Azərbaycan Cəmiyyəti'nin sədri Çingiz Abdullayevin "Türkiyenin çokkültürlü mühiti", "Kardeş ülkeler" adlı kitabları Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Türkiyə Respublikasında keçirilmiş Dünya İş Konseyinin X Qurultayında təqdim olunub.
– 20 sentyabr tarixində Braziliyanın https://omundodiplomatico.com.br xəbər potalında Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirləri aparmasından bəhs edilib. Braziliya Beynəlxalq Münasibətlər üzrə Jurnalistlər Assosiasiyasının prezidenti Fabiana Ceyhanın qələmə aldığı məlumatda Azərbaycan dövlətinin bu addımı atmasının səbəblərinə aydınlıq gətirilib və Azərbaycan Müdafiə Nazirliyinin bəyanatlarına istinad edilib.
https://omundodiplomatico.com.br/governo-do-azerbaijao-reune-adidos-militares-para-informar-sobre-medidas-antiterroristas-tomadas-na-regiao-de-karabakh/

– 21 sentyabr tarixində Kanadanın nüfuzlu Thej.ca yəhudi media platformasında "Nifrət hisslərinin qızışdırılması Torontodakı Azərbaycan Evinə qarşı yönəldilib: Azərbaycan icması qəti mövqe nümayiş etdirir" sərlövhəli məqalə yayımlanıb. Thej.ca yəhudi media platformasının nəşriyyat direktoru Ron İstin qələmə aldığı məqalədə bildirilib ki, nifrətin qızışdırılması nəticəsində Torontoda yerləşən Azərbaycan Evinin qarşısındakı səkidə ölkəmizin ünvanına yolverilməz ifadənin yazıldığı aşkarlanıb.
https://www.thej.ca/2023/09/21/hate-speech-targets-azerbaijan-house-in-toronto-azerbaijani-community-stands-resolute/

– 25 sentyabr tarixində ABŞ-nin https://newsblaze.com xəbər portalında Azərbaycanın keçirdiyi bir günlük antiterror tədbirlərinin separatçıların təslim olması ilə nəticələnməsindən və Qarabağa sülh gətirməsindən bəhs olunub. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, tanınmış jurnalist Nurit Qringerin qələmə aldığı məqalədə müstəqil Azərbaycan dövlətinin Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan hissəsində antiterror tədbirləri keçirməyə məcbur olmasının səbəbləri barədə ətraflı məlumat verilib.
https://newsblaze.com/world/eurasia/armenian-terror-operation-stopped-by-azerbaijan-leads-to-ceasefire_193204/

– 2 oktyabr tarixində Almaniyanın "In Suedthueringen" qəzetində bu ölkədə yaşayan azərbaycanlı əsilli həkim Cavid Hüzeynzadəyə həsr olunmuş "Azərbaycanda böyüyüb, Ukraynada təhsil alıb" sərlövhəli məqalə dərc olunub. Syuzanna Möllerin qələmə aldığı məqalədə bildirilib ki, hazırda "Bad Salzungen" xəstəxanasının qulaq-burun-boğaz

təbabəti və baş-boyun plastik cərrahiyyəsi klinikasının baş həkimi vəzifəsində çalışan 33 yaşlı Cavid Hüzeynzadə 2016-cı ildən etibarən Almaniyada asisstent-həkim kimi fəaliyyətə başlayıb. Baş həkim vəzifəsindən öncə onun “Facharzt” (həkim-mütəxəssis) adını qazandığı və “Bad Salzungen” klinikasının qulaq, burun, boğaz xəstəlikləri və üz plastik cərrahiyyəsi şöbəsinin müdiri vəzifəsinə yüksəldiyi vurğulanıb.

– Çexiyanın https://medium.seznam.cz xəbər portalında Azərbaycan həqiqətlərindən bəhs edən “Dağlıq Qarabağda vəziyyət – bəndlər üzrə dəqiq” sərlövhəli məqalə yayımlanıb. Çex jurnalisti Mixail Kupsanın qələmə aldığı məqalədə Qarabağ münaqişəsinin kökü, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edildiyi, Qarabağdakı bir milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə, hərbi cinayətlər, vandallıq aktları törətdiyi, kütləvi şəkildə minalar basdırmaqla Azərbaycan torpaqlarını dünyanın ən böyük mina sahəsinə çevirdiyi, bununla azərbaycanlıların öz doğma yurdlarına geri dönməsinin qarşısını almağa çalışdığı barədə ətraflı məlumat verilib.

– 20 oktyabr tarixində ABŞ-nin mainepublic.org xəbər platformasında ABŞ-da fəaliyyət göstərən azərbaycanlı musiqiçi, Amerika Azərbaycan Musiqi Fondunun rəhbəri Cəmilə Cavadovanın oktyabrın 24-də Meyndə baş tutacaq konserti ilə bağlı məlumat yer alıb. Məqalədə Cəmilə Cavadovanın fəaliyyətinin ABŞ-Azərbaycan arasında mədəniyyət körpüsünün yaranmasına verdiyi töhfələrindən də bəhs edilib.
https://www.mainepublic.org/community-calendar/event/organ-music-from-all-around-this-world-a-performance-by-dr-jamila-javadova-spitzberg-23-10-2023-09-20-37

– 23 oktyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə “Azərbaycan-Bolqarıstan dostluğunun inkişafına yardım” İctimai Birliyi tərəfindən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “AKKORD” jurnalı 500 nüsxədə çap edilib.

– 27 oktyabr tarixində ABŞ https://newsblaze.com xəbər portalında “İki günlük hərbi əməliyyat 30 illik ərazi bütövlüyü münaqişəsinə son qoydu” sərlövhəli məqalə yayımlanıb. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, amerikalı jurnalist Nurit Qringerin qələmə aldığı məqalədə Birinci və İkinci Qarabağ müharibələri, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyannamə, Azərbaycanın Qarabağ bölgəsinin Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətində olan ərazilərində 19-20 sentyabr 2023-cü il tarixli antiterror tədbirləri keçirilməsinin səbəbləri, erməni əhalisinin könüllü şəkildə Qarabağı tərk etməsi, Azərbaycan Respublikasının Dövlət Bayrağının Xankəndi, Xocalı, Əsgəran və Ağdərədə ucaldılması barədə ətraflı məlumat verilib.
https://newsblaze.com/world/eurasia/two-day-military-operation-ended-30-year-land-integrity-conflict_193901/

– 27 noyabr tarixində ABŞ, Fransa, İspaniya və Özbəkistan mediasında mərkəzi ofisi Nyu-York şəhərində yerləşən Azərbaycan-Amerika Gənclər Federasiyasının ölkəmizin Zəfər Günü münasibətilə keçirdiyi silsilə tədbirlər barədə 15 məqalə dərc edilib. “New York Insider”, “USA News Post”, “American Tribute”, “Times World”, “Daily Tribute”, “France11”, “Uzweekly”, “Informe Espana” kimi nüfuzlu mətbu orqanlarında yayımlanan məqalələrdə Nyu-Yorkun məşhur Times Square meydanında, BMT-nin mənzil-qərargahının önündə və digər izdihamlı ərazilərində təşkil olunmuş üç günlük məlumatlandırma aksiyası, Qarabağ, mədəniyyət paytaxtımız Şuşa və “Xarı Bülbül” rəmzi

haqqında məlumatlar əksini tapıb. Azərbaycanın minalanmış ərazilərinə, Ermənistan tərəfindən dəqiq mina xəritələrinin verilməməsinə və bu səbəbdən yaranan ekoloji problemlərə diqqət cəlb edilib. Məqalələrdə Azərbaycan-Amerika Gənclər Federasiyasının sədri Günay Məmmədovanın aksiya barədə fikrinə yer verilib. Məqalələri aşağıdakı linklərdən oxumaq mümkündür:

https://france11.com/actualites/2023/11/13/la-federation-des-jeunes-azerbaidjanais-americains-celebre-la-journee-de-la-victoire-de-lazerbaidjan-avec-une-serie-devenements-a-new-york/

https://americantribune.co/azerbaijani-american-youth-federation-celebrates-victory-day-of-azerbaijan-with-a-series-of-events-in-new-york/

https://usaverdict.com/azerbaijani-american-youth-federation-celebrates-victory-day-of-azerbaijan-with-a-series-of-events-in-new-york/

https://breakingsnews.co/azerbaijani-american-youth-federation-celebrates-victory-day-of-azerbaijan-with-a-series-of-events-in-new-york/

https://dailytribune.us/azerbaijani-american-youth-federation-celebrates-victory-day-of-azerbaijan-with-a-series-of-events-in-new-york/

– ABŞ-nin geniş oxucu kütləsinə malik “Jewish News Syndicate” nəşrində İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın “Konqresdə keçirilən tədbirdə Azərbaycanla “İsrailsayağı” rəftar olundu” sərlövhəli məqaləsi dərc olunub. Müəllif qeyd edib ki, Azərbaycan və İsraili yalnız yaxın münasibətlər birləşdirmir, bu dünyəvi və demokratik müsəlman dövləti ən azından yəhudi dövlətinin mütəmadi olaraq tuş gəldiyi tənqid atəşinə məruz qalır. Məqalədə ABŞ Konqresinin Tom Lantos İnsan Haqları Komissiyası tərəfindən 21 iyun 2023-cü ildə təşkil olunmuş panel müzakirələrinin onda çoxdan formalaşmış rəyi möhkəmləndirdiyini qeyd edən müəllif “Dağlıq Qarabağ xalqının müdafiəsi” adlı tədbirin Holokostdan qurtulmuş konqresmenin adını daşıyan komissiyada müzakirə olunmasını istehza ilə qarşılayıb.
– “Israel National News” qəzetində bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru və şərqşünaslıq elmləri üzrə professoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı, Tel-Əviv Universitetinin mühazirəçisi doktor Mordexay Kedarın məqaləsi dərc olunub. Müəllif qeyd edib ki, beynəlxalq ictimaiyyətin İranda həbsdə olan azərbaycanlılara və başqalarına kömək etmək üçün səylərini əsirgəməməsi zəruridir, çünki bu insanların səhhəti və təhlükəsizliyi İslam Respublikasının nəzarətində olduqları hər an risk altındadır.
– Kanadanın nüfuzlu “Thej.ca” media platformasında Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisiçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avrahamın “Fransanın Ermənistan-Azərbaycan münaqişəsində rolu geosiyasi maraqlarla bağlı suallar doğurur” sərlövhəli məqaləsi işıq üzü görüb. Məqalədə diqqətə çatdırılıb ki, qərəzli davranışları səbəbindən Fransa Ermənistanla Azərbaycan arasında danışıqlar

prosesində iştirak edən obyektiv ölkə kimi mövqeyini itirib və Azərbaycan açıq şəkildə ermənipərəst mövqe tutduğuna görə Fransanın sülh prosesində iştirakı ilə razılaşmır.

- Türkiyənin https://www.manisameydangazetesi.com.tr xəbər portalında “Laçın, ay Laçın” sərlövləli məqalə yayımlanıb. Türkiyə-Azərbaycan Dərnəklər Dostluğu Federasiyasının Dil Tarixi bölməsinin rəhbəri, yazar Seyfettin Ayakyayın qələmə aldığı məqalədə Azərbaycanın Laçın yolu ilə bağlı Ermənistanın dünya ictimaiyyətini aldatmağa cəhd göstərməsindən bəhs edilib.
- ABŞ-nin https://newsblaze.com xəbər saytında Ermənistan tərəfinin Azərbaycanın Laçındakı sərhəd-keçid məntəqəsi ilə bağlı “göz yaşları”nın Birləşmiş Millətlər Təşkilatı (BMT) Təhlükəsizlik Şurasına (TŞ) təsir göstərə bilməməsindən bəhs edən məqalə yerləşdirilib. ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin müəllifi olduğu məqalədə bildirilib ki, hətta BMT-də də Ermənistana özünün “qurbanlıq” hekayəsi barədə davamlı hayqırtılarına və Qarabağ bölgəsində törətdiyi qanunsuz hərəkətlərə son qoymaq çağırışı edilib. “Böyük ehtimalla, Ermənistan BMT TŞ-nin onun yalan bəyanatları ilə razılaşacağını və Azərbaycanı qınamağı xahiş edəcəyini gözləyirdi. Bu, baş vermədi. Ermənistan Laçın sərhəd-keçid məntəqəsi və Laçın dəhlizinə çaşğınlıq yaratmağa çalışsa da, BMT Təhlükəsizlik Şurasının nümayəndələrini inandıra bilmədi. Bu, Ermənistanın növbəti diplomatik məğlubiyyəti idi”, - deyə jurnalist vurğulayıb.
- Küveytin https://q8-press.com/ xəbərlər saytında “Qərbi Azərbaycana qayıdış” sərlövhəli məqalə dərc olunub. Məqalədə çar Rusiyası tərəfindən Azərbaycanın əzəli torpaqlarında məskunlaşdırılan ermənilərin ölkəmizə qarşı düşmənliyinin 200 illik tarixindən və Ermənistanın XX əsrdə azərbaycanlılara qarşı etnik təmizləmə və deportasiya siyasəti yürütməsindən bəhs edilib.
- ABŞ mediasında Nyu-York şəhərində yeni yaradılmış Azərbaycan-Amerika Gənclər Federasiyasından (AAYF) bəhs edən məlumatlar yerləşdirilib. Məlumatda bildirilib ki, Kolumbiya Universitetində magistr təhsili alan azərbaycanlı tələbə Günay Məmmədovanın təşəbbüsü ilə təsis edilmiş AAYF bu yaxınlarda qeyri-kommersiya təşkilatı kimi rəsmi qeydiyyatdan keçib. Nəzərə çatdırılıb ki, qərargahı Nyu-Yorkda yerləşən AAYF meqapolisdə ilk belə təşəbbüsdür, azərbaycanlı gəncləri – tələbələri, məzunları və gənc mütəxəssisləri federasiya çərçivəsində birləşdirmək, Azərbaycan mədəniyyətini, irsini, dəyərlərini və Qarabağ həqiqətlərini yerli əhaliyə çatdırmaq məqsədi daşıyır.
- Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının saytında “Azərbaycan öz imperial irsinə sahiblənir” sərlövhəli məqalə dərc etdirib. Məqalədə qeyd olunub ki, Komitənin təşkil etdiyi “Azərbaycanda Qızılbaş irsi: tarixin izi ilə” adlı beynəlxalq konfrans Qızılbaşlar haqqında hərtərəfli məlumatlılığı artırmaq və Azərbaycan Səfəvilər imperiyası dövründə mövcud olmuş ümumdünya Qızılbaş icmasının yenidən birləşməsinə səbəb ola biləcək ünsiyyəti təşviq etmək məqsədini daşıyıb: “İndiki Azərbaycan, İran, Orta Asiya və Əfqanıstan kimi ABŞ üçün strateji əhəmiyyət kəsb edən bölgələrin tarixini anlamağa çalışan hər bir amerikalı Qızılbaşların kim olduğunu bilməlidir”.
  https://foreignpolicyblogs.com/2023/12/05/azerbaijan-appropriates-its-imperial-heritage/

– ABŞ-nin “New York Insider” və “Digital Journal” qlobal media platformalarında Diasporla İş üzrə Dövlət Komitəsinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi “Bir olaq, həmrəy olaq!” virtual konfransı barədə məlumat verilib. Florida Azərbaycan icmasının rəhbəri Esmira Bayramovaya istinadən verilən məlumatda bildirilib ki, tədbirdə beş qitədə yaşayan, 77 ölkəni təmsil edən 700 nəfərə yaxın Azərbaycan diasporunun üzvü, türk diasporunun nümayəndələri və Azərbaycanın dostları iştirak ediblər.
[https://newyorkinsider.net/world/2023/12/29/azerbaijani-diaspora-members-from-five-continents-celebrated-global-unity-and-solidarity-in-the-lets-be-united-virtual-conference](https://newyorkinsider.net/world/2023/12/29/azerbaijani-diaspora-members-from-five-continents-celebrated-global-unity-and-solidarity-in-the-lets-be-united-virtual-conference)




## XARİCDƏKİ SOYDAŞLARIMIZIN TƏŞKİLATLANMASI İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLAR

– Stokholm şəhərində “Azərbaycan milli mədəniyyətinin təbliği” İctimai Birliyinin sədri, tədqiqatçı-jurnalist, filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərova ilə görüş keçirilib.İsveç-Azərbaycan Dərnəyinin (SAF) sədri Sevda Dadaşovanın təşəbbüsü ilə keçirilən görüşdə ölkəmizin İsveçdəki səfirliyinin əməkdaşları və diaspor nümayəndələri iştirak ediblər. Görüş zamanı yazıçı Eluca Atalının moderatorluğu ilə Jalə Cəfərova Azərbaycan əsilli görkəmli türk rəssamı, ilk dəfə Atatürkün portretini çəkən İbrahim Safi ilə bağlı araşdırmalar aparmasının səbəbi, əldə etdiyi maraqlı faktların 2021-ci ildə nəşr etdirdiyi “Rəngləri danışdıran adam” kitabında yer aldığı barədə ətraflı danışıb.
– Dünya azərbaycanlıları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə doğum günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbriklər ünvanlayıb. Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının İdarə Heyəti və üzvləri adından ünvanlanan təbrik məktubunda bildirilib ki, Azərbaycanın tarixində çox böyük

əhəmiyyəti olan Vətən müharibəsində qazanılan qələbə nəticəsində Qarabağın işğaldan azad olunması dövlət başçımızın uzaqgörənliyi, müdrik rəhbərliyi, qətiyyətli qərarları, qələbəyə və xalqımıza inamı sayəsində əldə edilib: "Vətənin rifahı naminə səmərəli fəaliyyətiniz, işgüzar və şəxsi keyfiyyətləriniz, mürəkkəb məsələləri effektiv həll etmək bacarığınız haqlı olaraq Sizə doğma Azərbaycanda və onun hüdudlarından kənarda böyük nüfuz və dərin hörmət qazandırıb. Sizə möhkəm cansağlığı, Azərbaycanın inkişafı və xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq". AAKŞ bəyan edib ki, 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkilərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə uğurlar arzulayır və səsvermə hüququ olan bütün Azərbaycan vətəndaşlarını bu seçkilərdə iştirak etməyə çağırır.

- 26 iyul tarixində Kanadanın Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evində dünya şöhrətli alim, Münhendəki Helmholtz Mərkəzinin professoru, Humboldt mükafatı və "Fields İnstitute Fellows" ömürlük mükafatını alan ilk azərbaycanlı alim, Azərbaycanın əməkdar elm xadimi Məsud Əfəndiyevlə görüş keçirilib. Azərbaycan Evinin təşkilatçılığı ilə baş tutan görüşdə elm xadimləri, Azərbaycan icmasının nümayəndələri və vaxtilə ölkəmizdə yaşamış yəhudilər iştirak ediblər. Tədbirdə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Məsud Əfəndiyev haqqında çəkdiyi videoçarx nümayiş etdirilib və Fields İnstitutunun "Fields İnstitute Fellows" ömürlük mükafatı barədə məlumat verilib. Dünya şöhrətli elm xadimi, Nobel mükafatı laureatı Əziz Sancarın azərbaycanlı həmkarları Lütfi Zadə və Məsud Əfəndiyev barədə fikirlərinə diqqət cəlb edilib.
- 28 iyul tarixində ABŞ-nin Florida ştatının Mayami şəhərində Azərbaycana həsr olunmuş "Vətən nəğmələri" adlı konsert və Azərbaycan icması ilə görüş keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Florida Azərbaycanlıları İcmasının təşkilatçılığı ilə baş tutan tədbirdə türk diasporunun da nümayəndələri iştirak ediblər. Görüş iştirakçılarını salamlayan Komitə sədri Fuad Muradov 44 günlük Vətən Müharibəsi dövründə Azərbaycan həqiqətlərinin təbliği məqsədilə Florida ştatında geniş məlumatlandırma kampaniyası apardıqlarına görə icma üzvlərinə minnətdarlığını bildirib, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Qurultayında səsləndirdiyi tapşırıq və tövsiyələrə diqqəti cəlb edib.
- 31 iyul tarixində ABŞ-nin Çapel Hill (Chapel Hill) şəhərində yerləşən Aziz Sancar adına Türk Mədəniyyət Mərkəzində Şimali Karolina ştatında yaşayan Azərbaycan icması ilə görüş və ölkəmizə həsr olunmuş "Azerbaijan – My Land, My Soul" ("Azərbaycan – torpağım, ruhum") adlı rəsm sərgisi keçirilib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Şimali Karolina ştatında fəaliyyət göstərən Azərbaycan Dostluq Təşkilatı tərəfindən təşkil olunan tədbirdə Komitənin, Azərbaycanın ABŞ-dakı səfirliyinin əməkdaşları, yerli ictimaiyyətin, türk icmasının nümayəndələri və güneyli azərbaycanlılar iştirak ediblər.
- 2 avqust tarixində Bişkek şəhərində fəaliyyət göstərən "Azəri" İctimai Birliyinin ofisində İqtisadi və Dövlət Əməkdaşlığı üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası çərçivəsində Qırğızıstan-Azərbaycan biznes forumunda iştirak edən Azərbaycan Respublikasının bir qrup iş adamı ilə görüş keçirilib. Görüşdə Qırğızıstan Prezidenti yanında Milli İnvestisiya Agentliyinin, Azərbaycanın Qırğızıstandakı səfirliyinin əməkdaşları və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

- 9 sentyabr tarixində Gürcüstanın Marneuli şəhərində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Soydaş” Gürcüstan – 2023” adlı forum keçirilib. Azərbaycan Diasporuna Dəstək Fondunun və Azərbaycanın Gürcüstandakı Səfirliyinin rəsmi tərəfdaşlığı, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin, Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə Gürcüstan-Azərbaycan Evində baş tutan forumda soydaşlarımız, dövlət rəsmiləri, diplomatlar, qeyri-hökumət təşkilatlarının nümayəndələri və media təmsilçiləri iştirak ediblər.
- 14 sentyabr tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun ADA Universitetində magistr təhsili alacaq Gürcüstan azərbaycanlıları ilə görüşü keçirilib. Soydaşlarımızı məmnunluqla salamlayan Komitə sədri ADA Universitetinin bu təşəbbüsünü yüksək qiymətləndirib və tələbələri təbrik edib. Görüşdə Gürcüstandakı Azərbaycan evləri və həftəsonu Azərbaycan məktəblərinin fəaliyyəti diqqət mərkəzində olub.
- 6 oktyabr tarixində İsveçin Höteborq şəhərində yaşayan Azərbaycan icması UEFA Avropa Liqasının qrup mərhələsinin 2-ci turunda “Hekken” klubu ilə qarşılaşan Ağdamın “Qarabağ” futbol klubuna böyük azarkeş dəstəyi göstərib. Azərbaycan bayraqlarını stadionda dalğalandıran soydaşlarımız oyun ərzində “Azərbaycan!”, “Qarabağ!”, “Şəhidlər ölməz, Vətən bölünməz!” və digər şüarları səsləndiriblər. Görüş “Qarabağ”ın 1:0 hesablı qələbəsi ilə başa çatıb. Oyundan sonra “Qarabağ” futbolçuları stadiondakı soydaşlarımızın qarşısına gələrək, onlarla birlikdə qələbənin sevincini bölüşüblər.
- Melburn şəhərində fəaliyyət göstərən Avstraliyanın Azərbaycan Cəmiyyətinin yaradılmasının 5 illiyi münasibətilə bayram tədbiri keçirilib. Tədbirdə cəmiyyətin bu ölkədə yaşayan həmvətənlərimizin təşkilatlanmasında xüsusi rolu olduğu vurğulanıb.
- 3 noyabr tarixində Qazaxıstanın paytaxtı Astanada yerləşən Dostluq Evindəki Azərbaycan otağında Qarabağ veteranları ilə görüş keçirilib. “Xəzər” Azərbaycan Etnomədəni Birliyinin təşkilatçılığı ilə baş tutan görüşdə Birinci Qarabağ savaşı zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşən Qarabağ veteranları Nabiden Useynov, Bolatkan Öмərov, Qazaxıstan Yazıçılar Birliyinin üzvü Nasixa Kumarqızı və diaspor fəalları iştirak ediblər.
- Gürcüstanın paytaxtı Tbilisidə fəaliyyət göstərən “Alyans” Gənclər Mərkəzində Azərbaycan Milli Məclisinin deputatları ilə görüş keçirilib. Qonaqları salamlayan mərkəzin sədri Leyla Əmrahova və icraçı direktor Rəna Hüseynova qurumun fəaliyyəti haqqında məlumat veriblər. R.Hüseynova qeyd edib ki, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində mərkəzdə Azərbaycan, gürcü, ingilis, alman dilləri, həmçinin Azərbaycan tarixi, rəsm və xalçaçılıq üzrə kurslar fəaliyyət göstərir. Eyni zamanda Azərbaycanın əlamətdar günlərinin qeyd olunması, xalqımızın milli-mədəni irsinin və qədim tarixinin təbliği məqsədilə müxtəlif tədbirlər təşkil olunur.
- Varşava şəhərində Azərbaycan icması ilə görüş və Polşa Azərbaycanlıları Koordinasiya Şurasına seçkilər keçirilib. Görüşdə Varşava, Krakov, Vrotslav, Qdansk və digər şəhərlərdə yaşayan Azərbaycan icmasının fəalları iştirak ediblər. Tədbir iştirakçılarını salamlayan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev icmamızın, Varşava Azərbaycan Evinin və Polşa Azərbaycanlıları

Koordinasiya Şurasının fəaliyyətini müsbət qiymətləndirib. Görüşün Komitənin yaradılmasının 21-ci ildönümünə təsadüf etdiyini vurğulayan sədr müavini Komitənin fəaliyyət istiqamətlərindən, həyata keçirdiyi layihələrdən danışıb. Tədbirdə müasir dövrün çağırışlarına uyğun olaraq icmamızın fəallığının artırılması, koordinasiya işinin gücləndirilməsi, gələcək planlar, Krakov şəhərində Azərbaycan Evinin açılması barədə fikir mübadiləsi aparılıb və suallar cavablandırılıb.

- 30 oktyabr tarixində Çexiyanın paytaxtı Praqada Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Azərbaycan icması ilə görüşü keçirilib. Görüşdə Çexiyanın müxtəlif şəhərlərində yaşayan Azərbaycan icmasının üzvləri, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycanın Çexiyadakı səfirliyinin əməkdaşları iştirak ediblər. Görüş iştirakçılarını salamlayan Komitə sədri soydaşlarımızı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması münasibətilə təbrik edib. Azərbaycan Respublikasının Dövlət Bayrağının Xankəndi, Xocalı, Əsgəran və Ağdərədə ucaldılması kimi möhtəşəm tarixi hadisəyə görə dünya azərbaycanlıları adından dövlət başçımıza və qəhrəman hərbçilərimizə minnətdarlığını ifadə edib.
- ABŞ-nin Nyu-York şəhərində yerləşən Türk Evində Amerika Azərbaycanlıları Koordinasiya Şurasının toplantısı keçirilib. Toplantıda ABŞ-nin 9 ştatından 15 təşkilatın 22 nümayəndəsi, Diasporla İş üzrə Dövlət Komitəsinin, Azərbaycanın ABŞ-dakı səfirliyinin və BMT yanındakı daimi nümayəndəliyinin əməkdaşları iştirak ediblər. Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin qurumun fəaliyyəti barədə geniş hesabatla çıxış edib. Amerika Azərbaycanlıları Koordinasiya Şurasının "Alliance of Azerbaijani Organizations" adı ilə ABŞ-da rəsmi qeydiyyatdan keçdikdən sonra baş tutan ilk toplantısı fəal müzakirələrlə davam etdirilib. Tədbirdə çıxış edənlər ABŞ-da Azərbaycan diasporunun fəaliyyəti və AAKŞ-nın 2023-cü il ərzində fəaliyyətindən, qarşıdakı plan və perspektivlərdən danışıblar. Daha sonra AAKŞ-a yeni 5 üzv-təşkilat qəbul edilib. Beləliklə, AAKŞ-a üzv-təşkilatların sayı 18-ə çatıb. Toplantının sonunda AAKŞ-ın strukturuna səsvermə yolu ilə seçkilər keçirilib. AAKŞ İdarə Heyətinin, Məşvərət Şurasının üzvləri və prezident seçilib. Qarşıda duran məsələlərin həlli məqsədilə İşçi Qrup da yaradılıb.
- 24 noyabr tarixində Qırğız Respublikasında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun bu ölkədə yaşayan Azərbaycan icması ilə görüşü keçirilib. Görüş iştirakçılarını salamlayan Komitə sədri dövlət qurumunun çoxşaxəli fəaliyyət istiqamətləri və həyata keçirilən sistemli layihələr barədə geniş hesabatla çıxış edib. Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyasına xas cəhətlərin, milli kimliyin qorunması barədə Dünya Azərbaycanlılarının V Qurultayında xaricdə yaşayan soydaşlarımıza tövsiyələrini xatırladan Komitə sədri Qırğızıstandakı diasporumuzun bu tövsiyələrə uyğun şəkildə apardığı fəaliyyəti yüksək qiymətləndirib. Soydaşlarımız qalib xalqın diasporu olmaqdan qürur duyduqlarını bildirib, milyonlarla soydaşımızı birləşdirən, işi nəzərəçarpacaq dərəcədə intensivləşən Komitə ilə Qırğızıstandakı diasporumuzun sıx əməkdaşlığı yüksək qiymətləndiriblər.
- Humboldt mükafatı alan ilk azərbaycanlı alim, əməkdar elm xadimi, Dünya Azərbaycanlı Alimlər Assosiasiyasının həmsədri Məsud Əfəndiyevin 70 illik yubileyinə həsr olunmuş "Biologiya, fizika və mexanikada qeyri-xətti təzahür" adlı beynəlxalq konfrans elmi

ictimaiyyət arasında maraqla qarşılanıb. Tədbirdə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 17 xarici ekspertin iştirakı təmin edilib. Konfransda iştirak edən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov alimi təbrik edib, onun dünya elminə verdiyi töhfələrdən və uğurlu diaspor fəaliyyətindən danışıb. “Professor Məsud Əfəndiyev yalnız elmə töhfələr vermir, eyni zamanda aktiv diaspor fəaliyyəti ilə məşğul olur, ölkəmizin təbliğində, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında misilsiz xidmətlər göstərir” - deyə Komitə sədri bildirib. Xaricdəki soydaşlarımızın və eyni zamanda yüksək elmi nailiyyətlərə sahib olan azərbaycanlı alimlərin fəaliyyətinin daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqətində olduğu, həmçinin onların şəbəkələrinin yaradılması, bilik və bacarıqlarının elmimizin inkişafına cəlb olunmasının vacibliyi diqqətə çatdırılıb.

- Dünya azərbaycanlıları Güney Azərbaycandan olan jurnalist və hüquq müdafiəçisi Nərgiz Məhəmmədinin 2023-cü il üzrə Nobel Sülh Mükafatına layiq görülməsi xəbərini böyük sevinc və ruh yüksəkliyi ilə qarşılayıb. ƏRK Azərbaycan İnsan Hüquqları Cəmiyyəti bu əlamətdar hadisə münasibətilə hazırda həbsdə olan Nərgiz Məhəmmədinin ailə üzvlərini, hüquq müdafiəçilərini və dünya azərbaycanlılarını təbrik edib. Nərgiz Məhəmmədi 1972-ci il aprelin 21-də Güney Azərbaycanın Zəncan şəhərində anadan olub. 1996-cı ildən jurnalistika fəaliyyətinə başlayıb, İranda bir sıra KİV-də işləyib. Uzun illər insan hüquqlarının müdafiəsi uğrunda mübarizə aparan tanınmış jurnalistin 4 oktyabr 2020-ci il tarixində Zəncan zindanından həbsdən azad edildikdən sonra anası ilə evdə görüşərkən ana dilində – Azərbaycan türkcəsində danışdığını nümayiş etdirən video sosial şəbəkələrdə yayılıb.
- UEFA Avropa Konfrans Liqasının II təsnifat mərhələsinin ilk oyununda Riqanın “RFS” futbol klubu ilə qarşılaşan Azərbaycanın “Sabah” futbol klubuna Latviya paytaxtında yaşayan Azərbaycan icması güclü azarkeş dəstəyi nümayiş etdirib. “Azəri” gənclər təşkilatının sədri Amil Səlimovun təşkilatçılığı ilə stadionun tribunalarında toplaşan soydaşlarımız gərgin mübarizə şəraitində keçən oyun zamanı Azərbaycan bayraqlarını dalğalandırmaqla və fasiləsiz olaraq səsləndirdikləri şüarlarla futbolçularımızı ruhlandırmağa çalışıblar.
- Niderland Krallığında yaşayan Azərbaycan icması Rotterdam şəhərində keçirilmiş kikboksinq üzrə mötəbər turnirdə azərbaycanlı idmançı Bəhram Rəcəbzadəyə azarkeş dəstəyi göstərib. Benilüks Azərbaycanlıları Konqresinin rəhbəri Elsevər Məmmədov bildirib ki, dünyanın ən nüfuzlu kikboksinq təşkilatlarından biri olan “Glory 87”-nin təşkil etdiyi yarışda Azərbaycan Kikboksinq Federasiyasını təmsil edən, ayağından aldığı zədəyə baxmayaraq, parlaq çıxış nümayiş etdirən Bəhram Rəcəbzadənin rəqibləri üzərində inamlı qələbə qazanması soydaşlarımızın böyük sevinci və çoşğusu ilə qarşılanıb. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə yarışlara hazırlaşan Bəhram Rəcəbzadə bu qələbəsi ilə “Glory” təşkilatının mütləq çəkidə möhtəşəm 8-lik turnirinə vəsiqəni təmin edib. Bəhram Rəcəbzadə 1991-ci ildə Qərbi Azərbaycan ostanının Urmiya şəhərində anadan olub. 7 yaşından idmanla məşğul olan soydaşımız ilk nailiyyətini 10 yaşında əldə edib. Kikboksinq üzrə 3 qat İran çempionu və 8 qat super liqa çempionudur. 2015-ci idən Azərbaycana dəvət alan idmançı 2016-cı ildə kikboksinq üzrə Azərbaycan çempionu olub. Hazırda beynəlxalq yarışlarda Azərbaycanı təmsil edir.

- ABŞ-nin Florida ştatında yaşayan Azərbaycan icmasının fəalları Palm-Beach şəhərində keçirilmiş batut gimnastikası və tambilinq üzrə Dünya Kubokunda iştirak etmiş Azərbaycan yığma komandasının üzvlərinə azarkeş dəstəyi göstərib. Florida Azərbaycanlıları İcmasının rəhbəri Esmira Bayramova bildirib ki, gimnastlarımız Tofiq Əliyev, Adil Hacızadə və Mixail Malkin çıxış edərkən Azərbaycan bayraqlarını dalğalandıran icma üzvlərimiz idmançılarımızın yanında olduqlarını nümayiş etdiriblər.
- Polşanın paytaxtı Varşavada fəaliyyət göstərən Azərbaycan Evində bu ölkədə təhsil alan gənc soydaşlarımız üçün hüquqi məsələlərə dair maarifləndirmə seminarı keçirilib.
- Çempionlar Liqasının II təsnifat mərhələsində Polşada Censtoxovanın "Rakov" futbol klubu ilə qarşılaşan Ağdamın "Qarabağ" futbol klubuna Polşada yaşayan Azərbaycan icması möhtəşəm azarkeş dəstəyi göstərib. Polşa Azərbaycanlıları Şurasından bildirilib ki, "Qarabağ" komandasının sonadək rəqiblərini gərginlikdə saxlaması ilə müşayiət olunmuş oyun boyu Azərbaycan bayraqlarını dalğalandıran, Qarabağa həsr olunmuş şüarlar və mahnılar səsləndirən soydaşlarımız bu yarışı izləyənlərin diqqətini cəlb ediblər.
- Almaniyanın Halle/Salle şəhərində keçirilmiş beynəlxalq turnirdə Diaspor Boks Liqasını təmsil edən bokşçular uğurla çıxış ediblər. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Diaspora Boks Liqasının və Heydər Əliyev adına Dünya Boks Komitəsinin birgə təşkilatçılığı ilə Volspark zalında baş tutan yarışda 16 çəki dərəcəsində qarşılaşma baş tutub. Liqanın boksçuları Aleksandr Frank və Azər Soltanov peşəkar rinqdə isveçli və belaruslu rəqibləri üzərində inamlı qələbə qazanıblar. Yarışın qalibi Aleksandr Frank müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş kəmərlə təltif olunub. 11 ildir Almaniyanın Maqdeburq şəhərində davamlı fəaliyyət göstərən Heydər Əliyev adına Dünya Boks Komitəsinin yarışları artıq sentyabrın 1-dən nüfuzlu "BoxRec" saytındakı dünya reytinq cədvəlinə düşüb. Bu addım ulu öndərin adını daşıyan kəmərlərin bütün dünyada tanıdılması məqsədilə atılıb.
- Slovakiyanın Povajska-Bistritsa şəhərində keçirilmiş "Real Fight Arena" (RFA 12 Free Prelims) üzrə seçmə oyununda MMA üzrə peşəkar azərbaycanlı idmançı Yüksəl İbrahimov növbəti uğur qazanıb. Həmyerlimiz Qırğızıstandan olan rəqibini I raundda texniki nokautla məğlub edib. O, qələbəsinin elan edilməsi zamanı Azərbaycan bayrağını dalğalandırıb. Bu, idmançımızın RFA-da ardıcıl ikinci qələbəsidir. Yüksəl İbrahimov 22 iyun 1995-ci ildə Azərbaycanın Tovuz şəhərində anadan olub. Peşəkar K-1 və MMA döyüşçüsüdür. 2019-cu ildən etibarən Slovakiyada qaydasız döyüş, boksinq və kikboksinq üzrə dərs deyir. Eyni zamanda K-1 və MMA üzrə yarışlarda iştirak edir.

## Diaspor Gənclərinin IV Yay Düşərgəsi

"Heydər Əliyev İli" çərçivəsində qədim Azərbaycan torpağı olan Naxçıvanda 2023-cü ilin 12-18 avqust tarixlərində "Heydər Əliyev-100" Diaspor Gənclərinin IV Yay Düşərgəsi keçirilib. Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondu, təşkilati dəstək Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəliyinə məxsus olub. Düşərgənin açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli,

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycan Respublikasının Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Heydər Əliyev Fondunun nümayəndəsi Aydan Ramazanova çıxış edərək, IV Yay Düşərgəsinin iştirakçılarına Heydər Əliyevin həyat yolundan və misilsiz xidmətlərindən bəhs ediblər. Diaspor tarixinin möhtəşəm layihələrindən biri hesab olunan IV Yay Düşərgəsində 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edib. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri olub. Layihənin Heydər Əliyevin dünyaya gəldiyi qədim Naxçıvan şəhərində keçirilməsi xüsusi önəm daşıyıb.

IV Yay Düşərgəsinin I paneli "Ulu öndər Heydər Əliyevin həyat yolu" mövzusuna həsr olunub. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun moderatorluğu ilə keçirilən paneldə millət vəkili, AMEA-nın həqiqi üzvü, Filologiya elmləri doktoru, professor Rafael Hüseynov, Azərbaycanın sabiq Baş naziri və keçmiş xarici işlər naziri Həsən Həsənov, sabiq xarici işlər naziri, ölkəmizin Bosniya və Hersoqovinada fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev çıxış ediblər.

Növbəti panel "Müstəqillik dövründə Azərbaycanın xarici siyasət prioritetləri" mövzusuna həsr olunub. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin moderatorluğu ilə keçirilən paneldə Azərbaycanın sabiq xarici işlər naziri, ölkəmizin Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev "Heydər Əliyevin mədəniyyət diplomatiyası", Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov "Azərbaycanın Avropa Şurasına üzvlüyü ulu öndər Heydər Əliyevin siyasi mirasıdır"və Xarici İşlər Nazirliyinin Linqvistik təminat idarəsinin rəisi Rizvan Nəbiyev "Post-münaqişə dövründə yeni geosiyasi reallıqlar" mövzularında çıxış ediblər.





"Xalq diplomatiyası" mövzusunda təşkil olunan panel zamanı tanınmış jurnalist, ADA Universitetinin Kommunikasiya və rəqəmsal media proqramının rəhbəri Şəfəq Mehralıyeva düşərgə iştirakçılarına dövlətlərarası münasibətlərin inkişafında və münaqişələrin həllində xalq diplomatiyasının rolundan danışıb.

IV Yay Düşərgəsinin növbəti paneli çərçivəsində Qarabağ fatehləri (Vətən müharibəsinin Naxçıvandan olan iştirakçıları) və şəhid anaları ilə görüş olub.

Komitənin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdir müavini Cavid İsmayılın moderatorluğu ilə baş tutan panelin qonaqları şəhid leytenant Emin Sadiqovun anası Gülşad Rüstəmova, şəhid baş leytenant Raqib Hüseynovun anası Rəna Hüseynova, şəhid leytenant Vəli Quliyevin anası Həqiqət Quliyeva, Vətən müharibəsinin qaziləri - baş

leytenant Əli Əlisoy, ehtiyatda olan kapitan Ceyhun Bayramov və ehtiyatda olan mayor Təbriz Zeynalov olublar.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müşaviri Cahid Kazımovun moderatorluğu ilə baş tutan növbəti paneldə Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov, "Startap Azərbaycan"ın təşkilat komitəsinin üzvü Rəşad Əliyev, startap-mentor, müstəqil ekspert, elmi-kütləvi blogger Vüsal Yusifli məruzəçi qismində çıxış ediblər.





Naxçıvanda keçirilən "Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsinin növbəti paneli "Azərbaycanın müstəqillik tarixi"nə həsr olunub. Panelin qonaqları AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı tarix elmləri doktoru, professor Solmaz Tohidi-Rüstəmova, İrəvan xanlığının Almaniyada yaşayan varisi Əmir Əli Sərdari İrəvani və tanınmış almaniyalı alim, nəsimişünas Mixael Hess olub.

Proqrama uyğun olaraq IV Yay Düşərgəsənin iştirakçıları Naxçıvanın tarixi memarlıq abidələrini və görməli yerlərini ziyarət ediblər. Ekskursiya zamanı Heydər Əliyev Muzeyi, Möminə Xatun türbəsi, Naxçıvan Xan Sarayı, Hüseyn Cavid məqbərəsi, "Naxçıvanqala" tarixi-memarlıq muzey kompleksi, Nuh Peyğəmbər türbəsi, "Əshabi-kəhf" və Əlincə qalası ziyarət edilib. Düşərgə iştirakçıları Batabat gölündə də olublar.

"Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsinin rəsmi bağlanış mərasimi keçirilib. Mərasimi açıq elan edən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri Vəsilə Zeynalova ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş düşərgənin gənclərin yaddaşında silinməz iz buraxacağına inandığını bildirib. Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli düşərgənin Naxçıvanda keçirilməsindən və iştirakçıların Naxçıvanda aparılan yenidənqurma və quruculuq işləri, eləcə də bu qədim diyarın tarixi yerləri ilə tanışlığından məmnun olduğunu söyləyib. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov IV Yay Düşərgəsinin təşkilində göstərdikləri dəstəyə görə Heydər Əliyev Fonduna və Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəliyinə təşəkkür edib.





## Gənclərin diaspor fəaliyyətinə cəlb edilməsi istiqamətində digər tədbirlər

- Özbəkistanda təhsil alan bir qrup azərbaycanlı və özbək tələbə Azərbaycanın paytaxtı Bakıya səfər edib. 22-25 avqust tarixində baş tutan səfərdə Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin 3 tələbəsi və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin 4 tələbəsi iştirak edib. Səfər zamanı gəncləri Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin prorektoru müşayiət edib. Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən qonaqlar müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirələrini ehtiramla yad ediblər. Qonaqlar ekskursiya proqramına uyğun olaraq Qız qalasını, "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarix-Memarlıq qoruq-muzeyini, Milli Azərbaycan Tarixi Muzeyini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini, Heydər Əliyev Mərkəzini ziyarət edib, Komitədə və Milli Məclisdə olublar.
- 11 sentyabr tarixində Azərbaycan Diaspor Gəncləri (ADG) platformasının təşəbbüsü ilə növbəti görüş keçirilib. Görüşdə platformanın 2023-cü ildəki fəalliyyəti nəzərdən keçirilib, təşkilatın sıralarına daxil olmuş yeni üzvlər təqdim edilib. Müzakirələr zamanı diaspor gəncləri arasında mühüm körpü rolunu oynayan təşkilatın gündəliyindəki aktual məsələlər, gələcək fəaliyyət istiqamətləri, sıralarının genişləndirilməsi, həyata keçiriləcək layihələrin spesifik xüsusiyyətləri və başqa vacib mövzular ətrafında fikir mübadiləsi aparılıb. Görüş yeni təkliflərə münasibət bildirilməsi və sualların cavablandırılması ilə yekunlaşıb.
- 22 sentyabr tarixində Marneulidə fəaliyyət göstərən Azərbaycan Evində Robotik kompüter otağının açılışı olub. Otaq TİKA-nın dəstəyi ilə yeni və yüksək texnoloji avadanlıqla təchiz olunub. Açılış mərasimində Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev, Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev, Türkiyə Respublikasının Gürcüstandakı səfiri Ali Kaan Orbay, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) vitse-prezidenti Ümit Naci Yorulmaz, Marneuli bələdiyyəsinin sədri Kənan Ömərov, TİKA-nın Gürcüstan nümayəndəliyinin rəhbəri Tuba Özütok və digər rəsmi qonaqlar iştirak ediblər. Qonaqlara dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan evləri barədə ətraflı məlumat verilib, Azərbaycan dövlətinin həmin evləri lazımi vəsaitlə və texniki avadanlıqlarla təmin etdiyi diqqətə çatdırılıb. Çıxışlarda Marneulidə yaşayan azərbaycanlı gənclər üçün müasir kompüterlərlə təchiz olunmuş belə bir otağın yaradılmasında yaxından iştirak edən TİKA rəhbərliyinə minnnətdarlıq ifadə olunub. Qeyd edilib ki, bu cür layihələr təhsil və elm

sahəsində inkişafa nail olmaq, həmin bölgədə yaşayan azərbaycanlıların bilik və bacarıqlarının daha da artırılmasına kömək etmək məqsədi daşıyır.

- 25 sentyabr tarixində Gürcüstanın Qardabani rayonunda yeni Təhsil və İnteqrasiya Mərkəzi fəaliyyətə başlayıb. Mərkəzin açılış mərasimində yerli dövlət qurumlarının rəsmi şəxsləri, Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, yerli ictimaiyyətin nümayəndələri, müəllimlər və gənclər iştirak ediblər. Tədbir iştirakçılarını salamlayan mərkəzin icraçı direktoru Çiçək Hüseynova rəhbərlik etdiyi tədris ocağının yaradılması səbəbləri, fəaliyyət istiqamətləri və gələcək planları barədə ətraflı məlumat verib.Mərasimdə çıxış edənlər Qardabanidə yeni mərkəzin açılması münasibətilə soydaşlarımızı təbrik ediblər. Təhsil və inteqrasiya kimi mühüm sahələrə xidmət etməyin önəmi diqqətə çatdırılıb. Mərkəzin gənclərin inkişafında və asudə vaxtının səmərəli keçirilməsində əhəmiyyətli rol oynayacağını vurğulayan qonaqlar bu istiqamətdə soydaşlarımıza uğurlar arzulayıblar.
- “Azərbaycan Diaspor Gəncləri” (ADG) təşkilatı Los-Anceles şəhərində erməni radikal qruplaşmalarının törətdiyi cinayət əməli zamanı Cənubi Kaliforniya Universiteti rəhbərliyinin nümayiş etdirdiyi qətiyyətli mövqeyi alqışlayıb. ADG üzvləri adından Cənubi Kaliforniya Universitetinin 12-ci prezidenti Kerol Linn Folta ünvanlanan məktubda qeyd edilib ki, Azərbaycan diaspor gəncləri “Türkiyənin ictimai diplomatiyası” mövzusunda konfransın davam etdirilməsi naminə universitet rəhbərliyinin nümayiş etdirdiyi inadkarlığa görə dərin minnətdarlıqlarını bildirirlər: “Cənubi Kaliforniya Universiteti konfransı davam etdirməyə qərar verdi. Bununla da ifadə azadlığı, beynəlxalq hüquq, müxtəliflik və dinc fikir mübadiləsi hüququnun tərəfdarı olduğuna dair aydın mesaj göndərdi”. ADG üzvləri bu addımı universitetin açıq və hörmətli dialoqu davam etdirmək, sərbəst akademik müzakirə prinsiplərinə sadiqlik və müxtəlif fikirlərə hörmətlə yanaşması kimi qiymətləndiriblər.
- ABŞ-nin Nyu-York şəhərində Azərbaycan-Amerika Gənclər Federasiyası (Azerbaijani-American Youth Federation) təşkilatı təsis edilib. Kolumbiya Universitetində beynəlxalq təhsil və qlobal idarəçilik ixtisası üzrə təhsil alan həmyerlimiz Günay Məmmədovanın təşəbbüsü ilə yaradılan təşkilat ABŞ-nin Şərq sahili ştatlarında yaşayan gəncləri – tələbələri, məzunları və gənc peşəkarları bir araya gətirəcək. Təşkilat ABŞ-da rəsmi qeydiyyatdan keçib. Təşkilatın başlıca məqsəd gənclərin səmərəli fəaliyyət göstərməsinə nail olmaq, onların akademik, peşəkar və şəxsi inkişafına töhfə vermək, Azərbaycan mədəniyyəti və dəyərlərini, eləcə də ölkəmizin həqiqətlərini yerli ictimaiyyətə çatdırmaqdır.
- ABŞ-nin Nyu-York şəhərində azərbaycanlı və beynəlxalq gənclərin yeni tədris ilində şəbəkələşməsi məqsədilə görüş keçirilib. Azərbaycan-Amerika Gənclər Federasiyasının təşkilatçılığı ilə baş tutan görüşdə Nyu-Yorkda, eləcə də digər yaxın ştatlarda təhsil alan 30-dan çox tələbə, məzun və hazırda peşəkar fəaliyyət ilə məşğul olan gənclər iştirak ediblər. Görüş iştirakçıları təşkilatın gələcək fəaliyyəti, fəal vətəndaşlığın təbliği və peşəkar inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparıblar.
- Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı ilə Varşava Azərbaycan Evində baş tutan seminar zamanı polyak hüquqşünas Jakub Ksenjak (Księżak) tələbələri maraqlandıran məsələlərə aydınlıq gətirib və tövsiyələrini verib. Azərbaycan Evindən bildirilib ki, Polşada yaşayan soydaşlarımız üçün faydalı olan ödənişsiz layihələri bundan sonra da davam etdirmək niyyətindədirlər.

- 22 dekabr tarixində “Azərbaycan Diaspor Könüllüləri” Proqramı çərçivəsində diaspor nümayəndələri ilə görüş keçirilib. Estoniya Təhsil Karyera Mərkəzinin təsisçisi Sənəm Əliyeva və Macarıstan Azərbaycan Evinin rəhbəri İbrahim Səfərli təmsil etdikləri ölkələr və öz fəaliyyətləri barədə ətraflı məlumatlar verib, zəngin təcrübələrini bölüşüblər. İnteraktiv şəkildə davam edən görüşdə xaricdə təhsil, qrant proqramları, diaspor quruculuğu, karyera planlaması, təşkilatlanma, qeyd edilən ölkələrin nüfuzlu ali məktəbləri barədə ətraflı müzakirələr aparılıb, müxtəlif slayd təqdimatları olub.

## CARİ İSTİQAMƏTLƏR

- 7 iyul tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 21-ci və Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılmasının 5-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdən öncə ümummilli lider Heydər Əliyevin büstü ehtiramla ziyarət edilib, önünə gül dəstələri düzülüb. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbir iştirakçılarını salamlayan Komitə sədri Fuad Muradov bu əlamətdar gün münasibətilə diaspor hərəkatına töhfə verən hər bir azərbaycanlını təbrik edib. Komitənin müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə yaradılmış “Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi”nin varisi olduğunu xatırladıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı, Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə milli mədəni irsimizin qorunub saxlanması, xaricdə yaşayan azərbaycanlıların mütəşəkkil təşkilatlanması, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində müxtəlif layihələr həyata keçirilir. Dünyanın müxtəlif ölkələrində təsis edilmiş Koordinasiya şuralarının, xaricdəki həmvətənlərimizin istifadəsinə verilmiş Azərbaycan evlərinin, Qarabağ, Nizami Gəncəvi və Xurşidbanu Natəvanın adlarını daşıyan Azərbaycan dili məktəblərinin buna bariz nümunə olduğunu vurğulayıb. Ardınca Komitənin yaradılmasını, fəaliyyətini, Heydər Əliyevin Azərbaycan diasporunun təşkilatlanmasına dair fikirlərini əks etdirən videoçarx nümayiş etdirilib. Sonra Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev hesabatla çıxış edib, Fondun 5 illik fəaliyyətindən bəhs edən videoçarx təqdim olunub. Çıxış edən diaspor nümayəndələri Səadət Abdullayeva (Gürcüstan), Ələddin Məmmədov (Rusiya), Əjdər Tağızadə (İsveç), Teymur Rzayev (Türkiyə), Maya Bağırova( Fransa), Ceyhun Nəcəfov (Kanada), Kamilla Məmmədova və Zəminə Mirhadıyeva (ABŞ) Komitənin və Fondun yaradılmasını diaspor tarixində mühüm hadisə adlandırıblar. Tədbirdə iştirak edən Amerika Muğam Cəmiyyətinin prezidenti Cefri Verbok Azərbaycana sevgisindən və Azərbaycan musiqisinin gözəlliklərindən söz açıb. Çıxışını “Qarabağ Azərbaycandır!” sözləri ilə tamamlayan musiqiçi kamançada muğam parçası ifa edib.
- Komitədə “İnsan alveri ilə mübarizədə diasporun rolu” mövzusunda tədbir keçirilib. "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin təşəbbüsü və Daxili İşlər Nazirliyinin iştirakı ilə baş tutan tədbir insan alveri ilə mübarizə üzrə 4-cü, 2020–2024-cü illər üzrə Milli Fəaliyyət Planının icrasında iştirakçı tərəflərlə fəaliyyətlərin inkişafı və QHT əməkdaşlığının gücləndirilməsi məqsədilə təşkil edilib.

- Avstraliyada güney azərbaycanlılarını bir araya gətirən “Victora Varliq Group” qeyri-kommersiya mədəniyyət birliyinin təşəbbüsü ilə Azərbaycan Elit Mükafatı təsis olunub. Birliyin sədri Dr. İbrahim Aslan qeyd edib ki, mükafat ömrünü xaricdəki Azərbaycan icmasının inkişaf, innovasiya və mükəmməlliyinin təşviqinə fədakarcasına, uzaqgörənliklə həsr edən və cəmiyyətə təsiretmə qabiliyyətinə malik görkəmli şəxslərin tanıdılmasına xidmət edir. Mükafat elm, ədəbiyyat, mədəniyyət, iqtisadiyyat, texnologiya, səhiyyə və sair sahələrə verilən misilsiz töhfələrə əsasən təqdim ediləcək. Namizədlər müvafiq sahələr üzrə ictimaiyyət və nüfuzlu ekspertlər tərəfindən irəli sürülə bilər. Hər kateqoriya üzrə yaradılacaq münsiflər heyəti nominasiyaları hərtərəfli nəzərdən keçirəcək.
- Yeni tədris ilinin başlanması ilə əlaqədar Komitənin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondu bu il ali məktəblərə yüksək balla qəbul olan və birinci sinfə gedən şəhid övladlarını mükafatlandırıb. “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin inzibati binasında baş tutan mükafatların təqdimolunma mərasimində şəhid ailələrinin xanımları və övladları iştirak ediblər. Tədbiri “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Alızadə açıb. O, göstərilən dəstəyə görə ADDF rəhbərliyinə öz təşəkkürünü bildirib. Komitənin adından tədbir iştirakçılarını salamlayan ADDF-nin icraçı direktoru Əkrəm Abdullayev övladları bu il ali məktəbə daxil olan və I sinfə gedən şəhid ailələrini təbrik edib. Şəhid ailələrini bütün xalqımızın qürur mənbəyi adlandıran Fond rəhbəri bildirib ki, torpaqlarımızın azadlığı və vətənimizin ərazi bütövlüyü uğrunda fədakarcasına canlarından keçmiş qəhrəmanlarımızın övladları hər zaman diqqət mərkəzindədir. ADDF-nin dəstəyi ilə xaricdə bir çox şəhid övladlarının təhsilini davam etdirdiyi, bəzilərinin isə işlə təmin olunmasına köməklik göstərildiyi nəzərə çatdırılıb.
- Yeni tədris ilinin başlanması ilə əlaqədar Azərbaycan Diasporuna Dəstək Fondunun təşkilatçılığı ilə Avropa Yəhudilərinin Bakı Dini İcmasının nəzdindəki məktəbdə təhsil alan 50 şagirdə məktəb dəsti hədiyyə edilib. Komitənin adından valideynləri və şagirdləri salamlayan Beynəlxalq əlaqələr və gənclərlə iş şöbəsinin müdiri Xıdır Kazımov yeni tədris ilinin başlanması münasibətilə onları təbrik edib və xoş arzularını bildirib. Avropa Yəhudilərinin Bakı Dini İcmasının baş ravvini Şneor Seqal bu diqqət və qayğıya görə Azərbaycan dövlətinə minnətdarlığını ifadə edib.
- 2-6 oktyabr tarixlərində Bakıda keçirilmiş 74-cü Beynəlxalq Astronavtika Konqresində Türkiyə Respublikası və Amerika Birləşmiş Ştatlarında yaşayan Azərbaycan diasporunu təmsil edən 4 alimin iştirakının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən maliyyə dəstəyi göstərilib. Tədbir çərçivəsində diaspor nümayəndələrinin Komitə rəhbərliyi ilə görüşü baş tutub.
- 22-26 oktyabr tarixlərində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə professor Məsud Əfəndiyevin 70 illik yubileyi münasibətilə “Biologiya, Ekologiya, Fizika və Mexanikada qeyri-xətti təzahür” adlı beynəlxalq konfrans keçirilib. Sözügedən tədbirdə Azərbaycan Respuublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 17 xarici ekspertin iştirakı təmin edilib.
- 1 dekabr tarixində Komitədə İsveçdə fəaliyyət göstərən “Qobustan” Azərbaycan Aydınlar Ocağının sədri, Höteborq Universitetinin elmi əməkdaşı, tərcüməçi, yazar Səadət Kərimi ilə görüş keçirilib. Qonağı məmnunluqla salamlayan Komitə sədrinin müavini Vaqif Seyidbəyov Azərbaycan diasporunun inkişafına verdiyi töhfələrinə görə təltif olunduğu

“Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalını ona təqdim edib.

- Komitənin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondu Türkiyənin Kahramanmaraş bölgəsinə növbəti humanitar yardım göndərib. Humanitar yardımın yolasalma mərasimində çıxış edən Komitə sədrinin birinci müavini Valeh Hacıyev bildirib ki, 6 fevral 2023-cü ildə Türkiyədə baş verən dəhşətli zəlzələnin ilk saatlarından Azərbaycan dövləti və xalqı qardaş Türkiyənin yanında olub: “Prezident İlham Əliyevin göstərişi ilə dərhal zəlzələ bölgəsinə Azərbaycandan xilasedicilər və humanitar yardım karvanları göndərilib. İstər Azərbaycanda, istərsə də xaricdə yaşayan azərbaycanlılar türkiyəli qardaşlarına yardım etmək üçün səfərbər olub. Havaların soyuması ilə əlaqədar zəlzələdən içərilərində azərbaycanlıların da olduğu zərərçəkmiş şəxslərə dəstək məqsədilə bu gün göndərilən yardım da həmin prosesin tərkib hissəsidir”. Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcının növbəti humanitar yardıma görə Azərbaycan dövlətinə təşəkkür edib. Bildirib ki, istər Türkiyədəki meşə yanğınları zamanı, istər İkinci Qarabağ müharibəsi dövründə, istərsə də bu ilin fevralında baş verən zəlzələdən sonra bütün dünya “bir millət-iki dövlət” fəlsəfəsinə söykənən Azərbaycan-Türkiyə qardaşlığına əyani şahid oldu.
- 6 dekabr tarixində Komitənin inzibati binasında 5 dekabr – Beynəlxalq Könüllülər Günü münasibətilə növbəti “Azərbaycan Diaspor Könüllüləri” Proqramının açılış mərasimi keçirilib. Qeyd edək ki, 2023–2024-cü illər üzrə “Azərbaycan Diaspor Könüllüləri” Proqramına 522 nəfər gənc müraciət edib. Onların arasından 6 ay davam edəcək proqramda iştirak etmək üçün 50 gənc seçilib.
- Komitənin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu “Diaspor Akademiyası” adlı yeni layihənin icrasına başlayıb. “Diaspor Akademiyası” diaspor fəaliyyətinin nəzəri və praktiki aspektlərini diaspor nümayəndələrinə aşılamağı nəzərdə tutan, bu məqsədlə müxtəlif təlim, seminar və konfranslar təşkil edəcək bir platformadır. Təlimlər cari ilin dekabr ayından başlamaqla 2024-cü ilin aprel ayına qədər davam edəcək. Ayda iki dəfə olmaqla ümumilikdə layihə ərzində 9 mövzu onlayn formatda tədris olunacaq. Layihədə iştirak etmiş və “Diaspor Akadamiyası”ndan məzun olmuş şəxslər yekunda sertifikat əldə edəcəklər.
- Yeni tədris ilinin başlaması münasibətilə İstanbul şəhərində yaşayan aztəminatlı soydaşlarımızın 300 övladına məktəbli dəsti təqdim edilib. Komitənin dəstəyi və Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) təşkilatçılığı ilə baş tutan mərasimdə Türkiyə ictimaiyyətinin nümayəndələri, valideynlər və uşaqlar iştirak ediblər. Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, TADEF İdarə heyətinin sədri Ədalət Turan və sədr müavini Pərviz Məmmədzadə məktəbliləri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib və onlara yeni dərs ilində müvəffəqiyyətlər arzulayıb. Valideynlər övladlarına göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə təşəkkür ediblər.
- 18 dekabr tarixində “Azərbaycan Diaspor Könüllüləri” Proqramı çərçivəsində “Uğurlu karyera könüllülükdən başlayır” mövzusunda təlim keçirilib. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin gənclərlə iş şöbəsinin baş məsləhətçisi, təlimçi Mahmud Məmmədzadə 50-ə yaxın gəncin qatıldığı təlimdə effektiv karyera planlamasının yolları

haqqında geniş məlumat verib və zəngin təcrübəsini bölüşüb. Uğurlu müsahibənin yolları ilə bağlı vacib məqamlar da gənclərin diqqətinə çatdırılıb. İştirakçılar interaktiv şəkildə verilən sualları cavablandırıb və müxtəlif qruplar üzrə tapşırıqları yerinə yetiriblər.

- 12 dekabr tarixində Komitənin, Azərbaycan Diasporuna Dəstək Fondunun əməkdaşları və diaspor təşkilatlarının fəalları üçün “Korrupsiya qarşı mübarizənin gücləndirilməsi” mövzusunda onlayn təlim keçirilib. Onlayn görüşdə çıxış edən “Konstitusiya” Araşdırmaları Fondunun prezidenti, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın sədri Əliməmməd Nuriyev diaspor təşkilatlarının şəffaflığın təmin olunması sahəsində fəaliyyətini yüksək qiymətləndirib və bu sahədə həyata keçirilən çoxsaylı layihələr haqqında danışıb. Videogörüşdə korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin tələbləri, müəyyən edilmiş daxili standartlar və bunları rəhbər tutaraq şəffaflığın təmin olunması ilə bağlı ətraflı məlumat verilib, Komitə və diaspor təşkilatlarının vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının bundan sonra da uğurla davam edəcəyi vurğulanıb.
- 10 dekabr 2023-cü il tarixli müqavilə əsasında Azərbaycan və Cənubi Azərbaycan həqiqətlərinin Kanada və dünya ictimaiyyətinin diqqətinə çatdırılması, Kanadada yaşayan Cənubi azərbaycanlılar arasında milli-mənəvi dəyərlərin təbliği, birlik bağlarının, vətənpərvərlik ruhunun gücləndirilməsi və milli kimlik şüurunun formalaşdırılması məqsədilə “Azerbaijan Post” qəzeti ilə əməkdaşlıq müqaviləsi bağlanıb.
- Cənubi Azərbaycana və orada öz ana dilində təhsil almaq hüququndan, milli-mənəvi və mədəni dəyərlərini qoruyub saxlamaq imkanlarından məhrum olmuş soydaşlarımıza münasibətdə Azərbaycan Respublikasının müsbət məram və niyyətlərindən doğan siyasətindən ilhamlanaraq İsveçdə uzun müddət bu istiqamətdə həyata keçirmiş olduğu fəaliyyəti daha yüksək səviyyədə təşkil etmək, hazırkı şəraitdə Azərbaycan Respublikasının Cənubi Azərbaycan konsepsiyasının formalaşması, zənginləşməsi və həyata keçirilməsi işində iştirak etmək niyyətini ortaya qoyan “Tribun” jurnalının növbəti 11 və 12-ci saylarının buraxılışına müvafiq maliyyə dəstəyi göstərilib.
- İlk sayı 21.04.1979-cu il tarixində Tehranda mərhum Dr. Cavad Heyətin redaktorluğu ilə Azərbaycan və fars dillərində nəşrə başlayan və 2014-cü ilə kimi fəaliyyət göstərən, öz yazıları ilə Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycan xalqının yanında olan, onu müdafiə edən, bütün millətlər, xalqlar arasında dostluq və bərabərliyi təbliğ edən “Varlıq” jurnalı 2015-ci ildən Türkiyənin Ankara Universitetinin müəllimi, türkoloq Rza Heyətin (Cavad Heyətin qardaşı oğlu) baş redaktorluğu ilə onun şəxsi vəsaiti hesabına nəşrini davam etdirməkdədir. 6 dekabr 2023-cü ildə imzalanmış müqaviləyə əsasən, Komitə “Varlıq” jurnalının nəşrinə maliyyə dəstəyi göstərəcək.
- 12 dekabr 1945-ci il tarixində Güney Azərbaycanda S.C.Pişəvərinin başçılığı altında yaradılmış Milli Hökümətin 78-ci ildönümü və “Tribun” dərgisinin yeni saylarının (7,8, 9 və 10) təqdimatı məqsədilə Stokholmda 16-17 dekabr tarixlərində müxtəlif ölkələrdən dəvət edilmiş milli fəalların (60-100 nəfər civarında) iştirakı ilə seminarın keçirilməsinə müvafiq maliyyə dəstəyi göstərilib.
- Ukraynanın Lvov şəhərinin mərkəzində yerləşən məşhur Liçakov qəbiristanlığında dəfn olunan çar ordusunun generalı, alim, dövlət xadimi, Azərbaycan polisinin banisi və islahatçısı, ADR Daxili İşlər nazirinin müavini olmuş Məhəmməd Sadıq Ağabəyzadənin qəbrinin Lvovdakı Azərbaycan diasporu vasitəsilə abadlaşdırılması məqsədilə onun

qəbrinə baxış keçirilməsi və nəticənin təqdim edilməsi barədə müvafiq müraciət hazırlanaraq təqdim edilib.

– Güney Azərbaycan və dünya azərbaycanlılarının çoxsaylı toplum halında yaşadığı ölkələrdə milli dilin statusunu qorumaq, xüsusən də Güney Azərbaycanda yaşayan soydaşlarımızın öz ana dilini qoruyub saxlamaq məqsədilə “Oxucan” maarifləndirmə layihəsi çərçivəsində tətbiq formatında Azərbaycan dili və əlifbası, o cümlədən kitablar hazırlanaraq müxtəlif onlayn platformalara (Google Play və CafeBazar) yerləşdirilib. Layihənin növbəti mərhələsində əlifbanın 16 hərfi ilə bağlı məlumat və oyunları ehtiva edən "Oxucan Əlifba" tətbiqinin ilk iOS versiyası hazırlanaraq "App Store"-a yüklənəcək və sosial şəbəkələrdə təbliğ olunacaq. Bununla yanaşı, "Kitabxanam" tətbiqi də yenilənərək, daha 6 kitab əlavə olunacaq. 18 dekabr 2023-cü il tarixli müqaviləyə əsasən növbəti mərhələnin həyata keçirilməsi üçün müvafiq maliyyə dəstəyi göstərilib.

## AZƏRBAYCAN DİASPORUNA DƏSTƏK FONDUNUN FƏALİYYƏTİ

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondunun ümumilikdə 136 məktub ünvanlanıb. Bunlardan 87-si təşkilat, 49-u vətəndaş tərəfindən göndərilib. 145 məktub Fond tərəfindən göndərilib, 95 sərəncam verilib. Eyni zamanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 275 s nömrəli 14 mart 2023-cü il tarixli Sərəncamı əsasasən (xaricdə yaşayan aztəminatlı azərbaycanlılara, o cümlədən Türkiyədə zəlzələdən əziyyət çəkmiş şəxslərə sosial yardım göstərilməsi) cənazənin gətirilməsi üçün 11 sərəncam imzalanıb. Müraciətlərdən 2 nəfərin Vətənə gəlməsinə, 1 nəfər aztəminatlı gəncin təhsil haqqının ödənilməsi üçün, həmçinin şəhid və qazi ailələrinə də Fond tərəfindən dəstək göstərilib. Xaricdə təhsil alan şəhid övladının təhsil haqqının 1 qisminin ödənilməsinə dəstək göstərilib, 2 nəfərin nəqliyyat və digər xərclərinin qarşılanması barədə sərəncam verilib. Həmçinin ali təhsil müəssisələrinə yüksək balla daxil olan şəhid övladlarına Fond tərəfindən maddi dəstək göstərilib. Türkiyənin Kahramanmaraş bölgəsində baş verən zəlzələ nəticəsində zərərçəkənlərə kömək məqsədilə Fond tərəfindən dəstək göstərilib. Eyni zamanda zəlzələ nəticəsində zərərçəkmiş 2 nəfər azərbaycanlı vətəndaşa müvafiq yardım edilib. Təhsil ilinin başlanması nəticəsində Azərbaycanda bu il 1-ci sinifə gedən yəhudi uşaqlara və şəhid övladlarına məktəbli dəsti hədiyyə edilib. Fondun elektron sistemində 158 təşkilat və 217 fiziki şəxs qeydiyyatdan keçib.

İl ərzində layihələrin qeydiyyat sisteminə 35 müraciət - 9-u təşkilatlardan, 26-sı isə fərdi (xaricdə yaşayan azərbaycanlılardan) müraciətlər olub. Cari ildə Fondun Müşahidə Şurasının 4 iclası keçirilib. Müşahidə Şurasının iclaslarında 34 layihə təklifinə baxılıb, 13 layihənin Fond tərəfindən maliyyələşməsinə müsbət, 21-i layihənin isə maliyyələşməsindən imtina edilməsi barədə qərar verilib.




ADDF


MOTHERLAND

















Azərbaycan Diasporuna Dəstək Fondu cari ildən “Diaspor Akademiyası” adlı yeni layihənin icrasına başlayıb. “Diaspor Akademiyası” diaspor fəaliyyətinin nəzəri və praktiki aspektlərini diaspor nümayəndələrinə aşılamağı nəzərdə tutan, bu məqsədlə müxtəlif təlim, seminar və konfranslar təşkil edəcək bir platformadır. Layihənin əsas məqsədi diaspor nümayəndələrini səmərəli diaspor fəaliyyətinə hazırlamaq, fandreyzinq alətlərinə yiyələnmələrinə kömək göstərmək, diaspor nümayəndələrindən öyrəndiklərini və təcrübələrini yaşadıqları ölkələrdəki Azərbaycan diasporunun digər nümayəndələrinə ötürə biləcək kadrlar hazırlamaqdır. Sözügedən məqsədlərə çatmaq üçün layihə çərçivəsində mövzulara uyğun olaraq müxtəlif ekspertləri tədris prosesinə cəlb etməklə, onlayn formatda təlim və seminarlar təşkil ediləcək.

Təlimlər cari ilin dekabr ayından başlamaqla 2024-cü ilin aprel ayına qədər davam edəcək. Ayda iki dəfə olmaqla ümumilikdə layihə ərzində 9 mövzu onlayn formatda tədris olunacaq. Layihədə iştirak etmiş və “Diaspor Akadamiyası”ndan məzun olmuş şəxslər yekunda sertfikat əldə edəcəklər.


DİLQƏM ƏHMƏD
TÜRKİYƏDƏKİ
AZƏRBAYCAN
CƏMİYYƏTLƏRİ
(1920-1991-ci illər)
ADDF
CAPAR


DİLQƏM ƏHMƏD
TÜRKİYƏDƏKİ
AZƏRBAYCAN
CƏMİYYƏTLƏRİ
(1920-1991-ci illər)
ADDF


FSAD
Fund for Support to
Azerbaijani Diaspora
Natavan
Society
SYN
Příběh o zmizení jednoho muže
a hledání pravdy jeho rodiny.
Datum: 28.11.2023
Čas: 18:00
dres: Cinema City
Příkopě 22, Praha
a Karan Singh film